AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
İQTİSADİYYAT İNSTİTUTU

ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

# İQTİSADİ ARTIM VƏ İCTİMAİ RİFAH

ELMİ JURNAL

2025, №1

**JOURNAL OF ECONOMIC GROWTH AND SOCIAL WELFARE**

*Jurnalın indeksləmməsi / Indexed by*

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası

ICI World of Journals

Internet Archive

ROAD Directory of Open Access Scholarly Resources

Academia.edu share research

calaméo

doi

SCRIBD

Academic Resource Index ResearchBib

**İQTİSADİ ARTIM və İCTİMAİ RİFAH**
Elmi jurnal. 2011-ci ildən nəşr edilir.
ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr № 3402

"İqtisadi Artım və İctimai Rifah" jurnalı iqtisadiyyat sahəsində elmi-nəzəri məqalələrin, araşdırma materiallarının müasir dövrün tələblərinə uyğun formatda nəşrini həyata keçirir. Jurnalda Azərbaycanda və dünyada mikroiqtisadiyyat, makroiqtisadiyyat, iqtisadi siyasət, regionların sosial-iqtisadi inkişafı, ətraf mühitin iqtisadiyyatı, aqrar iqtisadiyyat, bank işi, vergi, audit, menecment, marketinq, mühasibat uçotu, gömrük və digər iqtisadi məsələlər elmi-nəzəri baxımdan təhlilə cəlb olunur. Azərbaycanın, eləcə də dünyanın aparıcı iqtisadçı alimlərinin elmi nəzəriyyələrinə, bu nəzəriyyələrin həyatımızın müxtəlif sahələrinə tətbiqinin fundamental nəticələrinə, təklif və tövsiyələrinə geniş yer verilir. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində, ildə 4 dəfə dərc olunur. Jurnalda müəlliflərin şəxsi maraqlarını əks etdirən, elmi- nəzəri, praktik nəticəsi olmayan məqalələr qəbul edilmir. Jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.

© 2025 İqtisadi Artım və İctimai Rifah

**ECONOMIC GROWTH and SOCIAL WELFARE**
Scientific journal. This journal has been published since 2011.
ISSN 2707-9309 (Print)
ISSN 2707-9317 (Online)

The journal is included in the register of publications in the Ministry of Justice of the Republic of Azerbaijan. Register № 3402

Journal of “Economic Growth and Social Welfare” publishes scientific and theoretical articles, research materials in the field of economics in a format in accordance with modern requirements. The journal analyzes microeconomics, macroeconomics, economic policy, socio- economic development of the regions, environmental economics, agrarian economy, banking, taxation, audit, management, marketing, accounting, customs and other economic issues in Azerbaijan and the world from a scientific and theoretical point of view. This journal covers the scientific theories of leading economists of Azerbaijan, as well as the world, the fundamental results, proposals and recommendations for the application of these theories to various areas of our lives. Articles are published in Azerbaijani, Russian, Turkish and English 4 times a year. The journal does not accept articles that reflect the personal interests of the authors and do not have scientific-theoretical or practical results. The journal is one of the scientific publications recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan.

© 2025 Economic Growth and Social Welfare

**Təsisçi**
AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
İQTİSADİYYAT İNSTİTUTU

**Baş redaktor**
Nazim Müzəffərli (İmanov) − iqtisad elmləri doktoru, professor

**Baş redaktorun müavini**

**Məsul katib**
Yunus Sadıqov − iqtisad üzrə fəlsəfə doktoru, dosent

**Redaksiya heyəti**
Abdullayeva R.S. – dosent (Azərbaycan)
Aykaç A.E. − professor (Türkiyə)
Əliyev T.N. – professor (Azərbaycan)
Yüzbaşiyeva G.Z. – professor (Azərbaycan)
Gülalıyev M.G. – dosent (Azərbaycan)
Hacıyev Ş.H. – professor (Azərbaycan)
Hüseynov T.H. – professor (Azərbaycan)
İsmayılov E.M. − professor, Gürcüstan MEA-nın xarici üzvü (Gürcüstan)
Meznik İvan − professor (Çex Respublikası)
Muradov A.N. – dosent (Azərbaycan)
Muradov Ə.C. – professor (Azərbaycan)
Muradov Ş.M. − professor, AMEA-nın müxbir üzvü (Azərbaycan)
Müslümov S.Y. – professor (Azərbaycan)
Novruzov V.T. – professor (Azərbaycan)
Nuriyev Ə.X. − professor, AMEA-nın müxbir üzvü (Azərbaycan)
Pey Chanqhonq − professor (Çin Xalq Respublikası)
Petr Stepanoviç − professor (Ukrayna)
Satıbaldin A.A. – akademik (Qazaxıstan)
Səmədzadə Z.Ə. − akademik, AMEA-nın həqiqi üzvü (Azərbaycan)
Sultanova R.P. – professor (Azərbaycan)
Tsvetkov V.A. – professor, Rusiya EA-nın müxbir üzvü (Rusiya)
Vladimir Papava − akademik (Gürcüstan)

**Dizayner və texniki redaktor:**
İ.f.d., dos. Yunus Sadıqov

Redaksiyanın ünvanı: AZ 1143, Bakı şəhəri, H.Cavid
prospekti, 115 E-mail: econspaper@gmail.com
http://www.economics.org.az

**Founder**
SCİENCE AND EDUCATİON MİNİSTRY OF AZERBAIJAN REPUBLİC
INSTITUTE OF ECONOMICS

**Editor-in-Chief**
Nazim Muzaffarli (Imanov) − doctor of economic sciences, professor

**Deputy Editor-in-Chief**

**Executive Secretary**
Yunus Sadiqov − PhD in Economics, associate professor

**Editorial Board**
Abdullayeva R.S. − associate professor (Azerbaijan)
Aykach A.E. − professor (Turkey)
Aliyev T.N. − professor (Azerbaijan)
Yuzbashiyeva G.Z. – professor (Azerbaijan)
Gulaliyev M.G. − associate professor (Azerbaijan)
Hajiyev S.H. – professor (Azerbaijan)
Huseynov T.H. – professor (Azerbaijan)
Ismayilov E.M.− professor, Foreign Member of the Georgian NAS (Georgia)
Meznik Ivan − professor (Czech Republic)
Muradov A.N. − associate professor (Azerbaijan)
Muradov A.J. – professor (Azerbaijan)
Muradov S.M. − professor, Corresponding member of ANAS (Azerbaijan)
Muslimov S.Y. – professor (Azerbaijan)
Novruzov V.T. – professor (Azerbaijan)
Nuriyev A.K. − professor, Corresponding member of ANAS (Azerbaijan)
Pei Changhong − professor (People's Republic of China)
Petr Stepanovich − professor (Ukraine)
Satibaldin A.A. − academician (Kazakhstan)
Samadzade Z.A. − academician, Full Member of ANAS (Azerbaijan)
Sultanova R.P. – professor (Azerbaijan)
Tsvetkov V.A. – professor, Corresponding member of the Russian AS (Russia)
Vladimir Papava − academician (Georgia)

**Designer and technical editor:** Ph.D in economics,
Assoc. prof. Yunus Sadiqov
Address: 115 H. Javid avenue, Baku, Azerbaijan 1143
E-mail: econspaper@gmail.com
http://www.economics.org.az

# MÜNDƏRİCAT / №1, 2025

**Tofiq Hüseynov**
Azərbaycanda investisiya siyasətinin inkişaf istiqamətləri 10

**Seyfəddin Səməndərov**
Azərbaycan iqtisadi ədəbiyyatlarında iqtisadi artım məsələləri ilə əlaqədar dəyərləndirmələr 24

**Asif Mustafayev**
Korporativ idarəetmədə Blokçeyn texnologiyasının tətbiqi imkanlarının qiymətləndirilməsi 35

**Mətanət Abdalova**
Azərbaycan şəhərlərində İXQ emissiyalarının qiymətləndirilməsi 44

**Rəmzi Abdullayev**
Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsi 53

**Tariyel Qurbanov, Əsmər Sadiqova**
Müasir iqtisadi şəraitdə şirkət daxilində xərclərin azaldılması üsulları 65

**Yunus Sadıqov, Gülay Hüseynova**
Rəqəmsallıq şəraitində vergi yoxlamalarının təkmilləşdirilməsi 75

**Aygün Fətəliyeva**
Kölgə iqtisadiyyatının yaranması üzrə nəzəri baxışların qiymətləndirilməsi 81

**Çingiz İbadov**
"Azərişıq" ASC-nin elektrik paylama şəbəkələrində iqtisadi səmərəliliyin və xidmət keyfiyyətinin yüksəldilməsinin bəzi amilləri 89

**Ədalət Əzizov, Səbinə Həmidova**
Bələdiyyə maliyyəsinin təkmilləşdirilməsində beynəlxalq təcrübədən istifadə imkanları 98

**İntizar Qurbanova**
Ali təhsil məzunlarının işədüzəlmə vəziyyətinin qiymətləndirilməsi 106

**Məzəddin Əyyubov**
Ölkənin milli təsərrüfat sisteminin "kasıbçılıq çevrəsi"ndə
fəaliyyətinin tədqiqatı metodologiyası 114

**Günel Həsənova**
Əhalinin sosial müdafiəsinin maliyyə
mexanizminin təkmilləşdirilməsi 122

**Kəniş Qarayev**
Azərbaycanın ekoloji və iqtisadi hədəflərində
yaşıl maliyyənin əhəmiyyəti 128

**Svetlana Nəcəfli**
Azərbaycan regionlarının tarazlı sosial-iqtisadi
inkişafında sosial sferanın rolu 136

**Nüsrət İbrahimov**
Rəqəmsal transformasiyanın əmək bazarında
yaratdığı əsas problemlərin təhlili 143

**Amin Ağaqulov**
Azərbaycanda biznes mühitinin
inkişafı və qiymətləndirilməsi 151

**Gülşən Bayramova**
Sahibkarlıq: tarixi inkişaf və müasir yanaşmalar 160

**Fehruz Cəbrayılov**
Azərbaycanın inkişafda olan elektron ticarət bazarında
rəqəmsal inam Azərbaycanın elektron ticarət ekosistemində
rəqəmsal inamın qurulması: çağırışlar və həllər 168

**Aynur Nəbizadə**
Dövlət-özəl tərəfdaşlıqların turizm sektoruna təsiri:
infrastruktur, investisiyalar və davamlı inkişaf 175

**Toğrul Məlikzadə**
Azərbaycanda məcmu tələbin stimullaşdırılmasında fiskal
xərclərin rolunun təhlili və qiymətləndirilməsi 185

**Şərafət Gözəlova**
Biznesdə heyətin idarə olunmasının səciyyəvi
cəhətləri və təkmilləşdirilməsi istiqamətləri 193

# CONTENTS / №1, 2025

**Tofig Huseynov**
Development directions of investment policy in Azerbaijan 10

**Seyfaddin Samandarov**
Assessment of the issue of economic growth
in the economic literature of Azerbaijan 24

**Asif Mustafayev**
Assessment of the possibilities of application
of blockchain technology in corporate governance 35

**Metanet Abdalova**
Assessment of greenhouse gas emissions in Azerbaijan cities 44

**Ramzi Abdullayev**
Assessing the role of infrastructure in the sustainable and
competitive development of the agricultural sector 53

**Tariyel Gurbanov, Asmar Sadigova**
Cost reduction methods within the company
in modern economic conditions 65

**Yunus Sadigov, Gulay Huseynova**
Improving tax audits in the context of digitality 75

**Aygun Fataliyeva**
Assessment of theoretical views
on the formation of the shadow economy 81

**Chingiz Ibadov**
Some factors of improving economic efficiency and quality of
service in electricity distribution networks of "Azerishiq" JSC 89

**Adalat Azizov, Sabina Hamidova**
Opportunities for utilizing international experience
in the improvement of municipal finance 98

**Intizar Gurbanova**
Assessment of the level of employment
of higher education graduates 106

**Mazaddin Ayyubov**
Methodology for studying the functioning of the
national economy of a country in the "circle of poverty" 114

**Gunel Hasanova**
Improvement of the financial mechanism
of social protection of the population 122

**Kanish Qarayev**
Importance of green finance in Azerbaijan's
environmental and economic goals 128

**Svetlana Najafli**
The role of the social sphere in the balanced socio-economic
development of the regions of Azerbaijan 136

**Nusret Ibrahimov**
Analysis of the main problems created by
digital transformation in the labor market 143

**Amin Agagulov**
Development and evaluation of the
business environment in Azerbaijan 151

**Gulshan Bayramova**
Entrepreneurship: historical development and modern approaches 160

**Fehruz Jabrayilov**
Digital trust in Azerbaijan's emerging e-commerce
market building digital trust in Azerbaijan's
e-commerce ecosystem: challenges and solutions 168

**Aynur Nabizada**
The impact of public-private partnerships on the tourism sector:
infrastructure, investments and sustainable development 175

**Togrul Melikzade**
Analysis and evaluation of the role of fiscal expenditures
in stimulating aggregate demand in Azerbaijan 185

**Sharafat Gozalova**
Characteristics of personnel management in
business and areas for improvement 193

DOI: https://doi.org/10.36719/2707-9317/05/10-23

# Development directions of investment policy in Azerbaijan

**Tofig Huseynov**
Department head of the Institute of Economics
of the Ministry of Science and Education of the
Republic of Azerbaijan,
Professor, Honored Economist

**Abstract:** The article reflects the features of the investment policy of the Azerbaijani government from the first years of independence to the modern era in stages. It is worth noting that in the first period, state investments were usually directed to the development of production and social infrastructures and the oil sector. State investments in non-oil processing industry and agrarian sectors were considered incompatible with the market economic system. However, in subsequent years, this concept was changed and state investments were made in processing industries and the agrarian industrial complex. The article pays special attention to the use of depreciation allowances as a source of investment and highlights the state policy related to the effective use of public-private partnership.

**Key words:** investment, regions, agroprocessing, non-oil sector, agrarian industry, agriculture

# Azərbaycanda investisiya siyasətinin inkişaf istiqamətləri

**Tofiq Hüseynov**
Azərbaycan Respublikasının əməkdar
iqtisadçısı, iqtisad elmləri doktoru, professor

**Xülasə:** Məqalədə müstəqilliyin ilk illərindən müasir dövrə qədər Azərbaycan hökumətinin investisiya siyasətinin xüsusiyyətləri mərhələlər üzrə əks etdirilmişdir. Diqqətə çatdırılır ki, ilk dövrdə dövlət investisiyaları bir qayda olaraq istehsal və sosial infrastrukturların inkişafına və neft sektoruna istiqamətləndirilmişdir. Qeyri-neft emal sənaye və aqrar sektorlara dövlət investisiyalarının qoyulması bazar iqtisadi sisteminə uyğun olmaması kimi qəbul edilmişdir. Lakin sonrakı illərdə bu konsepsiyaya dəyişiklik edilmiş və dövlət investisiyaları emal sənaye sahələrinə və aqrar sənaye kompleksinədə qoyulmuşdur. Məqalədə amortizasiya ayırmalarından investisiya mənbəi kimi istifadəyə xüsusi yer verilmişdir və dövlət-özəl tərəfdaşlığından səmərəli istifadə ilə bağlı dövlət siyasəti işiqlandırılmışdır.

**Açar sözlər:** investisiya, regionlar, aqroemal, qeyri-neft sektoru, aqrar-sənaye, kənd təsərrüfatı

## Giriş

2005-ci ildə ölkə prezidenti cənab İlham Əliyev demişdir: "Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Buna görə də şəxsən mən hökumətin yeni sənaye sahələrinin yaradılmasına birbaşa müdaxiləsinin tərəfdarı deyiləm.... Ölkənin qeyri-neft sahələri özəl sektor tərəfindən inkişaf etdirilməlidir və biz buna nail olmağa çalışırıq (1, 20.10.2005). 2003-2022-ci illərin informasiyaların araşdırılması göstərmişdir ki, 2003-2005-ci illərdə daxili investisiyaların cəmisi 3 faizi qeyri-neft emal sənayesinə, 1,7 faizi kənd təsərrüfatına qoyulmuşdur. Sonrakı illərdə daxili mənbələr hesabına bu sektorlara investisiya qoyuluşu xeyli artmışdır.

2019-2022-ci illərdə daxili investisiyaların 9,9 faizi qeyri-neft emal sənayesinə, 3,9 faizi kənd təsərrüfatına yatırılmışdır. Burada diqqəti cəlb edən fakt ondan ibarətdir ki, qeyri-neft emal sənayesinə qoyulan investisiyaların ancaq 40 faizi dövlət mülkiyyətinə məxsus olmuşdur. Kənd təsərrüfatına yatırılan incestisiyaların da ancaq 42 faizi dövlətə məxsus olmuşdur. Əvvəlki illərlə müqayisədə bu rəqəmlər xeyli çox olsa da, hesab edirik ki, bu kifayət deyil və onların miqyaslı artırılmasına ciddi ehtiyac vardır.

Müstəqilliyin birinci mərhələsində Azərbaycan hökumətinin investisiya siyasətində dövlət investisiyalarından neft-qaz sektorunda, istehsal və sosial infrastruktur obyektlərinin modernləşdirilməsində iri miqyasda istifadə edilməsi prioritet təşkil etmişdir. Özəlləşdirmə prosesində investisiya müsabiqələrinə üstünlük verilmişdir. Bu dövrdə dövlət investisiyalarından regionların abadlaşdırılmasında istifadə edilmişdir. Dövlət investisiya proqramlarında nəzərdə tutulan investisiyaların 70-80%-dən çoxu nəqliyyat, energetika, kommunal, su təchizatı, meliorasiya, sosial və digər infrastruktur obyektlərinin maliyyələşdirilməsinə istiqamətləndirilmişdir. Azərbaycan hökumətinin investisiya siyasətində qeyri-neft emal sənaye sahələrinin və aqrar sektorun maddi-texniki bazasının yenidən qurulmasının əsasən özəl investisiyaların hesabına həyata keçirilməsi konsepsiyası üstünlük təşkil etmişdir. Dövlət investisiyalarından bu sektorlarda istifadə olunması bazar iqtisadi sisteminin tələblərinə cavab verməyən baxış kimi qiymətləndirilirdi. 2003-2022-ci illəri əhatə edən statistik informasiyaların araşdırılması göstərir ki, 2003-2005-ci illərdə daxili mənbələr hesabına qeyri-neft emal sənayesində əsas kapitala cəmisi 129,5 mln. manat investisiya qoyulmuşdur. Beynəlxalq təcrübə göstərir ki, dövlət xətti ilə yeni müəssisələr və istehsal gücləri yaratmaq, özəl müəssisələrin yenidən qurulmasında dövlətin öz investisiyası ilə iştirakı çox təbii və zəruri hesab edilir.

İqtisadi nəzəriyyə sahibkarlara və dövlətə iqtisadiyyatın hansı sektoruna investisiya yönəldilməsinin seçilməsində çox az kömək edə bilir. Hər ölkə yerli xüsusiyyətlərindən və iqtisadi durumundan asılı olaraq, özünün düzgün investisiya istiqamətlərini müəyyən edir. Bununla da dünya iqitsadi sistemində ölkənin ixtisaslaşmasını müəyyən etmiş olur. İnvestisiya iqtisadi artıma təsir edən

əsas amillərdən biri olduğuna görə, dövlətin investisiya siyasəti məqsədyönlü olmalıdır, yəni mülkiyyət formasından asılı olmayaraq, investisiyanın istiqaməti əvvəlcədən iqtisadi sektorlar və regionlar üzrə dövlət tərəfindən müəyyən edilməlidir. Bu məqsədlə bir suala əsaslandırılmış cavab verilməlidir: Azərbaycan Respublikası yaxın gələcəkdə hansı məhsullar üzrə ixtisaslaşa və dünya iqtisadi sisteminə hansı məhsullarla inteqrasiya edə bilər?

Bazar sistemində dövlətin öz vəsaiti ilə investisiya fəaliyyətində iştirakı ölkənin iqtisadiyyatında yaranmış vəziyyətdən asılı olaraq müxtəlif dövrlərdə müxtəlif formada həyata keçirilir. Bazar iqtisadiyyatlı ölkələrdə dövlət büdcəsindən və büdcədənkənar fondlardan vəsait ayırmaqla, sahə mənsubiyyətindən asılı olmayaraq (infrastruktur, emal sənayesi, aqrar sektor) dövlətin özü investisiya fəaliyyəti göstərir, əsas kapitala xeyli vəsait sərf edir. İnkişaf etmiş ölkələrdə investisiyaların maliyyələşdirilməsi üçün qarışıq maliyyə mənbələrindən (dövlət və özəl) də zəruri hallarda istifadə olunur. Özəl qurumlara dövlətin investisiya yardımı müxtəlif formalarda olur: investisiya proqramlarında dövlətin iştirak etməsi, kredit alınması üçün dövlət zəmanətinin verilməsi. İqtisadi ədəbiyyat təsdiq edir ki, inkişaf etmiş ölkələrdə dövlət öz vəsaitləri ilə sənayenin və kənd təsərrüfatının müasir tələblərə cavab verən istehsal strukturunun formalaşmasında vaxtı ilə fəal iştirak etmişdir. Bazar iqtisadiyyatlı ölkələrdə dövlət investisiyalarından istifadənin geniş beynəlxalq təcrübəsi mövcuddur. Beynəlxalq təcrübə və iqtisadi nəzəriyyə göstərir ki, dövlət investisiyalarından istifadənin istiqamətləri zaman-zaman dəyişilir və ölkədə yaranmış iqtisadi durumdan asılı olaraq müəyyən edilir. Məsələn, XIX-əsrin əvvəllərindən Yaponiyada kapitalist sənayesini yaratmaq üçün kompleks tədbirlər həyata keçirilmiş, o cümlədən dövlət müəssisələrinin tikilməsinə başlanılmışdır. Özəl müəssisələrə subsidiyalar verilmiş və ölkədə yüksək müdafiə rüsumları tətbiq edilmişdir. Bu siyasət XX əsrin 30-cu illərində daha da gücləndirilmişdir. İngiltərədə mövcud qaydaya əsasən dövlət korporasiyasına dövlət tərəfindən verilən kapital dövlətə dividend gətirir. 1950-1960-cı illərdə Türkiyədə Adnan Menderes hökuməti dövründə dövlətin pul vəsaitləri, bir qayda olaraq, kənd təsərrüfatına yönəldildi. 1960-1970-ci illərdə Cənubi Koreyada iqtisadiyyata kapital qoyuluşunun ümumi həcmində dövlət bölməsinin payı 90%-ə çatmışdı. Burada Çin iqtisadi islahatlarının görkəmli arxitektoru DEN Syaopinin bir kəlamını diqqətə çatdırmaq istəyirəm. O, demişdir: "Правильной считать только такую политику, которая обеспечивает экономическую эффективность, и что "неважно какого цвета кошка, лишь бы она сумела ловить мышей".

Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında ölkə başçısı demişdir: "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır... dövlət investisiyalarını da bizim üçün strateji əhəmiyyət daşıyan sənaye sahələrinə cəlb etməliyik. Azərbaycan İnvestisiya Şirkəti, əlbəttə ki, bu işlərin böyük hissəsini öz üzərinə götürməlidir.." ("1", 09.10.2014).

İqtisadiyyatın şaxələndirilməsi barədə ölkə prezidentinin qarşıya qoyduğu vəzifəni vaxtında və bütünlükdə yerinə yetirmək, habelə Azərbaycanın inkişafın industrial mərhələsini uğurla başa vurmasını təmin etmək üçün qeyri-neft emal sənayesinin və aqrar-sənaye kompleksinin inkişafı proqramlarının investiya təminatına yenidən baxılması və bu sahələrdə dövlət investisiyalarından istifadənin genişləndirilməsi zərurəti meydana çıxmışdır. Bu məqsədlə 2006-cı ildə dövlət statuslu Azərbaycan İnvestisiya Şirkəti yaradıldı. Açıq səhmdar cəmiyyəti statusunda fəaliyyət göstərən şirkətin 20 mln. manatlıq nizamnamə kapitalı Dövlət Neft Fondunun pul vəsaitlərindən formalaşdırıldı. "Azərbaycan İnvestisiya Şirkəti"nin yaradılmasından sonra emal sənayesində dövlət investisiyalarından istifadə xeyli genişləndirildi. Bu da dövlətin investisiya siyasətində müsbət dəyişiklik kimi qiymətləndirildi. Əlbəttə, mahiyyət etibarı ilə bu, düzgün konsepsiyadır. Gələcəkdə, iqtisadi inkişafımızın hansısa mərhələsində belə də olacaqdır. Ancaq sonrakı illərdə həyatın özü bu konsepsiyaya dəyişiklik edilməsinin zəruriliyini təsdiqlədi. İnvestisiya fəaliyyətində dövlətin birbaşa iştirakı ilə bağlı müsbət qərarın şahidi olduq. 2011-ci ildə dövlət büdcəsindən Sumqayıt şəhərində kübrə zavodunun tikintisinə birbaşa investisiya ayrıldı. Bu addım məni bir mütəxəssis və vətəndaş kimi çox sevindirdi. Çünki hələ 2002-ci ildə dərc edilmiş elmi məqaləmdə dövlət investisiyalarından qeyri-neft emal sənayesində və aqrar sektorda geniş miqyasda istifadə edilməsinin zəruriliyini ön plana çəkmişəm və əsaslandırmışam. Nəticədə 2006-2011-ci illərdə bütünlükdə daxili mənbələr hesabına qeyri-neft emal sənayesində əsas kapitala investisiyalar 2217,5 mln. manat, 2019-2022-ci

illərdə 5102 mln. manat investisiya yönəldilmişdir. Burada diqqəti cəlb edən fakt ondan ibarətdir ki, 2019-2022-ci illərdə qeyri-neft emal sənayesinə qoyulan daxili investisiyanın ancaq 40 faizi dövlət mülkiyyətinə məxsus olmuşdur. 60 faizi qeyri-dövlət təsərrüfat subyektlərinə məxsus olmuşdur. Bu dövrdə dövlət investisiyalarının da 98 faizi əsasən kimya sənayesinə və neft məhsullarının istehsalına yönəldilmişdir. 2019-2022-ci illərdə kənd təsərrüfatında 2040,1 mln. manat həcmində investisiya istifadə edilmişdir. Onun 98 faizi daxili, 2 faizi xarici mənbələr hesabına formalaşmışdır. Bu sektorda daxili investisiyaların da 58,1 faizi qeyri-dövlət investisiyaları olmuşdur. Əvvəlki illərlə müqayisədə bu rəqəm xeyli çox olsa da, hesab edirik ki, bu, kifayət deyil. Onu da qeyd edək ki, hal-hazırda kənd təsərrüfatının investisiya təminatında onun özünün resursları əhəmiyyətli rol oynaya bilər. Ancaq aqrar sektor 2001-ci ildən vergilərdən qeyd-şərtsiz azad edilmişdir. Beynəlxalq təcrübədən və iqtisadi nəzəriyyənin tövsiyyələrindən fərqli olaraq, bu güzəştin verilməsi investisiya qoyuluşu ilə şərtlənməmişdir. Bu da ilk növbədə onun özünün investisiya təminatına mənfi təsir edir. Fikrimizcə, bu güzəşt strateji xarakterli kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan iri istehsalçılarına və kooperativlərə, özü də müəyyən müddətə elə şərtlə verilməlidir ki, onlar güzəştdən əldə etdikləri maliyyə vəsaitlərini investisiya kimi təsərrüfatlarda istifadə etsinlər. Bu tədbir sahənin investisiya təminatını əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. Bu sektorda innovasiyaların tətbiqi, müasir suvarma sistemlərinin təşkili məqsədilə dövlət tərəfindən səhmdar cəmiyyət və ya məhdud məsuliyyətli cəmiyyət statusunda kooperativlər yaradılmalıdır.

Hökumətin investisiya siyasətində bir yenilik də Neft Fondunun vəsaitlərindən xüsusi mexanizm vasitəsi ilə neft kəmərlərinin çəkilişində, "Şahdəniz" yatağının istismarında, və Qəbələ-Bakı su kəmərinin tikintisində istifadə edilməsinə icazə verilmiş olmuşdur. Bu mexanizmi aqrar-sənaye kompleksinin klaster əsasında inkişafına və kənd təsərrüfatı kooperativlərinə də şamil edilməsi məqsədəuyğun olardı.

Hal-hazırda Azərbaycanda dövlətin investisiya siyasətinin əsas məqsədi ölkənin davamlı iqtisadi artımını, yeni iş yerlərinin yaradılmasını, regionlar səviyyəsində sənaye və kənd təsərrüfatında yeni texnologiyalar əsasında dərin struktur dəyişikliklərə və tarazlı inkişafa nail olunmasını, işğaldan azad edilmiş regionların bərpasını iqtisadi sistemdə mövcud olan digər problemlərin aradan qaldırılmasını təmin etməkdir. Bu siyasətin reallaşması nəticəsində 2022-ci ildə 2003-cü illə müqayisədə Azərbaycan dövlətinin investisiyaları 19,6 dəfə artmışdır. 2022-ci ildə ölkə üzrə əsas kapitala investisiyaların 80%-i daxili investisiyaların payına düşmüşdür. 2015-ci ildə daxili investisiyaların 35 faizi dövlət büdcəsi hesabına maliyyələşdirilmişdir. 2019-2022-ci illərdə daxili investisiya məqsədləri üçün dövlət büdcəsinin vəsaitlərindən istifadə 32,4 faiz, 2022-ci ildə 23 faiz təşkil etmişdir.

2005-ci ildən başlayaraq 2012-ci ilə qədər xarici investisiyaların həcmi azalmağa başlamışdır. Sonrakı illərdə xarici investisiyalar artımla inkişaf etmiş və 2019-cu ildə 5672,4 mln. manata qədər və ya 2003-cü ilə nisbətən 9% çox olmuşdur. 2020-ci ildən başlayaraq əsas kapitala xarici investisiyalar azalmışdır. 2022-ci ildə bu göstərici 3622 mln. manat olmaqla, 2019-cu illə müqayisədə 1,6 dəfə az təşkil etmişdir. 2006-2022-ci illərdə xarici investisiyaların 85-93 faizə qədər qeyri-dövlət investisiyaları olmuşdur.

Son illər Azərbaycan dövlətinin investisiya xərcləri əhəmiyyətli dərəcədə artmışdır. 2004-cü ildə ölkə üzrə əsas kapitala daxili investisiyaların 30 faizi Azərbaycan dövlətinə məxsus olmuşdursa, 2022-ci ildə bu göstərici 64% olmuşdur. Bu artım da dövlət müəssisələrinin hesabına baş vermişdir. Daxili investisiyaların 41 faizini onlar təmin etmişlər. 2006-2022-ci illərdə qeyri-dövlət investisiyalarının xüsusi çəkisi 47,4 faizdən 36 faizə qədər azalmışdır. Daxili investisiyaların həcminin və dinamikasının təhlili göstərir ki, 2022-ci ildə 2003-cü illə müqayisədə daxili investisiyalar 11,6 dəfə, o cümlədən dövlət investisiyaları 19,6 dəfə, qeyri-dövlət daxili investisiyaları 6,6 dəfə artmışdır. Bu dövrdə dövlət investisiyaları yerli özəl investisiyalarla müqayisədə daha yüksək templə artmışdır. 2006-2022-ci illərdə dövlət investisiyalarında dövlət müəssisələrinə nisbətən dövlət büdcəsi üstünlük təşkil etmişdir. Yerli özəl investisiyaların həcmi 2006-2010-cu illərdəki 13662 mln. manatdan 2019-2022-ci illərdə 19740 mln. manata qədər artmış, 2022-ci ildə daxili investisiyalarda onların xüsusi çəkisi 36,1faizə qədər yüksəlmişdir.

Bizim fikrimizcə, indiki yaranmış vəziyyətdə Azərbaycanda investisiya siyasətinin əsasında

qeyri-neft emal sənaye sahələrinin və aqrar-sənaye kompleksinin prioritet inkişafı, ləyaqətli məşğulluğun təmin edilməsi, iqtisadi və sosial səmərəliliyin yüksəldilməsi durmalıdır. Nəzərə alınmalıdır ki, Azərbaycanda sənayecə inkişaf etmiş ölkələrə xas olan makroiqtisadi göstəricilərə nail olmaq (iqtisadi və regional tarazlıq, sənayenin emal sahələrinin və xidmət sektorunun yüksək xüsusi çəkisi və s.) məqsəd kimi qarşıya qoyulmuşdur.

Azərbaycan hökuməti Dövlət Neft Fondunun gəlirlərinin müəyyən hissəsini hər il büdcəyə köçürməklə, ondan iqtisadiyyatın qeyri-neft sektoruna və sosial infrastruktur obyektlərinə investisiya kimi istifadə edir. Bundan başqa, bir sifarişçi kimi Dövlət Neft Fondu birbaşa infrastruktur təyinatlı obyektlərin yaradılmasını həyata keçirir. Sahibkarlığa Kömək Milli Fondu, “Azəraqrarkredit” ASC, İpoteka Kredit Fondu, Azərbaycan İnvestisiya Şirkəti tərəfindən iqtisadi inkişafa investisiya yönəldilir.

2023-cü ildə Sahibkarlığın İnkişaf Fondu tərəfindən 3276 sahibkarlara 193,8 mln. manat güzəştli kredit verilmişdir. Bu kreditlərin 55,1 faizi aqrar sektorun, 44,9 faizi müxtəlif sənaye məhsullarının istehsalı, emalı və digər sahələrin ikişafına yönəldilmişdir. Kreditlərin 88,5 faizi regionlarda, 14,5 faizi Bakı və ətraf qəsəbələrdə istifadə edlmişdir (“1”,14.06.2024-cü il). Mərkəzi Bankın özü də birbaşa iri investisiya layihələrinə kredit verir.

Azərbaycan hökuməti düzgün olaraq inkişafın indiki mərhələsində “Azərbaycan İnvestisiya Şirkəti” vasitəsilə neft gəlirlərindən emal sənayesinin prioritet sahələrinin inkişafı üçün investisiya kimi istifadə edilməsini də həyata keçirir. Məqsədəuyğun olar ki, həmin vəsaitlərdən aqrar-sənaye kompleksinin inkişafı üçün də istifadə edilsin. Dövlət vəsaitlərindən prioritet qeyri-neft emal sənayesində və aqrar-sənaye kompleksində investisiya kimi miqyaslı istifadə edilməsi ölkənin tarazlı iqtisadi inkişafını və investisiyaların insan kapitalına yönəldilməsini sürətləndirər.

Dövlət Neft Fondunun vəsaitlərindən bu sahələrdə investisiya kimi istifadə zamanı bir amili nəzərə almaq tələb olunur.

Belə hesab edirik ki, “həzmetmə” göstəricini qeyri-neft məhsullarının ixracı və idxalı arasındakı fərqin səviyyəsində qəbul etmək olar. Məsələn, 2022-ci ildə ölkəyə idxal edilən qeyri-neft məhsulları onların ixracından 4,6 dəfə (13,3 milyard dollar) çox olması o deməkdir ki, makroiqtisadi durumda inflyasiya baxımından fəsadlar törətmədən həmin həcmdə məhsul istehsalını dövlət investisiyaları hesabına istehsal etmək olar. Bunula da ölkənin daxili maliyyə bazarının pul “həzmetmə” qabiliyyətini genişləndirmək mümkün olar. İnformasiya üçün diqqətə çatdırıram ki, 2022-ci ildə 2015-ci ilə nisbətən Azərbaycanda nağd pul aqreqatı ($M_1$) 3,7 dəfə, əsas kapitala daxili inverstisiyalar 1,5 dəfə artmışdır. Ancaq inflyasiya normal səviyyədə qalmışdır. Bu amil ölkənin maliyyə bazarının böyük həcmdə pul vəsaitlərini makroiqtisadi sabitliyi pozmadan “həzmetmə” qabiliyyətidir.

Prezidentin iqtisadi inkişaf proqramının uğurla yerinə yetirilməsi üçün regional sənayenin, xüsusi ilə onun qeyri-neft emal sektorunun, aqroemal sənayesinin surətlə və kompleks inkişafı tələb olunur. Apardığımız təhlillər göstərir ki, 2022-ci ildə qeyri-neft emal sənaye məhsulları istehsalının 63 faizi Bakı şəhərində və Abşeron-Xızı iqtisadi rayonunda istehsal edilmişdir. Bu göstərici Naxçıvan iqtisadi rayonunda 5,3 faiz, Mil-Muğan iqtisadi rayonunda 3,6 faiz, Gəncə-Daşkəsən iqtisadi rayonunda 3,4 faiz, qalan iqtisadi rayonunda 1-2 faiz civarında təşkil etmişdir. 4 regional Dövlət Proqramının qəbul edilməsinə baxmayaraq, regional tarazlı inkişaf təmin edilməmişdir. Bu məqsədə nail olunması böyük həcmdə investisiya tələb edir. Ona görə də indiki mərhələdə dövlət öz maliyyə vəsaitləri ilə təkcə infrastruktur obyektləri yox, qeyri-neft emal sənaye sahələrində və aqrar-sənaye kompleksində, xüsusilə istehlak malları istehsal sahələrində də yeni istehsal gücləri yaratması düzgün olardı. Regionlarda emal sənayesinin və aqrar sektorun inkişafına dövlət investisiyalarının daha da artırılması zəruriyyətini meydana çıxaran amillərdən biri də regionların və orada fəaliyyət göstərən yerli sahibkarların, bir tərəfdən, maliyyə bazasının hələ də zəif olması, digər tərəfdən, həmin sahələrin cəlb ediciliyinin aşağı olmasıdır. Burada ölkə prezidentinin bir göstərişini də xatırlatmaq yerinə düşərdi. Qəbələ rayonunda olarkən cənab prezident İlham Əliyev demişdir: “Xarici investor onu maraqlandıran sahələrə investisiyalar qoyur. Bu da təbiidir. Amma elə sahələr var ki, bizim üçün vacibdir, lakin ora investisiya tapa bilmirik. Ona görə Dövlət İnvestisiya Şirkəti vasitəsilə Azərbaycan hökuməti özü müəyyən edəcək ki, biz bu investisiyaları hansı rayona, hansı sənaye

sahəsinin inkişafına yönəldək" ("1", 03.03.2007). Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə prezidenti demişdir: "…Özəl sektor tərəfindən qoyulan investisiyalar özəl sektorun maraqlarında olan sahələrə yönəldilir. Bəzi hallarda dövlət üçün əhəmiyyətli olan sahələr investisiya almır. Çünki özəl sektor buna maraqlı deyil. Əgər Dövlət İnvestisiya Şirkətinin fəaliyyətində çətinliklər varsa, xaricdən investisiyalar cəlb edə bilmiriksə, lazım deyil, özümüz vəsait qoyaq... ("1", 12.01.2008). Bizim fikrimizcə, dövlətin investisiya xərclərinin istiqamətində dəyişiklik etmək zəruridir. Fakt ondan ibarətdir ki, təkcə 2014-cü ildə kənd yollarının tikintisi ilə bağlı ölkə Prezidenti tərəfindən 44 sərəncam imzalanmış və bu işlərin icrası üçün bütövlükdə 190,4 milyon, o cümlədən, Prezidentin Ehtiyat Fondundan 61,6 milyon manat vəsait ayrılmışdır ("1", 12.02.2015). Bundan sonra ağır sənayeni prioritet inkişaf istiqamətlərindən biri kimi elan edən hökumət bu məqsədlə öz investisiya resurslarından istifadə etməlidir. Hesab edirik ki, 2025-2030-cu illəri əhatə etməklə, ölkədə məhsuldar qüvvələrin inkişafı və yerləşdirilməsi sxeminin hazırlanması və investisiyalara tələbatın müəyyən edilməsi bu məsələyə düzgün aydınlıq gətirər.

Hökumətin iqtisadi siyasətində sahibkarlığın prioritetliyi təsbit olunmuşdur. Ancaq Mərkəzi Bankın və kommersiya banklarının pul-kredit siyasəti sahibkarlığın maliyyə təminatını yetərincə təmin etmir. İqtisad elminin və beynəlxalq təcrübənin əksinə olaraq, kredit faizləri mənfəət normasından bir neçə dəfə yüksəkdir.

İqtisadi siyasətin tərkib hissəsi kimi qeyri-neft emal sənaye sahələrinin və aqrar sektorun miqyaslı və səmərəli inkişafının təmin olunması nəzərdə tutulur. Ancaq müvafiq mərkəzi icra hakimiyyəti orqanları daxili bazarın qorunmasını, ayrı-ayrı mal qrupları üzrə inhisarın aradan qaldırılmasını, topdan və pərakəndə satış qiymətlərinin tənzimlənməsini təmin etmirlər, proqnozlaşdırma və planlaşdırmanın balans metodundan istifadə olunmur. Yaranmış vəziyyəti nəzərə alaraq, ölkə başçısının 27 avqust 2024-cü il tarixli "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə İqtisadiyyat Nazirliyinin yanında Antiihisar və İstehlak bazarına nəzarət Dövlət Xidmətinin əsasında ölkə prezidenti yanında Dövlət Agentliyi yaradıldı. Beləliklə, bu funksiyanı ölkə başçısı öz üzərinə götürmək məcburiyyətində oldu. Ölkənin strateji valyuta ehtiyatlarının müxtəlif valyutalarda saxlanılması ilə yanaşı, onların hesabına ölkə daxilində aqrar sektorun, qeyri-neft emal sənaye sahələrinin, aztəminatlı ailələr üçün mənzil tikintisinin və digər prioritet sektorların inkişafına daha çox vəsait istiqamətləndirilməlidir.

Azərbaycan iqtisadiyyatında xarici investisiyaların vaxtı ilə həlledici üstünlüyü neft strategiyası ilə bağlı olmuşdur. Bu meyl tarixən formalaşmışdır və onu müsbət qiymətləndirirəm. Ancaq gələcəkdə ölkənin iqtisadi təhlükəsizliyi və iqtisadi müstəqilliyi baxımından xarici investisiyaların ölkəyə məhdudiyyətsiz daxil olmasına icazə verilməsini məqbul hesab etmirəm. 2022-ci ildə 2016-cı ilə nisbətən qeydiyyatda olan xarici statistik vahidlərin sayı 2,9 dəfə artaraq 16450-yə çatmışdır. Emal sənayesində bu artım 2,5 dəfəyə çatmışdır. Bundan başqa 3450 qarışıq statistik vahid mövcud olmuşdur. 2022-ci ildə ölkədə istehsal olunan sənaye məhsulunun 73,3 faizi xarici mülkiyyətə məxsus olmuşdur. 2004-2023-cü illərdə iqtisadiyyata bütün maliyyə mənbələrindən qoyulan investisiyaların da 49 faizini xarici investisiyalar təşkil etmişdir. Təxmini hesablamalara görə, son 20 ildə ölkənin ərazisində istifadəyə verilən əsas fondların üçdə biri xaricilərə məxsusdur. Neft-qaz sənayesinin, qara və əlvan metallurgiyanın, xalq istehlakı malları və tikinti materialları istehsalının, ticarət, nəqliyyat infrastrukturunun böyük bir hissəsi xaricilərin əlində cəmlənmişdir. Xarici ölkə alimlərinin tədqiqatları göstərir ki, ölkə iqtisadiyyatına xarici investisiyaların payının 8-12%-dən çox olması ölkənin iqtisadi təhlükəsizliyini təhlükə altına alır. Ona görə də xarici investisiyalara münasibətdə "nə qədər çox olsa, bir o qədər yaxşıdır" prinsipindən imtina edilməsi düzgün olardı. Burada əsas məsələ investisiya siyasətinə, zamanın tələbinə uyğun olaraq, dəyişiklik etmək, xarici investisiyalara məhdudiyyətin qoyulması zəruridir. Bu investisiyalara məhdudiyyətlərin qoyulması iqtisadi təklükəsizlik tədbirlərindən ola bilər. Ölkə iqtisadiyyatının özünün qazandığı gəlirlər onun investisiya təminatının əsasını təşkil edə bilər.

Qeyri-neft emal sənayesi üçün ölkədə əlverişli investisiya mühitinin formalaşdırılması siyasətinin davam etdirilməsi investisiya fəallığının yüksəlməsinə şərait yarada bilir.

20 ildən çoxdur ki, kənd təsərrüfatında vergi güzəştləri tətbiq olunur. Hesab edirəm ki, bu məsələyə yenidən baxmağın vaxtı çatmışdır. Əvvəla, 2000-ci illə müqayisədə 2022-ci ildə bu sektorda təsərrüfat subyektlərinin mənfəəti 7,3 dəfə artaraq 4925 milyon manata çatmışdır. Bu vergi güzəştini, ancaq kooperativlər üçün saxlamaqla, ləğv edilməsinin vaxtı çatmışdır. Kooperativlərin formalaşdırılmasını stimullaşdırmaq məqsədilə dövlətin maliyyə resursları yalnız kooperativlər vasitəsilə aqrar sektora istiqamətləndirilməlidir. Vergi güzəştlərinin koopertivlərə 3-5 il müddətində verilməsi ədalətli olardı. Özü də bu güzəştlərdən əldə edilən qənaətlərin investisiya məqsədləri üçün kooperativdə istifadə olunması qanunvericilik aktlarında nəzərdə tutulmalıdır.

2024-cü ilin əvvəllərində Astarada çayçılığın inkişaf problemləri müzakirə edilmişdir. Problemlərin aşağıdakılardan ibarət olması müəyyən edilmişdir.

- güzəştli kreditlərin əlçatanlığının aşağı olması;
- yaşıl çay yarpaqlarının emal müəssisələri tərəfindən aşağı qiymətə alınması;
- yeni plantasiyaların salınması üçün əkinə yararlı torpaqların azlığı;
- yeni plantasiyaların salınması üçün verilməsi nəzərdə tutulan birdəfəlik subsidiyanın azlığı və s. (“1”, 27.02.2024).

Çayçılığın misalında ictimaiyyət və mütəxəssislər tərəfindən qaldırılan bu problemlər digər bitkiçilik məhsullarına da aiddir. Məsələn, 2022-ci ildə Azərbaycan 14,4 min ton çay, 50,2 min ton düyü, 200 min tona qədər kartof və digər məhsullar idxal etmişdir. Onların idxal dəyəri 1653 milyon dollardan çox olmuşdur. Yerli istehsal hesabına Azərbaycanın ərzaq məhsulları ilə özünütəminat səviyyəsi çox aşağıdır. Məsələn, 2022-ci ildə Dövlətstatkom tərəfindən uçotu aparılan 23 adda sənaye emalından keçmiş ərzaq məhsullarından ancaq 13 faizi (3 növü) üzrə, idxal nəzərə alınmaqla, özünütəminat səviyyəsi yüz faiz olmuşdur.

Bankların investisiya fəallığı zəifdir. Bunun da əsas səbəbi investisiya fəaliyyətində iqtisadi maraqlarının olmamasıdır. Burada qeyd edim ki, Azərbaycanın kommersiya banklarında resurs bazasının kifayət etməməsi nəticəsində kredit faizləri çox yüksəkdir. Reallıq ondan ibarətdir ki, yüksək əmanət və depozit stavkaları ilə banklar müştərilərin sərbəst vəsaitlərini cəlb edir, Mərkəzi Bankın ayırdığı kredit resursu çox azdır, nəhayət, əmanət, depozit və kredit stavkaları dövlət tərəfindən tənzimlənmir. Bu da ölkə iqtisadiyyatının kreditləşdirilməsini lazımi səviyyədə təmin etmək üçün maddi şərait yaratmır. Təkcə onu da qeyd edim ki, 2022-ci ildə əsas kapitala investisiyaların ancaq 2,8 faizi bank kreditləri hesabına maliyyələşdirilmişdir.

İstehsalın sahə və regional struktur dəyişikliklərinin miqyaslı həcmdə təmin edilməsi iri miqyaslı investisiya ilə bağlıdır. İndiki mərhələdə bu struktur dəyişikliklərində özəl qurumlarla yanaşı, dövlətin bir investor kimi iştirakı zəruridir. Bu, təkcə Respublika üzrə iqtisadi artımın təmin olunması zərurətindən irəli gəlmir. Azərbaycanın regionlarında yeni iş yerləri yaradılmalıdır ki, şəhərlərə əhali axını aşağı düşsün. Burada ölkə prezidentinin bir kəlamını diqqətə çatdırmağı vacib hesab edirəm. 2023-cü ilin sentyabr ayında Zəngilan rayonunda çıxışında ölkə prezidenti demişdir: “insanlar bölgələrdən, kəndlərdən şəhərə can atır. Çünki şəhərdə daha çox iş yerləri, məşğulluq imkanları var və özləri üçün daha yaxşı şərait yaratmaq istəyirlər”. Dövlət statistikası göstərir ki, 2023-cü ildə 1999-cü ilə nisbətən əhali artımının 70 faizi məhz şəhərlərin payına düşür. Kənd əhalisinin xüsusi çəkisi 1999-cu ildəki 50 faizdən 2023-cü ildə 31 faizə qədər azalmışdır. 2023-cü ildə əhalinin ümumi sayında şəhər əhalisinin xüsusi çəkisi 54,6, kənd əhalisnin xüsusi çəkisi 45,4 faiz təşkil etmişdir.

Ölkənin sənaye sektorunda ən çox əmək tutumlu sahə hesab olunan emal sənayesinin regional inkişaf vəziyyətini heç də müsbət qiymətləndirmək mümkün deyil. Belə ki, 2022-ci ildə emal sənaye məhsulunun 77,2 faizi 2 regionda Bakı şəhərində (54,4 faiz) və Abşeron-Xızı iqtisadi rayonunda (22,8 faiz) istehsal edilmişdir. Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran və Dağlıq Şirvan iqtisadi rayonlarında bu göstərici 0,4-1,7 faiz civarında formalaşmışdır. Ölkə əhalisinin üçdə birindən çoxu (31,4 faiz) yaşayan bu regionlarda emal sənaye məhsulunun 6 faizə qədəri istehsal edilmişdir.

Dövlət investisiya resurslarının kifayət qədər mövcud olduğu bir şəraitdə sənayenin qeyri-neft emal sahələrinin və aqrar-sənaye kompleksinin dövlət vəsatləri hesabına birbaşa inkişaf etdirilməsini dövlətin investisiya siyasətinə daxil edilməsi zərurətini yaradır. Bizim fikrimizcə, göstərilən sahələrdə

ancaq dövlət investisiyalarını genişləndirmək hesabına mövcud sosial-iqtisadi problemləri yaxın gələcəkdə çözmək mümkündür. İnkişaf etmiş ölkə meyarlarına uyğun olaraq iqtisadiyyatın diversifikasiyası, əmtəə, əmək və kapital bazarlarında, regionlarda yaxın gələcəkdə tarazlığın təmin olunması tələb edir ki, dövlət investisiyaları ölkə sənayesinin prioritet qeyri-neft emal sektoruna və aqrar-sənaye kompleksinə böyük həcmdə birbaşa istiqamətləndirilsin. İqtisadiyyatın bu iki mühüm, çox vacib sektorlarında investisiya qoyuluşunun hələ ki, azlığını statistik informasiyalar da bir daha sübut edir. Belə ki, 2019-2022-ci illərdə əsas kapitala daxili investisiyaların 3,9 faizi, xarici investisiyaların 0,3 faizi kənd təsərrüfatına qoyulmuşdur. Belə vəziyyət qeyri-neft emal sənaye sahələrində də yaranmışdır.

Azərbaycanın investisiya siyasətini müəyyən edən əsas amillərdən biri də onun əhalisinin tərkibində uşaqların və gənclərin, ümumiyyətlə əmək qabiliyyətli yaşda olanların (2023-cü il, 68,4%) üstünlük təşkil etməsi, sosial müavinət alanların və təqaüdçülərin sayının çox olmasıdır. Dövlət tərəfindən onların sosial təminatları genişləndirilir və dövlət büdcəsindən bu məqsədlə ayrılan xərclər artırılır. Dövlət büdcəsindən sosial xərclərin artırılması ilə yanaşı investisiya xərcləri də genişləndirilir və yeni iş yerləri yaradılır. İndiki mərhələdə dövlətin investisiya siyasətində təsərrüfat subyektlərinin daxili investisiya resurslarından tam istifadə edilməsinin, investisiya məqsədilə kreditə əlçatanlığın dövlət idarəetməsinin gücləndirilməsinin və əhalinin şəxsi vəsaitlərinin investisiyaya çevrilməsinin stimullaşdırmasının öncül yer tutması lazımdır.

Hazırda biznes mühitinin yaxşılaşdırılması, yeni müəssisələrin yaradılmasının dəstəklənməsi, eyni zamanda qeyri-neft sənayesində istehsalın artırılması üçün investisiya təşviqi mexanizmindən geniş istifadə edilir.

Ölkədə investisiyaların cəlb edilməsi və təşviqi istiqamətində həyata keçirilən siyasət davam edir. Bu məqsədlə dövlət başçısı 18 yanvar 2016-cı ildə "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" fərman da imzalamışdır. Məqsəd xarici və yerli investisiyaların cəlb edilməsi, sənaye istehsalının artırılması kimi mühüm strateji hədəflərə çatmaqdır. 2016-cı il 20 aprel tarixli Azərbaycan Resbublikası Prezidentinin fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qayda"sı təsdiq edilmişdir. Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş meyarlara uyğun hazırlanmış investisiya layıhələri müvafiq qaydada baxılmaqla, İqtisadiyyat Nazirliyi tərəfindən investora "İnvestisiya təşviqi sənədi" adlı sənəd verilir. Bu, qeyri-neft emal sektoruna investiyaların artırılmasına, yeni iş yerlərinin açılmasına əlverişli zəmin yaratmaqla yanaşı, sahibkarlığın inkişafına əhəmiyyətli töhfə verir. Həmin sənədi alan sahibkarlar Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda nəzərdə tutulan güzəştlərdən istifadə etmək hüququ qazanır. Bununla onlar mənfəət və gəlir vergisinin 50 faizindən, əmlak və torpaq vergisi, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə ƏDV-dən və 7 il müddətində idxal rüsümlarını ödəməkdən azad olunurlar.

Sahibkarlıq subyektlərinə investisiya təşviqi sənədi verilməsi nəticəsində yerli istehsala investisiya yatırılır, ölkədə əlavə iş yeri açılır. Belə layihələrin icrasının coğrafiyası genişlənir. 2020-ci ilə qədər təşviq sənədi verilmiş layihələrin 87%-i reğionlarda həyata keçirilmişdir. Bütün bunlar ölkənin ümumi inkişafına yönəldilən siyasətin hədəfidir.

Ən çox investisiya təşviqi sənədi intensiv bağçılıq, bostançılıq, çayçılıq, qida məhsullarının, rezin və plastmas məmulatların istehsalı sahələrində reallaşdırılır. İnvestisiya təşviqində aqrar sektora da xüsusi önəm verilir. Bunun nəticəsidir ki, reallaşdırılan layihələrdən 70-i birbaşa kənd təsərrüfatına məxsusdur.

Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 2022-ci il tarixli Fərmanı ilə "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, ərazilər və zonalar, habelə investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ" təsdiq edilmişdir. Bu fərman emal sənaye sektoruna, turizm və bir neçə digər sahələrə, habelə Bakı, Sumqayıt və Gəncə şəhərləri, Abşeron rayonu və işğaldan azad edilmiş ərazilər istisna olmaqla, digər şəhər və rayonlara şamil edilir. İnvestisiya layihələrinin minimal həcmi 0,5-1 milyon manat müəyyən edilmişdir. Bu fərmanla investisya təşviqi sənədinin 2023-cü ilin yanvarın 1-dən 3 il ərzində verilir.

Ölkə başçısının 2024-cü il 1 fevral tarixli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nıdə emal snayesinə aid bir çox layihələrdə nəzərdə tutulmuşdur. Onlardan yerli xammal bazasına (metal filizi, neft, qaz, kimya,

tikinti materialları və pambıq sahələri) əsaslanan layihələr, özəl sənaye məhəllələrinin yaradılması, idxalın əvəz edilməsini və qeyri-neft sektorunun idxal potensialının artırılmasını təşviq edən iqtisadi fəaliyyət sahələrinin yaradılması iqtiqamətində həyata keçirilən layihələr və alüminium məhsullarının istehsalı layihələri də vardır.

Qanunvericilik beynəlxalq tələblərə uyğunlaşdırılmış, ölkədə biznes fəaliyyəti asanlaşdırılmış, miqrasiya ilə bağlı köklü islahatlar aparılmışdır. Hazırda Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində sistemli işlər görülür.

Ölkə iqtisadiyyatına investisiyaların cəlb edilməsi məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Hazırda hökumət ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir.

Müxtəlif ölkələrlə ikitərəfli və çoxtərəfli "Vergi qanunvericiliyinə əməl olunması üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında", "Vergi cinayətlərinə qarşı mübarizədə əməkdaşlıq haqqında" və "Əməkdaşlıq haqqında" sazişlər bağlanmışdır.

Yeni salınan sənaye parkları və məhəllərində, aqroparklar və texnoparklarda nəinki yerli biznes, eləcə də xarici sərmayələr üçün əlverişli biznes mühiti yaradılmışdır.

İnvestisiya cəlbediciliyinin təmin olunması məqsədilə yerli və xarici investorlar üçün bir sıra güzəştlər nəzərdə tutulur. Belə ki, sənaye parklarında fəaliyyət göstərəcək sahibkarlar üçün sənaye parkının rezidentləri 7 il müddətinə mənfəət, torpaq, əmlak vergilərindən və parkda istifadə məqsədilə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular ƏDV-dən azad edilmişdir. Bu, baza güzəştləri kimi qəbul edilir və zərurət yaranarsa, güzəştlər paketi daha da genişləndirilə bilər.

Düşünürük ki, büdcəsində kifayət qədər vəsaiti olan hökumət üçün aqrar sektoru inkişaf etdirmək heç də çətin iş deyil. Əsas məsələ, aqrar sektorun vəziyyətini nəzərə almaqla, dövrün tələblərinə uyğun onun institusional idarəetmə sisteminin təkmilləşdirmə istiqamətini müəyyən etməkdir. Bu problemin həlli istiqamətləri barədə fikrimi və tövsiyyələrimi 2022-ci ildə "Azərbaycan" qəzetində (02.09.2022) ətraflı bəyan etmişəm. Burada ancaq onu diqqətə çatdırıram ki, mövcud reallıq kənd təsərrüfatı kooperativlərinə yeni yanaşma tələb edir. Hesab edirəm ki, beynəlxalq təcrübəni nəzərə almaqla, 2016-cı ildə qəbul edilmiş "Kənd Təsərrafatı Kooperasiyası haqqında" qanun yenidən işlənilməli, kooperativləşməni stimullaşdlrmaq məqsədilə güzəştli kreditlər, dövlət investisiyaları, vergi güzəştləri məhz onlara verilməlidir. Emal və ticarət müəssisələri yaradılmalı, əsas kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətləri dövlət tərəfindən tənzimlənməlidir. Bu məsələ ilə bağlı təkcə buğda ilə kifayətlənmək olmaz.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 7 oktyabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi qaydaları"da güzəştli kreditlərin maksimal faiz dərəcəsinin 6 faizədək, kreditlərin maksimal məbləğinin 5 milyon manatadək artırılması iri investisiya layihələrinin maliyyələşdirilməsinin hüquqi bazasını yaratmışdır. Bizim fikrimizcə, Fondun vəsaitlərindən qeyri-neft emal sənaye sahələrində və aqrar-sənaye kompleksində iri obyektlərin maliyyələşdirilməsinə üstünlük verməsinin vaxtı çatmışdır. Bu məqsədlə kreditin verilmə şərtlərinə də dəyişiklik edilməsi lazımdır.

Strateji Yol Xəritəsi üzərində işləmiş ekspertlər Azərbaycanda əsas kapitala investisiyaların həcmində dövlət investisiyalarının üstünlük təşkil etməsini önəmli hesab etməmişlər. Strateji tərəfdaşlar hesabına bu investisiyaların azaldılmasını məqsədəuyğun hesab etmişlər. Bu, yalnış mövqedir. Uzun müddət ərzində apardığımız elmi araşdırmalar göstərir ki, yerli və xarici investorlar kənd təsərrüfatına və sənayenin qeyri-neft emal sahələrinə müxtəlif səbəblərdən investisiya qoymaq-da maraqlı deyillər. Belə ki, 2019-2022-ci illərdə kənd təsərrüfatında xarici investisiyaların 0,3 faizi istifadə edilmişdir. 2019-2022-ci illərdə Azərbaycanın qeyri-neft emal sənayesinə qoyulmuş 884 mln. manat xarici investisiyanın 90 faizə qədəri ancaq rezin və plastik kütlə istehsalına istiqamətləndirilmişdir. Xarici investisiyaların az bir hissəsi də əsasən tikinti materialları istehsalına, qida sənayesinə və kimya sənayesinə yönəldilmişdir. Dövlət investisiyalarından qeyri-neft emal sənayesində istifadənin həcmi də yetərincə deyil. 2019-2022-ci illərdə qeyri-neft emal sənayesinə qoyulan investisiyaların yalnız 40 faizini dövlət investisiyaları təşkil etmişdir. Qeyri-neft emal

sənayesinə qoyulan dövlət investisiyalarında 95 faizi bir sahəyə, kimya sənayesinə yönəldilmişdir. Belə şəraitdə dövlət investisiyalarının azaldılması yox, istiqamətində dəyişikliyin edilməsi zəruridir. Başqa sözlə aqrar və qeyri-neft emal sənaye sektorlarına dövlət investisiyalarının qoyuluşu miqyaslı dərəcədə artırılmalıdır. Hesab edirik ki, maliyyə-sənaye qruplarının yaradılması da məqsədəuyğun olar.

Azərbaycan hökumətinin investisiya siyasətində mühüm dəyişikliklərindən biridə dövlət-özəl sektorlarının birgə partnyorluq sisteminin təşkil edilməsi oldu. 2022-ci ildə “Dövlət-özəl tərəfdaşlığı haqqında” Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 18 mart tarixli qərarı ilə “Dövlət-özəl tərəfdaşlığı qaydaları” təsdiq edilmişdir. Bu qərara görə ehtimal olunan ümumi dəyəri 30 mln. manatdan çox olan layihələr dövlət-özəl tərəfdaşlığı qaydasında həyata keçirilə bilər. Azərbaycanın investisiya siyasətindəki yeniliklərdən biri də özəl müəssisələrə dövlət investisiyalarının qoyulması haqqında qərarın qəbul edilməsidir.

Ölkə prezidentinin sərəncamı ilə 8 dövət müəssisəsinə özəl investisiyaların cəlb edilməsi dövlət-özəl tərəfdaşlığını təşki edir, iqtisadi artımın sürətləndirilməsinə zəmin yaradacaqdır (“1”, 16.03.2024). Yerli və xarici investorlar birgə investisiya qoyuluşu vasitəsilə ölkə iqtisadiyyatının qeyri-neft emal sənaye sektorunun inkişafına dəstək verirlər.

“Tikinti və infrasruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” qanunda nəzərdə tutulmuş “Tik, idarə et, təhvil ver” (TİT) modelinin tətbiqi də sahibkarlar üçün geniş imkan yaradır, ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması baxımından əhəmiyyətlidir. Belə ki, investisiya layihələrini TİT modelinə uyğun həyata keçirən investor dövlət rüsumlarından və yığımlardan azaddır. Bu məqsədlə təqdim olunan layihələr kənd təsərrüfatını, qida sənayesini, tütün məmulatlarının istehsalını, yüngül sənayeni, tikinti materiallarının, rezin və plastmas məmulatlarının, sürtkü yağlarının istehsalı və digər sahələri əhatə edir.

İnvestisiya təşviqi mexanizminin tətbiqi nəticəsində güzəştlərdən əldə edilən vəsaitlərin investisiya kimi istifadə edilməsi təsərrüfat subyektləri qarşısında şərt qoyulmur. Eyni zamanda bu sənədlər əsasında texnikanın, texnoloji avadanlığın və qurğuların güzəştli şərtlərlə idxalı üçün 169 sahibkarlıq subyektinə 744 təsdiqedici sənəd təqdim edilmişdir. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyekti tərəfindən əldə olunan ümumi güzəştin dəyəri 30,5 milyon ABŞ dolları (“1”, 08.08.2017) olmuşdur.

Araşdırmalarımız göstərir ki, Azərbaycan böyuk investisiya resurslarına malikdir. Ancaq bu resursların böyük bir hissəsini xarici investorlar mənimsəyirlər. Bunun da əsas səbəbi təbii sərvətlərin birgə istismarında Hasilatın Pay Bölgüsü müqaviləsindən çox geniş istifadə olunmasıdır. Əsrin müqaviləsindən sonra belə bölgü əsasında neft sektorunda xarici şirkətlərlə daha 32 saziş imzalanmışdır (“1”, 24.04.2014). Təkcə neft sektorunda deyil, dəmir filizi, qızıl, alunit yataqlarının istisması da xarici şirkətlərə belə sazişlə verilir. Qeyd edək ki, maliyyə cəhətdən imkanı olan ölkələr hasilatın pay bölgüsü sazişindən, demək olar ki, istifadə etmirlər. Təbii resursların sahibi olan və maliyyə cəhətdən imkanlı olan ölkələr üçün bu tip sazişlər sərfəli deyil. Hasilatın pay bölgüsünə əsaslanan sazişlər imkan verir ki, xarici kompaniyalar öz maraqlarını milli dövlətlərin maraqlarından üstün tuta bilsinlər. Bu xüsusiyyət bizdə də öz təsdiqini tapmışdır. Hələ 2012-ci ildə ölkə prezidenti bəyan etmişdir ki, “Azəri-Çıraq” yatağının işlənilməsindən başlamış 2012-ci ilin 9 ayı ərzində konsersium 28,7 milyard dollar investisiya qoymuş 73 milyard dollar gəlir (mənfəət) götürmüşdür. Biz Azərbaycan Respublikası Mərkəzi Bankının və Dövlətstatkomun informasiyası əsasında müəyyən etmişik ki, 2010-2015-ci illərdə Azərbaycanın neft-qaz hasilatına və metallurgiya sənayesinə 18,3 milyard dollar həcmində xarici investisiya qoyulmuşdur. Onların müqabilində xarici investorlar ölkədən 42,2 milyard dollar məbləğində gəlirləri və investisiyaları repatriasiya etmişlər, yəni mənsub ölkəyə aparmışlar. Gələcəkdə hasilatın pay bölgüsü sazişlərindən imtina edilməli, “Əsrin Kontraktları” istisna olmaqla, belə prinsiplə bağlanmış müqavilələrin şərtlərinə yenidən baxılmalıdır.

1995-ci ildə qəbul edilmiş “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanununda amortizasiya ayırmalarının investisiya fəaliyyətinin maliyyə mənbələrindən biri kimi nəzərdə tutulmuşdur (Maddə 9). Həmin qanunun 11-ci maddəsində göstərilir ki, amortizasiya siyasəti

investisiya fəaliyyətinin dövlət tənzimləmə vasitələrindən biridir. Ancaq müstəqillik dövründə Azərbaycanda amortizasiya ayırmalarından təyinatı üzrə, yəni ancaq investisiya mənbə kimi istifadəni təmin edən sistem ləğv edilmişdir. İndi amortizasiya ayırmaları mülkiyyət formasından asılı olmayaraq, müəssisələr tərəfindən cari xərcləri üçün istifadə olunur. Vergi Məcəlləsində amortizasiya ayırmaları xərc maddəsi kimi qəbul edilmişdir. Eyni zamanda amortizasiya mənfəəətdən verginin bazasını azaltmaq üçün təsərrüfat subyektlərinin əlində samballı vasitəyə çevrilmişdir. Halbuki Azərbaycanın Toplu Maliyyə Balansında və Milli Hesablarında amortizasiya ayırmaları təsərrüfat subyektlərinin mənfəəti kimi uçota alınır.

Təəssüflə qeyd edim ki, beynəlxalq təcrübəyə və iqtisadi nəzəriyyəyə zidd olaraq, 2022-ci ilin iyul ayında qəbul edilmiş "İnvestisiya fəaliyyəti haqqında" qanunda amortizasiya ayırmalarının investisiyaların maliyyə mənbəyi olması haqqında müddəa nəzərdə tutulmamışdır. Bununla da böyük məbləğdə pul vəsaitindən investisiya kimi məqsədyönlü istifadə edilməsi imkanından Azərbaycan hökuməti məhrum edimişdir. 2022-ci ildə İllik məbləği 5,8 milyard manata çatmış amortizasiya ayırmalarının mənfəətdən vergi bazasına daxil edilməsi, bir tərəfdən, dövlət gəlirlərini artıra, digər tərəfdən, əsas fondların modernizasiyasını sürətləndirə bilər.

Beynəlxalq standartlara görə amortizasiya siyasəti amortizasiya fondunun formalaşdırılmasını və əsas fondların təkrar istehsalını və modernizasiyasını təmin edə bilən məbləğdə vəsaitlərin yığılmasını təmin etməlidir. İnkişaf etmiş ölkələrdə müəssisələrin mənfəətindən vergi və amortizasiya ayırmalarının hesablanmasının norma və metodları vahid sistem halında həyata keçirirlər. Bir qayda olaraq, əsas fondların ancaq aktiv növləri üzrə sürətli amortizasiyaya dövlət icazə verir. Bazar iqtisadiyyatlı ölkələrdə iqtisadi səmərə ön plana keçdiyinə görə qanunvericilik aktlarında nəzərdə tutulur ki, müəssisə əsas fondlardan o vaxta qədər istifadə edə bilər ki, o, müəssisəyə gəlir gətirir. Bu məqsədlə illik amortizasiya normaları əsas vəsaitin sərfəli ömür müddətinə görə təyin edilir.

ABŞ-ın vergi sisteminin investisiya potensialını əsas vəsaitlərin sürətli amortizasiya normalarından istifadə və elmi konstruktor işləmələrinin güzəştli vergi ödənişləri təşkil edir. Bu siyasət, bir tərəfdən, dövlətin investisiya resurslarını artırır, digər tərəfdən, yüksək texnoloji sahələrin inkişafını sürətləndirir.

Yuxarıda deyilənləri nəzərə alaraq, "Amortizasiya ayırmaları haqqında" qanunun qəbul edilməsi və amortizasiya fondunun yaradılması tələb olunur. Onların mənfəətdən vergitutma bazasına aid edilməsi, onlardan hökumətin icazəsi ilə prioritet sahələrdə ancaq investisiya məqsədləri, o cümlədən, innovasiyaların tətbiqi üçün istifadə edilməsi, amortizasiya güzəştləri sisteminin tətbiqi, investisiya kimi istifadə olunan amortizasiya ayırmalarının mənfəət vergisindən azad edilməsi məqsədəuyğundur.

İqtisadi inkişafın investisiya təminatında amortizasiya ayırmalarından təyinatı üzrə istifadə edilməsi əhəmiyyətli rol oynaya bilər. 1995-ci ldə qəbul edilmiş qanuna görə amortizasiya üzrə güzəştlər nəzərdə tutula bilərdi. Bu güzəştlər ayrı-ayrı iqtisadi sahələr, əsas fondların müxtəlif növləri və elementləri üzrə dövlət tərəfindən dəyişkən və fərqli müəyyən edilə bilər. Eyni zamanda müəssisələrin mənfəətindən əsas kapitala reinvestisiya edilməsi ilə bağlı vergidən azadolma barədə Vergi Məcəlləsində əvvəllər nəzərdə tutulan mütərəqqi müddəa ləğv edilmişdir. Xarici ölkələrin amortizasiya sisteminə aid bizim üçün çox dəyərli təcrübəsi vardır.

Hesab edirik ki, investisiya siyasətinə zamanın tələblərinə uyğun olaraq dəyişiklik etmək və daxili investisiyaların stimullaşdırılmasını təmin edən iqtisadi mexanizmləri (vergi güzəştləri, mərkəzləşdirilmiş kredit resursları, uçot dərəcəsi, amortizasiya güzəştləri, kredit dərəcələri və s.) təkmilləşdirməklə tətbiq etmək düzgün olardı. Lakin burada söhbət dövlət investisiyalarının bütövlükdə bütün sahələrdə istifadə olunmasından deyil, hökumət tərəfindən təsdiq edilmiş prioritet sahələrdə və prioritet regionlarda qeyri-neft emal sənayesində və aqrar sektorda istifadəsindən gedir.

2016-cı ildən ölkə başçısı tərəfindən imzalanan fərman və sərəncamlar, qəbul edilmiş digər normativ hüquqi aktlar qeyri-neft məhsullarının istehsalının və ixracının stimullaşdırılmasında, bu sahələrə investisiya yönəldilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Bu sənədlərdə xarici ölkələrə ixrac missiyalarının təşkil edilməsinə, xarici bazarların araşdırılmasına və marketinq fəaliyyətinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlərin alınmasına və digər tədbirlərə çəkilən xərclərin dövlət büdcəsindən maliyyə vəsaiti ayrılması nəzərdə tutulur.

Qeyri-neft emal sənaye sektorunun inkişafına dövlət qayğısının dahada artırılması, sahibkarlığın dəstəklənməsi və inkişafı, onun rəqabətqabiliyyətinin qorunması siyasəti davam etdirilir.

Apardığımız uzunmüddətli araşdırılmalar göstərir ki, Azərbaycan əhalisinin tərkibində əmək qabiliyyətli yaşda olanların  xüsusi çəkisi iqtisadiyyatda məşqul olanların xüsusi çəkisindən 1,5 dəfə yüksəkdir və 71,4% təşkil edir. Bu isə o deməkdir ki, iqtisadiyyatda məşğul olanların sayının əhəmiyyətli dərəcədə artırılması üçün əmək resursu kifayət qədər mövcuddur. Onlardan səmərəli istifadə edilməsi zəruridir. Məhz bu meyl investisiya siyasətinin əsaslandığı güclü amillərdən biri olmalıdır. Burada da həlledici rol emal sənayesinə məxsusdur. Məşğulluğun dövlət siyasəti isə məhz əmək resurslarının ümumi və regional balansı əsasında formalaşdırılmalıdır.

1995-2018-ci illəri əhatə edən dövrdə mövcud olmuş vəziyyətin təhlili və qiymətləndirilməsi göstərmişdir ki, 1995-2003-cü illərdə bütün maliyyə mənbələrindən Azərbaycan iqtisadiyyatına 16456 mln. dollar investisiya qoyulmuşdur. Onun da 75,3 faizi xarici, 24,7 faizi daxili investisiyalar olmuşdur. Sonrakı illərdə hər iki istiqamətdən investisiyaların artımı baş vermişdir. Ancaq ən yüksək artım daxili investisiyalarda müşahidə olunmuşdur. Nəticədə, məsələn, 2004-2022-ci illərdə qoyulan 301453 mln. dollar investisiyaların 51,1 faizi daxili investorlara məxsus olmuşdur. Diqqəti cəlb edən digər bir meyil ondan ibarətdir ki, əsas kapitala daxili investisiyaların 80 faizi qeyri neft-qaz sektoruna yönəldilmişdir. Xarici investisiyaların isə 17 faizi dövlətə məxsus olmuşdur.

2020-2022-ci illərdə əsas kapitala dövlət investisiyalarında Azərbaycan dövlətinin payı 94,6 faizə, xarici dövlətlərin payı isə cəmisi 5,4 faizə bərabər olmuşdur. Dövlət investisiyaları əsasən (86 faizi) qeyri neft-qaz sektorunda, qeyri-dövlət investisiyaları isə neft-qaz sektorunda (52%) istifadə edilmişdir. Qeyri-dövlət daxili investisiyaların 25 faizi, xarici investisiyaların isə 86 faizi neft-qaz sektorunda istifadə edilmişdir. Beləliklə, Azərbaycan dövlətinin investisiya siyasətində qeyri neft-qaz sektoruna, əsasən, infrastruktur obyektlərinə üstünlük verilmişdir. 2020-2022-ci illərdə hər iki mənbədən (daxili və xarici) əsas kapitala  dövlət investisiyalarından 7,1 faizi, qeyri-dövlət investisiyalarından isə 7,2 faizə qədəri qeyri-neft emal sənayesində istifadə edilmişdir. Əvvəlki illərlə müqayisədə xeyli artım baş vermişdir.

2024-cü ilin iyun ayında Dünya Bankı özünün “Qlobal iqtisadi perspektivlər”ə həsr olunmuş hesabatını dərc etmişdir. Hesabatda inkişaf etməkdə olan iqtisadiyyatlara dövlət investisiyalarının artırılması və onların səmərəliliyinin yüksəldilməsi, məhsuldarlığın artırılması və özəl investisiyaların stimullaşdırılması tövsiyyə olunur. Hesabatda həmçinin 2024-cü ildə Azərbaycanda iqtisadi artımın 2,3 faiz, 2025-2026-cı illərdə 2,4 faiz olması proqnozlaşdırılmışdır. Bankın ekspertləri hesab edirlər ki, proqnozlaşdırılan risklərin qarşısını almaq və iqtisadi artımı stimullaşdırmaq üçün güclü iqtisadi siyasət aparılmalıdır (“1”, 25.06.2024). Ancaq 2024-cü ilin faktiki göstəriciləri daha yüksəkdir. Cari ilin doqquz ayında 4,3 faiz iqtisadi artıma nail olunmuşdur.

Ölkənin investisiya siyasətində mühüm istiqamətlərdən biri xarici investisiyaların cəlb edilməsi və istifadə sahələrinin genişləndirilməsidir. Belə ki, 2004-2023-cü illərdə bütün maliyyə mənbələrindən ölkə iqtisadiyyatına 156233 milyon dollar xarici investisiya qoyulmuşdur ki, bu da ölkə üzrə investisiyaların 48,9 faizini təşkil etmişdir.

Cənab İlham Əliyevin ölkə prezidentliyinə seçkiqabağı platformasında 2024-2031-ci illərdə iqtisadi-sosial inkişafa dair nəzərdə tutulan hədəflərdən biridə birbaşa xarici investisiyaların təşviq edilməsi olmuşdur. 2020-2022-ci illərdə ölkənin sosial-iqtisadi inkişafında 15799 milyon dollar birbaşa investisiyadan istifadə edilmişdir. Xarici investisiyalardan istifadə neft-qaz sektoru ilə yanaşı digər sektorlarda da genişləndirilir. Bu məbləğin 20,5 faizi məhz qeyri-neft sektoruna qoyulmuşdur. Onlar ən çox tikinti və nəqliyyat sektorlarına maraq göstərirlər.

Maraqlı məsələlərdən biri də investisiyaların iqtisadi səmərəliliyidir. Bu məsələni, 2020-2022-ci illəri əhatə etməklə, müqayisəli qiymətlər əsasında ölkə üzrə, sənaye, o cümlədən mədənçıxarma və emal sənaye sektorları üzrə araşdırmışıq. 2020-ci ilin qiymətləri müqayisəli qiymət kimi qəbul edilmiş və zəncirvari indekslər metodundan istifadə edilmişdir. İnvestisiyaların iqtisadi səmərəliliyi əlavə dəyərə görə müəyyən edilmişdir. Müəyyən edilmişdir ki, ölkə üzrə 2022-ci ildə əsas kapitala qoyulan 1 manat investisiya əlavə dəyərin 21 qəpik, o cümlədən emal sənayesində 16 qəpik artımını təmin etmişdir. 2022-ci ildə 2020-ci illə müqayisədə əmək məhsuldarlığı 6,5 faiz, məşğul əhalinin sayı 180 min nəfər artmışdır. Bu göstəricilərin ölçüləri məqbul qiymətləndirilə bilər. Ancaq 2020-

2022-ci illərdə mədənçıxarma sənayesinə 15415 milyon manat investisiya qoyulmasına baxmayaraq bu sektorda əlavə dəyərin artımı təmin edilməmişdir. Əksinə, 1704 milyon manat azalma baş vermişdir. Qeyd edim ki, mədənçıxarma sənayesində məhsul buraxılışının 97-98 faizi neft-qaz hasilatında formalaşdığına görə əlavə dəyərin azalması məhz bu sektorun hesabına baş vermişdir.

Qarabağdan və Şərqi Zəngəzurdan erməni vəhşiləri qovulduqdan sonra hökumətin investisiya siyasətində yeni bir istiqamət müəyyən edildi. Bu da ölkədə “yaşıl enerji”nin miqyası inkişafının təmin edilməsinin investisiya təminatıdır. Bu məqsədlə həm daxili, həm də xarici investorlar cəlb edilir. Hesablamalara görə Qarabağ və Şərqi Zəngəzurda külək, günəş və hidroenerji potensialı 10 qiqavatdan çoxdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad edilmiş torpaqlar “yaşıl enerji” zonası elan edilmiş, 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənmişdir. Bu ərazilərin 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsi nəzərdə tutulur.

**Nəticə və təkliflər**

**1**. 2020-2022-ci illərdə Azərbaycanda 39 qeyri-neft sənaye müəsssəsi və istehsal sahələri tikilib istifadəyə verilmişdir. Sektorun potensialı əhəmiyyətli dərəcədə güclənmişdir; 2020-2022-ci illərdə ölkənin emal sənaye sektorunda məhsul istehsalının artımı 24,7 faiz olmuşdur. Yeni müəssisələrin 90%-dən çoxu ölkənin regionlarında yaradılmışdır ki, bu da məhsuldar qüvvələrin ərazi yerləşdirilməsinə və əhalinin məşğulluğuna müsbət təsir etmişdir;

**2**. Dövlət investisiyalarından emal sənayesində istifadənin həcmi yetərincə deyil. Belə ki, 2019-2022-ci illərdə daxili investisiyaların ancaq 9,9 faizi qeyri-neft emal sənayesinə, 3,9 faizi kənd təsərrüfatına yatırılmışdır.

**3.** 2019-2022-ci illərdə Azərbaycanda bütün maliyyə mənbələri hesabına əsas kapitala 17,6 milyard manat investisiya qoyulmuşdur. Bu investisiyalarına 73,5%-i daxili investisiya olmuşdur. Daxili investisiyaların da 62 faizi dövlətə məxsus olmuşdur. 36,1 milyard manat dəyətində yeni əsas fondlar istifadəyə verilmişdir. Daxili investisiyalarda da dövlət büdcəsindən üstünlük təşkil etmişdir.

**4**. İndiki dövrdə Azərbaycanın iqtisadi inkişafının iki lokomotivindən biri investisiyalardır. Belə ki, son illər qeyri-neft sektorunda ümumi daxili məhsulun 75 faizi əsas kapitalın artımı hesabına təmin edilmişdir.

İnvestisiya siyasətinə zamanın tələblərinə uyğun olaraq dəyişiklik etmək və daxili investisiyaların stimullaşdırılmasını təmin edən iqtisadi mexanizmləri (regional və sahəvi vergi güzəştlərindən istifadə, uçot dərəcəsi ilə kredit faizləri arasında dövlət tərəfindən yuxarı həddinin müəyyən edilməsi, iqtisadiyyatın pul təminatının rasionallaşdırılması, iqtisadi idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, mərkəzləşdirilmiş kredit resurslarının artırılması, amartizasiya güzəştləri sisteminin tətbiqi, kredit dərəcələrinin mənfəət norması ilə uzlaşdırılması və s.) təkmilləşdirməklə tətbiq etmək düzgün olar.

**5**. “Amortizasiya ayırmaları haqqında” qanun qəbul etməklə, onların mənfəətdən vergitutma bazasına aid edilməsi, onlardan prioritet sahələrdə ancaq investisiya məqsədləri üçün hökumətin icazəsi ilə istifadə edilməsi və investisiya kimi istifadə olunan amortizasiya ayırmalarının mənfəət vergisindən azad edilməsi məqsədəuyğundur. İllik məbləği 6,5 milyard manatdan çox olan, amortizasiya ayırmalarının mənfəətdən vergi bazasına daxil edilməsi, bir tərəfdən, dövlət gəlirlərini artıra, digər tərəfdən, əsas fondların modernizasiyasını sürətləndirə bilər.

**6.** 2015-2016-cı illərdə investisiyaların stimullaşdırılması ilə bağlı bir neçə normativ hüquqi akt (prezident fərmanları, sərəncamları, hökumət qərarları, qanunlar) qəbul edilmişdir. Yol xəritəsini hazırlayan mütəxəssislər hesab edir ki, xarici investisiyaların stimullaşdırılması üçün investisiya layihələri investorların zövqünə uyğun tənzimlənsin, investorların tələblərinə uyğun çoxsaylı zavodlar birləşdirilsin, investisiyanın qorunması üçün tənzimləyici orqanın təminatı verilsin. Xarici investisiyaların cəlb edilməsi üçün belə yanaşmanı məqbul hesab etmək olmaz. Çünki istehsal və xidmət obyektləri milli hökumətin müəyyən etdiyi regionlarda, ölçüdə və iqtisadi sektorlarda yaradılmalıdır;

**7**. Yol xəritəsini hazırlayan tədqiqatçılar Azərbaycanda əsas kapitala investisyaların 70%-ə qədərinin dövlətə məxsus ololmasmı önəmli hesab etmirlər. Strateji tərəfdaşlıqlar hesabına bu investisiyaların azaldılmasını məqsədəuyğun hesab edirlər. Bu yanlış mövqedir. Uzun müddət ərzində apardığımız elmi araşdırmalar göstərir ki, yerli və xarici investorlar kənd təsərrüfatına və sənayenin

emal sahələrinə (qida sənayesi istisna olmaqla) investisiya qoymaqda maraqlı deyillər. Belə şəraitdə dövlət investisyalarınm istiqamətində dəyişiklik etmək zəruridir. Başqa sözlə, aqrar və emal sənaye sektorlarına dövlət investisiyalarının qoyuluşu miqyaslı dərəcədə artırılmalıdır. Burada ölkə başçısının bir konsepsiyasını da diqqətə çatdırırıq. 2014-cü ildə çıxışlarının birində o demişdir: "Azərbaycanın gələcək inkişafı sənayenin inkişafı ilə bağlı olmalıdır... dövlət investisiyalarını da bizim üçün strateji əhəmiyyət daşıyan sənaye sahələrinə cəlb etməliyik" ("1",qəzeti, 09.10.2014). Hesab edirik ki, dövlət investisiya bankının və maliyyə-sənaye qruplarının yaradılması da məqsədəuyğun olar.

**8.** Qeyri-neft emal sektorunun prioritet sahələrində dövlətin investisiyalarından özəl-dövlət partnyorluğu əsasında istifadə miqyasının əhəmiyyətli dərəcədə genişləndirilməsi önəmli olardı.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. "Azərbaycan" qəzeti
2. Azərbaycan-2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası.
3. Azərbaycan-2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər.
4. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2022-ci illər üçün Dövlət Proqramı
5. Tofiq Hüseynov, "Azərbaycanda investisiyalar", "Elm" nəşriyyatı, 2009, Bakı, 371 s.
6. Azərbaycan Respublikasının Milli iqtisadiyyatı üzrə Strateji Yol Xəritəsi, 2012, Bakı
7. Tofiq Hüseynov, "Azərbaycanın Milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika", "Elm" nəşriyyatı, 2015, Bakı, 465 s.
8. Tərbiz Ərbiz, "Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf", "Elm və bilik", 2019, 563 s.


# Направления развития инвестиционной политики в Азербайджане


**Тофик Гусейнов**
Заслуженный экономист Азербайджанской Республики
доктор экономических наук, профессор



**Резюме:** В статье поэтапно отражены особенности инвестиционной политики правительства Азербайджана с первых лет независимости до современной эпохи. Стоит отметить, что в первый период государственные инвестиции, как правило, направлялись на развитие производственной и социальной инфраструктуры, а также нефтяного сектора. Государственные инвестиции в ненефтяную промышленность и сельскохозяйственный сектор воспринимались как несовместимые с рыночной экономической системой. Однако в последующие годы эта концепция была изменена, и государственные инвестиции стали направляться в перерабатывающую промышленность и агропромышленный комплекс. В статье рассматривается использование амортизационных отчислений как источника инвестиций, а также освещается государственная политика в отношении эффективного использования государственно-частного партнерства.



**Ключевые слова:** инвестиции, регионы, агропереработка, ненефтяной сектор, агропромышленный комплекс, сельское хозяйство.

DOI: https://doi.org/10.36719/2707-9317/05/24-34

# Assessment of the issue of economic growth in the economic literature of Azerbaijan

**Seyfaddin Samandarov**

D.e.s., doc., Ministry of Science and Education of the Republic of Azerbaijan
E-mail: Seyfeddinsamandarov@mail.ru
https://orcid.org/0000-0002-7939-0990

**Abstract:** Two stages in the formation of modern Azerbaijani economic thought attract attention. The first stage is the economic thought of Azerbaijan during the Soviet period (decisive period – 60-70s) and the second important stage can be noted during the years of independence. The article evaluates the opinions expressed in the economic literature of Azerbaijan on issues of economic growth.

**Key words:** Economic thought, economic literature, economic growth, economic development, economic system, economic model

**JEL Il2; UDC 338.1; 006**

# Azərbaycan iqtisadi ədəbiyyatlarında iqtisadi artım məsələləri ilə əlaqədar dəyərləndirmələr

**Seyfəddin Səməndərov**
İ.e.d., dos., Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
E-mail: Seyfeddinsamandarov@mail.ru
https//orcid.org/0000-0002-7939-0990

**Xülasə:** Müasir Azərbaycan iqtisadi fikrinin formalaşmasında iki mərhələ xüsusi ilə diqqəti cəlb edir. Birinci mərhələ sovet dövrü Azərbaycan iqtisadi fikri (onun həlledici dövrü 60-70-ci illər) və ikinci mühüm mərhələ müstəqillik illərində Azərbaycan iqtisadi fikri mərhələsi qeyd oluna bilər. Məqalədə müasir Azərbaycan iqtisadi fikrində, iqtisadi ədəbiyyatlarda iqtisadi artım məsələləri ilə əlaqədar səslənən fikirlər dəyərləndirilir.

**Açar sözlər:** iqtisadi fikir, iqtisadi ədəbiyyat, iqtisadi artım, iqtisadi inkişaf, iqtisadi sistem, iqtisadi model

**JEL Il2; UDC 338.1; 006**

## Giriş// Introduction

Sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artım ölkənin iqtisadi inkişafında müsbət və mənfi dəyişikliklərin ümumi tendensiyası (təmayülü) kimi nəzərdən keçirilirdi. Eyni zamanda Sovet İttifaqında iqtisadi artımın mahiyyəti təkrar istehsalın əsas ziddiyyətinin həll edilməsi kontekstində nəzərdən keçirilirdi. Bu ziddiyyət istehsal resurslarının məhdudluğu, ictimai tələbatların hüdudsuz dərəcədə artması ilə əlaqələndirilirdi və sözügedən ziddiyyətin iki üsul ilə həll edilməsi üçün çalışılırdı. Birincisi, istehsal güclərinin artması hesabına. ikincisi mövcud resurslardan daha səmərəli istifadə edilməsi və ictimai tələbatların inkişaf etdirilməsi yolu ilə. Göründüyü kimi, Sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artım bilavasitə sadə və geniş təkrar istehsal, milli gəlir, makroiqtisadi təhlil və araşdırmalarla bilavasitə bağlı idi. Azərbaycan iqtisadi ədəbiyyatlarında iqtisadi artım məsələsi ancaq müstəqillik illərində geniş və hər tərəfli tədqiqat mövzusuna çevirmişdir.

## Əsas hissə / Main Part

### Ədəbiyyatların təhlili

Sovet dövründə iqtisadi artım məsələsinin bu və ya digər aspektləri A.A.Zərgərov, A.Qasımov, Z.Səmədzadə, M.Meybullayev, M.Allahverdiyev, A.A.Nadirov, A.K.Ələsgərov, V.D.Axundov və b. tərəfindən araşdırılmışdır. Müstəqillik illərində diqqətəlayiq araşdırmalar aparan tədqiqatçılar qismində N.O.Eminov, A.H.Haciyev, V.S.Əyyubov, Z.V.Əyyubov, V.Qasımlı, və b. qeyd edilə bilər. Eyni zamanda ayrı-ayrı mühakimə və ümumiləşdirmələr iqtisadi artım məsələləri ilə əlaqədar tədqiqat aparan *(namizədlik və doktorluq işləri*) mütəxəssislər tərəfindən problemin öyrənilmə səviyyəsi ilə əlaqədar irəli sürülmüşdür. Lakin məsələnin bütünlükdə Azərbaycan iqtisadi fikrində qoyuluşu məsələsi xüsusi tədqiqat mövzusu kimi seçilməmişdir.

### Metodologiya

Məqalədə tədqiqat üsulu kimi analiz, sintez üsullarından geniş istifadə edilmişdir. Eyni zamanda iqtisadi artımla bağlı nəzəriyyələr araşdırmalarda metodoloji əsas kimi çıxış etmişdir.

### *Sovet dövründə Azərbaycan iqtisadi fikrində iqtisadi artım məsələləri ilə əlaqədar dəyərləndirmələr*

Qeyd edildiyi kimi, sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artım bilavasitə sadə və geniş təkrar istehsal, milli gəlir məsələləri ilə əlaqədar aparılan tədqiqatlar və bütünlükdə makroiqtisadi təhlil və araşdırmalarla bağlı idi *(şəkil 1).*

***Şəkil №1 Sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artımın məzmunu***




**Mənbə:** *Müəllif tərəfindən tərtib olunmuşdur*

Belə bir zəmində ilk olaraq qeyd etmək yerinə düşərdi ki, sovet dövründə Azərbaycan iqtisadi fikrində riyazi-iqtisadi üsullarla makroiqtisadi analizlərin təşkili məsələləri ilə əlaqədar aparılan tədqiqatlar xüsusi ilə diqqəti cəlb edir.

**_Şəkil № 2_**

| İllər | Tədqiqatçılar | Araşdırılan mövzu və məsələlər |
|---|---|---|
| 60-cı illərin sonu və 70-ci illərin birinci yarısı | A.A.Zərgərovun rəhbərliyi ilə tədqiqatçı qrupu | "Azərbaycan SSR-sə Ümumidaxili məhsulun və milli gəlirin geniş təkrar istehsalı" |
| 70-ci illərin əvvəlləri | A.Qasımov | "Milli gəlirin artımı və istehlak fondu" |
| | Z.Səmədzadənin rəhbərliyi ilə | "Azərbaycanda geniş təkrar istehsal problemləri" ilə əlaqədar tədqiqatlar |
| | A.Q.Manafov | "Ödəniş fondunun yaradılması və əsas istehsal fondların təkrar istehsalında ödəniş fondlarının rolu" adlı tədqiqat |
| | Azərbaycan SSR EA-sının əməkdaşları | "İqtisadi artım və iqtisadi inkişaf problemi" , "Məcmu ictimai istehsal ilə milli gəlir arasında nisbətin uzlaşdırılması" məsələləri ilə əlaqədar aparılan tədqiqatlar |
| 70-ci illərin ikinci yarısı | M.M.Allahverdiyev (rəhbər) və M.Meybullayev | "Milli gəlirin təkrar istehsalının tempi və proporsiyaları" mövzusu |
| | Ə.Q.Əlirrzayevin rəhbərliyi ilə tıdqiqatçı qrupu | "Azərbaycan Respublikasının əhalisinin gəlir və istehlakının diferensial modellərinin hazırlanması" ilə əlaqədar tədqiqatlar |
| 80-ci illərin əvvəlləri | Ə.Q.Əlirzayev (rəhbər) | "Müttəfiq respublikalarda və o, cümlədən Azərbaycanda məqsədli sosial-iqtisadi proqramların uzun müddətə planlaşdırılması, uyğunlaşdırılması və tarazlaşdırılması" mövzusu ilə əlaqədar yerinə yetirdiyi araşdırmalar |
| | M.M.Allahverdiyev | ilə "Azərbaycanda təsərrüfat mexanizmi və iqtisadi artım" (mövzu) |
| 1986-2010-cu illər | AMEA İqtisadiyyat İnstitutu (A.A.Nadirov, A.K.Ələsgərov, V.D.Axundov və b.) 300-dən yuxarı elmi-tədqiqat, təhsil institutları, nazirlik və idarələrlə müştərək işlər yerinə yetirilmişdi. | Ümumiləşdirilərək 3 ümumi və 26 problem komissiyasının materialları verilmişdi. Tədqiqatda respublikanın 20 il ərzində sosial-iqtisadi inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdi<br>1991-2010-cu illərdə Elmi-Texniki Tərəqqinin nailiyyətlərinə əsasən Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi məsələlərini özündə əks etdirən "Kompleks" proqramın hazırlanması istiqamətində diqqətəlayiq işlər yerinə yetirmişdilər<br>Kompleks proqram respublika iqtisadiyyatının 1986-2010-cu illərdə bütün sahələrinin əlaqəli şəkildə inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə, məcmu ictimai məhsulun, milli gəlirin artırılmasına, istehsal və xidmət sahələrinin üzvi vəhdət halında inkişaf etdirilməsi məqsəd kimi müəyyənləşdirilən proqram kimi qiymətləndirilə bilər. |

**Mənbə:** *Müəllif tərəfindən Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun materialları əsasında tərtib olunmuşdur.*

Bu istiqamətdə diqqətəlayiq araşdırmalar qismində hələ ötən əsrin 60-cı illərinin sonu və 70-ci illərin birinci yarısında A.A.Zərgərovun rəhbərliyi ilə "Azərbaycan SSR-də Ümumdaxili məhsulun və milli gəlirin geniş təkrar istehsalı" mövzusu ilə əlaqədar yerinə yetirilən tədqiqatlar xüsusi olaraq qeyd edilə bilər. Eyni zamanda A.Qasımov tərəfindən yerinə yetirilən "Milli gəlirin artımı və istehlak fondu" adlı tədqiqat işində kütləvi statistik materiallar toplanılıb, təhlil edilərək və mövcud cəmiyyətdə xalq istehlakının geniş təkrar istehsalının təkmilləşdirilməsi məsələləri ilə əlaqədar təkliflər irəli sürülmüşdü.

Daha sonra, 70-ci illərin əvvəllərində Z.Səmədzadənin rəhbərliyi ilə "Azərbaycanda geniş təkrar istehsal problemləri" ilə əlaqədar tədqiqatlar nəticəsində iqtisadçı qrup belə qənaətə gəlmişdi ki, əsas istehsal fondlarının müasir və iqtisadi cəhətdən səmərəli texnika ilə təmin edilməsi sadə və geniş təkrar istehsalda münasib nisbətlərin gözlənilməsini tələb edir. Araşdırmalar zamanı diqqət yetirilən önəmli məsələlərdən biri də "Geniş təkrar istehsal prosesində iqtisadi stimullaşdırma fondlarının yaradılması və istifadə edilməsi" məsələsi idi.

Tədqiqatçı A.Q.Manafov "Ödəniş fondunun yaradılması və əsas istehsal fondların təkrar istehsalında ödəniş fondlarının rolu" adlı tədqiqat işini yerinə yetirərkən əsasən kimya sənayesində

amortizasiya fondunun geniş təkrar istehsalın təşkilində yeri və rolu məsələsini diqqət yetirmişdi. Həmin illərdə A.Ağayeva "Azərbaycan SSR-də yığım və geniş təkrar istehsal" adlı tədqiqat işi yerinə yetirıldi.

XX əsrin 70-ci illərinin əvvəllərində AMEA İqtisadiyyat İnstitutunda yerinə yetirilən digər diqqətəlayiq araşdırmalar qismində "İqtisadi artım və iqtisadi inkişaf problemi", "Məcmu ictimai istehsal ilə milli gəlir arasında nisbətin uzlaşdırılması" məsələləri ilə əlaqədar aparılan tədqiqatlar idi. Deyilənlərlə yanaşı 70-ci illərin ikinci yarısında M.M.Allahverdiyev (rəhbər) və M.Meybullayev "Milli gəlirin təkrar istehsalının tempi və proporsiyaları" mövzusu ilə bağlı müşahidələr xüsusi olaraq qeyd edilə bilər. Tədqiqatlar zamanı Azərbaycan Respublikasında milli gəlirin təkrar istehsalının xüsusiyyətləri, onları şərtləndirən amillər, milli gəlirin təkrar istehsalı prosesinin təkmilləşdirilməsi məsələləri ilə əlaqədar təklif və tövsiyələr hazırlandı.

Belə bir zəmində Ə.Q.Əlirzayevin rəhbərliyi ilə "Azərbaycan Respublikasının əhalisinin gəlir və istehlakının diferensial modellərinin hazırlanması" ilə əlaqədar araşdırmalar diqqəti cəlb edir. Hazırlanan modellərdə respublika əhalisinin həyat səviyyəsinin proqnozlaşdırılmasının ümumi riyazi-iqtisadi modeli tərtib olundu. Bu zaman diferensial gəlirlər modeli riyazi funksional və immittiv hesablamalar əsasında aparılmış, müxtəlif maddi təminata malik olan ailələr üzrə gəlirlərin bölüşdürülməsi üçün Pirsonun loqorifmasının normal əyriləri istifadə edilmişdi. Daha sonra 80-ci illərin əvvəllərində Ə.Q.Əlirzayev "Müttəfiq respublikalarda və o, cümlədən Azərbaycanda məqsədli sosial-iqtisadi proqramların uzun müddətə planlaşdırılması, uyğunlaşdırılması və tarazlaşdırılması" mövzusu ilə əlaqədar yerinə yetirdiyi araşdırmalar, M.M.Allahverdiyevin rəhbərliyi ilə "Azərbaycanda təsərrüfat mexanizmi və iqtisadi artım" mövzusu ilə əlaqədar aparılan tədqiqatlar da qeyd edilməlidir. Sonra qeyd edilən istiqamət üzrə aparılan tədqiqatlar kimi SSRİ Elmlər Akademiyasının, Dövlət Elmi-Texniki Komitəsinin, Tikinti və Quruculuq İşləri üzrə Komitənin 28 iyun 1981-ci il 78(203) № li qərarına, Azərbaycan SSR Nazirlər Şurasının 22 iyun 1981-ci il № 317-nömrəli sərəncamına əsasən Azərbaycan SSR EA-sının İqtisadiyyat İnstitutunun Azərbaycan SSR-in 1986-2005-ci illərdə Elmi-Texniki Tərəqqisinin kompleks proqramının işlənilib hazırlanması istiqamətində aparılan tədqiqatlar diqqəti cəlb edir. İqtisadiyyat İnstitutunda əvvəlcə 5 illiklər üzrə kompleks proqramın ilkin variantı, həmçinin təşkilati işlər üzrə sənədlər külliyyatı, konsepsiya və metodik göstəricilər hazırlanaraq nəşr etdirildi. Eyni zamanda 1981-1985-ci illərdə təbiət və ictimai elmlər üzrə elmi tədqiqatların koordinasiyası planı (VII cild), "1986-2005-ci illərdə Azərbaycan SSR-də Elmi-Texniki Tərəqqinin kompleks proqramının mühüm Dövlət proqnozları" hazırlandı. "Proqnozların" tərtib edilməsində 300-dən yuxarı elmi-tədqiqat, təhsil institutları, nazirlik və idarələrlə müştərək işlər yerinə yetirilmişdi.

Proqramda respublika xalq-təsərrüfatının inkişaf etdirilməsinin elmi-texniki və sosial-iqtisadi problemləri ümumiləşdirilərək 3 ümumi və 26 problem komissiyasının materialları verilmişdi. Tədqiqatda respublikanın 20 il ərzində sosial-iqtisadi inkişafının əsas istiqamətləri müəyyənləşdirilmişdi. Problem bir neçə bölmə üzrə işlənilmişdi. Birinci bölmədə elmin inkişaf etdirilməsinin əsas istiqamətləri, respublikada istehsal əhəmiyyətli fundamental tədqiqatların aparılması, ən yeni istehsal sahələri və modernləşdirmə istiqamətində çalışacaq kadr hazırlıqlarının həyata keçirilməsi, elmi resurslardan daha səmərəli istifadə edilməsi kimi məsələlər öz əksini tapmışdı. İkinci bölmə üzrə xalq təsərrüfatında elmi-texniki tərəqqinin nailiyyətləri əsasında respublikada təbii resurslardan daha səmərəli istifadə edilməsi, maşınqayırma, yanacaq-energetika, qara və əlvan metallurgiya, üzvü və qeyri-üzvü kimya, meşə sənayesi, inşaat, aqrar-sənaye kompleksi, ticarət və nəqliyyat kompleksləri, informasiya texnikasının istehsalı və xidmətlərinin inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdı. Üçüncü bölmədə xalqın maddi rifah halının yüksəldilməsi, mədəni xidmət, ictimai-iaşə sferasının və bir sıra sosial-xidmət şəbəkələrinin fəaliyyətinin yüksəldilməsi imkanları dəyərləndirilərək təkliflər paketi hazırlanmışdı. Nəhayət dördüncü bölmədə respublikanın regionlarının inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdı.

Qeyd etmək lazımdır ki sonrakı illərdə də, kompleks proqramın təkmilləşdirilməsi istiqamətində İqtisadiyyat İnstitutunun əməkdaşlarının elmi fəaliyyətləri davam etdirilmişdi. A.A.Nadirov, A.K.Ələsgərov, V.D.Axundov və digərlərindən ibarət tədqiqatçı qrupu 80-ci illərin ikinci yarısında 1991-2010-cu illərdə Elmi-Texniki Tərəqqinin nailiyyətlərinə əsasən Azərbaycan

iqtisadiyyatının inkişaf etdirilməsi məsələlərini özündə əks etdirən "Kompleks" proqramın hazırlanması istiqamətində diqqətəlayiq işlər yerinə yetirmişdilər. Kompleks proqram respublika iqtisadiyyatının 1986-2010-cu illərdə bütün sahələrinin əlaqəli şəkildə inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə, məcmu ictimai məhsulun, milli gəlirin artırılmasına, istehsal və xidmət sahələrinin üzvi vəhdət halında inkişaf etdirilməsi məqsəd kimi müəyyənləşdirilən proqram kimi qiymətləndirilə bilər.

**Müasir iqtisadi ədəbiyyatlarda iqtisadi artımla bağlı əsas müddəalar**

İqtisadi artım müasir iqtisadi fikirdə *(Borisova: 17*) ictimai məhsulun kəmiyyətinin artması (böyüməsi) və keyfiyyətininn təkmilləşdirilməsi kimi təqdim edilir. Eyni zamanda iqtisadi artım öz ifadəsini əmtəə buraxılmasının və xidmətlərin göstərilməsi həcminin artmasında və keyfiyyətinin yüksəldilməsində tapır. Belə bir zəmində qeyd edilməsi məqsədəuyğun olardı ki, dünya iqtisadi fikrində müasir iqtisadi artım nəzəriyyələri iki istiqamət üzrə inkişaf edir: postkeynsşi və postmonetarist istiqamətlər. Eyni zamanda müasir rus iqtisadi fikrində iqtisadi artım məsələlərində iki əsas istiqamətin *(liberalizm və dirijizm)* üstünlük təşkil etməsi də diqqəti cəlb edir *(Şevçenko İ., Aleksandrova E., Alelksandrov A. (2004):9-16 ).*

Liberalizmdə əsas fikir ondan ibarətdir ki, hər bir insanda rifaha və varlanmağa meyl və istək mövcuddur. Bu cəhd insanları daha çox işləməyə vadar edir və öz növbəsində tərəqqiyə səbəb olur. İctimai sistem insanlara öz bacarıq və qabiliyyətlərini reallaşdıraraq, rifahlarını yaxşılaşdırmaq imkanı verməlidir. Daha doğrusu insanlar sahibkarlıqla məşğul olmaq imkanını əldə edərək bu imkanı saxlaya bilməlidir.

Dirijizm müasir rus iqtisadi fikrində L.İ.Abalkin, S.B.Qlazyev, D.S.Lvov,V.A.Medvedyev və b. kimi iqtisadçıların əsərlərində özünə yer tapmışdır. Dirijizmin əsas müddəası ondan ibarətdir ki, təməl sahələr və təbii resurslar üzrə dövlət idarəetməsi bərpa olunmalıdır. Milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin, cəmiyyətin rifahının yüksəldilməsi, elmi və istehsal potensialının, ölkənin iqtisadi qüdrətinin artırılması üçün ölkənin sosial-iqtisadi sisteminin idarə edilməsi üzrə yeni sistem yaradılmalıdır. Müvafiq olaraq müasir Azərbaycan iqtisadi fikrində, iqtisadi ədəbiyyatlarda səslənən fikirlərin nəzərdən keçirilməsi məqsədəuyğun olardı.

**Müasir Azərbaycan iqtisadi ədəbiyyatlarında iqtisadi artım məsələləri ilə əlaqədar dəyərləndirmələr**

Öncə qeyd etmək lazımdır ki, müasir Azərbaycan iqtisadi fikrində iqtisadi artım məsələləri davamlı iqtisadi artıma nail olunması kontekstində nəzərdən keçirilir və sözügedən məsələ Azərbaycan hökuməti və elmi ictimaiyyətinin xüsusi diqqət mərkəzindədir. Burada əsas diqqətin milli iqtisadiyyatın diversifikasiyasına, əmtəə istehsalı və xidmət sferasında ixrac potensialının tam reallaşdırılmasına yönəldilməsi xüsusi olaraq vurğulanır. Deyilənlərlə yanaşı qeyri neft sektorunun Azərbaycan iqtisadiyyatında mühüm yer tutması nəzərdə tutulur. Bu gün iqtisadi ədəbiyyatlarda özünəməxsusu Azərbaycan artım modelindən bəhs edilir. Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadi artım modeli-sosial təmayüllü bazar iqtisadiyyatı modeli kimi də xarakterizə olunur. Azərbaycan Respublikasının Konstitusiyasına görə dövlət iqtisadi inkişafın sosial təmayüllüyünə təminat verir və əhalinin az təminatli hissəsini (əlillər, uşaqları, təqaüddə olanları) dəstəkləyir. Azərbaycan iqtisadi artım modelinin əsas məqsədi elm və texnikanın nailiyyətlərindən istifadə edərək ölkənin, Azərbaycan iqtisadiyyatının modernləşdirilməsidir.

Yuxarıda göstərilən məqsədə nail olunması üçün bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi vacib hesab edilir (*şəkil №3).* Bunlar aşağıdakılardır:

- Biznes mühitinin yaxşılaşdırılması, məhkəmə sisteminin şəffaflığının artırılması, qeyri mükəmməl rəqabətin aradan qaldırılması, daha şəffaf özəlləşdirmə strategiyasının həyata keçirilməsi;
- Sahibkarlığın stimullaşdırılması. vergi və gömrük siyasətinin qeyd edilən məqsədlərə yönəlməsi və məhz bununla uzunmüddətli iqtisadiyyata investisiya yatırımları üçün resurslar təmin olunmalıdır;
- Milli bank sektorunda sabitliyin təmin olunması, ona olan inamın artırılması, bankların iqtisadiyyatın real sektorunun maliyyələşdirilməsində payının artırılması və sahibkarlığın inkişafının stimullaşdırılması;

• Xarici investorların cəlb edilməsi, infrastruktur sferasına strateji investorların cəlb edilməsi (https://az.sputniknews.ru/20240209/pyat-stolpov-ekonomiki-chto-sdelaet-azerbaydzhan-dlya-rosta-vvp-k-2032-godu-462510610.html).

***Şəkil № 3*** ***Azərbaycan iqtisadi fikrində davamlı iqtisadi artıma nail olunması üçün həyata keçirilməsi zəruri hesab edilən təxirə salınmaz hesab edilən tədbirlər:***




**Mənbə:** *Müəllif tərəfindən tərtib olunmuşdur*

Yuxarıda deyilənlərə əlavə edilməsi yerinə düşərdi ki, Azərbaycan Respublikasında yeni iqtisadi strategiyanın dörd artım mənbəyi də xüsusi olaraq vurğulanır (şəkil № 4).

Bunlar aşağıdakılardır:

-energetik resurslar;

-kənd təsərrüfatı və onun sənaye kompleksi

-tranzit potensialı;

-regionların istifadə edilməyən iqtisadi və əmək resursları.

-innovasiyalar vasitəsi ilə iqtisadi artımın keyfiyyətinin yüksəldilməsi ideyası

-Qeyrin neft-qaz sektorunun inkişaf etdirilməsi.

***Şəkil №4***

Azərbaycann Respublikasında yeni iqtisadi strategiyanın dörd artım mənbəyi




**Mənbə:** *Müəllif tərəfindən tərtib olunmuşdur.*

Müvafiq olaraq iqtisadi artım məsələləri ilə bağlı müasir Azərbaycan iqtisadi ədəbiyyatlarında səslənən fikirlərə bir qədər ətraflı diqqət yetirilməsi məqsədəuyğun olardı.

Öncə qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadi ədəbiyyatlarında belə bir fikir vardır ki, keyfiyyətli iqtisadi artıma ancaq xüsusi şəraitlərdə nail olmaq olar. Məhz belə bir şəraitdə onun innovasiyalı tərkib hissəsi fəallaşdırıla bilər. Bu səbəbdən də ölkə qarşısında duran başlıca məsələ keyfiyyətli iqtisadi artıma nail olunmasıdır (*Eminov (2012):119-124)***.** Keyfiyyətli iqtisadi artım təkcə xam mal resurslarının ixracı hesabına baş vermir, eyni zamanda elm tutumlu məhsulların istehsalı və ixracı hesabına da baş verir. Bunun üçün innovasiya tipli iqtisadiyyat formaşlaşdırılmalıdır. İnnovasiyalar iqtisadi inkişafın açar faktorudur. Yüksək iqtisadi artıma nail olunması ancaq yüksək texnologiyaların tətbiqi ilə mümkünlüyü fikri irəli sürülür.

N.O.Eminov hesab edir ki, iqtisadiyyatda keyfiyyətli iqtisadi artıma nail olunması üçün innovasiyaların rolu artırılmalıdır. Azərbaycan qarşısında duran başlıca məsələ keyfiyyətli iqtisadi artıma nail olunmasıdır. Respublikada təkcə xam mal ixracı deyil, eyni zamanda elm tutumlu sahələrin də inkişafına diqqət yetirməlidir. İnnovasiya tipli iqtisadiyyat formalaşdırılmalır ki, innovasiyalar inkişafın və iqtisadi artımın əsas amilinə çevrilsin *(Eminov (2012):119-124.*

Diqqəti cəlb edən digər fikir i.e.d. Şahin Sadıqov tərəfindən irəli sürülmüşdür. Ş.Sadıqov keyfiyyətli iqtisadi artıma nail olunması ilə inflyasiya səviyyəsinin aşağı səviyyədə saxlanılması arasında əlaqə axtarırdı. O, Azərbaycan: İqtisadi artım və inflyasiya məqaləsində yazır ki, XX-XXI əsrin təcrübəsi göstərdi ki, keyfiyyətli iqtisadi artıma nail olunması inflyasiyanın aşağı səviyyədə saxlanılmasını tələb edir. Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə inflyasiya səviyyəsi 2-3% civarındadır (https://www.elibrary.az/docs/ JURNAL/ jrn2008_542j.htm).

A.H.Hacıyev "Post krizis dövründə Azərbaycanda iqtisadi artımın xüsusiyyətləri" məqaləsində uzun illər ərzində Azərbaycan iqtisadiyyatının neft-qaz sektorundan asılılığına və belə bir modelin qüsurluluğuna, qeyri-neft sektorunun (turizm sektoru) inkişaf etdirilməsinin vacibliyinə diqqəti yönəldir (*Hacıyev A.(2013): 181*).

Elşən İbrahimov araşdırmalarında qeyd edir ki, gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühit üçün risklər azaldılmalıdır. Azad edilmiş ərazilərin dirçəldilməsi "yaşıl enerji", "yaşıl kənd təsərrüfatı", "yaşıl nəqliyyat", "ağıllı" şəhərlər, "ağıllı" kəndlər, minlərlə hektar meşələrin dirçəldilməsi, 2050-ci ilə qədər "xalis sıfır emissiya" məqsədə çatmaqda böyük rol oynayacaqdır.... dövlət tərəfindən tətbiq oluna bilən makrotənzimləmə alətləri "yaşıl inkişaf" məqsədlərinə çatmaqda əsas vasitə kimi istifadə olunmalıdır *(İbrahimov (2023): 331).*

M.Xeyirxəbərli "Yaşıl iqtisadiyyat" davamlı inkişafın təmin olunması vasitəsi kimi məqaləsində Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı 2 fevral 2021-ci il tarixində ölkə Prezidentinin Sərəncamına diqqəti yönəldir. O, yazır ki, qəbul edilmiş sənəddə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, eyni zamanda təmiz ətraf mühit və "yaşıl" artım ölkəmizdə milli prioritetlər kimi qəbul edilmişdir. Strateji xarakterli bu sənəddə yazılır: yaşıl inkişaf, davamlı və dayanıqlı inkişafın təmin olunması ancaq ekoloji balansın təmin olunması, yaşıl iqtisadi inkişafla mümkündür (Xeyirxəbərli (2023): 80).

N.B.Əkbərov yazır ki, araşdırmalar göstərir ki, qloballaşmanın genişlənməsi və dərinləşməsi fonunda inkişafda institusional amillərin rolunun son dərəcə yüksəlməsi heç də artımın funksional amillərinin "unudulmasına" səbəb olmamalıdır. Xüsusi ilə son illərdə "beynəlxalq rəqabətlilik" kateqoriyasının yeni-yeni reytinq sistemlərinin yaradılması ilə zənginləşdirilməsi, həmçinin belə yanaşmanın "universallaşdırılması" meyilləri, fikrimizcə, artımın iqtisadi funksionallıqla bağlılığını inkar etməməlidir (Ələkbərov N. (2023):101.

O.T.Abdinov apardığı müşahidələr nəticəsində belə qənaətə gəlir: dünya ölkələrinin təcrübəsindən məlum olur ki, dayanıqlı inkişafın təmin edilməsi təcrübəsinə malik olan çoxsaylı ölkələr mövcuddur. qabaqcıl təcrübələri olan ölkələrə Almaniyanı, İngiltərəni, Norveçi, İsveçi, ABŞ-ı, Kanadanı, İtaliyanı, Fransanı, Koreyanı, Yaponiyanı, Sinqapuru, Hollandiyanı, Danimarkanı, Birləşmiş Ərəb Əmirliklərini, Malayziyanı, Türkiyəni və s. aid etmək olar. Müəllif tərəfindən Malayziya və Norveç təcrübələri xüsusi olaraq vurğulanır. Eyni zamanda O.T.Abdinov hesab edir ki, dayanıqlı inkişaf konsepsiyasına qoşulan ölkələrin təcrübəsi göstərir ki, bu konsepsiya istənilən ölkədə ***iqtisadi artım modeli kimi çıxış etməklə***, həm də strateji planda etibarlı inkişafı təmin edir. Məhz bu və ya digər parametrlərinə görə dayanıqlı inkişaf konsepsiyasının qarşıya qoyduğu

tələblərin icra olunması bütün ölkələrin iqtisadiyyatı üçün yüksək əhəmiyyətə malikdir (*O.Abdinov (2023):181-185).*

O.Ç.Yusubov, "İqtisadi artımın təmin olunmasının nəzəri əsasları və iqtisadi inkişafın yüksəldilməsi məsələləri" məqaləsində yazır ki, İqtisadi artım bütövlükdə ictimai istehsalı, yığımı və fərdi istehlakı da özündə birləşdirir. Səmərəli və keyfiyyətli iqtisadi artımı vacib hesab edən müəllif yazır ki, iqtisadiyyatın intensiv artımı şəraitində mütərəqqi struktur dəyişikliklərin aparılması tələb olunur (*O.Yusubov (2019):191-195).*

A.A.Məmmədov "İqtisadi artımın mahiyyəti və onun nəzəri aspektləri" məqaləsində yazır ki, iqtisadi artım mahiyyətcə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya adambaşına düşən kəmiyyətini əks etdirir. İqtisadi artım iqtisadi məqsəd olmaqla yanaşı əhalinin həyat səviyyəsinin müəyyən edilməsində müəyyənedici rol oynayır (iqtisadi artım həyat səviyyəsinin yüksəlməsinə imkan verən, kəmiyyətcə çox, keyfiyyətcə yaxşı əmtəə və məhsulların istehsalı başa düşülür. –yəni Ümumi Milli Məhsulun və ya Xalis Milli Məhsulun faizlə artımına və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir). Müəllif tərəfindən iqtisadi artım modelləri (klassik və institusional modelləri) nəzərdən keçirilir və O, yazır ki, iqtisadi artım iqtisadiyyatın yalnız kəmiyyət tərəfini deyil, keyfiyyət tərəfini də özündə əks etdirir. Müəllif insanların daima genişlənən tələbatları və onların təmin olunması arasındakı ziddiyyətə diqqəti yönəldir. Məhsuldar qüvvələrin daimi, mütərəqqi inkişafı və real ümumi məhsulun uzunmüddətli artımı məsələsi xüsusi olaraq vurğulanır *(A.A.Məmmədov:67-72 ).*

T.C.Abbasovanın Azərbaycan iqtisadiyyatının iqtisadi inkişaf modeli ilə əlaqədar fikirləri diqqəti cəlb edir. T.C. Abbasova yazır ki, Azərbaycan iqtisadiyyati qarışıq iqtisadi sistem olub, iqtisadi inkişaf modeli tənzimlənən sosialyönümlü bazar iqtisadiyyatı kimi formalaşmışdır *(**T.C.Abbasova (2019):9**).*

V.Cəfərova "Xarici ticarətin iqtisadi artıma təsiri" məqaləsində yazırdı ki, ticarətdə açıqlıq bir ölkədə istehsal amillərinin mövcudluğunu artırır və bununla da ümumi amil məhsuldarlığının daha da yüksəlməsinə səbəb olur. Həmçinin aparılan araşdırmalarda potensial UDM-in artım tempi ticarətə açıq ölkələrdə daha sürətli olduğu müşahidə edilmişdir. Daha sonra müəllif öz fikrini davam etdirərək xüsusi olaraq qeyd edir ki, araşdırmamız göstərir ki, xarici ticarətin daha da inkişafı yoxsul təbəqəni kəskin yoxsulluqdan çıxarmağına kömək edir (*V.Cəfərova:52).*

N.İslamova "Biznes mühitinin əlverişliyinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi" mövzusunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işində ölkələrin varlı və kasıb olması ilə əlaqədar mühakimələr irəli sürərək yazır ki, məsələ ilə əlaqədar bir sıra yanaşmalar diqqəti cəlb edir. O, birinci yanaşma kimi yeni keynsçi yanaşmasını göstərir. Bu yanaşmada ölkələrin varlı olması səbəbi kimi yatirim imkanları göstərilir. İkinci qrup yanaşmanın mahiyyətində texnoloji inkişaf imkanları dayanır. Hansı ölkənin texnoloji cəhətdən inkişaf imkanları vardırsa həmin ölkə varlı ölkə hesab edilə bilər. İqtisadi ədəbiyyatlarda bu yanaşma neoklassik yanaşma hesab edilir. Üçüncü yanaşma tərəfdarları texnoloji inkişafın əsasında insan kapitalının dayandığı iddia edilir. Bu yanaşma tərəfdarları yeni instituonalistlər kimi xarakterizə olunur *(N.İslamova (2024 ).*

**Əyyubov V.S., Əyyubov Z.V**. yazırlar ki, yeni milli iqtisadiyyatın inkişaf strategiyasının ana xəttini "Qüdrətli Dövlət və Yüksək Rifah Cəmiyyəti"nin qurulması təşkil edir. Bu ideyanın həyata keçirilməsi məqsədi ilə növbəti onillikdə ölkənin inkişafına dair aşağıdakı beş Milli Prioritetin reallaşdırılması nəzərdə tutulmuşdur.

- Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Bu gün isə biz şanlı tariximizin innovasiyalara, dinamik iqtisadi inkişafa və yeni düşüncəyə əsaslanan tərəqqi dövrünü yaşayırıq və bütün varlığımızla inanırıq ki, bu tərəqqi dönməz və əbədi olacaq *(Əyyubov V.S., Əyyubov Z.V (2021): 24).*

*V.Qasımlı yazır ki, post-konflikt və post-korona dövrünə qədəm qoyan Azərbaycan iqtisadiyyatı Prezident İlham Əliyevin rəhbərliyi ilə yüksək artım trayektoriyasına keçmək imkanlarına malikdir. İqtisadi artımın davam etdirilməsi üçün fiskal və monetar siyasətlə yanaşı, biznes mühitinin təkmilləşdirilməsi, dövlət təşviqlərinin verilməsi, Azərbaycanın regional layihələrdə iştirakı, bazarlara çıxış imkanı və ən əsası inamın olmasıdır. Azərbaycanın yaratdığı yeni geoiqtisadi reallıqda regionda kommunikasiyaların açılması və Qarabağın reinteqrasiyası ölkəmizdə iqtisadi artımı sürətləndirə bilər. "Doing Business" hesabatına görə dünyanın 10 ən islahatçı olan ölkəsindən biri kimi Azərbaycan biznes islahatlarını, o cümlədən, xarici ticarət, investisiya, rəqabət, tənzimləmə, dövlət müəssisələrində korporativ idarəetmə kimi istiqamətlərdə davam etdirir* ***(https://ereforms.gov.az/az/media/xeberler/vusal-qasimli-azerbaycanda-iqtisadi-artimin-yuksek-trayektoriyaya-kecmek-imkanlari-var-15).***

Daha sonra V.Qasımlı "İqtisadi artım" monoqrafiyasında belə qənaətə gəlmişdir ki, son 17 ildə Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyümüş, qarşıdakı 10 ildə daha iki dəfə artacağı dövlətin qarşıya qoyduğu hədəflərdən biridir. İqtisadi artım son məqsəd deyil, davamlı inkişaf və rifah üçün vasitədir (V.*Qasımlı (2021):212*).

A.Şirəliyev "İqtisadi artım və ölkənin sosial-iqtisadi inkişafı" məqaləsində yazır ki, tarixən müxtəlif ölkələrdə iqtisadi artımın bir sıra modelləri işlənib hazırlanmış, tətbiq və istifadə edilmişdir. Bizim ölkəmizdə də iqtisadi artımın milli modelini formalaşdırmaq zəruridir. Bundan başqa, iqtisadi artımın dövlət tənzimlənməsi daha da dürüstləşdirilməli və əsaslı olaraq sosialyönümlü iqtisadiyyata və bazar iqtisadiyyatının tələbinə uyğun təkmilləşdirilməlidir. Eyni zamanda iqtisadi artımin sürəti məsələsi daim və xüsusi diqqət mərkəzində saxlanılmalı, buna dövlət qayğısı və nəzarəti daha da gücləndirilməli, onun tərəddüdlü, artıb-azalması prosesi təhlil edilməli, bütün istehsal sahələrində innovasiya nailiyyətlərinin və yeniliklərinin tətbiqini də yad-dan çıxarmaq olmaz. makroiqtisadi sabitləşmə və iqtisadi artım siyasəti vergi-büdcə və pul-kredit siyasəti ilə daha səmərəlidir (A.Şirəliyev (2011)).

R.Fərhad, E.Süleymanov, E.Qocayeva «Azərbaycan iqtisadiyyatı" kitabının müəllifidirlər. Sözügedən monoqrafiya Azərbaycanın iqtisadi inkişaf məsələlərinə həsr olunmuşdur. Burada mühüm məsələlər qismində iqtisadi sahələrin modernləşdirilməsi məsələsi xüsusi olaraq səslənmişdir. Kitabda ölkə iqtisadiyyatının mühüm sahələrininin diversifikasiyası, investisiya siyasətinin problemləri, müasir inkişaf təmayülləri və s. məsələlərlə əlaqədar dəyərləndirmələr aparılmışdır.

**Nəticə**

Sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artım ölkənin iqtisadi inkişafında müsbət və mənfi dəyişikliklərin ümumi tendensiyası (təmayülü) kimi nəzərdən keçirilirdi. Sovet iqtisadi ədəbiyyatlarında iqtisadi artım bilavasitə sadə və geniş təkrar istehsal, milli gəlir, makroiqtisadi təhlil və araşdırmalarla bilavasitə bağlı idi. Azərbaycan iqtisadi ədəbiyyatlarında iqtisadi artım məsələsi ancaq müstəqillik illərində geniş və hər tərəfli tədqiqat mövzusuna çevirmişdir. Sovet dövründə iqtisadi artım məsələsinin bu və ya digər aspektləri A.A.Zərgərov, A.Qasımov, Z.Səmədzadə, M.Meybullayev, M.Allahverdiyev, A.A.Nadirov, A.K.Ələsgərov, V.D.Axundov və b. tərəfindən araşdırılmışdır. Müstəqillik illərində diqqətəlayiq araşdırmalar aparan tədqiatçılar qismində N.O.Eminov, A.H.Hacıyev, V.S.Əyyubov , Z.V.Əyyubov, V.Qasımlı və b. qeyd edilə bilər.

**İstifadə olunmuş ədəbiyyat / References**

1. Abdinov O.T. (2023) , "Kooperasiya" elmi-praktiki jurnal , №1(68), s.181-185
2. N.B.Əkbərov (2023) , İqtisadi artımın mahiyyəti və nəzəri-metodoloji əsaslarına baxış "Kooperasiya" elmi-praktiki jurnal , №3(70, s.101- 107
3. Əyyubov V.S., Əyyubov Z.V. (2021), Azərbaycan milli iqtisadiyyatının davamlı inkişafının strateji hədəfləri "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" kontekstində, AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası (may-iyun), s.21-28

4. Xeyirxəbərli M. (2023), "Yaşıl iqtisadiyyat" davamlı inkişafın təmin olunması vasitəsi kimi, "Iqtisadi islahatlar elmi-praktiki jurnal №4 , s. 80

5. Qasımlı V.Ə. (2021), "İqtisadi artım" Bakı "Az Print MMC" Nəşriyyatı 234s.

6. Məmmədov A.A. (2018), İqtisadi artımın mahiyyəti və onun nəzəri aspektləri, "Kooperasiya" elmi-praktiki jurnalı, № 4 (51), s. 67-.72

7. Yusubov O.Ç. (2019), "İqtisadi artımın təmin olunmasının nəzəri əsasları və iqtisadi inkişafın yüksəldilməsi məsələləri", Kooperasiya elmi-praktiki jurnal, № 3(54), s.191-195

8. Borisova E.F. (2017), Formirovaniye sovremennıx teoriy ekonomiçeskoqo rosta // Vestnik RUK. №2 (28). URL: https:// cyberleninka.ru /article/n/formirovanie-sovremennyh-teoriy-ekonomicheskogo-rosta

9. Eminov N.O. (2012), innovaçionnıy aspekt ekonomiçeskoqo rosta Azerbaydjanskoy respubliki, Kreativnaya ekonomika, № 4 , s.119-124

10. Qadjiev A.Q. (2013), Osobennosti politiki ekonomiçeskoqo rosta Azerbaydjana v postkrizisnıy prriod//Vestnik ekonomiçeskoy nauki Ukrainı №1. URL: https://cyberleninka.ru/article/n/osobennosti-politiki-ekonomicheskogo-rosta-azerbaydzhana-v-postkrizisnyy-period,s.181-187

11. Şevçenko İ.V., Aleksandrova E.N., Aleksandrov A.V. (2004), Predposılki ekonomiçeskoqo rosta v sovremennoy rossiyskoy ekonomike// "Finansı i kredit" №9 (147). URL: https://cyberleninka.ru/article/n/predposylki-ekonomicheskogo-rosta-v-sovremennoy-rossiyskoy-ekonomike s.9-16.

12. https://az.sputniknews.ru/20240209/pyat-stolpov-ekonomiki-chto-sdelaet-azerbaydzhan-dlya-rosta-vvp-k-2032-godu-462510610.html

13. https://www.elibrary.az/docs/ JURNAL/ jrn2008_542j.htm

14. https://ereforms.gov.az/az/media/xeberler/vusal-qasimli-azerbaycanda-iqtisadi-artimin-yuksek-trayektoriyaya-kecmek-imkanlari-var-15

# Оценка вопроса экономического роста в экономической литературе Азербайджана

**Сейфаддин Самандаров**
д.э.н., дос, Институт Экономики Министерство Науки и Образования Азербайджанской Республики
E-mail: Seyfeddinsamandarov@mail.ru
https://orcid.org/0000-0002-7939-0990

**Резюме:** Привлекают внимание два этапа формирования современной Азербайджанской экономической мысли. Первый этап – экономическая мысль Азербайджана в советский период (решающий период – 60-70-е годы) и вторым важным этапом можно отметить этап экономической мысли Азербайджана в годы независимости. В статье оцениваются высказанные мнении в экономической литературе Азербайджана по вопросам экономического роста.

**Ключевые слова:** Экономическая мысль, экономическая литература, экономический рост, экономическое развитие, экономическая система, экономическая модель.

DOI: https://doi.org/10.36719/2707-9317/05/35-43

# Assessment of the possibilities of application of blockchain technology in corporate governance

**Asif Mustafayev**
MSE RA İnstitute of Economics, leading researcher, PhD, associate professor
E-mail: asif5252@rambler.ru
https://orcid.org/0000-0002-3989-1598

**Abstract:** In the presented article, the assessment of the possibilities of applying blockchain technology to the corporate governance system was considered. The experience of leading countries in this area was emphasized by highlighting the advantages of blockchain technology. The possibilities of applying this system in Azerbaijan have also been considered. The article further emphasizes that the use of blockchain technology will increase significantly for the next 5 years. This can be seen in the graph presented in the form of a value. In conclusion, a possible model for the application of blockchain technology in Azerbaijan was proposed. The Model was compiled based on existing practices in state-owned property management.

**Key words:** blockchain, corporate governance, value, crypto currency, finance, innovation, startup, smart contract, digital technology etc.

**JEL G34, O33; UDC 658.42**

# Korporativ idarəetmədə Blokçeyn texnologiyasının tətbiqi imkanlarının qiymətləndirilməsi

**Asif Mustafayev**
AR ETN İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d., dosent
E-mail: asif5252@rambler.ru
https://orcid.org/0000-0002-3989-1598

**Xülasə:** Təqdim olunmuş məqalədə Blokçeyn texnologiyasının korporativ idarəetmə sisteminə tətbiqi imkanlarının qiymətləndirilməsinə baxılmışdır.Blokçeyn texnologiyasının üstünlükləri qeyd edilməklə qabaqcıl ölkələrin bu sahədə təcrübələri xüsusi ilə vurğulanmışdır. Azərbaycanda bu sistemin tətbiqi imkanları da nəzərdən keçirilmişdir. Məqalədə daha sonra vurğulanır ki, Blokçeyn texnologiyasından istifadə növbəti 5 il üçün əhəmiyyətli dərəcədə artacaqdır. Bunu dəyər formasında təqdim edilən qrafikdə görmək olur. Sonda Azərbaycanda blokçeyn texnologiyasının tətbiqi üzrə mümkün model təklif olunmuşdur. Model dövlətə məxsus mülkiyyətin idarəedilməsi üzrə mövcud olan təcrübələrə əsasən tərtib edilmişdir.

**Açar sözlər:** Blokçeyn, korporativ idarəetmə, texnologiya, dəyər, kriptovalyuta, maliyyə, innovasiya, startap, smart kontrakt, rəqəmsal və s.

**JEL G34, O33; UDC 658.42**

## Giriş/Introduction

Blokçeyn texnologiyası müasir dövrdə müxtəlif sahələrdə tətbiq olunmaqla şəffaflığı və effektivliyi artıran mühüm innovasiyalardan biridir. Korporativ idarəetmədə bu texnologiyanın tətbiqi hesabatlılığı gücləndirərək qərarların daha dəqiq və obyektiv şəkildə qəbul edilməsinə imkan yaradır. Blokçeyn əsaslı sistemlər məlumatların dəyişdirilməz və təhlükəsiz saxlanmasını təmin edir. Bu xüsusiyyət korporativ idarəetmədə kənarlaşma hallarının qarşısını almağa kömək edir.

Korporativ idarəetmədə blokçeyn əsaslı səmərəli həllərdən biri smart kontraktlardır. Smart kontraktlar əvvəlcədən müəyyən edilmiş qaydalara uyğun olaraq avtomatik icra olunan rəqəmsal müqavilələrdir. Onların tətbiqi şirkətlərin daxili və xarici öhdəliklərini daha dəqiq yerinə yetirməsinə kömək edir. Həmçinin, bu texnologiya səhmdarların səsvermə prosesini daha şəffaf və təhlükəsiz etməyə imkan verir. Səhmdarlar blokçeyn vasitəsilə səsvermə hüquqlarını həyata keçirərək nəticələrin saxtalaşdırılmasının qarşısını ala bilərlər.

Blokçeyn texnologiyası maliyyə əməliyyatlarında da mühüm rol oynayır. Şirkətlər maliyyə hesabatlarını blokçeyn üzərində qeyd edərək onların doğruluğunu təmin edə bilərlər. Məlumatların dəyişdirilə bilməməsi sayəsində investorlar və tənzimləyici qurumlar üçün hesabatların etibarlılığı artır. Bundan əlavə, bu texnologiya daxili audit proseslərini asanlaşdırır və xərcləri də azaldır.

Təchizat zəncirinin idarə olunması blokçeyn texnologiyasının faydalı olduğu başqa bir sahədir. Şirkətlər bu texnologiyadan istifadə edərək məhsulların istehsal və daşınma proseslərini izləyə bilirlər. Bununla da keyfiyyətə nəzarət artır, saxtakarlıq halları minimuma enir. Həmçinin, blokçeyn vasitəsilə müqavilələrin icrası daha dəqiq aparılır.

İnsan resurslarının idarə olunmasında da blokçeyn texnologiyasının rolu artır. Şirkətlər işçilərin məlumatlarını blokçeyn üzərində saxlayaraq onların təhlükəsizliyini təmin edə bilərlər. İşçi təcrübəsi, sertifikatlar və əməkhaqqı əməliyyatları blokçeyn üzərində avtomatlaşdırıla bilər. Bu isə şəffaflığı artırır və insan resursları departamentlərinin yükünü azaldır.

## Əsas hissə / Main part

Korporativ idarəetmədə blokçeynin digər bir üstünlüyü şirkətlər arasında əməkdaşlıq proseslərini optimallaşdırmasıdır. Müxtəlif təşkilatlar arasında məlumat mübadiləsi blokçeyn vasitəsilə təhlükəsiz və dəyişdirilməz şəkildə aparılır. Bu, biznes partnyorlar arasında etimadı gücləndirir və strateji qərarların daha sağlam əsaslarla qəbul edilməsinə kömək edir.

Risklərin idarə olunması blokçeyn texnologiyasının tətbiqi ilə daha effektiv hala gəlir. Şirkətlər blokçeyn üzərində saxlanan tarixi məlumatlar əsasında maliyyə və strateji riskləri proqnozlaşdıra bilərlər. Bundan əlavə, blokçeyn əsaslı identifikasiya sistemləri kibertəhlükəsizlik səviyyəsini artırır.

Bütün bu üstünlüklərə baxmayaraq, blokçeyn texnologiyasının korporativ idarəetmədə tətbiqi müəyyən çətinliklərlə də üzləşir. İlk növbədə, bu sistemlərin qurulması və idarə olunması üçün yüksək texnoloji biliklər tələb olunur. Həmçinin, blokçeyn sistemlərinin geniş miqyasda tətbiqi üçün hüquqi tənzimləmələrə ehtiyac vardır. Buna baxmayaraq, uzunmüddətli perspektivdə blokçeyn texnologiyası korporativ idarəetmənin səmərəliliyini artıraraq biznes mühitini daha şəffaf və hesabatlı hala gətirəcəkdir.

**Beynəlxalq təcrübənin öyrənilməsi**

1. ABŞ. ABŞ blokçeyn texnologiyasında lider ölkələrdən biridir. Ölkədə 32,000 blokçeyn patenti qeydə alınıb və bu sahədə 17,000-dən çox iş yeri mövcuddur. Bundan əlavə, ölkədə 166 kriptovalyuta birjası fəaliyyət göstərir. Böyük korporasiyalar, xüsusilə maliyyə və səhiyyə sektorlarında, blokçeyn texnologiyasını şəffaflığı artırmaq və təhlükəsizliyi təmin etmək üçün tətbiq edirlər [3, s.48-49]. Məsələn, Walmart və IBM blokçeyndən qida tədarük zəncirini izləmək üçün istifadə edir. Bank of America və JPMorgan Chase isə blokçeyn əsaslı ödəniş sistemlərini sınaqdan keçirir. ABŞ hökuməti də blokçeynə maraq göstərərək, SEC və digər tənzimləyici qurumlar vasitəsilə rəqəmsal aktivlərin idarə olunmasını asanlaşdırır. Azərbaycanda ABŞ modelinin tətbiqi üstünlükləri aşağıdakılar ola bilər:

-  Bank və maliyyə sektorunda blokçeyn əsaslı şəffaf və təhlükəsiz ödəniş sistemlərinin yaradılması.
-  Azərbaycanın kiçik və orta sahibkarlıq (KOB) subyektləri üçün blokçeyn əsaslı kredit və investisiya mexanizmlərinin inkişafı.
-  ABŞ-ın blokçeyn texnologiyasını tətbiq etdiyi səhiyyə sistemindən nümunə götürərək, elektron tibbi qeydlərin təhlükəsiz saxlanılması.
-  ABŞ-ın korporativ idarəetmədə istifadə etdiyi blokçeyn əsaslı səsvermə sistemlərinin Azərbaycan şirkətlərində tətbiqi.

2. Çin. Çin blokçeyn texnologiyasını milli prioritet kimi qəbul edib və bu sahəyə böyük investisiyalar yönəltmişdir. Çinin Dövlət əmlakının monitorinqi və idarə edilməsi komissiyası (SASAC) tabeçiliyində olan təxminən 200 şirkətdən 54 şirkətin şura üzvlərini birbaşa təyin edir [3, s.101]. Ölkədə 18,000-dən çox blokçeyn patenti qeydə alınıb və bu texnologiya əsasən rəqəmsal identifikasiya, ticarət və hökumət məlumatlarının idarə olunmasında tətbiq edilir. Çin Xalq Bankı öz rəqəmsal valyutası olan e-CNY-ni blokçeyn əsaslı sistemdə sınaqdan keçirməkdədir. Alibaba və Tencent kimi nəhəng texnologiya şirkətləri isə blokçeyni maliyyə və logistika sahələrində geniş istifadə edir. Çində dövlət səviyyəsində blokçeyn əsaslı məlumat mübadilə sistemləri qurulub və sənəd saxtakarlığını aradan qaldırmaq üçün istifadə olunur. Çin modelindən əldə edilə biləcək üstünlükləri isəAzərbaycan üçün aşağıdakı kimi qruplaşdıra bilərik:

- ✓ Rəqəmsal şəxsiyyət vəsiqələri və elektron hökumət xidmətlərinin blokçeyn üzərindən inteqrasiyası.
- ✓ Azərbaycanın ticarət və gömrük əməliyyatlarında blokçeyn əsaslı məlumat paylaşım sistemlərinin tətbiqi.
- ✓ Dövlət satınalmalarında şəffaflığı artırmaq üçün blokçeyn əsaslı tender və müqavilə sistemləri.
- ✓ Çin Mərkəzi Bankının rəqəmsal valyuta təcrübəsini Azərbaycan Mərkəzi Bankına uyğunlaşdıraraq milli rəqəmsal manat konsepsiyasının inkişafı.

3. Estoniya. Estoniya blokçeyn texnologiyasını dövlət idarəçiliyində ən geniş tətbiq edən ölkələrdən biridir. 2012-ci ildən etibarən Estoniya Ədliyyə Nazirliyi Miras Qeydiyyatı üçün blokçeyn texnologiyasından istifadə edir. Ölkədə 95 blokçeyn patenti, 149 blokçeyn sahəsində iş yeri və 52 kripto birjası mövcuddur [3, s.30]. Estoniyanın e-Residency proqramı sayəsində xarici sahibkarlar Estoniyada onlayn biznes açaraq, rəqəmsal xidmətlərdən istifadə edə bilirlər. Ölkənin istifadə etdiyi KSI Blockchain texnologiyası NATO və ABŞ Müdafiə Nazirliyi tərəfindən də istifadə edilir. Bundan əlavə, Estoniya dünyanın ilk "Data Embassy" modelini tətbiq edərək, dövlət məlumatlarını xarici

serverlərdə ehtiyat nüsxə kimi saxlayır və rəqəmsal təhlükəsizliyi artırır. [5]. Azərbaycanda korporativ idarəetmə sistemində tətbiq edilə biləcək əsas üstünlüklərə aşağıdakıları aid edə bilərik:

- ✓ Estoniyanın e-Residency modelinə əsaslanaraq xarici sahibkarlar üçün Azərbaycan bazarına çıxışı asanlaşdıran e-rezidentlik proqramının yaradılması.
- ✓ Azərbaycan dövlət idarəçiliyində blokçeyn əsaslı sənəd dövriyyəsinin tətbiqi və bürokratiyanın azaldılması.
- ✓ Korrupsiya ilə mübarizə üçün dövlət sənədlərinin dəyişdirilməz blokçeyn texnologiyası ilə qeydiyyata alınması.
- ✓ Universitetlər və akademik institutlar üçün diplom və sertifikatların blokçeyn vasitəsilə yoxlanıla bilməsi.

4. İsveçrə. İsveçrə blokçeyn və kriptovalyuta sahəsində Avropanın lider ölkələrindən biridir. Ölkədə 440 blokçeyn sahəsində iş yeri və 32 kripto birjası fəaliyyət göstərir. Xüsusilə, “Crypto Valley” adlandırılan Zug kantonu dünyada ən böyük blokçeyn mərkəzlərindən birinə çevrilib. İsveçrə bank sektoru da blokçeyn texnologiyasını qəbul edərək rəqəmsal aktivlərin idarə olunmasını asanlaşdırır. FINMA (İsveçrə Maliyyə Bazarına Nəzarət Orqanı) blokçeyn əsaslı startapların inkişafını dəstəkləmək üçün əlverişli hüquqi çərçivə hazırlayıb. İsveçrə eyni zamanda Mərkəzi Bank Rəqəmsal Valyutası (CBDC) ilə bağlı sınaq layihələri həyata keçirir [5]. Azərbaycan üçün tətbiq edilə biləcək üstünlüklərə aşağıdakıları aid edə bilərik:

-  Azərbaycanın maliyyə texnologiyaları sektorunda blokçeyn əsaslı startap ekosisteminin inkişaf etdirilməsi və yeni texnoloji parkların yaradılması.
- “Crypto Valley” modelinə əsasən, Azərbaycanda blokçeyn əsaslı innovasiya mərkəzlərinin yaradılması.
- İsveçrənin blokçeyn tənzimləmə çərçivəsindən istifadə edərək, Azərbaycanda rəqəmsal aktivlərin hüquqi statusunun tənzimlənməsi.
- Kriptovalyuta mübadilə platformalarının tənzimlənməsi və təhlükəsizliyinin artırılması.

5. Sinqapur. Sinqapur blokçeyn texnologiyasının tətbiqi sahəsində dünya lideridir. Ölkə, rəqəmsal maliyyə əməliyyatları və təchizat zənciri idarəetməsində blokçeyndən geniş istifadə edir. Sinqapur Mərkəzi Bankı “Project Ubin” adlı layihə çərçivəsində blokçeyn əsaslı maliyyə əməliyyat sistemlərini sınaqdan keçirib. Ölkədə 95 blokçeyn patenti və çoxsaylı blokçeyn sahəsində iş imkanları mövcuddur [3, s.51]. Hökumət, blokçeyn startaplarını dəstəkləyərək Sinqapuru Asiyanın blokçeyn innovasiya mərkəzinə çevirmək niyyətindədir. Dövlətin “Infocomm Media Development Authority” təşkilatı blokçeynin müxtəlif sahələrdə tətbiqini təşviq edir və maliyyələşdirir [5]. Azərbaycan üçün aşağıdakı üstünlüklər tətbiq edilə bilər:

- Sinqapur Mərkəzi Bankının həyata keçirdiyi “Project Ubin” təcrübəsinə əsaslanaraq, Azərbaycanda blokçeyn əsaslı dövlət ödəniş sistemlərinin tətbiqi.
- Azərbaycanın maliyyə sektorunda blokçeyn əsaslı “ağıllı müqavilələr”in (smart contracts) tətbiqi və bu sistemin hüquqi çərçivəsinin formalaşdırılması.
- Sinqapurda blokçeyn texnologiyalarına dövlət dəstəyi modelinə əsaslanaraq, Azərbaycanda blokçeyn startapları üçün xüsusi maliyyələşdirmə proqramlarının yaradılması.
- Azərbaycan Dövlət Vergi Xidmətində blokçeyn əsaslı vergi nəzarəti mexanizmlərinin tətbiqi və şəffaflığın artırılması.

Bu ölkələrin təcrübəsi göstərir ki, blokçeyn texnologiyası korporativ idarəetmədə şəffaflıq, təhlükəsizlik və effektivliyi artırmaq üçün geniş istifadə olunur. ABŞ və Çin əsasən maliyyə və hökumət sektorlarına yönəlsə də, Estoniya və İsveçrə dövlət idarəçiliyi və tənzimləyici çərçivədə innovativ həllər təqdim edir. Sinqapur isə blokçeyn texnologiyasını regional mərkəzə çevirmək üçün strateji addımlar atır. Həmçinin, Azərbaycan sözü gedən bu 5 ölkənin təcrübəsindən istifadə edərək blokçeyn texnologiyasını maliyyə, dövlət idarəçiliyi, rəqəmsal identifikasiya, startap ekosistemi və hüquqi çərçivələrdə də tətbiq edə bilər.

**Ümumi təhlil və qiymətləndirmə**

2020-2024 illəri ərzində həm blokçeyn bazarının dəyəri, həm də texnologiyaya sərf olunan qlobal xərclər davamlı və sürətli şəkildə artmışdır (bax qrafik 1). 2020-ci ildə blokçeyn bazarının dəyəri 3 milyard dollar olub. 2021-ci ildə bu göstərici 6.6 milyard dollar səviyyəsinə yüksəlib

(təxminən 120% artım). 2022-ci ildə bazar dəyəri 12 milyard dollar olub, bu da texnologiyanın daha geniş istifadə edildiyini göstərir. 2023-cü ildə bazar 19 milyard dollar olub, ən böyük illik artımlardan biri burada müşahidə olunmuşdur. 2024-cü ildə isə bazarın həcmi 25 milyard dollara çatmışdır. Bu artım, blokçeynə artan marağın, onun fərqli sahələrdə tətbiqinin və dövlətlərin bu texnologiyaya yönələn siyasətlərinin təsiri ilə bağlıdır.

**Qrafik 1. Son 5 ildə Blokçeyn texnologiyasının qlobal miqyasda dəyəri, mlrd. ABŞ dolları ilə**




Mənbə: Blokçeyn bazarının həcmi üzrə təqdim olunmuş hesabatı. 2024. [6]

Qrafik məlumatlarına görə 2020-ci ildə blokçeyn texnologiyasına qoyulan sərmayələr 4,5 milyard dollar olub. 2021-ci ildə bu rəqəm 6,6 milyard dollara yüksəlib. 2022-ci ildə blokçeynə qoyulan vəsait 10,5 milyard dollar, 2023-cü ildə 14,8 milyard dollar, 2024-cü ildə isə 19 milyard dollar olmuşdur. Bu rəqəmlər göstərir ki, blokçeyn yalnız nəzəri konsept olmamaqla yanaşı, real sektorda geniş tətbiq edilir və ona qoyulan investisiyalar dinamik olaraq artmaqdadır.

Blokçeyn bazarı və qlobal xərclər eyni istiqamətdə artır-yəni, şirkətlər və dövlətlər texnologiyanı təkcə tədqiq etməklə kifayətlənmir, eyni zamanda onu tətbiq etmək üçün ciddi vəsait xərcləyirlər. Bazar dəyərinin artım tempi xərclərin artım tempindən yüksəkdir-bu isə onu göstərir ki, blokçeyn texnologiyasına yatırılan sərmayələr artıq daha yüksək gəlir gətirir. 2022-ci ildən sonra bazarda daha kəskin artım baş vermiş, bu isə blokçeynin yalnız maliyyə deyil, həm də səhiyyə, logistika, hökumət idarəetməsi kimi sektorlarda geniş istifadəsi ilə bağlı olmuşdur.

Blokçeyn texnologiyasının 2030-cu ilə qədər inkişafı ilə bağlı proqnozlar göstərir ki, bu sahə sürətlə böyüməyə davam edəcək. Trans Milli Korporasiyalar arasında AWS, IBM, Oracle, Microsoft, Google, Huawei və Alibaba kimi texnologiya nəhəngləri yer alır (bax qrafik 2).

**Blokçeyn toxnologiyasının 2024-2030-cu illər üçün mümkün genişlənməsi proqnozu**

1. **2024-2025**-Blokçeyn texnologiyasının daha çox dövlət və maliyyə sektoruna inteqrasiyası. Kriptovalyutalar xaricində daha çox sənaye tətbiqləri yaranacaq.
2. **2026-2027**-Mərkəzsiz maliyyə (DeFi) və tokenizasiya texnologiyalarının geniş yayılması. Blokçeyn əsaslı identifikasiya sistemləri inkişaf edəcək.
3. **2028-2029**-Böyük müəssisələr və hökumətlər blokçeyn texnologiyasını tənzimlənmiş və geniş istifadə olunan bir sistem kimi qəbul edəcəklər.
4. **2030**-Blokçeyn texnologiyasının hüquqi, tibbi, təhsil və nəqliyyat sektorlarında geniş tətbiqi gözlənilir.

Bu proqnozlar mövcud bazar araşdırmalarına əsaslanır və blokçeyn texnologiyasının müxtəlif sahələrdə təsirinin artacağı gözlənilir [6].

**Qrafik 2. 2030-cu ilə qədər Blokçeyn texnologiyasının qlobal miqyasda tətbiqi proqnozu**




Mənbə: Biznes Transformasiyası (Proses, Model, Domen), Texnologiya (Cloud Computing, AI, Big Data Analytics (Proqnozlaşdırılmış, Prescriptive), Blockchain, Kibertəhlükəsizlik (Şəbəkə, Bulud Təhlükəsizliyi), IoT, RPA) ilə Rəqəmsal Transformasiya Bazarı - 2030-cu ilə qədər Qlobal Proqnoz [7]

Proqnoz artımının faizlə ifadəsinə baxdıqda sahələr üzrə fərqli bölgünün şahidi oluruq.

- 2025-ci il: 30% (Daha çox şirkət və maliyyə sektoru üzrə tətbiqin artımı müşahidə ediləcəkdir)
- 2026-cı il: 45% (Smart kontraktlar və NFT-lər populyarlaşması hesabına tətbiqin səviyyəsinin artması proqnozlaşdırılmışdır)
- 2027-ci il: 60% (Dövlət sektoru və təhsil sahəsində tətbiqin artması gözlənilir)
- 2028-ci il: 75% (Sağlamlıq, logistika və hökumət xidmətlərində geniş tətbiqin nəticəsi olaraq proqnozlaşdırmaq olar)
- 2029-cu il: 85% (Blokçeyn əsaslı identifikasiya sistemlərinin sahəvi diversifikasiyası üzrə proqnozlaşdırmaq olar)
- 2030-cu il: 95% (İnkişaf etmiş ölkələrdə əsas texnologiya kimi qəbul edilməsi üzrə proqnozlaşdırmaq olar).

***“Research and Markets”*** şirkəti isə Blokçeyn bazarının 2024-cü ildə 20,1 milyard ABŞ dollarından 2029-cu ilə qədər 248,9 milyard ABŞ dollarına qədər artacağını və illik 65,5% artım göstərəcəyini proqnozlaşdırmışdır [8].

**Azərbaycanda Blokçeyn texnologiyasının tətbiqi üzrə mövcud problemlər**

Dünyada tətbiq olunan ən müasir texnologiyaların respublikamıza gətirilərək onların müxtəlif sahələrdə, o cümlədən dövlət idarəetmə strukturlarında tətbiqinə böyük əhəmiyyət verən ölkə Prezidentinin tapşırığına uyğun olaraq informasiya-kommunikasiya texnologiyaları sahəsində respublikada yaradılmış güclü potensial vətəndaş müraciətlərinin qəbul edilməsi və baxılmasını yüksək keyiyyətlə həyata keçirilməsi üçün lazımi imkanlar vermişdir [1, 2]. Azərbaycanda blokçeyn texnologiyasının tətbiqi bir sıra problemlərlə üzləşir. Bu problemləri bir neçə əsas kateqoriyaya bölmək olar:

**1. Hüquqi və tənzimləmə məsələləri üzrə:**

- Azərbaycanda blokçeyn və kriptovalyutalarla bağlı dəqiq və müfəssəl qanunvericilik bazası hələ tam formalaşmaması.
- Kriptovalyutaların hüquqi statusunun qeyri-müəyyən olmas, bu da biznes və fərdlər üçün qeyri-müəyyənliyin yaratması.
- Blokçeyn texnologiyasının tənzimlənməsi və nəzarəti üçün konkret qaydaların olmaması.

**2. İctimaiyyətin və bizneslərin məlumatlılıq səviyyəsi üzrə:**

- Blokçeyn haqqında kifayət qədər məlumatlı olmayan biznes və fərdlər bu texnologiyadan istifadəyə maraq göstərmirlər.
- Bu sahədə ixtisaslaşmış kadrların azlığı inkişafı ləngidir.

**3. Texniki infrastruktur və investisiyalar üzrə:**

• Blokçeyn texnologiyasının tətbiqi üçün güclü texnoloji infrastruktur tələb olunur, lakin Azərbaycanda bu sahədə problemlər var.

• Sahibkarlar və dövlət qurumları tərəfindən blokçeyn texnologiyalarına yetərincə investisiya qoyulmur.

• Elektron hökumət sistemlərinə blokçeyn texnologiyasının inteqrasiyası kifayət qədər sürətli həyata keçirilmir.

**4. Tətbiq sahələri və praktiki istifadənin məhdudluğu üzrə:**

• Hal-hazırda blokçeynin Azərbaycanda geniş tətbiqi üçün yetərincə real istifadə nümunələri yoxdur.

• Dövlət və özəl sektor hələlik bu texnologiyanın üstünlüklərindən tam istifadə etmir.

**5. Risklər və etimadsızlıq üzrə:**

• İnsanlar blokçeyn texnologiyasına və kriptovalyutalara skeptik yanaşır, onları riskli hesab edirlər.

• Fırıldaqçılıq və kibertəhlükəsizlik problemləri ilə bağlı narahatlıqlar var.

Bununla belə, Azərbaycanda blokçeyn texnologiyasının tətbiqi ilə bağlı müəyyən addımlar da atılmışdır. Məsələn, bəzi dövlət qurumları sənədlərin təhlükəsiz saxlanılması və verifikasiyası üçün blokçeyn texnologiyasının potensialını araşdırır. Ancaq bu problemlərin həlli üçün daha geniş hüquqi, texniki və maarifləndirici tədbirlər həyata keçirilməlidir.

Azərbaycanda dövlət sektorunda blokçeyn texnologiyasının tətbiqi dövlət idarəetməsində şəffaflığın, hesabatlılığın və səmərəliliyin artırılmasına yönəlmiş bir yanaşmadır. Bu sistemin əsasını mərkəzləşdirilməmiş blokçeyn şəbəkəsi təşkil edir ki, bu da dövlət qurumları, vətəndaşlar, özəl sektor və nəzarət orqanları arasında məlumat axınının təhlükəsiz və şəffaf şəkildə idarə olunmasına imkan yaradır.

**Şəkil. Azərbaycanda dövlət sektoru üzrə korporativ idarəetmədə Blokçeyn texnologiyasının tətbiqi**




Mənbə: Şəkil "Dünya Bankı, 2017. Azərbaycan Respublikası: korporativ idarəetmə və dövlət müəssisələrinin mülkiyyəti hesabatı əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təqdim olunmuş şəkilə uyğun olaraq qeyd edə bilərik ki, Blokçeyn əsaslı idarəetmə modeli dövlət satınalmaları, vergi yığım sistemi, torpaq və əmlak reyestri, elektron hökumət xidmətləri və digər sahələrdə tətbiq oluna bilər. Xüsusilə, ağıllı müqavilələr vasitəsilə tender və satınalma prosesləri avtomatlaşdırılır, bütün əməliyyatlar blokçeyn üzərində qeyd olunaraq saxtakarlıq ehtimalı aradan qaldırılır. Vergi və sosial ödənişlər rəqəmsal izlənmə sisteminə keçid edildikdə, maliyyə pozuntularının qarşısı alınır və dövlət gəlirlərinin idarə olunması daha effektiv olur.

Bu modelin ən böyük üstünlüklərindən biri real vaxtda monitorinq və şəffaflığın təmin olunmasıdır. Dövlət xərcləri ictimaiyyət üçün açıq şəkildə blokçeyn üzərində izlənilə bilər ki, bu da korrupsiyanın və qanunsuz maliyyə əməliyyatlarının aşkarlanmasını asanlaşdırır. Bununla yanaşı, məlumatların təhlükəsizliyi üçün şifrələmə və kriptoqrafik qoruma tədbirləri həyata keçirilir ki, şəxsi və məxfi məlumatların icazəsiz istifadəsi mümkün olmasın.

Blokçeyn texnologiyasının dövlət sektoruna inteqrasiyası həm vətəndaşların dövlətə olan etimadını artırır, həm də dövlət idarəçiliyində effektivliyi və operativliyi gücləndirir. Lakin bu sistemin tətbiqi üçün qanunvericilik islahatları, yeni texnoloji infrastrukturun qurulması və dövlət qulluqçularının bu texnologiya üzrə biliklərinin artırılması tələb olunur. Nəticədə, blokçeyn əsaslı idarəetmə modeli Azərbaycanda rəqəmsal hökumət strategiyasının inkişafına mühüm töhfə verə bilər.

## Nəticə /Conclusion

Azərbaycanda korporativ idarəetmədə blokçeyn texnologiyasının tətbiqi dövlət idarəçiliyinin modernləşdirilməsi üçün mühüm addımlardan biridir. Blokçeyn sistemləri dövlət müəssisələrinin fəaliyyətində şəffaflığı və hesabatlılığı artırır. Bu texnologiya sayəsində məlumatlar dəyişdirilməz və təhlükəsiz şəkildə saxlanılır. Dövlət müəssisələrində maliyyə əməliyyatları daha dəqiq izlənilə bilər. Xüsusilə satınalmalar və dövlət tenderlərində korrupsiya riskləri azalır. Şəffaflıq artırıldıqca vətəndaşların dövlətə olan etimadı güclənir. Dövlət büdcəsinin idarə olunmasında blokçeyn effektivlik təmin edə bilər:

-Mühasibat uçotu və audit prosesləri avtomatlaşdırılır və dövlət vəsaitlərinin idarə edilməsində hesabatlılıq yüksəlir.

-Dövlət şirkətlərinin xərclərinin optimallaşdırılması mümkün olur. Dövlət müəssisələrində sənədləşmə prosesləri rəqəmsallaşır və büdcə xərcləri real vaxt rejimində izlənilə bilər.

-Şəxsi məlumatların qorunması daha güclü mexanizmlərlə təmin olunur.

-Elektron hökumət xidmətlərinin effektivliyi artır və dövlət müəssisələrinin fəaliyyətində sürət və çeviklik artır.

Dövlət xərclərinin daha şəffaf idarə olunması üçün blokçeyn əlverişli texnologiyadır. Bu aspektdə mülkiyyət hüquqları və torpaq reyestrinin idarə olunması asanlaşır, elektron qeydiyyat sistemlərinin təhlükəsizliyi isə öz növbəsində artmış olur. Bundan başqa dövlət investisiya layihələrinin icrası blokçeyn vasitəsilə daha şəffaf aparıla bilir ki, bu da dövlət şirkətləri arasında inteqrasiya imkanlarını genişləndirmiş olur. Bu istiqamətdə əsas diqqət yetiriləsi məsələlər bunlardır:

-Korrupsiyaya qarşı mübarizədə blokçeyndən istifadə üçün hüquqi tənzimləmə və qanunvericilik uyğunlaşdırılmalıdır.

-Dövlət sektoru üçün xüsusi blokçeyn çərçivəsi hazırlanmalıdır. Bu aspektdə dövlət müəssisələrinin əməkdaşları üçün blokçeyn bilikləri artırılmalıdır.

-Dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində blokçeyn tətbiqləri inkişaf etdirilməlidir. Bu istiqamətdə açıq məlumat platformalarının yaradılması mümkündür.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Hüseynzadə E. “Vətəndaş müraciətlərinin qəbul edilməsi və baxılması sahəsində Blokçeyn texnologiyasının tətbiqi”. İqtisadi islahatlar-elmi-analitik jurnal. AR İqtisadi İslahatların Təhlili və Kommunikasiyas Mərkəzi. 2023, №1 (2). Səh.99-106
2. İsmayılov S. “Elektron kargüzarlıq və elektron informasiya sistemi müasir idarəetmədə mühüm vasitədir” // Azərbaycan qazeti 03.08.2015
3. “Dünya Bankı, 2017. Azərbaycan Respublikası: korporativ idarəetmə və dövlət müəssisələrinin mülkiyyəti. P.118.
4. Blokçeyn texnologiyası və korporativ idarəetmə. 2018. 38 səh. https://one.oecd.org/document/DAF/CA/CG/RD(2018)1/REV1/En/pdf
5. “Infocomm Media Development Authority”. pwc.com crowdfundinsider.com
6. İnformasiya və kommunikasiya texnologiyaları bazar tədqiqi. marketsandmarkets.com

7. Blokçeyn: statistika və faktlar. https://www.statista.com/topics/5122/blockchain
8. Qlobal bloikçeyn bazarı. Proqnozlar. https://www.researchandmarkets.com/report/blockchain

# Оценка возможностей применения технологии блокчейн в корпоративном управлении

**Асиф Мустафаев**
МОН АР Институт Экономики. к.э.н, доцент
E-mail: asif5252@rambler.ru

**Резюме:** В представленной статье рассмотрена оценка возможностей внедрения технологии блокчейн в систему корпоративного управления. Особо подчеркнут опыт передовых стран в этой области, отметив преимущества технологии блокчейн. Также были рассмотрены возможности применения этой системы в Азербайджане. Далее в статье подчеркивается, что использование технологии блокчейн значительно увеличится в течение следующих 5 лет. Это можно увидеть на графике, представленном в виде значения. В заключение была предложена возможная модель применения технологии блокчейн в Азербайджане. Модель составлена на основе существующей практики Управления государственной собственностью.

**Ключевые слова:** блокчейн, корпоративное управление, технологии, стоимость, криптовалюта, финансы, инновации, стартап, смарт-контракт, цифровые технологии и т. д.

DOI: https://doi.org/10.36719/2707-9317/05/44-52

# Assessment of greenhouse gas emissions in Azerbaijan cities

**Metanet Abdalova**
Institute of Economy of the Ministry of Science and Education
Leading Researcher of the Department of "Problems of Regional Development and Use of Natural Resources", PhD, Associate Professor

**Abstract:** One of the most pressing global problems of our time is climate change and the impact of cities on this process. In the course of the research work, the share of cities in greenhouse gas emissions, the indicators necessary for their assessment, international standards and protocols were considered. Planning actions to combat climate change begins with the compilation of an inventory of greenhouse gas emissions, which allows for a separate assessment of the level of various emissions from human activity. In the research work, ratings and assessments carried out in this direction among cities of the world were studied and analyzed. By studying foreign experience, greenhouse gas emissions in the cities of Azerbaijan were assessed for the first time by five subindices and certain results were obtained.

**Key words:** greenhouse gas emissions, Greenhouse Gas Protocol, global warming, energy consumption, clean transport, green energy.

**JEL:R13 UOT:332**

# Azərbaycan şəhərlərində İXQ emissiyalarının qiymətləndirilməsi

**Mətanət Abdalova**
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun
“Regional inkişaf və təbii sərvətlərdən istifadə problemləri” şöbəsinin
aparıcı elmi işçisi, i.f.d., dosent
e-mail: metanet.abdalova@mail.ru
https://ORCID.org/0000-0003-3272-3089

**Xülasə:** Müasir dövrdə ən aktual qlobal problemlərdən biri iqlim dəyişikliyi və şəhərlərin iqlim dəyişikliyinə təsiridir. Tədqiqat işində istixana qazlarının emissiyasında şəhərlərin payı, onların qiymətləndirilməsini aparmaq üçün lazım olan göstəricilər, beynəlxalq standartlar və protokollar araşdırılıb. İqlim dəyişikliyi ilə mübarizə üzrə fəaliyyətin planlaşdırılması istixana qazları emissiyalarının kadastrının tərtib edilməsi ilə başlayır ki, bu da insan fəaliyyətinin müxtəlif emissiyalarının səviyyəsini ayrıca qiymətləndirməyə imkan verir. Tədqiqat işində dünya şəhərləri arasında bu istiqamətdə aparılan reytinqlər və qiymətləndirmələr öyrənilib və təhlil edilib. Xarici təcrübəni öyrənməklə ilk dəfə Azərbaycan şəhərlərində İXQ emissiyalarının beş sub-indeks üzrə qiymətləndirilməsi aparılıb və müəyyən nəticələr əldə edilib.

**Açar sözlər**: istixana qazı emissiyaları, GHG Protokolu, qlobal istiləşmə, enerji istehlakı, “təmiz” nəqliyyat, yaşıl enerji.

**JEL:R13 UOT:332**

## Giriş

2022-ci ildə açıqlanan İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) hesabatına əsasən, şəhərlər əsas istixana qazları sayılan karbon qazı (CO2) və metan (CH4) emissiyalarının 67-72%-ni təşkil edir.[1] Əksər şəhər və meqapolislər tərəfindən qəbul edilmiş davamlı inkişafa keçid, karbon neytrallığına nail olma, şəhər yaşıl iqtisadiyyatının formalaşmasını zərurətə çevirir. İqlim dəyişikliyini azaltmaq və tərəqqini izləmək üçün şəhərlərdə səmərəli tədbirlərin həyata keçirilməsi zəruridir. İqlim dəyişikliyi ilə mübarizədə şəhər səviyyəsində görülən səylər zaman keçdikcə artır - dünyanın 800-dən çox şəhəri karbon neytrallığına nail olmağı qarşısına məqsəd qoyub [1] İstixana qazı emissiyalarının azaldılması və onların baş verməsinin səbəblərini aradan qaldırmaq məqsədilə birgə öhdəliklər nəzərdə tutan beynəlxalq şəhər birlikləri yaradılmışdır: C40 Qrupu və İqlim və Enerji üzrə Bələdiyyə Başçılarının Qlobal Razılaşması (GCoM).

BMT-nin Məskunlaşma Proqramına əsaslanan “Şəhərlər və iqlim dəyişməsi: strategiya istiqamətləri” adlı hesabatında deyilir ki, şəhərlərdə insan (və ya antropogen) fəaliyyəti nəticəsində yaranan istixana qazları (İQ) emissiyalarının qiymətləndirməsini istehsal və istehlak göstəriciləri əsasında aparmaq olar. Lakin qiymətləndirmə istehlak məlumatları əsasında aparıldıqda (yəni rəqəmlər istehsalın coğrafi yerləşməsindən asılı olmayaraq, şəhər sakinləri tərəfindən istehlak edilən məhsulların istehsalından İXQ emissiyalarının toplanması ilə hesablanır) şəhərlərdə yaranan istixana qazları emissiyalarının xüsusi çəkisi istehsal məlumatlarına nisbətən (40-70%) 60-70 faizə qədər yüksələ bilər. Hesabat belə nəticəyə gəlir ki, şəhər emissiyalarının miqyası haqqında dəqiq nəticə çıxarmaq çox çətindir, üstəlik, dünyanın əksər şəhər mərkəzləri istixana qazı emissiyalarını ölçməyə cəhd etməyiblər.[3]

Bütün dünyada olduğu kimi, Azərbaycandada qlobal istiləşmənin müəyyən nəticələri artıq özünü göstərməkdədir: Xəzər dənizi sahili boyunca şoranlaşma, təhlükəsiz içməli suyun qıtlığı, fırtınalar, balıq ehtiyatlarının sayının və müxtəlifliyinin azalması; daşqın təhlükəsi, gözlənilməyən sellər, sürüşmələr (xüsusilə Şəki-Zakatala regionunda baş verir); Bakıda və Abşeron yarımadasında torpağın səhralaşması və deqradasiyası və ekstremal istilik dövrləri. [4]

Azərbaycanda 2022-ci ildə elektrik enerjisi istehsalı 28,988 milyard kilovat-saata çatıb. Onun 24,2 18 milyard kilovat-saatı (yəni 83,5%-i) Bakı, Sumqayıt, Şirvan və Mingəçevir şəhərlərində

istehsal olunur. Elektrik enerjisi istehlakında isə (cəmi ölkə üzrə 22,617 milyard KVt/saat) bu şəhərlərin payı 69%-dir.[5] Təbii ki, ən böyük İXQ emissiyaları da burda yaranır.

**Əsas hissə**

**Şəhərlərdə İXQ emissiyalarını araşdıran beynəlxalq tədqiqatlar**

Müasir dövrdə müxtəlif hesabat üsullarından istifadə etməklə hazırlanmış dünyanın müxtəlif şəhərləri üçün istixana qazı tullantıları kadastrlarını araşdıran çoxsaylı tədqiqatlar mövcuddur. Dünya miqyasında istixana qazı emissiyalarının uçotu üçün beynəlxalq standartın (GPC, 2014) olmağına baxmayaraq, şəhərlər tərəfindən istifadə edilən cari inventarlaşma üsulları geniş şəkildə fərqlənir, bu da zaman və məkan üzrə emissiyaların azaldılmasında irəliləyişi qiymətləndirməyi və müqayisə etməyi çətinləşdirir.

İXQ emissiya kadastrı bir çox ölkələrdə şəhər səviyyəsində geniş şəkildə işlənib hazırlanmışdır. Məsələn, Şərqi Asiyanın 12 meqapolisinin (Çin, Cənubi Koreya və Yaponiyada) CO2 emissiya profilləri emissiya inventarlarını məkan xəritələşdirmə modellərinə daxil etməklə müəyyən edilmiş və onların karbon emissiyalarının azaldılması hədəfləri əsasında hərəkətverici qüvvələr təhlil edilmişdir [6](Sun et al., 2021). Çinin yüksək rezolyusiyaya malik emissiya məlumat bazasından istifadə etməklə 294 Çin şəhərinin karbon kadastrı qurulmuşdur ki, bu da enerji istehsalının və istifadənin səmərəliliyinin yaxşılaşdırılması yolu ilə emissiya intensivliyinin azaldılmasının ən vacib karbonsuzlaşdırma strategiyalarından biri olduğunu göstərir (Shan et al., 2021). Bundan əlavə, tədqiqatlarda şəhərlər arasında karbon tullantılarını azaltmaq üçün qarşıya qoyulmuş hədəflərdəki fərqlər araşdırılır. Salvia və başqaları (2021) [7]Aİ-nın 327 şəhərinin yerli planlarını qiymətləndirib və Paris Sazişində müəyyən edilmiş hədəflərə çatmaq üçün bəzilərinin ambisiyalarını ikiqat artırması lazım olduğunu bildirib.

“Keeping Track of Greenhouse Gas Emission Reduction Progress and Targets in 167 Cities Worldwide” adlı tədqiqatda Çin alimləri Ting Wei, Junliang Wu və Shaoqing Chen [8] C40 Cities ictimai məlumat bazasının [9] və CDP (Disclosure İnsight Action) [10] platformasının məlumatlarından istifadə etməklə dünyanın 53 ölkəsinin 167 şəhərində istixana qazlarının azaldılması üzrə irəliləyişləri və hədəfləri təhlil etmişlər. Frontiers in Sustainable Cities jurnalında nəşr olunmuş məqalənin nəticələrinə görə emissiyaların yarıdan çoxu (52%) yalnız 25 şəhərin payına düşür. Emissiyalara görə liderlər arasında Çinin 22 şəhəri, həmçinin Tokio, Moskva və İstanbul var. İstixana qazları emissiyaları səkkiz sektor üzrə hesablanır: yaşayış və institusional binalar; kommersiya binaları; sənaye binaları (enerji istifadəsi); sənaye prosesləri; avtomobil nəqliyyatı (məsələn, avtomobillər, avtobuslar); dəmir yolları, aviasiya və su yolları; tullantıların utilizasiyası (tullantı sularının təmizlənməsi, bərk tullantıların poliqonları); və başqaları (kənd təsərrüfatı, mədənçıxarma). Bu kadastrlara həm şəhərin coğrafi sərhədləri daxilində ərazi emissiyaları, həm də idxal olunan elektrik enerjisi ilə bağlı emissiyalar daxildir.

**GHG Protokolu**

Bu günə qədər istixana qazlarının hesabatının müxtəlif standartları formalaşmışdır, lakin olanlardan ən əsası GHG protokolu (2014) və İSO 14064 standartıdır. GHG standartının tərtibçiləri - Dünya Resurs İnstitutu (World Recourse Institute) və Davamlı İnkişaf üzrə Dünya Biznes Şurasıdır (World Business Council for Sustainable Development). Protokol bütün emissiya mənbələrinin (birbaşa və dolayı) düzgün strukturlaşmasını başa düşməyə və qiymətləndirməyə nəyin daxil olub olmadığını göstərməyə kömək edir.

İXQ protokolunda qiymətləndirmə 4 istiqamətdə aparılır:

• Sahələrarası – fəaliyyət sahəsindən asılı olmayaraq müxtəlif müəssisə və sənaye sahələri üçün nəzərdə tutulmuşdur. Hal-hazırda Excel əsasında istixana qazı emissiyalarının qiymətləndirilməsi alətinin pulsuz beta versiyası hazırlanmışdır.

• Konkret ölkələr üçün – hər bir dövlətin ekoloji qanunvericiliyinin xüsusiyyətləri nəzərə alınır.

• Sahə– konkret xidmət sektoru və ya istehsal sahəsi üçün nəzərdə tutulmuşdur.

• Ölkələr və şəhərlər üçün - iqlim məqsədlərinə çatmaqda qlobal tərəqqini izləmək üçün imkanlar təqdim edir.

Şəhərlər üçün İXQ tullantısı Protokolu (GHG Protocol for Cities). İstifadəsi təklif olunan

protokolda şəhər üzrə bütün istixana qazlarının emissiyalarının hesablanması üçün aydın metodologiya var. GPC protokolu istixana qazı emissiyalarını aşağıdakı kimi təsnif edir: stasionar enerji; nəqliyyat; tullantılar; sənaye prosesləri və məhsuldan istifadə; kənd təsərrüfatı, meşə təsərrüfatı və torpaqlardan istifadənin digər növləri. Bu amillərin hər biri (kənd təsərrüfatı istisna olmaqla), şəhər fəaliyyətinin ayrılmaz hissəsidir. **[11]**

**Qiymətləndirmə metodologiyası**

Dünya şəhərlərinin iqlim dəyişməsinə təsiri 2023-cü ildə rus alimləri tərəfindən qiymətləndirilib. M.V.Lomonosov adına MDU-nun işçi qrupu müxtəlif coğrafi bölgələrdə, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə yerləşən 20 meqapolis seçib və onların iqlim dəyişikliyinə təsirini azaltma imkanlarının hərtərəfli qiymətləndirilməsini aparıblar [12]. Reytinqdə təklif olunan beş amilin seçilməsi olduqca əsaslandırılmış, və istixana qazlarının balansına əhəmiyyətli dərəcədə təsir göstərir. Alınan qiymətləndirmələrə əsasən meqapolislərin iqlim dəyişikliyi ilə mübarizə potensialı əsasında reytinq tərtib edilib. Göstəricilərin formalaşmasında iqlim problemləri ilə məşğul olan, BMT, İƏİT, C40 kimi əsas təşkilatların məsləhətlərindən istifadə olunub. Bu reytinqin metodologiyasını daha ətraflı araşdırmış və Azərbaycan şəhərlərinə tətbiq etməyə cəhd göstərmişik.

Şəhərlər 5 sahə əsasında qiymətləndirilib:

• enerji mənbələri (Əsas göstərici: mənbəyə görə şəhərdə elektrik enerjisi istehlakının həcmi)

• enerji istehlakı (Əsas göstərici: ildə adambaşına düşən elektrik və istilik enerjisi istehlakı kVt/saat)

• nəqliyyat (Əsas göstərici: nəqliyyat növləri (metro, tramvay, avtobus, avtomobil, velosiped, piyadalar) üzrə əhalinin gündəlik hərəkəti üçün nəqliyyatdan istifadəsinin strukturu, %)

• yaşıl sahələr (əsas göstərici: şəhər ərazisində yaşıllıqların payı, %)

• tullantıların əmələ gəlməsi və emalı (Əsas göstərici:Tullantıların yaranması: müəssisələr və ev təsərrüfatları tərəfindən istehsal olunan bərk məişət tullantılarının (MST) kütləsi, adambaşına kq)

Hər bir qiymətləndirmə sahəsi iki növ göstəricilərlə xarakterizə olunur:

Tədqiqata əhalisinin sayına və ümumi məhsul buraxılışına görə lider olan 20 iri dünya meqapolisi daxildir. Tədqiqata daxil olan şəhərlər inkişaf etmiş və inkişaf etməkdə olan və müxtəlif regionlarda yerləşən ölkələrə aiddir.

Şəhərlər aşağıdakı alqoritmə görə müqayisə edilir:

→ İlkin bal (10-dan 100 qədər) şəhərin kəmiyyət göstəricisi əsasında verilir. 100 bal ən yaxşı, 10 bal ən pis göstəricidir.

→ İlkin balı maksimum nəticənin ¾-dən az olan şəhərlər üçün (məsələn, şəhər qiymətləndirmə sahəsində yüksək nəticə nümayiş etdirmədi), düzəliş (korrektə) tətbiq edilir. Əgər şəhər idarəetməsinin müəyyən məqsədli proqramı yoxdursa, o zaman ilkin bal 10 bal azalır. Bu şəhərin nəinki faktiki vəziyyətini, eyni zamanda gələcək inkişaf planlarını nəzərə almağa imkan yaradır.

Yekun balın hesablanması

Şəhərin yekun balı hər qiymətləndirmə sahəsinə verilmiş balların orta çəkisi kimi hesablanır. Hesablama məqsədləri üçün qiymətləndirmə sahələrinin hər biri üçün fərdi çəki müəyyən edilmişdir, hansı ki müəyyən sahənin şəhər istixana qazları emissiyalarında nisbi töhfəsini əks etdirir. Əldə edilmiş yekun bal 10-dan 100-ə qədər dəyərləndirilir.

Çəkilərin müəyyənləşməsi

Yaşıl ərazilərdən başqa, bütün qiymətləndirmə apardığımız sahələrin İXQ emissiyasında payı var. Onların çəkiləri tullantıarın strukturuna görə müəyyənləşib (ən çox yayılmış metodologiyaya görə— GCoM CRF protokolu [13] — 200-dən çox şəhər).

Reytinqin ilk beşliyində London, Paris, Berlin, Moskva və Tokio şəhərləri yer alıb. Son beşlikdə isə Cakarta, İstambul, Keyptaun, Kair, Sidney, Dubay şəhərləri yerləşib.

**Parisdə** bərpa olunan enerjiyə keçid üzrə geniş proqram həyata keçirilir. Əsas məqsəd 2030-cu ilə qədər bərpa olunan enerjinin payını 40%-ə çatdırmaq. 1996-cı ildən başlayaraq **Berlin** hökuməti Berlin Energetika Agentliyi ilə birlikdə ictimai binalar tərəfindən enerji istehlakının səmərəliliyinin artırılması üçün xüsusi modernləşmə mexanizmi həyata keçirir. Bu mexanizm binaların sahibləri və enrji servisi göstərən kompaniyalar arasında müqavilələrin bağlanmasına əsaslanır. Müqaviləyə əsasən, kompaniyalar modernləşməni öz üzərinə götürür. Sonra isə, bu xərclər binaların sahibləri

tərəfindən kommunal xərclərdə qənaət edilmiş hissə hesabına 8-12 il ərzində qaytarılır.Təcrübə göstərir ki, il ərzində enerji istehlakı xərcləri 26%, İXQ emissiyaları isə 70 min ton azalır. **San-Paulu** şəhərində isə istehlak olunan enerjinin 60%-i bərpa olunan enerji mənbələrindən alınır. Enerjinin böyük hissəsi su və biokütlədən (şəkər çuğundurunun tullantılarından) alınır. **Pekində** MaaS platforması (Mobility-as-a-Service) fəaliyyət göstərir**.** Kartoqrafik onlayn-servislərlə şəhər hakimiyyətinin əməkdaşlığı nəticəsində müxtəlif növ şəhər nəqliyyatı birləşdirilib. 2020-ci ildən Platforma çərçivəsində şəhərdə şəxsi avtomobilsiz – ictimai nəqliyyat, velosiped vasitəsilə və yaxud piyada hərəkət edənlərin mükafatlandırılması Proqramı tətbiq edilir. Qeydiyyatdan keçmiş istifadəçilər tərəfindən qət edilmiş məsafələr hesablanır və karbon kreditlərinə konvertasiya olunur (karbon izinin azalma həcmini əks etdirən şərti vahid). Sonralar bu kreditlər istifadəçilər tərəfindən ictimai nəqliyyatda gediş haqqı, endirimli kuponların əldə edilməsi, onlayn-servislərə qeydiyyat və s. bunun kimi məqsədlər üçün istifadə edilə bilər. 2023-cü ildə aparılan qiymətləndirməyə görə, üç il ərzində 3,5 milyon adam Proqrama qoşulmuş və karbon qazı tullantıları 400 min ton azalmışdır. **Moskva** şəhəri reytinqin ilk sıralarında yaşıl ərazilərin sahəsinə görə yer aldı (50%). Buna nail olmanın səbəbi Xüsusi Qorunan Təbii Ərazilərin (XQTƏ) yaranması, qanuna görə bu ərazilərin sahəsinin azalmasına və vətəndaşların (təşkilatların) mülkiyyətinə verilməsinə qəti qadağa qoyulmasıdır. Məişət tullantılarının yaranması sahəsində **Seul** şəhərinin təcrübəsini araşdırdıq. Keçən əsrin 90-cı illərindən vətəndaşlar üçün tullantıların utiliyasiyasına görə vergi sistemi tətbiq olunur. 2009-cu ildə elektron zibildən metalların ayrılması üzrə şəhərlərdə yeni proqram tətbiq olunmağa başladı. Proqram çərçivəsində tələbələr üçün maliyyə stimulu mexanizmi nəzərdə tutulub: onlar tərəfindən təhvil verilmiş mobil telefonların emalı nəticəsində əldə olunan gəlir stipendiyaların üzərinə əlavə olunur. Qiymətləndirməyə görə, 2009-2021-ci illər ərzində bu proqram İXQ emissiyalarını 120 min ton azaltmağa imkan verdi.

### Azərbaycan şəhərlərində İXQ emissiyalarının qiymətləndirilməsi

Azərbaycan Respublikası Energetika Nazirliyinin məlumatına görə, 2023-cü ilin sonuna NMR-da 2 İES-sı, 5 SES-sı, 4 günəş elektrik stansiyası (Culfa, Şərur, Naxçıvan və Kəngərlidə) və 2 külək elektrik stansiyası fəaliyyət göstərir. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”na əsasən, burada "Yaşıl Enerji Zonası"nın yaradılması, Konsepsiya və Tədbirlər Planının hazırlanması nəzərdə tutulur. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan şəhərinin ayrılıqda, tədqiqat üçün lazım olan, demək olar ki, heç bir göstəricisi haqqında məlumatın olmadığına görə, qiymətləndirməyə daxil etməmişik.

Qiymətləndirmə 2022-ci ilin göstəriciləri əsasında aparılıb (regionlar üzrə 2023-cü ilin bəzi statistik məlumatları nəşr edilməmişdir). Burada 10 bal ən yüksək nəticə göstərən şəhərə verilir, 100 bal isə - ən az nəticə göstərən şəhərə verilir. Siyahımızdan istənilən göstəricini dəyəri 10 ilə 100 arasında olan alt-indeksə çevirmək üçün (bu, bizə müxtəlif göstəriciləri toplamağa imkan verəcək) aşağıdakı düsturdan istifadə etdik:

$$[(Vi-Vmin)/(Vmax-Vmin)]*100,$$

burada **min** və **max** tədqiq olunan bütün şəhərlərə göstəricilərinin minimum və maksimum qiymətidir.

### Enerji mənbəyi sub-indeksi

Hər bir enerji mənbəyindən yaranan İXQ emissiyaları emissiya əmsalından istifadə üsulu ilə hesablanacaq [14]. Azərbaycanda İES-larında elektrik enerjisini almaq üçün istifadə olunan mədən yanacağı – təbii qazdır. Yandırılan hər min kubmetr təbii qazdan 1,85 ton CO2e atmosfer havasına atılır. Hər şəhərdə 2022-ci il ərzində istehlak olunan təbii qazın həcmini bilərək, İXQ emissiyasını hesablamaq mümkündür.

**2022-ci ildə şəhərlərdə təbii qaz istehlakı**

| | Bakı | Sumqayıt | Gəncə | Naftalan | Mingəçevir | Şirvan |
|---|---|---|---|---|---|---|
| Təbii qaz, Milyon $m^3$ | 5315,4 | 1708,2 | 177,5 | 16,4 | 1263,3 | 1161,2 |
| $CO_2$ ekv.emissiyası, Ton | 9833490 | 3160170 | 328375 | 30340 | 2337105 | 2148220 |
| Qiymətləndirmə balı | 10 | 68,1 | 96,9 | 100 | 76,5 | 78,4 |
| Reytinq | 6 | 5 | 2 | 1 | 4 | 3 |

**Mənbə**: Cədvəl DSK “Azərbaycanın energetikası 2023” göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəldən görünür ki, 2022-ci ildə ölkə üzrə İXQ emissiyaların təxminən 31%-i (18 milyon ton) şəhərlərdə təbii qaz istehlakı nəticəsində yaranıb. Ölkə üzrə bütün ilkin enerji məhsullarının 47,5 faizini xam neft (qaz kondensatı da daxil olmaqla), 52,1 faizini təbii qaz, 0,4 faizini isə bərpa olunan enerji mənbələri üzrə istehsal olunmuş enerji məhsulları təşkil etmişdir. Lakin şəhərlər üzrə bu göstəricilər statistik məlumatlarda yoxdur. Ən böyük istilik elektrik stansiyası Mingəçevir şəhərində yerləşən "Azərbaycan" İES-dır (istehsal gücü 2400 mVt). İl ərzində bu İES fəaliyyəti nəticəsində 2 mlyn.tondan çox $CO_2$ tullantıları atmosfer havasına atılır. Mingəçevirdə həmçinin istehsal gücü 425 MVt olan SES-sı fəaliyyət göstərir. Bakı və Sumqayıt şəhərlərində müxtəlif istehsal gücünə malik dörd İES-ları fəaliyyət göstərir və onların il ərzində $CO_2$ emissiyaları 1,61-3,51 mlyn.tona bərabərdir. Şirvan şəhərində illik $CO_2$ emissiyası 0,01-0,1 mlyn ton olan "Cənub" İES-sı fəaliyyət göstərir.[4] Enerji mənbəyi sub-indeksinə görə Bakı və Sumqayıt şəhərləri ən aşağı pillədə yerləşib. "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının 2021-ci il 31 may tarixli 339-VIQ nömrəli Qanunu təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin 5-ci bəndində ("Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi") iqlim dəyişikliyi və onunla mübarizə istiqamətində, eləcə də ölkəmizdə yaşıl enerji məkanı prinsiplərinə əsaslanan bərpa olunan enerjidən iqtisadiyyatın bütün sahələrində tətbiqi məsələləri öz əksini tapmışdır.

**Enerji istehlakı sub-indeksi**

2022-ci ildə Azərbaycanda cəmi 22,617 milyard kilovat-saat elektrik enerjisi istehlak edilib. Bununda 15,591 milyard kilovat-saatı (69%-i) Bakı, Sumqayıt, Gəncə, Naftalan, Şirvan və Mingəçevir şəhərlərində istehlak edilib (istehsal olunmuş elektrik enerjinin qalan hissəsi digər regionlara paylanıb).

**2022-ci ildə şəhərlərdə elektrik və istilik enerjisinin istehlakı**

| | Adambaşına düşən elektrik enerji istehlakı, kVt | Qiymət ləndirmə | Adambaşına düşən istilik enerji istehlakı Qkal | Qiymət ləndirmə | Elektrik və istilik enerjisi istehlakına görə ortalama bal | Reytinq |
|---|---|---|---|---|---|---|
| Bakı | 4647,8 | 44,8 | 0,42 | 54,9 | 49,85 | 5 |
| Sumqayıt | 6589,7 | 10 | 0,12 | 87,9 | 48,95 | 6 |
| Gəncə | 3542,5 | 70,3 | 0,05 | 95,6 | 82,95 | 2 |
| Mingəçevir | 2962,9 | 83,7 | 0,15 | 84,6 | 84,15 | 1 |
| Naftalan | 2255,8 | 100 | 0,92 | 10 | 55 | 4 |
| Şirvan | 5059,9 | 35,3 | 0,01 | 100 | 67,65 | 3 |

**Mənbə:** Cədvəl DSK "Azərbaycanın energetikası 2023" göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilib

Cədvəldən göründüyü kimi, 2022-ci ildə adambaşına düşən elektrik enerjisinin istehlakına görə ən yüksək bal Naftalan şəhəri, ən aşağı bal isə Sumqayıt şəhərinin payına düşüb. Adambaşına düşən istilik enerjisinin istehlakına görə birinci yerdə Şirvan, sonuncu yerdə isə Naftalan şəhərləri yerləşib. Elektrik və istilik enerjisinin istehlakına görə ortalama balın hesablanması nəticəsində birinci yerdə Mingəçevir, sonuncu yerdə isə Sumqayıt şəhəri qərarlaşıb.

**Nəqliyyat**

"Təmiz" nəqliyyat vasitələrinə metro, tramvay, trolleybus, elektrik və hibrid mühərrikli avtomobillər (avtobuslar) və velosiped aiddir. Azərbaycanda 2022-ci ildə 570 elektrik və 30163 hibrid mühərrikli avtomobil və 7 avtobus var idi. 2023-cü ildə cəmi 42461 hibrid və 3138 elektrik mühərrikli avtomobil və 15 elektrik mühərrikli avtobus mövcud idi. Bu isə yalnız Bakı şəhərində olan sərnişin minik avtomobillərinin 7,3%, avtobusların isə təxminən 0,1%-i deməkdir. Lakin onların şəhərlər üzrə bölgüsü haqqında rəsmi məlumat yoxdur. Dövlət Statistika Komitəsində şəhər elektrik nəqliyyatı olaraq yalnız metro nəzərdə tutulur. Bakıda 2022-ci ildə 208,7 mlyn.nəfər sərnişin metro ilə daşınmışdır. Azərbaycanda 2022-ci ildə bütün daxili sərnişin daşımalarının 81,5%-i avtobus, 12,9%-i metro, 5,1%-i taksi, 0,3%-i dəmir yolu, 0,05%-i isə hava nəqliyyatı vasitəsilə həyata keçib.[5] Şəhərlər üzrə bu bölgü haqqında məlumat olmadığına görə, biz yalnız avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını nəzərə almaqla qiymətləndirmə apardıq.

**2022-ci ildə avtomobil nəqliyyatı ilə sərnişin daşınması (milyn sərnişin).**

| | Bakı | Sumqayıt | Gəncə | Naftalan | Mingəçevir | Şirvan |
|---|---|---|---|---|---|---|
| Avtomobil nəqliyyatı ilə sərnişin daşınması | 620,472 | 89,901 | 73,882 | 1,162 | 25,995 | 23,253 |
| Qiymətləndirmə balı | 10 | 85,6 | 88,2 | 100 | 95,9 | 96,4 |

**Mənbə**: Cədvəl DSK "Azərbaycan regionları 2023" göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilib

Avtomobil nəqliyyatı ilə sərnişin daşınmasına görə ən yüksək bal Naftalan, ən aşağı bal isə Bakı şəhərlərindədir. Lakin, nəzərə almalıyıq ki, yalnız Bakı şəhərində "təmiz" nəqliyyat vasitəsindən istifadə olunur və 2022-ci ildə sərnişin daşımaların təxminən 25%-i metronun payına düşür. Onu da qeyd edək ki, son illərdə bu rəqəm surətlə artır (avtomobillərin hərəkətinə bəzi məhdudiyyətlərin qoyulması, köhnə avtomobillərin ləğv olunması və s.). GHG protokolunda birbaşa və dolayı yolla İXQ emissiyasında iştirak edən amillər göstərilmişdir. Azərbaycanda elektrik enerjisinin mənbəyi mədən yanacaqları olduğu üçün (təbii qaz), "təmiz" saydığımız, yəni elektrik mühərrikli nəqliyyat vasitələri dolayı yolla İXQ emissiyasında iştirak edirlər. (fərq ondan ibarətdir ki, təbii qazın yandırılmasından yaranan CO2 emissiyasının əmsalı daha kiçikdir (1,85ton CO2/min kub metr), nəinki avtomobil benzinindən və yaxud dizel yanacağından yaranan ddCO2 emissiyası (3,0 tonCO2/t və 3,15 tonCO2/t)).

2024-cü ilin fevral ayının 7-də Azərbaycan Prezidenti İlham Əliyev "Elektrik mühərrikli nəqliyyat vasitələrindən istifadənin təşviq edilməsi haqqında" Sərəncam imzalayıb.

**Yaşıl ərazilər**

Google maps-dən istifadə etməklə şəhərlərin ərazisinin neçə faizi yaşıl ərazilər olduğunu müəyyənləşdirməklə onları 10-100 balla qiymətləndirdik.

| | **Bakı** | **Sumqayıt** | **Gəncə** | **Naftalan** | **Mingəçevir** | **Şirvan** |
|---|---|---|---|---|---|---|
| **Yaşıl ərazilərin xüsusi çəkisi, %** | 0,43 | 6,9 | 6,1 | 1,6 | 5,7 | 9,2 |
| **Qiymətləndirmə balı** | 10 | 73,7 | 64,6 | 13 | 60,1 | 100 |
| **Reytinq** | 6 | 2 | 3 | 5 | 4 | 1 |

**Mənbə:** Bakı şəhəri Baş planı, Sumqayıt şəhəri Yaşıllaşdırma idarəsi və Google maps https://www.google.com/maps/place/Naftalan/@40.7633428,46.951442,17349m/data=!3m1!1e3!4m6!3m5!1s0x403f2d712d6f92b1:0x1d4093cddf33cc8b!8m2!3d40.5128658!4d46.8189424!16s%2Fg%2F11flds3ryc?entry=ttu&g_ep=EgoyMDI0MTAyMy4wIKXMDSoASAFQAw%3D%3D

Bakı şəhərinin Baş planına əsasən, yaşıllıqların (parklar, meydançalar və Hibrid yaşıl dəhlizlər) sahəsi 920 ha, bu isə Bakı ərazisinin 0,43%-ni təşkil edir. Lakin, Plana uyğun olaraq 2040-cı ilə qədər yaşıl ərazilərin sahəsi 2757,3 ha çatdırılacaq (adambaşına düşən ümumi istifadədə olan yaşıllığın sahəsi 8,7 kv.metr qədər artacaq). Plana Bakı bulvarının cənubda Bibiheybətə və şərqdə Zığa qədər mərhələli şəkildə genişləndirilməsi daxildir. Gəncə şəhəri 2020-ci ildə Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən dəstəklənən "Yaşıl şəhər" Fəaliyyət Planına qoşulub. Tədbirlərin ilk mərhələsi üç istiqamətdə həyata keçiriləcək: 1.bərk məişət tullantılarının idarə edilməsi; 2.ictimai nəqliyyatın yenilənməsi; 3.şəhərin küçə işıqlandırma sisteminin yenilənməsi.

**Tullantılar**

**2022-ci ildə şəhərlər üzrə kommunal xidmətlər tərəfindən yığılmış məişət tullantıların həcmi və adambaşına düşən həcmi**

| | Bakı | Sumqayıt | Gəncə | Naftalan | Mingəçevir | Şirvan |
|---|---|---|---|---|---|---|
| İl ərzində tullantıların miqdarı (min $m^3$) | 7224,8 | 624,0 | 667,8 | 19,5 | 94,7 | 86,8 |
| Adambaşına düşən ($m^3$) | 3,1 | 1,5 | 2,02 | 2,3 | 0,9 | 1,02 |
| Qiymətləndirmə | 10 | 70 | 49 | 36 | 100 | 94 |
| Reytinq | 6 | 3 | 4 | 5 | 1 | 2 |

**Mənbə**: Cədvəl DSK "Azərbaycan regionları 2023" göstəriciləri əsasında müəllif tərəfindən tərtib edilmişdir

2022-ci ildə Azərbaycanda kommunal xidmətlər tərəfindən yığılmış məişət tullantıların 63%-i Bakı şəhərində, və cəmi 0,2%-i Naftalan şəhərində yaranmışdır. Adambaşına düşən kommunal

xidmətlər tərəfindən yığılmış məişət tullantıların həcminə görə Bakı ən aşağı bal alsa da (3,1 $m^3$ ), Naftalan ondan cəmi bir pillə yuxarıda yerləşib (2,3 $m^3$ ).Ən yüksək bal Mingəçevir şəhərindədir.

Bakı şəhərində yaranan məişət tullantıları Balaxanı Sənaye parkına göndərilir. Burda müxtəlif növ (kağız, süngər, yağ, plastik, taxta və s.) tullantıların emalı üzrə 15 xırda müəssisələr var. Plana görə, yaranmış tullantıların 42%-i emala, 28%-i müasir poliqonlara və 30%-i isə təkrar emala verilməlidir. Lakin tullantıların həcmi böyük olduğu üçün onları qəbul etməyə və ayırmağa müəssisənin gücü çatmır və bu səbəbdən məişət tullantıları ildən ilə yığılıb qalır.

**Təyin edilmiş çəkilər**

Ümumilikdə 2022-ci ildə Azərbaycanda İXQ emissiyasının 79,8%-i energetika, 2,2%-i tullantıların, 11,9%-i kənd təsərrüfatı, 6%-i sənaye proseslərinin payına düşür. Torpaqdan istifadə, onun dəyişdirilməsi və meşə təsərrüfatının xüsusi çəkisi -13%-dir (bu sahə İXQ-nı atmosfer havasından udduğuna görə qarşısında "-" işarəsi var) [15]. "Enerji istehlakı" və "enerji mənbəyi" sahələrinin çəkisi bütövlükdə "energetika" sahəsinin ümumi çəkisinin 2/3 (53,2%) və 1/3 hissəsi (26,6%) kimi qiymətləndirilir, çünki enerji istehlakının həcminə şəhərlərin təsiri daha çoxdur. Lakin nəqliyyat sektorunun İXQ emissiyalarında xüsusi çəkisi haqqında dəqiq məlumat yoxdur. Yalnız onu bilirik ki, [15]atmosfer havasına avtomobil nəqliyyatından atılan çirkləndirici maddələrin ümumi atılan çirkləndirici maddələrin miqdarındakı xüsusi çəkisi 2022-ci ildə 83%, 2023-cü ildə 85% təşkil etmişdir.

**Reytinqin ümumi nəticəsi**

| | Enerji mənbəyi | Enerji istehlakı | Nəqliyyat | Tullantılar | Yaşıl ərazilər | Orta qiymət | Reytinq |
|---|---|---|---|---|---|---|---|
| Bakı | 10 | 49,85 | 10 | 10 | 10 | 18 | 6 |
| Sumqayıt | 68,1 | 48,95 | 85,6 | 70 | 73,7 | 69 | 4 |
| Gəncə | 96,9 | 82,95 | 88,2 | 49 | 64,6 | 76 | 3 |
| Naftalan | 100 | 84,15 | 100 | 36 | 13 | 66,6 | 5 |
| Mingəçevir | 76,5 | 55 | 95,9 | 100 | 60,1 | 77,5 | 2 |
| Şirvan | 78,4 | 67,65 | 96,4 | 94 | 100 | 87 | 1 |

**Mənbə:** tədqiqat nəticəsində tərtib olunub

**Tədqiqatın nəticələri:**

- Demək olar ki, bütün sahələr üzrə qiymətləndirmədə Bakı şəhəri ən sonuncu pillədə yerləşib (yalnız adambaşına düşən enerji istehlakına görə Sumqayıt şəhərindən bir pillə öndədir)
- Naftalan şəhəri adambaşına düşən məişət tullantılarına görə və yaşıl ərazilərin xüsusi çəkisinə görə az bal topladığı üçün, ümumi reytinqdə beşinci yerdədir (Bakıdan bir pillə yuxarıda). Lakin onuda qeyd etməliyik ki, Bakı ilə Naftalanın arasında çox böyük qiymət fərqi var (48,6 bal).
- Tədqiqat prosesində beynəlxalq hesablama standartlarının tələblərinə cavab verən məlumatlar qıtlığı ilə rastlaşdıq. Xüsusilə nəqliyyat sektorunda rastlaşdığımız informasiya çatışmazlığı nəticəsində şəhərlər üzrə "təmiz" nəqliyyatın payının qiymətləndirilməsi mümkün olmadı. Eyni zamanda, nəqliyyat sektorunun İXQ emissiyalarında xüsusi çəkisi haqqında dəqiq məlumat yoxdur.
- Bakı şəhərinin beynəlxalq reytinqlərdə iştirak etməməsinin səbəbi məlumatların əlçatmaz olmasından irəli gəlir (C40 Cities ictimai məlumat bazasında və CDP (Disclosure İnsight Action) platformasında informasiyanın olmaması).
- Şəhərlərdə yaşıl zonaların artırılması istiqamətində Moskva, "təmiz" nəqliyyata keçid istiqamətində isə Pekin təcrübəsi tətbiq edilməlidir.
- 2030 və 2050-ci illərdə İXQ emissiyalarına aid qoyulan hədəflərə nail olmaq üçün bütün yekun istifadə sektorlarda enerji effektivliyinin artırılmasına dəstək göstərəcək siyasətlər qəbul edilməlidir.

22 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi və BP şirkəti iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın region və şəhərlərində bərpa olunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Memoranduma əsasən, Azərbaycanın müvafiq region və ya şəhərləri üçün karbonsuzlaşdırma üzrə "Baş Plan"nın hazırlanması nəzərdə tutulur. "Baş Plan" təmiz enerji layihələri, az karbonlu nəqliyyat, yaşıl binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim həlləri, inteqrasiyalı

tərəfdaşlıqlar, həmçinin inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması istiqamətlərini əhatə edəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. IPCC. (2022). Climate Change 2022: Mitigation of Climate Change. URL: https://www.ipcc.ch/report/ar6/wg3/downloads/report/IPCC_AR6_WGIII_FullReport.pdf
2. Cities and Climate Change Global Report on Human Settlements 2011 ABRIDGED. Города и изменение климата: направления стратегии глобальный доклад о населенных пунктах 2011 года. Сокращенная версия «Программа ООН по населенным пунктам», стр.5)
3. Азербайджан: климат, факты и политика. Группа Всемирного Банка. file:///C:/Users/HP/Desktop/2024/CC-Azerbaijan-RU.pdf
4. Azərbaycanın energetikası 2023, 2024
5. (Sun et al., 2021)
6. Salvia və başqaları (2021)
7. "Keeping Track of Greenhouse Gas Emission Reduction Progress and Targets in 167 Cities Worldwide" Ting Wei, Junliang Wu və Shaoqing Chen (Frontiers | Keeping Track of Greenhouse Gas Emission Reduction Progress and Targets in 167 Cities Worldwide (frontiersin.org))
8. https://www.c40.org/)
9. https://data.cdp.net/
10. Greenhouse Gas Protocol "Global Protocol for Community – Scale Greenhouse Gas Inventories" ***An Accounting and Reporting Standard for Cities Version 1.1 C40 CITIES***
11. Moskvanın İqtisadi Siyasət və Şəhərlərin İnkişafı Departamentinin tədqiqatları
12. «Климатическая повестка городов мира», M.V.Lomonosov adına MDU-nun işçi qrupu
13. *Федянин А. А., Бобылев С. Н., Гулев С. К.)*
14. https://www. globalcovenantofmayors.org/wp-content/ uploads/2019/04/FINAL_Data-TWG_Reporting- Framework_website_FINAL-13-Sept-2018_for- translation.pdf
15. Rusiya Federasiyasının 1990-2010-cu illər üçün Monreal Protokolu ilə tənzimlənməyən mənbələrdən antropogen emissiyaların inventarlaşdırılması və istixana qazlarının qəbulu ilə bağlı Milli Hesabatı. M., 2012 https://sro150.ru/index.php/metodiki/371-metodika-rascheta-vybrosov-parnikovykh-gazov
16. Azərbaycanda ətraf mühit 2023


# Оценка выбросов парниковых газов в городах Азербайджана


**Метанет Абдалова**
Институт Экономики Министерства науки и образования
Ведущий научный сотрудник отдела «Проблемы регионального развития и использования природных ресурсов», д.ф.э., доцент



**Резюме:** Одной из наиболее актуальных глобальных проблем современности является изменение климата и влияние городов на этот процесс. В ходе исследовательской работы были рассмотрены доля городов в выбросах парниковых газов, показатели, необходимые для их оценки, международные стандарты и протоколы. Планирование действий по борьбе с изменением климата начинается с составления кадастра выбросов парниковых газов, который позволяет провести отдельную оценку уровня различных выбросов человеческой деятельности. В исследовательской работе были изучены и проанализированы рейтинги и оценки, проводимые в этом направлении среди городов мира. Путем изучения зарубежного опыта впервые были оценены выбросы парниковых газов в городах Азербайджана по пяти субиндексам и получены определенные результаты.



**Ключевые слова**: выбросы парниковых газов, Протокол по выбросам парниковых газов, глобальное потепление, энергопотребление, «чистый» транспорт, зеленая энергетика.

DOI: https://doi.org/10.36719/2707-9317/05/53-64

# Assessing the role of infrastructure in the sustainable and competitive development of the agricultural sector

**Ramzi Abdullayev**
Leading Researcher of "Economic Problems of the Agrarian Sector" of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,
PhD in economics, Associate Professor
https://orcid.org/0000-0003-2025-1571
ramziabdullayev1985@gmail.com

**Abstract:** The purpose of the study - It is an assessment of the role of infrastructure in the sustainable and competitive development of the agricultural sector.

**Research methodology** - Comparative analysis, logical generalization, systematic approach, and mathematical analysis methods are used in the research work.

**The applied importance of the research** - The fundamental analyzes investigated in the research can be evaluated in terms of sustainable and competitive development of the agricultural sector and can be considered important for economic efficiency in this field.

**Research results** - The role of infrastructure in the sustainable and competitive development of the agricultural sector was evaluated and it was determined that there are problems related to logistics services and planning in this direction.

**The originality and scientific innovation of the research** - Balassa index and the effect of fixed capital directed to agriculture on the production volume were calculated.

Limitations of the study- Lack of a wider information base.

**Key words**: agricultural area, production, apparent comparative advantages, competitiveness, Balassa index, Jarque-Bera test, heteroskedasticity test, etc.

**UOT 332.05, JEL Q.01**

# Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsi

**Rəmzi Abdullayev**
AR ETN İqtisadiyyat İnstitutu "Aqrar sektorun iqtisadi problemləri"
şöbəsinin aparıcı elmi işçisi, i.f.d., dosent
https://orcid.org/0000-0003-2025-1571
ramziabdullayev1985@gmail.com

**Xülasə: Tədqiqatın məqsədi** – Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsidir.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, riyazi təhlil metodlarından istifadə edilib.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** –tədqiqatda araşdırılmış əsaslı təhlilər aqrar sahənin dayanıqlı və rəqabətli inkişafı baxımından dəyərləndirilə bilər və bu sahədə iqtisadi səmərəlilik üçün əhəmiyyətli hesab edilə bilər.

**Tədqiqatın nəticələri** – Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolu qiymətləndirilmiş və bu istiqamətdə logistik xidmətlər və planlaşdırma ilə bağlı problemləriin olduğu müəyyən edilmişdir.

**Tədiqiqatın orijinallığı və elmi yeniliyi** –Balassa indeksi və kənd təsərrüfatına yönəldilən əsas kapitalın məhsul həcminə təsiri hesablanmışdır.

**Tədqiqatın məhdudiyyətləri.** Daha geniş informasiya bazasının olmaması.

**Açar sözlər**: aqrar sahə, istehsal, aşkar müqayisəli üstünlüklər, rəqabətqabiliyyətlilik, Balassa indeksi, Jarque-Bera testi, heteroskedastiklik test və və s.

**UOT 332.05, JEL Q.01**

## Giriş

Qlobal aləmdə iqtisadi, siyasi və digər proseslərin yenidən qurulmağa çalışıldığı bir dövrdə yaşayırıq. Qeyd edilən bu dövr bütün sahələrində olduğu kimi aqrar sahə də çağdaş dövrün tələblərinə uyğun işlərin qurulmasını və inkişaf etdirilməsi zərurətini ortaya qoyur. Qeyd etdiyimiz dövrdə baş verən siyasi-iqtisadi proseslər fonunda dünya əhalisinin durmadan artması, insanların həyat səviyyəsi ilə bağlı standartların və meyyarların yüksəlməsi təbii olaraq keyfiyyətli və təhlükəsiz ərzaq məhsullarının istehsalının artmasını tələb edir. Əhali artımı ilk növbədə ərzaq məhsullarına olan tələbin artmasını şərtləndirir. Ərzaq məhsullarının artması isə bir tərəfdən torpaqların ildən-ilə məhdudlaşması, digər tərəfdən torpaqların şoranlaşması, iqlim dəyişiklikləri və təbii fəlakətlər də ərzaq məhsullarının istehsalında və artımında ciddi narahatçılıq yaradır. Ərzaq məhsullarına ilədən-ilə artan tələb təbii olaraq istehsal prosesi üçün daha səmərəli şərtlərin yerinə yetirilməsini və istehsal prosesi üçün zəruri olan amillərin nəzərə alınmasını zəruri edir. Bütün bu qeyd edilənlər isə kənd təsərrüfatına artan tələbatı ən səmərəli şəkildə ödəmək üçün kənd təsərrüfatının rəqabətqabiliyyətinin artırılması xüsusi aktuallıq kəsb edir. Digər tərəfdən isə ərzaq məhsulları ilə öz-özünü tam təmin etməyən ölkələrdə qeyd edilən məsələ xüsusi aktuallıq kəsb edir.

## Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsi üzrə metodoloji yanaşma

Çağdaş dövrümüzdə iqtisadiyyatın istənilən sahəsinin (sənaye, kənd təsərrüfatı, tikinti və s.) və ya istənilən müəssisənin uğurlu inkişafının əsas meyyarı onun rəqabətqabiliyyəti olması ilə bağlıdır. Rəqabəti şərtləndirən amillər isə milli iqtisadiyyat çərçivəsində olduğu qədər, xarci amillərin də nəzərə alınması zəruri edir. Rəqabətqabiliyyətliliyin nəticəsi kimi istehsal olunan məhsul və xidmətlər çıxış edir. Nəticənin hasil olması isə elmi ədəbiyyatlarda adətən üç səviyyədə göstərilir ki,

bunlarda aşağıdakılardır(G.Özertan 2013.s.71):

- müəssisə və ya firma səviyyəsində rəqabət,
- sahə səviyyəsində rəqabət,
- ölkə səviyyəsində rəqabət kimi xarakterizə edilir.

Qeyd edilən belə yanaşma rəqabətin müəyyənləşdirilməsində vacib faktorlardan hesab edilir və əksər elmi yanaşmalarda belə bölgünü görmək mümkündür.

Müəssisə səviyyəsində rəqabətqabiliyyətliliyin meyarları kimi əsasən üç amil (А.С.Булатова 2004.s.99):

- məhsulun keyfiyyəti,
- məhsulun qiymət,
- məhsulun maya dəyəri həlledici faktorlar kimi çıxış edir.

Sahə səviyyəsində rəqabətqabiliyyətliliyin meyyarları kimi əsasən (А.С.Булатова 2004. s.101):

- müəssisələrin böyüməsini və inkişafını,
- müəssisədə mənfəətin artması,
- istehsalda mütərəqqi texnologiyaların tətbiqini,
- istehsal olunan məhsulun beynəlxalq tələblərə cavab verməsi.

Ölkə səviyyəsində rəqabətqabiliyyətlilik dedikdə isə burada ölkə ehtiyyatlarının artma, ÜDM-in stabil, artımı və ölkə əhalisinin keyfiyyətli həyat səviyyəsi ilə təmin olunmasına nəzərdə tutulur. Ölkə səviyyəsində rəqabətqabiliyyətliliyin meyyarları kimi əsasən (М. Портер 1993.s.148):

- ölkədə mövcud infrastruktur,
- texnoloji inkişaf üzrə səviyyə,
- innovasiyalara meyillilik dərəcəsi,
- makroiqtisadi vəziyyətlə bağlı göstəricilər və s. çıxış edə bilər.

Onu da bildirək ki, bir çox elm adamları rəqabətqabiliyyətliliyin müəyyənləşməsində əsas aparıcı amil kimi müəssisə (firma) səviyyəsində rəqabətqabiliyyətliliyin olduğunu göstərirlər. Belə ki, P.Kruqman və bir çox alimlər rəqabətqabilyyətliliyin aparıcı həlqəsi müəsissə səviyyəsində baş verdiyini bildirirlər. M.Porter özü belə 1990-cı illərdə elmi əsərlərində göstərirdi ki, ölkədə fəaliyyət göstərən müəssislərin rəqabətqabiliyyətlilik səviyyəsi ümumilikdə ölkənin makrorəqabət səviyyəsinin müəyyənləşdirən həlledici faktorlardır. Digər amillər isə köməkçi faktorlar kimi çıxış edir. Buna görə də hazırda əksər inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələr rəqabət üstünlüklərini mikrosəviyyədə (müəssisə səviyyəsində) formalaşdırıb inkişaf etmək məcburiyyətindədir.

Nəzərə almaq lazımdır ki, rəqabətqabiliyyətli məhsul istehsal etmək uzun və davamlı bir prosesin nəticəsi kimi ortaya çıxır. Məlumdur ki, qlobal aləmdə iqtisadi proselər və buna uyğun iqtisadi şərtlər dəyişərək inkişaf edir. İqtisadiyyatın istənilən sahəsəində rəqabətqabiliyyətliliklə bağlı yanaşmalarda müəyyən iqtisadi göstəricilər əlavə edilir və bəzən də bəzi iqtisadi göstəricilər əvəzlənir. Bu göstəricilər içərisində infrastruktur xüsusi aktuallıqla çıxış edir. Belə ki, qlobal rəqabətqabiliyyətlilik üzrə hesabatda göstərilir ki, istənilən ölkədə infrastrukturun inkişaf səviyyəsi milli iqtisadiyatın dayanıqlı və rəqabətli inkişafı üçün baza rolunda çıxış edir.

Aparılan elmi yanaşmalarda və rəqabətqabiliyyətlik üzrə qlobal indeksdə ölkə üzrə rəqabətqabiliyyətlik indeksinin müəyyənləşdirilməsində ölkədə infrastruktur vəziyyət əsas göstəricilərdən biri kimi çıxış edir. Eyni zamanda, qlobal ərzaq təhlükəsizliyində kənd təsərrüfatında infrastruktur vacib amillər sırasındadır. 2019-cu il üzrə çap olunmuş rəqabətqabiliyyətlilik səviyyəsi ilə infrastrukturun vəziyyəti arasında əlaqə öyrənilmiş və qeyd edilən bu iki göstərici arasında xətti əlaqənin olduğu müəyyən olunmuşdur və həmin əlaqə “qlobal rəqabətqabiliyyətlilik indeksi” üzrə hesabatda aşağıda şəkildə göstərildiyi kimi verilmişdir.

**Şəkil 1.**

**Rəqabətqabiliyyətlilik və infrastrukturun inkişaf səviyyəsi arasında əlaqə**




Mənbə: Dünya İqtisadi Forumunun Hesabatı( «The Global Competitiveness Report» 2019) əsasında müəllif tərtibatı

Şəkil 1-dən göründüyü kimi rəqabətqabiliyyətlilik səviyyəsi ilə infrastrukturun inkişaf səviyyəsi arasında birbaşa xətti əlaqə vardır. Başqa sözlə, infrastruktur səviyyəsi yüksəldikcə məhsulların keyfiyyətinin artması ehtimalı da yüksəlir.

Rəqabətin müəyyən edilməsində elə göstəricilər vardır ki, iqtisadiyyatda rəqabəti və dayanıqlığı bu göstəricilərsiz təsəvvür etmək mümkün deyildir. Hələ 1817-ci ildə ingilis iqtisadçısı D. Rikardo ölkələrarası ticarət əlaəqlərinin müqayisəli üstünlüklər əsasında qurulmasını irəli sürüdü.

Hazırda əksər ölkələrdə rəqabət üstünlüyünün bazası kimi aşkar müqayisəli üstünlüklər çıxış edir. İyirmi ildən artıqdır ki, və ya qlobal aləmdə 1990-cı illərin əvvəllərindən başlayaraq aşkar müqaisəli üstünlüklərin hesablanması Balassa prinsipinə əsaslanır. Bu prinsip müqaisəli üstünlüyün hesablanılmasında hər bir ölkənin ixrac və idxal haqqında məlumatlarından istifadənin məqsədəuyğynluğunu tövsiyə edir. Bu prinsip bir neçə aşkar müqaiysəli üstünlük (AMÜ) göstəricisinin əmələ gəlməsinə səbəb olmuşdur. beynəlxalq təcürbədə müqayisəli üstünlük B.Balassa (1965) indeksi əsasında qiyçətləndirilir və bu iqtisad elmində Aşkar müqayisəli üstünlük (AMÜ) kimi daxil olmuşdur. həmin riyazi formula aşağıdıki kimidir [5.s.78]:

$$B_{ij} = X_{ij} / X_{iw}$$

Burada, $B_{ij}$ -Balassa indeksini, $x_{ij}$ – i məhsulunun ölkənin ümumi ixracında payı və $x_{iw}$ i malının ümumi dünya ixracında payıdır. Bildirək ki, hesblama nəticəsində alınan əmsal 1-dən böyük olarsa onda müqaiysəsədə üstünlüyün olmasını, 1-dən kiçik olması isə belə bir üstünlüyün olmadığını bildirir. Bildirmək lazımdır ki, sərbəst ticarətə mane olan bir sıra problemlərin, konkret olaraq proteksionist tədbirlərin mövcudluğu ölkələrin rəqabət üstünlüklərini tam olaraq reallaşdırmağa maneə ola bilər. Bu isə son nəticədə öz əksini xarici ticarətin strukturunda tapır. Buna görə də əsasən xarici ticarət göstəricilərinə əsaslanmaqla rəqabət üstünlüklərinin hesablanması metodu olan AMÜ Balassa prinsipi ilə potensial rəqabət üstünlüyünə malik olan sahələrin və ya məhsulların tam şəkildə müəyyənləşdirilməsi mümkün olmur.

## Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsi

Beynəlxalq təcürbə və qlobal ərzaq təhlükəsizliyi üzrə indekslərdə aqrar sahənin inkişafında infrastrukturun rolu qiymətləndirilərkən adətən aşağıdakı istiqamətlər üzrə qiymətləndirmə aparılır. Həmin sahələrə aşağıdakılar aiddir:

- avtomobil yolları,
- dəmir yolları
- hava limanları,
- su nəqliyyatı,
- suvarılan torpaqlar,
- məhsulun saxlanılması üçün obyektlərin sayı,
- Internet və telefondan istifadə imkanları.

Məlumdur ki, nəqliyyat sistemi istehsalın və iqtisadi-sosial sferanın maksimum səviyyədə inkişafına böyük zəmin yaradır. Bu baxımdan nəqliyyat yollarının əraziyə görə təmin olunması kənd təsərrüfatında olduqca vacib məsələlərdən hesab edilir. Bu baxımdan nəqliyyat sektorunda 1 ton yükün orta daşınma məsafəsini müəyyənləşdirmək üçün aşağıdakı cədvələ nəzər salaq.

**Şəkil 2.**

**Nəqliyyat sektorunda 1 ton yükün orta daşınma məsafəsi, km**




| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Dəmir yolu | 338.5 | 332.2 | 353.0 | 378.9 | 368.8 |
| Dəniz | 561.4 | 551.5 | 565.7 | 457.2 | 449.7 |
| Hava | 5,174.9 | 5,026.2 | 5,030.5 | 6,973.0 | 8,451.0 |
| Avtomobil | 112.9 | 78.9 | 83.8 | 92.1 | 92.8 |

Mənbə: DSK-nın Azərbaycanda Nəqliyyat 2024 hesabatı əsasında müəllif tərtibatı.

Şəkil 2-dən göründüyü kimi nəqliyyat sektorunda 1 ton yükün orta daşınma məsafəsi ən az avtomobillərdədir. Başqa sözlə, 1 ton yükün orta daşınması üçün ən məqbul variant avtomobillə bağlı daşınmalar hesab olunur. Nəzərə almaq lazımdır ki, Azərbaycanın kənd təsərrüfatı məhsullarının ən çox ixrac etdiyi ölkə Rusiyadır ki, bu ölkəyə də kənd təsərrüfatı məhsullarının ixracı əsasən maşınlarla daşınır. Digər tərəfdən onu da bildirək ki, ixracın strukturunda kənd təsərrüfatı məhsullarının həcmi ilən-ilə artır. Belə ki, **2021-ci ildə** Azərbaycan 816.2 milyon ABŞ dolları həcmində kənd təsərrüfatı məhsulları ixrac etmişdirsə bu göstərici 2022-ci ildə 1.12% artaraq 912.4 milyon milyon ABŞ dolları səviyyəsində olmuşdur. 2023-cü ildə isə kənd təsərrüfatı məhsullarının ixracı 2022-ci illə müqayisədə 0.1% artaraq 969.3 milyon ABŞ dolları səviyyəsinə çatmışdır. Göründüyü kimi kənd təsərrüfatı məhsullarının ixracının artması onun daşınması ilə bağlı məsələlərin də səmərəli həll edilməsini də zəruri edir.

Son illər yol şəbəkələrinin müasir dünya standartlarına uyğun inkişaf etdirilməsi avtomobil nəqliyyatının gələcək inkişafı üçün də böyük önəm daşıyır. Avtomobil nəqliyyatı digər nəqliyyat növlərinə nisbətən bir çox üstünlüklərə malikdir. Bu nəqliyyat növü istər yüklərin qapıdan-qapıya, istərsə də lazımi nəqliyyat qovşaqlarına çatdırılmasında (dəmir yol vağzalı, dəniz və hava limanları) mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən Avropa-Qafqaz-Asiya və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi ölkəmizin tranzit imkanlarını xeyli artırmışdır.

**Cədvəl 1**

**Yol infrastrukturu**

| **İllər** | **1990** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
|---|---|---|---|---|---|---|---|---|
| Dəmir yolları, km | 3,278 | 2,481 | 2,470 | 2,490 | 2,499 | 2,499 | 2,476 | 2,476 |
| Avtomobil yolları, km | 26,197 | 19,016 | 19,176 | 77,419 | 77,825 | 78,307 | 78,349 | 78,632 |

Mənbə: DSK-nın Azərbaycanda Nəqliyyat 2024 hesabatı əsasında müəllif tərtibatı.

Cədvəl 1-in məlumatları göstərir ki, 1990-cı ildə ölkədə 26197 km yalnız respublika və yerli əhəmiyyətli avtomobil yolları mövcud olmuşdursa bu göstərici 2023-cü ildə 3 dəfə artaraq 78632

km-ə çatmışdır. Eyni zamanda, dəmir yolları 802 km azalmışdır. Bunun səbəbi 1991-1994-cü illərdə Ermənistan respublikasının Qarabağda bir sıra Azərbaycan rayonlarını işğal etməsi ilə bağlı olmuşdur. Həmçinin, avtomobil yollarının uzanmasının əsas səbəbi beynəlxalq standartlara uyğun yeni yolların çəkilməsi və 2020-ci ildən sonra Qarabağın işğaldan azad edilməsi və Qarabağ iqtisadi rayonunda yenidənqurma və avtomobil yollarının çəkilişi ilə bağlıdır. Belə hal isə perespektivdə bütün növ yükdaşımaların həcminin artmasına müsbət təsir göstərəcəkdir. Proqnozlar göstərir ki, gələcəkdə ölkə ərazisindən daşınılacaq tranzit yüklərin 70%-ə yaxını avtomobil nəqliyyatının payına düşəcəkdir. Bu baxımdan nəqliyyat sektorunda yük daşınması üzrə aşağıdakı şəkilə baxmaq maraqlıdır.

**Şəkil 3.**

**Nəqliyyat sektorunda yük daşınması yekuna nisbətən %-lə**




| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Dəmir yolu | 6.5 | 7.8 | 7.8 | 8.6 | 7.9 |
| Dəniz | 2.5 | 3.2 | 2.8 | 3.4 | 3.9 |
| Hava | 0.1 | 0.2 | 0.3 | 0.2 | 0.2 |
| Avtomobil | 66.0 | 59.1 | 58.0 | 57.6 | 58.4 |

Mənbə: DSK-nın Azərbaycanda Nəqliyyat 2024 hesabatı əsasında müəllif tərtibatı.

Şəkil 3-dən görünür ki, ölkədə yüklərin daşınmasında nəqliyyət sektoru dominantlıq təşkil edir və 2019-cu ildə nəqliyyat sektorunda yüklərin 66% nəqliyyat sektorunun payına düşmüşdürsə bu göstərici növbəti illərdə nisbətən azalsa da 2023-cü ildə 58.4% səviyyəsində olmuş, ümumən nəqliyyat sektorunda yük daşınmasının böyük hissəsi nəqliyyat sektoru ilə reallaşdırılır. Aparılan təhlillər göstərir ki, ölkə daxilində fəaliyyət göstərən beynəlxalq və respublika əhəmiyyətli avtomobil yollarının kateqoriyalar üzrə iqtisadi göstəricilərinin yüksəldilməsi və beynəlxalq standartlar səviyyəsinə çatdırılması üçün müvafiq tədbirlər görülməkdədir.

Ümumiyyətlə, ölkədə aqrar sahənin inkişafında infrastrukturun rolunun qiymətləndirərkən diqqət edilən məsələlərdən biri də kənd təsərrüfatı bitkilərinin əkin sahələridir. Aparılan təhlilllər göstərir ki, ölkəmizdə kənd təsərrüfatı bitkilərinin əkin sahələri 2019-cu ildə 1717.1 min ha. Olmuşdursa bu göstərici növbəti illərdə azalmış və 2023-cü ildə qeyd edilən göstərici 10.6% və ya 182.1 min ha. səviyyəsinə düşmüşdür.

**Cədvəl 2**

**Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, bütün təsərrüfat kateqoriyaları üzrə** (min ha.)

| İllər | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Cəmi əkin sahələri | 1717.1 | 1630.9 | 1644.5 | 1624.0 | 1535.0 |
| Dənli və dənli paxlalı bitkilər - cəmi | 1072.3 | 989.1 | 998.7 | 985.7 | 948.3 |
| Texniki bitkilər - cəmi | 130.2 | 122.0 | 122.0 | 125.2 | 112.8 |
| Kartof, bostan və tərəvəz bitkiləri - cəmi | 147.7 | 143.6 | 144.6 | 140.3 | 127.9 |
| Yemlik bitkilər | 366.9 | 376.2 | 379.2 | 372.8 | 346.0 |

Mənbə: DSK-nin Azərbaycanda Kənd Təsərrüfatı 2024 hesabatı əsasında müəllif tərtibatı.

Cədvəl 2-in məlumatları göstərir ki, ən çox azalma dənli və dənli paxlalı bitkilərin azalmasında olmuşdur. Belə ki, əgər 2019-cu ildə 670 min ha. buğda əkilirdisə bu göstərici 127.2 min ha. azalaraq 542.8 min ha. səviyyəsinə düşmüşdür.

Analoji olaraq 2019-cu illə müqayisədə 2023-cü ildə texniki bitkilərdən pambıq, şəkər çuğunduru, günəbaxan tumu, kartof, tərəvəz, bostan bitkiləri, çoxillik və bir illik otların əkinində azalmalar olmuşdur.

**Cədvəl 3**

**Suvarılan torpaqlar (min ha)**

| İllər | Cəmi suvarılan torpaqlar | ondan | | |
|---|---|---|---|---|
| | | kənd təsərrüfatına yararlı torpaqlar | ondan | |
| | | | əkin yeri | çoxillik əkmələr |
| **2010** | 1424.6 | 1421.4 | 1200.1 | 157.7 |
| **2011** | 1424.4 | 1421.0 | 1201.7 | 156.2 |
| **2012** | 1427.7 | 1424.3 | 1202.1 | 159.4 |
| **2013** | 1435.2 | 1431.8 | 1209.1 | 158.8 |
| **2014** | 1438.8 | 1435.3 | 1211.6 | 161.8 |
| **2015** | 1434.5 | 1431.0 | 1210.4 | 163.8 |
| **2016** | 1438.8 | 1435.4 | 1210.5 | 168.1 |
| **2017** | 1445.8 | 1442.4 | 1213.7 | 172.7 |
| **2018** | 1449.4 | 1445.9 | 1214.2 | 176.2 |
| **2019** | 1450.2 | 1446.7 | 1213.0 | 178.7 |
| **2020** | 1480.2 | 1476.7 | 1243.0 | 178.8 |
| **2021** | 1484.9 | 1481.1 | 1246.4 | 179.5 |
| **2022** | 1484.9 | 1481.1 | 1245.1 | 180.8 |
| **2023** | 1485.0 | 1481.2 | 1239.7 | 180.9 |

Mənbə: DSK-nin Azərbaycanda Kənd Təsərrüfatı 2024 hesabatı əsasında müəllif tərtibatı.

Cədvəl 3-ün məlumatları göstərir ki, ölkədə kənd təsərrüfatına yararlı torpaqlar cəmi 1481.2 min hektardır. 2023-cü ildə isə bundan 54 min ha. artıq kənd təsərrüfatı torpaqları əkilmişdir. Buna müvafiq olaraq da 1485 min ha ölkədə suvarılan torpaqlar olmuşdur.

Beləliklə də, aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında innovativ infrastrukturun rolunun qiymətləndirilməsi baxımından yanaşdıqda aydın olur ki, avtomobil yollarının vəziyyəti müsbət qiymətləndirilə bilər.

Ölkənin kənd təsərrüfatının qiymətləndirilməsində digər yanaşma müqayisəli təhlilidir. Bunun üçün Qloabal ərzaq təhlükəsizliyi indeksinin 2023-ci il üzrə infrastrukturun daxili elementləri kimi "planlaşdırma və logistk xidmətlər", yol infrasturukturu, hava, liman dəmir yolu infrastrukturu ilə bağlı hesablamalar aparılmışdır. Həmin hesablamaları aşağıdakı şəkildəki kimi göstərmək olar.

**Şəkil 4.**

**İnfrastrukturun ölkələr üzrə qiymətləndirilməsi (2023-ci il, balla qiymətləndirmə)**




| | Azərbaycan | Türkiyə | Özbəkistan | Belarusiya | Rusiya | 118 ölkə üzrə ədədi orta |
|---|---|---|---|---|---|---|
| Planlaşdırma və logistik xidmətlər | 39.5 | 53.8 | 39.5 | 39.2 | 44 | 49.4 |
| Yol infrastrukturu | 50 | 50 | 25 | 50 | 25 | 45.6 |
| Hava, Liman dəmir yolu üzrə infrastruktur | 50 | 67.5 | 32.5 | 32.5 | 67.5 | 48.4 |

Mənbə: Qlobal ərzaq təhlükəsizliyi indekeksi əsasında müəllif tərtibatı.

Göründüyü kimi Özbəkistan respublikası 118 ölkə üzrə Azərbaycandan geri qaldığı halda kənd təsərrüfatı ixracında xeyli irəlidədir. Qeyd edilən ölkələrin kənd təsərrüfatı məhsullarının ixracının təhlili də maraqlıdır. Bu baxımdan trademap.org internet portalının məlumatına görə kənd təsərrüfatı məhsullarının ixracında 2019-cu ildə Türkiyə 26.6 milyarda ABŞ dolları həcmində məhsul ixrac etmişdirsə bu göstərici 2023-cü ildə 40.7 milyarda ABŞ dolları həcmində olmuşdur. Belarusiyada isə müvafiq təhlil dövründə geriləmələr müşahidə edilmiş, Özbəkistanda müvafiq dövr üzrə ixrac 1.8-1.2 milyarda ABŞ dolları həcmində dəyişmişdir. Azərbaycanda isə 2019-cu ildə 772.2 milyon ABŞ

dolları səviyyəsindən artaraq 2023-cü ildə 969.2 milyon ABŞ dolları səviyyəsinə çatmışdır. Bu baxımdan aşağıdakı dinamikaya nəzər salaq.

**Şəkil 5.**

**Müvafiq ölkələr üzrə kənd təsərrüfatı məhsullarının ixracı ( milyard ABŞ dolları ilə)**




Mənbə: Tade Map məlumatları (Trade statistics for international business development) əsasında müəllif tərtibatı.

Qeyd edilənlərlə yanaşı onu da bildirək ki, kənd təsərrüfatının əmək tutumlu və məşğulluğun təmin olunmasında rolu böyükdür. Təsadüfi deyildir ki, ölkədə ən çox məşğulluq məhz kənd təsərrüfatında olduğu bildirilir. Bu baxımdan istənilən ölkədə səmərəli məşğulluğun müəyyənləşməsində əsas yanaşmalardan biri də ölkənin Balassa indeksi əsasında müqayisəli üstünlüklərinin müəyyənləşdirilməsidir. Eyni zamanda, bu gün dünya bazarlarında rəqabətin daha da gücləndiyi bir şəraitdə hansı Azərbaycan məhsullarının rəqabətqabiliyyətli olmasının müəyyənləşdirilməsi də vacibdir. Bu baxımdan Balassa indeksi əsasında aqrar sahədə müqayisəli üstünlüyü qiymətləndirsək görərik ki, məhdud sayada kənd təsərrüfatnda müqayisəli üstünlüyə malik olan kənd təsərrüfatı məhsullarını aşağıdakı cədvəldə göstərmək olar.

**Cədvəl 4**

**Balassa indeksi**

| **Malın adı** | **2021** | **2022** | **ədədi orta** |
|---|---|---|---|
| Bugda unu | 0.8019 | 2.021 | 1.411 |
| Təzə və qurudulmuş meyvə tərəvəz məhsulu | 1.05 | 1.091 | 1.071 |
| Çərəz (yeməli) təzə/ quru. | 1.0882 | 1.907 | 1.498 |
| Meyvə şirəsi xalis/qarışıq | 1.11 | 1.0034 | 1.057 |

Mənbə: Balassa indeksi əsasında müəllif tərtibatı.

Azərbaycanda kənd təsərrüfatı məhsullarının ixracda payının qonşu ölkələrlə müqayisə etmək aşağıdakı cədvələ nəzər yetirək.

**Cədvəl 5**

**Kənd təsərrüfatı məhsullarının ixracda payı (%)**

| Illər | | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Azərbaycan | Kənd təsərrüfatı məhsullarının ixracda payı (%) | 3.9 | 5.5 | 3.7 | 2.4 | 2.9 |
| | Kənd təsərrüfatı məhsullarının qeyri-neft ixracında payı (%) | 43.3 | 44.6 | 32.5 | 33.0 | 34.8 |
| Ermənistan | Kənd təsərrüfatı məhsullarının ixracda payı (%) | 29.6 | 30.1 | 29.4 | 23.1 | 13.5 |
| Gürcüstan | Kənd təsərrüfatı məhsullarının ixracda payı (%) | 52.9 | 51.1 | 56.3 | 55.1 | 56.5 |

Mənbə: Tade Map məlumatları(Trade statistics for international business development) əsasında müəllif tərtibatı.

Cədvəl 5-in məlumatlarından göründüyü kimi müqayisə üçün götürülən ölkələrdə də kənd təsərrüfatın məhsullarının ixracda payı böyükdür. Ölkəmizin isə qeyri-neft ixracında payı 30%-dən çoxdur.

Aqrar sahənin dayanıqlı və rəqabətli inkişafında infrastrukturun rolunun qiymətləndirilməsi üçün 2006-2023-cü illər üzrə kənd təsərrüfatı üzrə əsas kapitala yönəldilmiş investisiya ilə kənd təsərrüfatının ümumi məhsul istehsalı arasında əlaqəni nəzərdən keçirək.

**Cədvəl 6**

**Kənd təsərrüfatı üzrə əsas kapitala yönəldilmiş investisiya ilə kənd təsərrüfatının ümumi məhsul istehsalı arasında əlaqə(milyon manat)**

| illər | Kənd təsərrüfatı üzrə əsas kapitala yönəldilmiş investisiya | Kənd təsərrüfatının ümumi məhsulu |
|---|---|---|
| 2006 | 63.7 | 2115.5 |
| 2007 | 119.6 | 2918.6 |
| 2008 | 186.0 | 3505.9 |
| 2009 | 227.9 | 3805.5 |
| 2010 | 192.6 | 3877.7 |
| 2011 | 236.0 | 4525.2 |
| 2012 | 319.4 | 4844.6 |
| 2013 | 363.9 | 5244.6 |
| 2014 | 404.5 | 5225.8 |
| 2015 | 410.1 | 5635.3 |
| 2016 | 449.2 | 5632.4 |
| 2017 | 645.4 | 6580 |
| 2018 | 660.9 | 7010 |
| 2019 | 713.2 | 7836.7 |
| 2020 | 834.5 | 8428.9 |
| 2021 | 885.9 | 9163.4 |
| 2022 | 1094.0 | 10984.2 |
| 2023 | 1351.1 | 12210.6 |

Mənbə: DSK-nin Azərbaycanda Kənd Təsərrüfatı 2024 hesabatı əsasında müəllif tərtibatı.

Qeyd etdiyimiz kimi kənd təsərrüfatı üzrə əsas kapitala yönəldilmiş investisiya ilə kənd təsərrüfatının ümumi məhsul istehsalı arasında əlaqə ekonometrik olaraq qurulmuş və aşağdakı kimi nəticə alınmışdır. İlk növbədə bildirək ki, kənd təsərrüfatında məhsul istehsalının həcmi kənd təsərrüfatı üzrə əsas kapitala yönəldilmiş investisiyadan aslı dəyişən kimi götürülmüş və Eviews Tətbiqi Proqram Paketində aşağıdakı kimi nəticə alınmışdır.

LOG(MEH)= 5.246188+0.565074LOG(IN)

Std. Error (0.117) (0.019)

R2=98.0 DW=0.9

Göründüyü kimi model adekvat alınmışdır. Alınan nətəcilərə əsaslanaraq demək olar ki, kənd təsərrüfatında 1% əsas kapitala yönəldilmiş investisiyanın artması kənd təsərrüfatının ümumi məhsul istehslınıanın 0.56 faiz artmasına səbəb ola bilər.

*Modelin nəticələri 7*

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(MEH) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 02/17/25 Time: 14:36 | | | | |
| Sample: 2006 2023 | | | | |
| Included observations: 18 | | | | |
| LOG(MEH)=C(1)+C(2)*LOG(IN) | | | | |
| | | | | |
| | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| C(1) | 5.246188 | 0.116889 | 44.88182 | 0.0000 |
| C(2) | 0.565074 | 0.019430 | 29.08251 | 0.0000 |
| | | | | |
| R-squared | 0.981434 | Mean dependent var | | 8.616549 |
| Adjusted R-squared | 0.980274 | S.D. dependent var | | 0.460730 |
| S.E. of regression | 0.064710 | Akaike info criterion | | -2.533372 |
| Sum squared resid | 0.066998 | Schwarz criterion | | -2.434442 |
| Log likelihood | 24.80035 | Hannan-Quinn criter. | | -2.519731 |
| F-statistic | 845.7926 | Durbin-Watson stat | | 0.886849 |
Müasir texnologiyalar vergi yoxlamalarının daha effektiv və dəqiq aparılmasına imkan yaradır. Süni intellekt və böyük verilər əsasında risklərin analiz edilməsi sayəsində potensial vergi pozuntularını əvvəlcədən müəyyən etmək və proaktiv tədbirlər görmək mümkün olur. Avtomatlaşdırılmış vergi auditləri isə yoxlama prosesini sürətləndirərək insan resurslarına olan ehtiyacı azaldır, lakin eyni zamanda kibertəhlükəsizlik və texniki uyğunluq kimi problemləri də ortaya çıxarır. Blokçeyn texnologiyası isə məlumatların dəyişdirilməzliyini təmin edərək vergi əməliyyatlarında şəffaflığı artırır və saxtakarlıq hallarının qarşısını alır. Bu innovasiyalar vergi

sisteminin gücləndirilməsinə xidmət etsə də, onların uğurlu tətbiqi üçün mövcud qanunvericiliyin uyğunlaşdırılması və texnoloji infrastrukturun təkmilləşdirilməsi vacibdir:

- Süni intellekt və Böyük Verilər ilə risklərin analizi
- Avtomatlaşdırılmış vergi auditləri: imkanlar və çətinliklər
- Blokçeyn texnologiyasının vergi nəzarətindəki rolu

Müasir dövrdə süni intellekt (SI) və böyük verilər (Big Data) texnologiyaları vergi yoxlamalarında inqilabi dəyişikliklərə səbəb olur. Ənənəvi metodlarla müqayisədə bu texnologiyalar vergi ödəyicilərinin maliyyə əməliyyatlarını daha dərindən təhlil etməyə və potensial riskləri əvvəlcədən müəyyən etməyə imkan verir. Süni intellekt qeyri-adi maliyyə axınlarını aşkar edərək mümkün vergi yayınma hallarını müəyyən edə bilər. Böyük verilər analitikası isə vergi ödəyicilərinin davranış modellərini təhlil edərək, gələcəkdə baş verə biləcək pozuntuları proqnozlaşdırmağa şərait yaradır.

Rəqəmsal transformasiya ilə birlikdə vergi auditi prosesləri də avtomatlaşdırılır. Avtomatlaşdırılmış sistemlər insan faktorundan asılılığı azaldaraq, yoxlama proseslərini daha sürətli və şəffaf edir. Məsələn, süni intellekt və maşın öyrənməsi əsaslı audit alətləri avtomatik olaraq vergi bəyannamələrini yoxlaya, uyğunsuzluqları müəyyən edə və lazımi tədbirləri görə bilər. Lakin bu sistemlərin tətbiqi bəzi çətinliklərlə də müşayiət olunur. Avtomatlaşdırılmış sistemlərə tam etibar edilməsi bəzən yanlış nəticələrə gətirib çıxara bilər, çünki müəyyən nüanslar insan nəzarətini tələb edir. Digər bir çətinlik isə belə sistemlərin tətbiqinə uyğun infrastruktur və texniki bacarıqların yaradılmasıdır.

Blokçeyn texnologiyası şəffaf və təhlükəsiz məlumat idarəetmə imkanları təqdim edərək vergi nəzarətini daha səmərəli hala gətirir. Bu texnologiya məlumatların dəyişdirilə bilməməsini təmin etdiyi üçün vergi əməliyyatlarının izlənilməsini və etibarlılığını artırır. Vergi ödəyiciləri və vergi orqanları arasındakı qarşılıqlı əlaqələrdə blokçeyn əsaslı sistemlər vasitəsilə daha təhlükəsiz və şəffaf əməliyyatlar aparmaq mümkündür. Məsələn, blokçeyn texnologiyası vasitəsilə maliyyə əməliyyatlarının izlərini saxlamaq, vergidən yayınma hallarının qarşısını almaq və auditlərin daha effektiv aparılmasını təmin etmək olar. Lakin blokçeyn texnologiyasının geniş miqyasda tətbiqi üçün həm hüquqi çərçivənin uyğunlaşdırılması, həm də bu sistemin inteqrasiyası üçün kifayət qədər texnoloji resursların olması vacibdir.Bu texnologiyaların tətbiqi ilə vergi yoxlamaları daha effektiv və şəffaf hala gəlir, lakin onların tam potensialından faydalanmaq üçün müvafiq infrastruktur və qanunvericilik bazasının yaradılması zəruridir.

**Beynəlxalq təcrübə və Azərbaycan: Yeni nəsil vergi yoxlamaları**

Bir çox ölkələr rəqəmsal texnologiyalar vasitəsilə vergi yoxlamalarını daha səmərəli və şəffaf hala gətirməyə nail olublar. Məsələn, inkişaf etmiş dövlətlərdə süni intellekt və avtomatlaşdırılmış sistemlər vasitəsilə risk əsaslı auditlər həyata keçirilir və potensial pozuntular vaxtında aşkarlanır. Azərbaycanda da son illərdə vergi sisteminin rəqəmsallaşdırılması istiqamətində müəyyən addımlar atılıb, lakin hələ də təkmilləşdirilməsi vacib olan məqamlar mövcuddur. Xüsusilə blokçeyn texnologiyasının tətbiqi, avtomatlaşdırılmış audit mexanizmlərinin genişləndirilməsi və elektron inteqrasiya səviyyəsinin artırılması vergi nəzarətini daha effektiv edə bilər. Beynəlxalq təcrübədən yararlanaraq daha çevik və şəffaf vergi yoxlama modeli qurmaq, həm sahibkarlar, həm də dövlət üçün faydalı olacaq.

Qlobal miqyasda bir çox ölkə vergi yoxlamalarında rəqəmsal texnologiyaların tətbiqi ilə əhəmiyyətli uğurlar əldə edib. Məsələn, bəzi dövlətlərdə vergi bəyannamələrinin elektron qaydada təqdim edilməsi və avtomatlaşdırılmış yoxlama sistemləri vasitəsilə vergi ödəyicilərinin məlumatları daha sürətli və dəqiq şəkildə təhlil edilir. Bu yanaşma, vergi qaçaqlarının azalmasına və dövlət büdcəsinə daxilolmaların artmasına səbəb olub.

Azərbaycanda vergi inzibatçılığında rəqəmsallaşma prosesləri aktiv şəkildə həyata keçirilir. Dövlət Vergi Xidməti rəqəmsal yanaşmaların və həllərin tətbiqini genişləndirərək, vergi prosedurlarının avtomatlaşdırılmasına xüsusi diqqət yetirir. Bu istiqamətdə İnternet Vergi İdarəsi kimi onlayn platformalar vasitəsilə vergi ödəyicilərinə müxtəlif elektron xidmətlər təqdim olunur. Bu xidmətlər vergi ödəyicilərinin işini asanlaşdırmaqla yanaşı, vergi orqanlarının da fəaliyyətinin səmərəliliyini artırır.

**Azərbaycanın tətbiq edə biləcəyi innovativ həllər:** Azərbaycanın vergi sistemində rəqəmsallaşmanı daha da dərinləşdirmək üçün bir sıra innovativ həllər tətbiq oluna bilər. Məsələn, süni intellekt və böyük məlumat analitikası vasitəsilə risklərin qiymətləndirilməsi və potensial vergi qaçaqlarının əvvəlcədən müəyyən edilməsi mümkündür. Bundan əlavə, blokçeyn texnologiyasının tətbiqi ilə vergi əməliyyatlarının şəffaflığını və təhlükəsizliyini artırmaq olar. Bu texnologiyalar, vergi ödəyiciləri və vergi orqanları arasında qarşılıqlı etimadın gücləndirilməsinə və vergi nəzarətinin səmərəliliyinin artırılmasına xidmət edəcəkdir. Ümumilikdə, beynəlxalq təcrübənin öyrənilməsi və müasir texnologiyaların tətbiqi ilə Azərbaycan vergi sisteminin rəqəmsallaşması istiqamətində əhəmiyyətli addımlar ata bilər. Bu, həm vergi ödəyicilərinin məmnuniyyətini artıracaq, həm də dövlət büdcəsinə daxilolmaların artmasına töhfə verəcəkdir.

**Gələcək perspektivlər və təkliflər**

Rəqəmsal texnologiyaların inkişafı vergi yoxlamalarının daha çevik və effektiv aparılmasına imkan yaradır. Süni intellekt və böyük verilərin analizi sayəsində vergi orqanları potensial riskləri əvvəlcədən müəyyən edə bilər ki, bu da yoxlama prosesinin daha məqsədyönlü və obyektiv olmasına kömək edir. Vergi ödəyiciləri üçün isə bu yanaşma daha şəffaf və sadələşdirilmiş prosedurlar deməkdir. Rəqəmsal nəzarət sistemlərinin təkmilləşdirilməsi üçün ilk növbədə vergi ödəyiciləri və dövlət qurumları arasında avtomatik məlumat mübadiləsi gücləndirilməlidir. Bununla yanaşı, kiber təhlükəsizlik məsələləri ön planda saxlanmalı və məlumatların qorunması üçün güclü sistemlər qurulmalıdır.

Rəqəmsal alətlərin effektiv istifadəsini təmin etmək üçün isə sahibkarlar və mühasiblər üçün mütəmadi təlim və maarifləndirmə proqramları təşkil edilməlidir. Bu cür yeniliklər vergi ödəmə prosesini şəffaflaşdırmaqla yanaşı, vergidən yayınma hallarının da azalmasına səbəb ola bilər.

Rəqəmsallaşmanın tətbiqi nəticəsində dövlətin vergi gəlirləri artar və iqtisadiyyatın dayanıqlılığı təmin edilər. Elektron sistemlər vergi əməliyyatlarını daha izlənilə bilən hala gətirərək qeyri-qanuni fəaliyyətlərin qarşısını alar. Bundan əlavə, rəqəmsal yoxlama metodları vergi ödəyiciləri arasında könüllü əməletmə səviyyəsini artırır və dövlətlə vətəndaş arasında inamın güclənməsinə kömək edir.

Ümumilikdə, vergi yoxlamalarının rəqəmsallaşdırılması həm dövlət, həm də vətəndaşlar üçün daha səmərəli bir mühit yaradır və iqtisadi şəffaflığın yüksəlməsinə töhfə verir. Rəqəmsallaşmanın vergi yoxlamalarına inteqrasiyası həm vergi orqanlarının, həm də vergi ödəyicilərinin fəaliyyətini optimallaşdıraraq iqtisadi şəffaflığın və səmərəliliyin artırılmasına töhfə verir.

## Nəticə/Conclusion

Ümumilikdə rəqəmsallaşma vergi sistemini daha şəffaf, effektiv və etibarlı etməyə imkan yaradır. Hazırkı metodlar getdikcə köhnəlir və yeni texnologiyalar bu boşluqları doldurmaq üçün vacib rol oynayır. Vergi yoxlamalarının avtomatlaşdırılması süni intellekt və böyük məlumat analitikası vasitəsilə daha dəqiq və sürətli şəkildə həyata keçirilə bilər.

Blokçeyn texnologiyasının tətbiqi ilə vergi əməliyyatlarının şəffaflığı artırıla bilər, bu da saxtakarlığın qarşısını almağa kömək edər. Elektron vergi sistemlərinin sadələşdirilməsi bizneslər və fərdi sahibkarlar üçün vergi hesabatlarını təqdim etməyi asanlaşdıracaq. Beynəlxalq təcrübənin öyrənilməsi və qanunvericiliyin yeni iqtisadi reallıqlara uyğunlaşdırılması da önəmlidir. Xüsusilə onlayn platformalar və rəqəmsal iqtisadiyyatın sürətlə böyüməsi fonunda vergi sistemləri buna uyğunlaşdırılmalıdır. Eyni zamanda, rəqəmsal vergi sistemlərinin uğurlu işləməsi üçün həm vergi ödəyiciləri, həm də vergi qurumlarının əməkdaşları maarifləndirilməlidir. Təlimlər və informasiya kampaniyaları bu keçidin uğurlu olması üçün vacibdir.

Ümumilikdə, rəqəmsallaşma vergidən yayınma hallarını azaldacaq, yoxlamaların dəqiqliyini artıracaq və dövlət gəlirlərini daha stabil hala gətirəcək. Gələcəkdə bu istiqamətdə daha çox investisiya və struktur dəyişiklikləri aparılmalıdır ki, vergi sistemi müasir iqtisadi tələblərə uyğun olsun.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. Abdullayev, S. (2021). "Vergi nəzarətində innovativ texnologiyalar." Bakı: Bakı Biznes Universiteti.
2. Məmmədov, F. (2022). "Rəqəmsal iqtisadiyyat və vergi sistemi: Yeni çağırışlar." Bakı: İqtisadiyyat Elmləri Akademiyası.
3. Əliyev, R. (2020). "Vergi auditi və vergi yoxlamalarının təkmilləşdirilməsi." Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti Nəşriyyatı.
4. Тимофеев, А. С. (2020). "Инновационные технологии в налоговом администрировании." Москва: Издательство Инфра-М.
5. Шишкин, Д. П. (2021). "Автоматизация налогового контроля и аудита." Москва: Юридический центр Пресс.
6. Смирнова, Е. Н. (2020). "Цифровизация экономики и ее влияние на налоговую систему." Москва: Экономика
7. OECD - "Tax and Digitalisation" (www.oecd.org)
8. Tax Foundation - "The Digital Economy and Taxes" (www.taxfoundation.org)
9. "The Future of Tax: Digital Platforms, Cryptocurrencies, and Blockchain" – European Commission
   "Big Data and the Law" – Sarah Williams
10. "The Digital Economy: Promise and Peril in the Age of Networked Intelligence" – Don Tapscott
11. "The Role of Blockchain in Tax Administration" – International Monetary Fund (IMF)


## Совершенствование налоговых проверок в контексте цифровизации


**Юнус Садыгов**
Доктор философских наук, доцент
Институт экономики Академии наук Азербайджанской Республики
Ведущий научный сотрудник отдела «Экономических проблем агропромышленного комплекса»
y.sadikhos@mail.ru
**Гулай Гусейнова**
Бакинский Университет Бизнеса, степень магистра
Эл. почта:gulayhuseynova04@gmail.com



**Резюме:** Цифровая эпоха требует более эффективных и прозрачных налоговых проверок. Поскольку традиционные методы с трудом адаптируются к быстро меняющейся экономической среде, для повышения эффективности проверок применяются инновационные технологии, такие как искусственный интеллект, большие данные и блокчейн. Цифровизация позволяет предотвратить уклонение от уплаты налогов, точнее оценить риски и автоматизировать процессы. При этом важно изучать международный опыт и адаптировать местное законодательство к новым реалиям. В данном исследовании анализируются преимущества и области применения цифровых налоговых проверок, а также даются рекомендации по более прозрачному и эффективному налоговому контролю.



**Ключевые слова**: Цифровые налоговые проверки, искусственный интеллект, блокчейн и налоговый контроль, налоговая прозрачность и цифровизация, цифровая экономика, инновационные механизмы налогового контроля, Большие данные.

DOI: https://doi.org/10.36719/2707-9317/05/81-88

# Assessment of theoretical views on the formation of the shadow economy

**Aygun Fataliyeva**
Doctor of philosophy in economics
AR ETN Institute of Economics
e.mail:fataliyeva.aygun@mail.ru

**Summary:** the purpose of the study is to evaluate the essence of the shadow economy, its economic basis and theoretical views, evaluate global trends, draw general conclusions.

**The methodology of the study**-theoretical assessment, generalization and grouping, statistical approach and analysis methods were used.

**Results of the study**-conceptual approach to the shadow economy, characterizing the causes of its formation with modern trends, assessment of the impact opportunities of the problem on countries by the level of development.

**Practical significance of the study**-facilitating the application of research results to practice, reducing the level of shadow economy, evaluating new ideas and ideas in the direction of problem solving.

**Originality / value**-approach to the creation of the shadow economy on the sectoral relations of the economy, application of this method in the direction of solving the problem.

**Key words:** shadow economy, tax burden, public administration, World Bank, valuation, GDP, informality, transparency, digitalization, etc.

**UOT:330.88 gel: B17**

# Kölgə iqtisadiyyatının yaranması üzrə nəzəri baxışların qiymətləndirilməsi

**Aygün Fətəliyeva**
İqtisad üzrə fəlsəfə doktoru
AR ETN İqtisadiyyat İnstitutu
e.mail:fataliyeva.aygun@mail.ru

**Xülasə: Tədqiqatın məqsədi**-kölgə iqtisadiyyatının mahiyyəti, onun iqtisadi əsasları və nəzəri baxışlar qiymətləndirilməsi, qlobal meyilləri dəyərləndirmək, ümumi nəticələr çıxartmaqdan ibarətdir.

**Tədqiqatın metodologiyası**-nəzəri dəyərləndirmə, ümumiləşdirmə və qruplaşdırma, statistik yanaşma və təhlil metodlarından istifadə edilmişdir.

**Tədqiqatın nəticələri**-kölgə iqtisadiyyatına konseptual yanaşılması, onun yaranma səbəblərini müasir meyillərlə xarakterizə edilməsi, inkişaf səviyyələrinə görə ölkələr üzrə problemin təsir imkanlarının qiymətləndirilməsi.

**Tədqiqatın praktiki əhəmiyyəti** – tədqiqat nəticələrinin təcrübəyə tətbiqinin asanlaşdırılması, kölgə iqtisadiyyatının səviyyəsinin azaldılması, yeni fikir və ideyaların problemin həlli istiqamətində dəyərləndirilməsi.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi**-kölgə iqtisadiyyatının yaranmasına iqtisadiyyatın sahəvi münasibətləri üzrə yanaşılması, problemin həlli istiqamətində bu üsulun tətbiq edilməsi.

**Açar sözlər:** Kölgə iqtisadiyyatı, vergi yükü, dövlət idarəetməsi, Dünya Bankı, qiymətləndirmə, ÜDM, qeyri-rəsmi, şəffaflıq, rəqəmsallaşma və s.

**UOT: 330.88 JEL:B17**

## GİRİŞ

Kölgə iqtisadiyyatı dövlətin rəsmi nəzarətindən kənarda fəaliyyət göstərən, qeyri-rəsmi şəkildə həyata keçirilən iqtisadi proseslərə istinad edir. Bu fəaliyyətlər rəsmi olaraq qanunlara uyğun gəlməsə də, cəmiyyətin tələbatını ödəmək və fərdlərin iqtisadi rifahını artırmaq məqsədi daşıyır. Bu iqtisadiyyat növü dövlətin rəsmi statistikalarına daxil edilmədiyi üçün "kölgə" termini ilə xarakterizə olunur.

Kölgə iqtisadiyyatının əsas yaranma səbəblərindən biri dövlətin yüksək vergi və rüsum siyasətidir. Vergi yükünün ağır olması fərdləri və müəssisələri qanunvericilikdən yan keçməyə sövq edir. Bununla yanaşı, mürəkkəb bürokratik prosedurlar, qeyri-effektiv inzibati sistem və dövlət nəzarətinin zəif olması da kölgə iqtisadiyyatının yaranmasını stimullaşdıran amillərdəndir. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə bu problemlər daha çox müşahidə edilir.

Kölgə iqtisadiyyatının təsirləri iki əsas kateqoriyada qiymətləndirilə bilər: müsbət və mənfi. Müsbət tərəfdən, kölgə iqtisadiyyatı işsizlik səviyyəsinin azalmasına və iqtisadi dinamizmin artmasına töhfə verə bilər. O, rəsmi sektorda yer almayan fərdlərə alternativ qazanc mənbəyi yaradır. Mənfi təsirlər isə daha çox sosial və iqtisadi problemlərə səbəb olur. Bu təsirlər arasında dövlətin vergi gəlirlərində itkilər, qanunsuz fəaliyyətlərin artması, əmək hüquqlarının qorunmaması və rəqabət şəraitinin pozulması yer alır.

Kölgə iqtisadiyyatının azaldılması üçün müxtəlif siyasətlər təklif edilmişdir. Bunların arasında dövlət idarəetməsinin təkmilləşdirilməsi, vergi yükünün azaldılması, qanunsuz fəaliyyətlərin hüquqi çərçivəyə daxil edilməsi və ictimai maarifləndirmə tədbirləri yer alır. Bu yanaşmaların uğuru dövlətin idarəçilik qabiliyyətindən və cəmiyyətin dəstəyindən asılıdır.

Kölgə iqtisadiyyatı mövcudluğunu qoruduğu müddətdə həm cəmiyyət, həm də dövlət üçün çağırışlar yaradır. Onun təsirlərinin tam başa düşülməsi və idarə olunması, iqtisadi inkişaf və sosial ədalətin təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

**Kölgə iqtisadiyyatına nəzəri yanaşmaların dəyərləndirilməsi**

Kölgə iqtisadiyyatına dair müxtəlif dövrlərdə fərli yanaşmalar olmuşdur. Onlardan biri kimi Arthur Lewisi xüsusi ilə qeyd edə bilərik. O, iki sektorlu iqtisadi inkişaf modeli ilə kölgə iqtisadiyyatının inkişafını izah etmişdir [1, s.139-141]. O, kənd təsərrüfatından sənaye sektoruna keçidi vurğulamışdır. Arthur Lewis-in iki sektorlu iqtisadi inkişaf modeli iqtisadiyyatın inkişaf mərhələlərini izah edir və bu prosesdə kölgə iqtisadiyyatının necə formalaşa biləcəyini açıq şəkildə nümayiş etdirir. Modelə görə, iqtisadiyyat iki fərqli sektordan ibarətdir: bir tərəfdə ənənəvi kənd təsərrüfatı sektoru, digər tərəfdə isə müasir sənaye sektoru mövcuddur. Bu iki sektor arasındakı əlaqə inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın irəliləməsi üçün mühüm şərtdir. Kənd təsərrüfatı sektorunda, işçi qüvvəsi çox vaxt izafi olur. Bu, o deməkdir ki, bəzi işçilərin təsərrüfat fəaliyyətindən uzaqlaşması ümumi məhsuldarlığa təsir göstərmir. Lewis-in modeli göstərir ki, bu izafi işçilər müasir sektora keçdikcə, iqtisadiyyatın ümumi məhsuldarlığı artır. Bu keçid yalnız sənaye sektorunda daha yüksək əmək məhsuldarlığı və gəlir təmin edildikdə mümkündür. Müasir sektor isə dövlətin qanunları və rəsmi iqtisadi fəaliyyəti ilə sıx bağlıdır. Lakin keçid prosesindəki çətinliklər – məsələn, urbanizasiya problemləri, işçi qüvvəsinin uyğunlaşması, bürokratik maneələr və sənayeləşmə xərcləri-kölgə iqtisadiyyatını formalaşdıra bilər. Kənd təsərrüfatı sektorundan çıxan işçilər rəsmi sənaye sektoruna daxil ola bilmədikdə, qeyri-formal sektorda fəaliyyət göstərməyə başlayır. Beləliklə, kölgə iqtisadiyyatı, işsizlik və gəlir çatışmazlığı kimi problemləri qismən kompensasiya edir. Lewis-in nəzəriyyəsi iqtisadi inkişafın yalnız texnoloji tərəqqi və resurs istifadəsi ilə deyil, həm də işçi qüvvəsinin struktur dəyişiklikləri ilə bağlı olduğunu göstərir. Kölgə iqtisadiyyatının mənbələrindən biri olan bu struktur keçid prosesi, xüsusən də zəif idarəçilik və qeyri-kafi iqtisadi planlaşdırma şəraitində dərinləşə bilər. Bu model, həmçinin, iqtisadi siyasətin daha yaxşı planlaşdırılması və resursların optimal bölgüsü ilə kölgə iqtisadiyyatının təsirlərini minimuma endirməyin mümkünlüyünü vurğulayır. Lewis-in yanaşması iqtisadi inkişaf nəzəriyyələri arasında ən məşhur yanaşmalardan biri hesab olunur və müasir dövrdə də aktualdır.

Hernando De Soto-nun "legalist" yanaşması kölgə iqtisadiyyatını dövlətin normativ bazasının zəifliyi ilə izah edir [2, s.25-27]. O, xüsusilə inkişaf etməkdə olan ölkələrdə hüquqi və inzibati maneələrin iqtisadiyyatın qeyri-rəsmi sferada genişlənməsinə səbəb olduğunu vurğulayır. De Soto-ya görə, qanuni bazanın qeyri-effektivliyi və qeyri-şəffaflığı fərdləri və müəssisələri qeyri-rəsmi fəaliyyətə yönləndirir, çünki rəsmi sektor çoxlu xərclər, uzun müddətli bürokratik proseslər və hüquqi qeyri-müəyyənliklər ilə müşayiət olunur. Onun əsas əsərlərindən biri olan *"Kapitalın Sirri"* (The Mystery of Capital), qeyri-rəsmi sektorun inkişaf etməkdə olan ölkələrdə iqtisadi sistemin təməl problemlərinə işarə etdiyini göstərir. De Soto bildirir ki, inkişaf etmiş ölkələrdə hüquqi çərçivə sahibkarlıq fəaliyyətlərini stimullaşdırır, mülkiyyət hüquqlarını qoruyur və resursların qanuni şəkildə idarə olunmasını təmin edir. Halbuki inkişaf etməkdə olan ölkələrdə mülkiyyət hüquqlarının qeyri-müəyyənliyi iqtisadi aktivlərin rəsmi olaraq qeydiyyatdan keçməsinə mane olur və qeyri-rəsmi sektorun genişlənməsinə şərait yaradır. Araşdırmalarında De Soto həmçinin vurğulayır ki, qeyri-rəsmi sektor iqtisadiyyatda əhəmiyyətli bir paya malikdir, lakin bu sektorun fəaliyyəti dövlətin vergi gəlirlərini azaldır və sosial xidmətlərə çıxışı məhdudlaşdırır. O, qeyd edir ki, qeyri-rəsmi sektoru rəsmi iqtisadiyyata daxil etmək üçün dövlət hüquqi və inzibati islahatlar həyata keçirməlidir. Bu, ilk növbədə mülkiyyət hüquqlarının gücləndirilməsi, rəsmi qeydiyyat proseslərinin sadələşdirilməsi və sahibkarlığın hüquqi mühitinin təkmilləşdirilməsi ilə mümkün ola bilər. De Soto-nun yanaşmasına görə, qeyri-rəsmi iqtisadiyyat problemlərin həlli üçün maneə deyil, iqtisadi islahatların təcili ehtiyacını göstərən bir siqnaldır. Onun fikrincə, qeyri-rəsmi sektorda fəaliyyət göstərən insanlar əslində sahibkarlıq qabiliyyətinə malikdirlər, lakin bu qabiliyyət hüquqi maneələr səbəbindən tam potensialına çatmır. Bu səbəbdən dövlətlər qeyri-rəsmi iqtisadiyyatı müasir iqtisadi sistemə inteqrasiya etmək üçün islahatlar həyata keçirməlidir. De Soto həmçinin vurğulayır ki, qeyri-rəsmi sektorda iştirak edən fərdlər və müəssisələr əhəmiyyətli iqtisadi resurslara malikdirlər, lakin hüquqi tanınmadan məhrum olduqları üçün bu resurslardan səmərəli şəkildə istifadə edə bilmirlər. Bu yanaşmaya əsasən, hüquqi sistemin şəffaflığının artırılması və qanunların tətbiqinin daha effektiv şəkildə həyata keçirilməsi kölgə iqtisadiyyatını azalda bilər. De Soto-nun "legalist" yanaşması,

iqtisadi inkişafın hüquqi sistem və dövlət idarəetməsi ilə sıx bağlı olduğunu göstərir. Onun təklif etdiyi islahatlar yalnız kölgə iqtisadiyyatını azaltmaqla kifayətlənmir, həm də iqtisadi inkişaf üçün daha əlverişli mühit yaradır. Bu yanaşma, kölgə iqtisadiyyatının yaranma səbəblərini yalnız iqtisadi problemlərdən deyil, həm də hüquqi və idarəetmə problemlərindən qaynaqlandığını təsdiqləyir. De Soto-nun fikirləri kölgə iqtisadiyyatı ilə mübarizədə hüquqi islahatların əhəmiyyətini vurğulamaq üçün geniş şəkildə istifadə olunur və bu sahədə mühüm nəzəri baza kimi qəbul edilir.

Alejandro Portes və Manuel Castells, qeyri-rəsmi iqtisadiyyatın kapitalizmin tələblərini ödəmək üçün əhəmiyyətli bir vasitə olduğunu göstərən strukturalist yanaşmanı inkişaf etdirmişlər [3, s.14-16]. Onlara görə, qeyri-rəsmi iqtisadiyyat, kapitalist sistemin güclü təsiri altında, insanların əmək bazarına daxil olma yollarını və həyat şəraitini yaxşılaşdırmaq məqsədini güdür. Bu yanaşma, qeyri-rəsmi sektoru, kapitalizmin ehtiyaclarını ödəmək üçün yaranan, rəqabətçi və elastik bir struktur olaraq qəbul edir. Belə ki, qeyri-rəsmi iqtisadiyyat, insanlar üçün iş yerləri təmin edərkən, eyni zamanda bu işlər kapitalist sistemin tələblərinə cavab verir. Portes və Castells, qeyri-rəsmi sektorun, müntəzəm iş bazarlarında iştirak etməyənlər üçün əsas iş imkanları yaratdığını vurğulayırlar. Qeyri-rəsmi iqtisadiyyat, həmçinin işçilərin əmək haqqı və sosial təminatlara dair hüquqlarını əhəmiyyətli dərəcədə azaldır, bu isə kapitalizmin nizamlı iş gücü tələbini qarşılayır. Qeyri-rəsmi sektor həmçinin kapitalizmin çevikliyini artırır və sərmayə qoyuluşu üçün daha sərfəli şərait yaradır. Bu yanaşma, qeyri-rəsmi iqtisadiyyatın, sistemin davamlılığını və əməyin qiymətinin aşağı olmasını təmin etdiyini göstərir. Nəticədə, qeyri-rəsmi iqtisadiyyat, kapitalizmin daha güclü və dayanıqlı olmasına xidmət edir, çünki o, müxtəlif iş imkanları yaradır, lakin eyni zamanda işçilərin sosial qorunmasızlığını artırır. Bu model, qeyri-rəsmi iqtisadiyyatın həm sistemin bir hissəsi olduğunu, həm də onu mühafizə etməyə xidmət etdiyini qəbul edir. Bu yanaşma, qeyri-rəsmi iqtisadiyyatın strukturunun yalnız mənfi deyil, həm də kapitalizmin işçi qüvvəsinin çevikliyinə və sərfəliliyinə təsir etdiyini göstərir.

Freidrich Schneider kölgə iqtisadiyyatı anlayışını araşdıran və onun ölçülməsi üçün müxtəlif metodlar işləyib hazırlayan tanınmış iqtisadçıdır [4, s.80-85]. Onun tədqiqatları kölgə iqtisadiyyatının təbiətini, miqyasını və təsirlərini daha yaxşı anlamaq üçün əhəmiyyətlidir. Schneider, kölgə iqtisadiyyatını rəsmi iqtisadiyyatdan kənarda fəaliyyət göstərən, lakin iqtisadi proseslərə təsir edən fəaliyyətlər kimi təsvir edir. Onun yanaşmasında kölgə iqtisadiyyatının müxtəlif ölçü metodları, məsələn, pul dövriyyəsi, vergi yükü və işçi bazarı ilə bağlı göstəricilər nəzərdən keçirilir. Schneiderin nəzəriyyələri kölgə iqtisadiyyatının iqtisadi inkişaf, dövlət gəlirləri və sosial bərabərsizlik üzərindəki təsirlərini araşdırmağa imkan verir. O, xüsusilə kölgə iqtisadiyyatının yüksək vergi yükü və sərt tənzimləmələrin nəticəsi olduğunu iddia edir. Bu vəziyyət, işgüzar subyektlərin və fərdlərin rəsmi iqtisadiyyatdan yayınaraq qeyri-rəsmi fəaliyyətlərə yönəlməsinə səbəb olur. Schneider, həmçinin kölgə iqtisadiyyatının dövlətin iqtisadi siyasətinə və qanuni iqtisadi fəaliyyətlərə mənfi təsir göstərə biləcəyini vurğulamışdır. Onun tədqiqatları kölgə iqtisadiyyatının müxtəlif ölkələrdəki həcmini müqayisə etməyə imkan verən statistik alətləri əhatə edir. Schneider, bu iqtisadiyyatın miqyasının inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə fərqli olduğunu qeyd edir. İnkişaf etmiş ölkələrdə kölgə iqtisadiyyatının miqyası nisbətən kiçik olsa da, inkişaf etməkdə olan ölkələrdə daha böyükdür. Bunun səbəbi daha yüksək işsizlik səviyyəsi, zəif iqtisadi institutlar və vergi qaçaqçılığıdır. Schneiderin nəzəriyyələri, kölgə iqtisadiyyatının iqtisadi statistikanın inkişafı və dövlət siyasətinin formalaşdırılması üçün əsas olduğunu göstərir. Onun metodları, hökumətlərə kölgə iqtisadiyyatının miqyasını azaltmaq üçün daha effektiv strategiyalar hazırlamağa imkan verir. Bu yanaşma, eyni zamanda kölgə iqtisadiyyatının iqtisadi dinamika və rəqabətə təsirini daha yaxşı başa düşməyə şərait yaradır. Schneiderin tədqiqatları müasir iqtisadiyyatın kompleks problemlərinin həllində mühüm rol oynayır və iqtisadi siyasətin optimallaşdırılması üçün əhəmiyyətli bir əsas təşkil edir.

John Slemrod vergi siyasəti və onun iqtisadi təsirləri sahəsində aparıcı tədqiqatçılardan biridir [5, s.55]. O, xüsusilə vergi yayınmasının iqtisadi sistemə təsirini və bunun kölgə iqtisadiyyatı ilə əlaqələrini araşdırmışdır. Slemrodun nəzəriyyələrinə görə, vergi yayınması insanların və müəssisələrin vergilərdən qaçaraq qanunsuz və ya qeyri-rəsmi fəaliyyətlərə yönəlməsinə səbəb olur. Bu, iqtisadiyyatın rəsmi və qeyri-rəsmi seqmentləri arasında əlaqələrin yaranmasına gətirib çıxarır. Slemrodun araşdırmaları göstərir ki, yüksək vergi yükü və sərt tənzimləmə sistemləri vergi

yayınmasını stimullaşdırır. İnsanlar və bizneslər, vergilərdən qaçaraq daha az maliyyə yükü ilə işləmək istəyirlər, bu da kölgə iqtisadiyyatının genişlənməsinə səbəb olur. Slemrod, vergi yayınmasının yalnız dövlət gəlirlərini azaltmadığını, eyni zamanda iqtisadi bərabərsizliyi artırdığını vurğulayır. Vergi yayınması ilə məşğul olan fərdlər qanuni vergilərdən yayınaraq üstünlüklər əldə edir və bu, qanuni fəaliyyət göstərən subyektlərin rəqabət qabiliyyətini zəiflədir. O, həmçinin vergi yayınmasının makroiqtisadi təsirlərini araşdıraraq, onun iqtisadi artıma və dövlət siyasətinə təsirini analiz etmişdir. Slemrodun fikrincə, vergi yayınması dövlət büdcəsinə mənfi təsir göstərir, çünki bu, dövlətin gəlir bazasının daralmasına səbəb olur. Bunun nəticəsində hökumətlər sosial və iqtisadi proqramların maliyyələşdirilməsində çətinliklərlə üzləşirlər. O, vergi yayınmasının qeyri-rəsmi iqtisadi fəaliyyətlərin artımına necə şərait yaratdığını və bu prosesin iqtisadi sistemin ümumi funksionallığını zəiflədə biləcəyini izah edir. Slemrod, vergi siyasətinin optimallaşdırılması ilə bağlı da tədqiqatlar aparmışdır. O, vergilərin daha ədalətli və effektiv şəkildə tətbiq edilməsinin vergi yayınmasını azalda biləcəyini göstərmişdir. Slemrod, xüsusilə vergilərin şəffaflığını artırmağın və dövlətin vergi yığımı sistemini təkmilləşdirməyin vacibliyini vurğulayır. O, hökumətlərin vergidən yayınmaya qarşı daha sərt cəzalar tətbiq etməsinin və iqtisadi siyasətdə balansın qorunmasının əhəmiyyətini qeyd edir. Onun araşdırmaları həmçinin göstərir ki, vergi yayınması yalnız iqtisadi məsələ deyil, həm də sosial problem olaraq qəbul edilməlidir. Vergi yayınması dövlət-vətəndaş münasibətlərində inamsızlığa səbəb olur və bu, cəmiyyətin iqtisadi sistemə olan etimadını zəiflədir. Slemrod, bu problemi həll etmək üçün həm iqtisadi, həm də institusional yanaşmaların vacib olduğunu bildirir. Nəticə olaraq, Slemrodun araşdırmaları vergi yayınmasının və kölgə iqtisadiyyatının qarşılıqlı təsirlərini dərin şəkildə öyrənərək bu sahədə yeni perspektivlər açmışdır. Onun tədqiqatları, vergi siyasətinin daha effektiv olmasına və kölgə iqtisadiyyatının azaldılmasına yönəlmiş strategiyaların inkişafına böyük töhfə verir. Slemrodun fikirləri, müasir iqtisadiyyatda vergi sistemlərinin necə işləməli olduğunu anlamaq üçün dəyərli bir əsas təmin edir.

Friedrich Schneider kölgə iqtisadiyyatı sahəsində ən mühüm tədqiqatçılardan biri kimi, onun qlobal miqyasda ölçülməsi üçün nəzəri və metodoloji əsaslar təklif etmişdir [6, s.85-87]. Schneiderin yanaşması kölgə iqtisadiyyatının ölçülməsi üçün əsasən rəqəmsal təhlilə və iqtisadi göstəricilərə əsaslanır. Onun fikrincə, kölgə iqtisadiyyatı müxtəlif ölkələrdə fərqli miqyaslarda təzahür edir və buna səbəb olan əsas amillərdən biri vergilərin yüksək olmasıdır. Schneiderin tədqiqatlarına görə, kölgə iqtisadiyyatının payı inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun (ÜDM) təxminən 8-15%-ni təşkil edir. İnkişaf etməkdə olan ölkələrdə isə bu rəqəm daha yüksəkdir və ÜDM-in 30-60%-i arasında dəyişə bilər. O, bu fərqlərin əsas səbəbləri kimi zəif iqtisadi institutlar, vergi yükünün yüksək olması və rəsmi iqtisadiyyatın qeyri-effektivliyini göstərir. Schneider, kölgə iqtisadiyyatını ölçmək üçün pul dövriyyəsi yanaşmasını istifadə etmişdir. Bu metod iqtisadiyyatda qeydə alınmayan nağd əməliyyatların miqyasını təyin etməyə əsaslanır. Onun araşdırmalarında göstərilir ki, yüksək vergilər və sosial təminat xərcləri olan ölkələrdə nağd pul istifadəsi daha çoxdur, çünki insanlar və bizneslər bu xərclərdən yayınmağa çalışırlar. O, həmçinin vergi ilə əlaqədar kompleks tənzimləmələrin kölgə iqtisadiyyatını artırdığını vurğulamışdır. Belə ki, yüksək vergi dərəcələri işəgötürənləri və işçiləri qeyri-leqal əmək bazarına keçməyə sövq edir. Schneider, bu vəziyyətin iqtisadi sistemin rəqabət qabiliyyətini zəiflətdiyini və dövlət gəlirlərini azaltdığını qeyd edir. Schneiderin hesablamalarına əsasən, Avropa Birliyi ölkələrində kölgə iqtisadiyyatının payı 2010-cu illərdə təxminən 19% olmuşdur. Daha sonra, bəzi ölkələrdə aparılan islahatlar və vergi yükünün optimallaşdırılması nəticəsində bu rəqəm azalmağa başlamışdır. Məsələn, Almaniyada kölgə iqtisadiyyatının payı 2005-ci ildə 16,7% olduğu halda, 2020-ci ilə qədər 10,4%-ə düşmüşdür. İnkişaf etməkdə olan ölkələrdə isə vəziyyət daha ciddi olaraq qalır. Hindistan və Nigeriya kimi ölkələrdə kölgə iqtisadiyyatının payı 50%-i keçmişdir. Bu ölkələrdə zəif iqtisadi nəzarət və yüksək işsizlik kölgə sektorunun inkişafını stimullaşdıran əsas amillərdir. Schneiderin araşdırmaları göstərir ki, kölgə iqtisadiyyatı dövlətin gəlir toplama qabiliyyətinə birbaşa mənfi təsir göstərir, çünki insanlar və şirkətlər rəsmi iqtisadiyyatdan yayınır. O, kölgə iqtisadiyyatının azaldılması üçün dövlət siyasətinin şəffaflığının artırılmasını və vergi sistemlərinin sadələşdirilməsini tövsiyə etmişdir. Schneider, rəqəmsal ödəniş sistemlərinin inkişaf etdirilməsinin və nağdsız iqtisadiyyatın təşviq edilməsinin kölgə iqtisadiyyatını əhəmiyyətli dərəcədə azalda biləcəyini vurğulamışdır. Schneiderin tədqiqatları

kölgə iqtisadiyyatının qlobal miqyasda sistemli təhlilinə şərait yaradaraq, dövlətlərin iqtisadi siyasətlərini optimallaşdırmaq üçün dəyərli bir əsas təqdim edir. Onun fikirlərinə əsasən, kölgə iqtisadiyyatının azaldılması yalnız iqtisadi inkişafı deyil, həm də sosial ədaləti gücləndirə bilər. Bu yanaşma, qlobal iqtisadiyyatın şəffaf və dayanıqlı inkişafına mühüm töhfə verir.

Simon Kuznets milli gəlirin ölçülməsi və qeyri-rəsmi sektorun iqtisadi inkişafdakı rolu ilə bağlı fundamental nəzəriyyələr irəli sürmüş bir iqtisadçıdır [7, s.6-8]. Onun yanaşması iqtisadi inkişafın mərhələlərini və bu inkişaf prosesində qeyri-rəsmi sektorun dəyişən rolunu anlamağa imkan verir. Kuznetsə görə, iqtisadi inkişaf müxtəlif dövrlərdə fərqli strukturların üstünlük təşkil etməsi ilə müşahidə olunur və qeyri-rəsmi sektor bu prosesdə vacib rol oynayır. Kuznets, milli gəliri ölçmək üçün iqtisadiyyatın müxtəlif komponentlərinin nəzərə alınmasının vacibliyini vurğulamışdır. Onun fikrincə, qeyri-rəsmi sektor milli gəlirin ölçülməsində ciddi təsir gücünə malikdir və bu təsiri nəzərə almadan iqtisadi inkişafı tam qiymətləndirmək mümkün deyil. Məsələn, inkişaf etmiş ölkələrdə qeyri-rəsmi sektorun payı ümumi daxili məhsulun (ÜDM) təxminən 5-10%-ni təşkil edir. Bunun əksinə olaraq, inkişaf etməkdə olan ölkələrdə bu göstərici 30-50% arasında dəyişə bilər. Kuznets, iqtisadi inkişafın ilkin mərhələlərində qeyri-rəsmi sektorun dominant rol oynadığını müşahidə etmişdir. Bu dövrdə işsizlik yüksək, rəsmi iqtisadiyyat isə zəif strukturlaşmış olur. Məsələn, 20-ci əsrin ortalarında Hindistanda qeyri-rəsmi sektor iqtisadi fəaliyyətlərin 70%-dən çoxunu təşkil edirdi. Bununla yanaşı, ABŞ kimi inkişaf etmiş ölkələrdə bu göstərici 10%-dən az idi. Kuznetsə görə, iqtisadi inkişaf irəlilədikcə qeyri-rəsmi sektorun rolu azalır və rəsmi sektorun miqyası genişlənir. Bu tendensiyanı 1960-1980-ci illər arasında Qərbi Avropa ölkələrinin inkişafında da müşahidə etmək olar. Məsələn, İtaliyada qeyri-rəsmi sektorun payı 1960-cı ildə ÜDM-in 30%-i olduğu halda, 1980-ci ildə bu göstərici 18%-ə qədər enmişdir [8. s.23-24]. Bu, sənayeləşmə və rəsmi iş bazarının inkişafı ilə izah olunur. Kuznets qeyri-rəsmi sektorun iqtisadi inkişafın sonrakı mərhələlərində daha çox sosial bərabərsizliyin göstəricisi kimi çıxış etdiyini qeyd edir. İnkişaf etmiş ölkələrdə belə, qeyri-rəsmi sektor müəyyən miqyasda mövcuddur, lakin əsasən müvəqqəti iş yerləri və qanuni tənzimləmələrdən yayınmaqla əlaqələndirilir. Məsələn, 2015-ci ildə Fransa iqtisadiyyatında qeyri-rəsmi sektorun payı ÜDM-in 9%-ni təşkil edirdi, bu isə əsasən müvəqqəti işlərdən ibarət idi. Kuznets, milli gəlirin və iqtisadi inkişafın qeyri-rəsmi sektor olmadan tam təsvir edilə bilməyəcəyini vurğulamışdır. Onun hesablamaları göstərir ki, iqtisadi artımın erkən mərhələlərində qeyri-rəsmi sektorun rolu daha çoxdur və bu dövrdə milli gəlirin əsas mənbələrindən biri kimi çıxış edir. Məsələn, 1950-ci illərdə Latın Amerikası ölkələrində ÜDM-in təxminən 50%-i qeyri-rəsmi sektorun payına düşürdü. Statistik göstəricilər də təsdiq edir ki, qeyri-rəsmi sektor yalnız iqtisadi göstəricilər deyil, həm də sosial-iqtisadi problemlərin həlli üçün bir vasitədir. Kuznets, qeyri-rəsmi sektorun rolu ilə bağlı araşdırmalarında, iqtisadi inkişafın bütün mərhələlərində onun təsirinin dəyişkən olduğunu vurğulamışdır. İnkişaf etmiş ölkələrdə qeyri-rəsmi sektorun rolu minimal olsa da, o, hər zaman mövcuddur və müəyyən sektorlarda iqtisadi balansın qorunmasına kömək edir. Nəticə olaraq, Simon Kuznetsin nəzəriyyələri milli gəlir və qeyri-rəsmi sektorun qarşılıqlı təsirlərini anlamaqda mühüm rol oynayır. O, iqtisadi inkişafın mərhələlərini analiz edərkən qeyri-rəsmi sektorun həm iqtisadi artıma, həm də sosial ədalətə təsir etdiyini göstərmişdir. Onun statistik yanaşmaları müasir iqtisadiyyatın kompleksliyini daha yaxşı dərk etməyə imkan verir və iqtisadi siyasət üçün dəyərli bir əsas yaradır.

### Kölgə iqtisadiyyatına qlobal baxış

Kölgə iqtisadiyyatı dünya iqtisadiyyatında mühüm, lakin qeyri-rəsmi rol oynayır. Dünya Bankı və digər beynəlxalq təşkilatlar tərəfindən aparılan araşdırmalar göstərir ki, bu sektorun Ümumi Daxili Məhsula (ÜDM) nisbəti ölkələr arasında əhəmiyyətli fərqlərlə dəyişir. İnkişaf etmiş ölkələrdə bu rəqəm ÜDM-in təxminən 10-15%-i arasında olduğu halda, inkişaf etməkdə olan ölkələrdə 30-60%-ə qədər yüksələ bilər [9]. Bu fərqlər əsasən iqtisadiyyatın tənzimləmə səviyyəsi, vergi sistemi və sosial təminat şəbəkələri ilə əlaqələndirilir. Məsələn, Almaniyada bu göstərici 10%, Skandinav ölkələrində isə 8-10% arasında dəyişir. ABŞ-da kölgə iqtisadiyyatının payı ÜDM-in təxminən 8%-ni təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəmlərin aşağı olmasının əsas səbəbləri arasında güclü hüquqi çərçivələr, səmərəli vergi sistemləri və yüksək səviyyədə rəqəmsallaşma yer alır. İnkişaf etməkdə olan ölkələrdə kölgə iqtisadiyyatı daha yüksək paya malikdir. Məsələn, Hindistanda bu

sektor ÜDM-in təxminən 50%-ni təşkil edir. Nigeriyada isə bu rəqəm 60%-dən çoxdur [10]. Bu vəziyyət əsasən aşağı səviyyədə tənzimləmə, yüksək işsizlik və zəif hüquqi sistemlərlə əlaqələndirilir. Kölgə iqtisadiyyatı bu ölkələrdə iş yerlərinin yaradılması və yaşayış səviyyəsinin yaxşılaşdırılması baxımından mühüm rol oynasa da, dövlət gəlirlərinin azalmasına səbəb olur.

Latın Amerikası ölkələrində kölgə iqtisadiyyatının ÜDM-ə nisbəti 30-40% arasında dəyişir. Məsələn, Braziliyada bu göstərici 35%, Argentinada isə 40%-dir. Şərqi Avropa ölkələrində, məsələn, Ukraynada və Moldovada kölgə iqtisadiyyatının payı ÜDM-in 40-50%-i arasında dəyişir. Asiya ölkələrində isə vəziyyət daha dəyişkəndir. Çin kimi böyük iqtisadiyyatda kölgə sektorunun payı təxminən 20-25% təşkil edir, lakin daha az inkişaf etmiş ölkələrdə bu rəqəm 50%-ə qədərdir [11].

## NƏTİCƏ

Kölgə iqtisadiyyatı hər bir ölkənin iqtisadiyyatında müxtəlif səviyyələrdə mövcuddur və onun ÜDM-ə nisbəti əsasən iqtisadiyyatın strukturundan, qanunvericilikdən və sosial şərtlərdən asılıdır. Dünya Bankı və digər beynəlxalq qurumların apardığı araşdırmalar bu sektorun qlobal iqtisadi sistemə təsirini daha yaxşı anlamağa imkan verir. İnkişaf etmiş ölkələrdə kölgə iqtisadiyyatı nisbətən aşağı olsa da, inkişaf etməkdə olan ölkələrdə bu, daha ciddi problemlər yaradır. Gələcəkdə, rəqəmsallaşma və şəffaflıq təşəbbüsləri bu sektorun azaldılmasında mühüm rol oynayacaqdır. Rəqəmsallaşma kölgə iqtisadiyyatının azaldılmasında əsas vasitələrdən biri kimi qiymətləndirilir. Nağdsız ödəniş sistemlərinin tətbiqi qeyri-leqal iqtisadi fəaliyyətlərin izlənməsini asanlaşdırır. Təhsil və maarifləndirmə proqramları da mühüm rol oynayır, çünki vətəndaşları rəsmi sektorun üstünlükləri barədə məlumatlandırmaq qeyri-rəsmi fəaliyyətlərin azalmasına kömək edir.

Nəticə etibarilə, kölgə iqtisadiyyatının ÜDM-ə nisbəti ölkələrin iqtisadi siyasətlərinin və inkişaf səviyyəsinin mühüm göstəricilərindən biridir. İnkişaf etmiş ölkələr bu sahədə daha yaxşı nəticələr əldə etsə də, inkişaf etməkdə olan ölkələrdə bu problemin həlli daha çətin və uzunmüddətlidir. Gələcəkdə kölgə iqtisadiyyatını azaltmaq üçün tənzimləmələrin şəffaflığı artırılmalı, vergi yükləri nəzəərdən keçirilməli və rəqəmsallaşma təşviq edilməlidir. Bu tədbirlər yalnız iqtisadi inkişafı deyil, həm də sosial ədaləti təmin etmək üçün vacibdir. Kölgə iqtisadiyyatı dünya iqtisadi sisteminin vacib bir hissəsi olsa da, onun mənfi təsirlərini minimuma endirmək üçün effektiv strategiyalar tətbiq olunmalıdır.

### İstifadə edilmiş ədəbiyyat / References


1. Lewis, A. W. (1954). Economic Development with Unlimited Supplies of Labour. Manchester School of Economic and Social Studies. p.139-187.
2. De Soto, H. (1989). The Other Path: The Economic Answer to Terrorism. Harper & Row. P.25-27
3. Portes, A., & Castells, M. (1989). World Underneath: The Origins, Dynamics, and Effects of the Informal Economy. John Hopkins University . p.12-74
4. Schneider, F. (2007). Shadow Economies and Corruption All Over the World: What Do We Really Know?. Economics: The Open-Access, Open-Assessment E-Journal, 1(2007-9), p.77-114
5. Slemrod, J., & Bakija, J. (2008). Taxing Ourselves: A Citizen's Guide to the Great Debate over Tax Reform. MIT Press. P.52-90
6. Schneider, F., & Enste, D. H. (2000). **Shadow Economies: Size, Causes, and Consequences.** *Journal of Economic Literature*, 38(1), 80-150.
7. Kuznets, S. (1941). **National Income and Its Composition, 1919-1938.** New York: National Bureau of Economic Research. **II, p. 3-27**
8. Kuznets, S. (1966). **Economic Growth and Structure: Selected Essays.** Norton & Company. P.9-150
9. Joe Rebello, David Young İnkişaf etməkdə olan ölkələrdə qeyri-rəsmi iqtisadi fəaliyyətin yayılması, çox güman ki, onların COVID-19 pandemiyasından iqtisadi bərpasını ləngidə bilər. 2021 https://www.vsemirnyjbank.org/ru/news/press-release/2021/05/11/widespread-informality-likely-to-slow-recovery-from-covid-19-in-developing-economies

10. Nigeriyanın qeyri-rəsmi iqtisadiyyatı ÜDM-in 65%-ni təşkil edir-BVF 2017 https://www.businessamlive.com/nigerias-informal-economy-accounts-65-gdp-imf/
11. Daniel Daly Kölgə iqtisadiyyatına işıq saçmaq: Latın Amerikası əməyinin rəsmiləşdirilməsi zərurəti 2024 https://fordhampoliticalreview.org/shining-a-light-on-the-shadow-economy-the-need-to-formalize-latin-american-labor/

# Оценка теоретических взглядов на возникновение теневой экономики

**Айгюн Фаталиева**
Кандидат экономических наук
Институт Экономики Азербайджанской Республики ЭТН
электронная почта: fataliyeva.aygun@mail.ru

**Резюме:** Целью исследования является оценка сущности теневой экономики, ее экономических основ и теоретических перспектив, оценка мировых тенденций и формирование общих выводов.

**Методология исследования** включала теоретическую оценку, обобщение и группировку, статистический подход и методы анализа.

**Результатами исследования** являются концептуальный подход к теневой экономике, характеристика причин ее возникновения в свете современных тенденций, а также оценка влияния проблемы на страны в зависимости от уровня их развития.

**Практическая значимость исследования** – содействие применению результатов исследования на практике, снижение уровня теневой экономики, оценка новых мыслей и идей, направленных на решение проблемы.

**Оригинальность и научная новизна исследования** заключается в подходе к возникновению теневой экономики с точки зрения отраслевых отношений экономики и применении данного метода для решения проблемы.

**Ключевые слова:** Теневая экономика, налоговое бремя, государственное управление, Всемирный банк, оценка, ВВП, неформальный, прозрачность, цифровизация и т. д.

DOI: https://doi.org/10.36719/2707-9317/05/89-97

# Some factors of improving economic efficiency and quality of service in electricity distribution networks of "Azerishiq" JSC

**Chingiz Ibadov**
PhD in Economics
"Azerishig" Open Joint Stock Company
Deputy Director of the Center for Education and Innovation
Email:chingiz.ibadov@mail.ru

**Abstract**: In accordance with the comprehensive structural reforms that began in Azerbaijan after the deep economic crises of the 1990s, several programs and laws have been adopted since 2000 to create and restructure a relatively competitive and free electricity market. The goal of these programs was to provide consumers with accessible, high-quality, sustainable, cheap, environmentally friendly and efficient electricity. Most of the provisions of these adopted programs have already been successfully implemented. However, it has not been possible to create a financially strong, stable, transparent electricity market that can operate in a fully competitive environment in the conditions of 33 years of independence and a market economy. The first step has been taken for this. The new law "On Electricity" came into force on 01.01.2024. Currently, the important issues facing our republic are the establishment of a legal framework and institutional structures in accordance with the laws of a market economy in the field of electric power, the definition of the duties and responsibilities of market participants, the provision of independent regulation and control in the market, the division of monopolistic structures, licensing, the determination of tariffs for regulated activities, the formation of a market operator and the establishment and approval of the principles of free consumers' electricity trade, balancing mechanism, etc. The full resolution of these issues in the coming 5-6 years will have a positive impact on the development of the entire country's economy, help the Republic of Azerbaijan reach the level of developed countries in the world, and create conditions for increasing the fuel consumption by 2-3 times.

**Key words:** electricity market, free consumers, competitive environment, liberalization, service quality, regulation, etc.

# “Azərişıq” ASC-nin elektrik paylama şəbəkələrində iqtisadi səmərəliliyin və xidmət keyfiyyətinin yüksəldilməsinin bəzi amilləri

**Çingiz İbadov**
İqtisad üzrə fəlsəfə doktoru
“Azərişıq” Açıq Səhmdar Cəmiyyəti
Tədris və İnnovasilar Mərkəzinin direktor müavini
E-mail: chingiz.ibadov@mail.ru

**Xülasə**: Azərbaycanda 90-cı illərin dərin iqtisadi böhranlarından sonra başlanmış hərtərəfli struktur islahatlarına uyğun olaraq, 2000-ci ildən başlayaraq nisbətən rəqabət qabiliyyətli və azad elektrik enerjisi bazarının yaradılması, restrukturizasiyası üzrə bir neçə proqramlar və qanunlar qəbul edilmişdir. Bu proqramların məqsədi istehlakçıları əlçatan, keyfiyyətli, dayanıqlı, ucuz, ekoloji cəhətdən təmiz və səmərəli elektrik enerjisi ilə təmin etmək olmuşdur. Qəbul edilmiş bu proqramların müddəalarının böyük hissələri artıq müvəffəqiyyətlə icra edilmişdir. Lakin, 33 illik müstəqillik və bazar iqtisadiyyatı şəraitində tam rəqabət mühitində fəaliyyət göstərə bilən, maliyyə cəhətdən güclü, sabit, şəffaf elektrik enerjisi bazarı yaratmaq mümkün olmamışdır. Bunun üçün ilk addım atılmışdır. 01.01.2024-cü il tarixindən yeni “Elektroenergetika haqqında” qanun qüvvəyə minmişdir. Hal-hazırda respublikamızda elektroenergetika sahəsində bazar iqtisadiyyatı qanunlarına uyğun hüquqi bazanın və institutsional strukturların yaradılması, bazar iştirakçılarının vəzifə və məsuliyyətlərinin müəyyən edilməsi, bazarda müstəqil tənzimləmə və nəzarətin təmin edilməsi, inhisarçı strukturların bölünməsi, lisenziyalaşma, tənzimlənən fəaliyyət növləri üçün tariflərin müəyyən edilməsi, bazar operatorunun formalaşdırılması və sərbəst istehlakçıların elektrik enerjisi ticarəti, balanslaşdırma mexanizmi və s. prinsiplərinin müəyyən edilməsi və təsdiqlənməsi qarşıda duran mühüm məsələlərdir. Üzümüzə gələn 5-6 ildə bu məsələlərin tam həlli bütün ölkə iqtisadiyyatının inkişafına müsbət təsir göstərərək Azərbaycan Respublikasının dünya üzrə inkişaf etmiş ölkələr səviyyəsinə çıxmasına kömək edər, YDM-in 2-3 dəfə artırılmasına şərait yaradar.

**Açar sözlər:** elektrik enerjisi bazarı, sərbəst istehlakçılar, rəqabət mühiti, liberallaşma, xidmət keyfiyyəti, tənzimləmə və s.

## Giriş / İntroduction

Azərbaycan Respublikasının müstəqil enerji infrastrukturunun formalaşdırılması, xaricdən enerji asılılığının aradan qaldırılması istiqamətində bir sıra zəruri tədbirlər həyata keçirilmişdir. Bütün aidiyyəti qurumlarda olduğu kimi “Azərişıq” ASC-nin də Strateji inkişaf planı hazırlanmış, ötən dövr ərzində qarşıya qoyulan məsələlərin icrası istiqamətində işlər aparılmışdır. Bu strategiyanın həyata keçirilməsi uzun illər fəaliyyət göstərən enerji paylayıcı şəbəkələrinin yenidənqurulması və genişləndirilməsi ilə ölkədə enerji səmərəliliyinin və xidmət keyfiyyətinin yeni mərhələyə yüksəldilməsi məqsədini daşıyır. Bu planın tətbiq olunması, həmçinin regionlarda elektrik təchizatının etibarlılığının və enerji dayanaqlılığının artırılması, itkilərin azaldılması, yeni güc mənbələrinin yaradılması, SMART şəbəkələrin qurulması, rəqəmsallaşma və elektronlaşdırma işlərinin sürətləndirilməsi, sektora aid olan ən son innovasiyaların və texnoloji yeniliklərin tətbiqi şəbəkənin idarəçilik sisteminin təkmilləşdirilməsində mühüm rol oynayır.

“Azərişıq” ASC tərəfindən paylayıcı şəbəkələrdə mövcud elektrik təchizatının yaxşılaşdırılması və yeni müasir şəbəkələrin yaradılması bütün respublika ərazisində, o cümlədən azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzurda elektrik şəbəkəsinin infrastrukturunun yaradılması, müxtəlif təyinatlı iqtisadi layihələrin elektrik enerjisi ilə təmin olunması məqsədilə zəruri texniki tədbirlərin həyata keçirilməsi 2020-2024-cü illərdə davam etdirilmişdir.

Müasir texnologiyalardan və innovativ metodlardan istifadə etməklə “Ağıllı şəbəkə konsepsiyası”nın tətbiqi və paylayıcı şəbəkələrin intellektual-rəqəmsal idarəolunması, elektrik enerjisinin ötürülməsi və paylanması proseslərində fasiləsiz nəzarətin həyata keçirilməsi, həmçinin müasir kompyuter proqram sistemlərinin tətbiqi paylayıcı şəbəkələrdə mühüm bir addım

olmaqlayanaşı, eyni zamanda insan amili təsirinin aradan qaldırılmasını təmin edir. Digər tərəfdən rəqəmsallaşdırma, elektrik enerjisinin balans hesabatların tətbiqi, itkilərin innovativ üsullarla hesablanması, lokallaşdırılması və tədricən aradan qaldırılması elektrik şəbəkələri üzrə müəyyənləşdirilmiş beynəlxalq tələblər çərçivəsində iqtisadi səmərəliliyin və xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm təyinedici amillərdəndir.

**Əsas mətn / Main Part**

Azərbaycanın paylayıcı elektrik şəbəkəsi hal-hazırda gərginliyi 110 kV və aşağı 35/10/6/0.4 kV-luq aktivlərdən ibarətdir. 2000-ci ilə qədər ölkədə elektroenergetika sektoru təşkliati strukturu tək dövlətə məxsus şaquli inteqrasiya olunmuş şirkətdən – “Azərenerji” ASC-dən ibarət idi. 2000-ci ildə ilk bölünmə həyata keçirildi və “Azərenerji” ASC-dən “Bakıelektrikşəbəkə”, daha sonra “Sumqayıtelektrikşəbəkə” ayrılaraq strukturlaşdı və iki yeni açıq səhmdar cəmiyyət yaradıldı. Elektriik enerjisinin paylanması və pərakəndə satışı ilə məşğul olan “Bakıelektrikşəbəkə” ASC qısa bir müddət xarici investora idarəetməyə verilsə də sonradan sərbəst fəaliyyət göstərdi. 2015-ci ilin fevral ayında isə ölkə başçısı tərəfindən çox mühüm bir qərar qəbul edildi - Respublikanın bütün ərazisində (Naxçıvan MR xaric) elektrik enerjisinin istehsalına və ötürülmə fəaliyyətinə cavabdeh olan “Azərenerji” ASC və elektrik enerjisinin paylanması və pərakəndə satışına cavabdeh olan “Azərişıq” ASC-ləri yaradıldı. İndi isə ölkənin elektroenergetika sektorunda yeni bir mərhələ başlayır. “Elektroenergetika haqqında” qanunla sektorda mərhələli şəkildə ayrılma prosesi gedəcək, 01.07.2025-ci ilə qədər elektrik enerjisinin istehsalı ilə ötürülməsinin, daha sonrakı 1,5 ildə isə paylama və pərakəndə satış xidmətlərinin hüquqi cəhətdən bir-birindən ayrılması baş verəcəkdir.

Qanunla bu şirkətlərin uzunmüddətli alqı-satqı müqavilələri və xüsusi lisenziyalar əsasında fəaliyyət göstərmələri nəzərdə tutulmuşdur. Hal-hazırda “Azərişıq” ASC – respublikanın bütün ərazisini (Naxçıvan MR elektrik paylama və satış şəbəkəsi 2024-cü ilin noyabr ayından “Azərişıq” ASC-nin tabeçiliyinə verilmişdir) əhatə edən 64 rayon və şəhəri birləşdirən 9 regional enerji təchizatı və satışı idarəsindən, Abşeron və Bakı şəhərinin 11 inzibati rayonlarının, həmçinin bu rayonlardan ayrıca sərbəst fəaliyyət göstərən Biləcəri, Maştağa və Zirə elektrik təchizatı və satışı idarələrindən ibarətdir. Beləliklə, 24 qurum (9 – Regional ETSİ, 12 - Rayon ETSİ və 3 – elektrik şəbəkə) birbaşa səhmdar cəmiyyətə tabedir. Bu idarələr hüquqi şəxs statusuna malik deyil və regional idarələrin əraziləri isə dövlət tərəfindən təsdiqlənmiş iqtisadi zonaların əraziləri ilə üst-üstə düşmür, rayon şəbəkələrinin isə tez-tez bir regiondan o biri sərhəd regionuna yerləri dəyişdirilir. Bundan başqa ölkədə elektrik enerjisi paylama şəbəkəsi olan bəzi böyük dövlət şirkətləri, məsələn, Dövlət Neft Şirkəti (SOCAR), “Azərbaycan Dəmir Yolları” QSC, “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC, həmçinin bir neçə sənaye parkları hal-hazırda “Azərişıq” ASC-nin abonenti olsalar da, çox tezliklə yeni qanunvericiliyə əsasən öz bölgələri üçün elektrik enerjisinin payalama lisenziyası əldə edə və “Azərişıq” ASC-nin yerli qurumları (RETSİ-lər) ilə potensial rəqib kimi fəaliyyət göstərə bilərlər. Bu təşkilatlar ümumi elektrik enerjisinin paylama biznesində çox kiçik paya malik olsalar da, ümumi elektrik enerjisi bazarına müsbət təsir göstərmələri ehtimal olunur.

“Azərişıq” ASC-nin mövcud paylama strukturunun və fəaliyyətinin illər üzrə nəticələrinin təhlili göstərir ki, qarşıdakı illərdə xidmət keyfiyyətini yaxşılaşdırmaq və paylamanın iqtisadi səmərəliliyini təmin etmək üçün ilk növbədə səhmdar cəmiyyətin restruktizasiyasını aparmaq və idarəetməni rəqəmsallaşdırmaq lazım gələcəkdir.

Yeni “Elektroenergetika haqqında” qanunun tələblərinin icrasını təmin etmək üçün, “Azərişıq”ASC-nin fəaliyyətinin nəticələrindən dövlətin gözləntilərini cəmiyyət və onun yerli strukturlarının bilməsi çox vacibdir. Yeni qanunvericiliklə aparılacaq reformalardan dövlətin gözlədiyi əsas faydalar aşağıdakılardır:

- Elektrik enerjisi paylayıcı aktivlərinin səmərəli və mütəşəkkil istismarı hesabına xərclərin azaldılması;
- Elektrik enerjisi sektorunda paylamanın xidmət keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsi;
- Texniki itkilərin OECD (Avropa standartı) səviyyəsinə endirilməsi və paylama sektorunda qeyri-texniki (kommersiya) itkilərinin qarşısının alınması;
- Paylama sektorunda ehtiyac duyulan reabilitasiya və yenidənqurma investisiyalarının dövlət büdcəsinə heç bir yük qoymadan şirkətlərin öz hesablarına həyata keçirilməsinin təmin edilməsi;

- Iqtisadi səmərəliliyin artması vasitəsilə əldə edilən faydaların son istifadəçiyə proqnozlaşdırılması (yönəldilməsi).

Elektroenergetika sektorunda reformaların keçirilməsində (istehsalın - ötürmədən, paylamanın – satışdan ayrılması) hökumətin məqsədi dövlət büdcəsini dəstəkləmək deyil. Onun əsas məqsədi sektora daxil olan şirkətlərin və onların yerli qurumlarının fəaliyyətini yaxşılaşdırmaq, səmərəli əməliyyat və investisiya vasitəsilə həm itkiləri, həm də xərcləri azaltmaq və əldə edilən qazancları həm stabil elektrik enerjisi qiymətləri (tarifləri), həm də yüksək xidmət keyfiyyəti vasitəsilə istehlakçılara ötürməkdir.

Aşağıdakı cədvəllərdə "Azərişıq" ASC-nin strukturuna daxil olan Regional (rayon) enerji təchizat və satış idarələrin illər üzrə payladıqları, satdıqları elektrik enerjisi və itkiləri (zərər) təhlil edilmişdir. (Cədvəl №1, №2)

**Cədvəl №1**

**"Azərişıq" ASC -nin 2018 - 2023-cü illər üzrə paylanılan, satılan və itkilərə (zərər) dair müqayisəsi**

| № | Paylayıcı Şəbəkələr | 2018 | | | | 2019 | | | | 2020 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | |
| | | (mVts) | | | % | (mVts) | | | % | (mVts) | | | % |
| 1 | Aran | 1 120 166 | 854 905 | 265 260 | 23,7 | 1 123 433 | 898 616 | 224 816 | 20,0 | 1 116 965 | 902 317 | 214 648 | 19,2 |
| 2 | Cənub | 735 470 | 541 493 | 193 977 | 26,4 | 735 465 | 559 088 | 176 378 | 24,0 | 744 283 | 567 759 | 176 524 | 23,7 |
| 3 | Xaçmaz (Şimal) | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 4 | Qarabağ | - | - | - | - | - | - | - | - | - | - | - | - |
| 5 | Qərb | 1 789 381 | 1 481 406 | 307 976 | 17,2 | 1 916 244 | 1 597 987 | 318 257 | 16,6 | 1 928 438 | 1 603 587 | 324 851 | 16,8 |
| 6 | Mərkəzi Aran | 1 471 372 | 1 243 974 | 227 397 | 15,5 | 1 508 037 | 1 295 719 | 212 318 | 14,1 | 1 542 148 | 1 325 296 | 216 853 | 14,1 |
| 7 | Sumqayıt (Şimal) | 1 740 267 | 1 478 398 | 261 869 | 15,0 | 1 733 005 | 1 495 857 | 237 148 | 13,7 | 1 685 489 | 1 452 626 | 232 862 | 13,8 |
| 8 | Şimal Qərb | 789 497 | 607 365 | 182 132 | 23,1 | 812 125 | 640 068 | 172 057 | 21,2 | 812 159 | 644 244 | 167 915 | 20,7 |
| 9 | Şirvan | 1 327 106 | 1 055 700 | 271 406 | 20,5 | 1 315 678 | 1 064 955 | 250 724 | 19,1 | 1 317 536 | 1 077 086 | 240 451 | 18,3 |
| Cəmi Regionlar | | 8 973 259 | 7 263 242 | 1 710 017 | 19,1 | 9 143 986 | 7 552 290 | 1 591 697 | 17,4 | 9 147 018 | 7 572 915 | 1 574 103 | 17,2 |
| 1 | Abşeron | 858 478 | 715 564 | 142 914 | 16,6 | 912 785 | 789 327 | 123 458 | 13,5 | 957 840 | 854 793 | 103 047 | 10,8 |
| 2 | Biləcəri | 566 285 | 510 911 | 55 373 | 9,8 | 581 098 | 529 980 | 51 119 | 8,8 | 564 293 | 525 432 | 38 860 | 6,9 |
| 3 | Binəqədi | 422 558 | 388 219 | 34 339 | 8,1 | 411 282 | 387 892 | 23 390 | 5,7 | 377 168 | 357 543 | 19 625 | 5,2 |
| 4 | Xətai | 875 355 | 827 223 | 48 132 | 5,5 | 870 428 | 836 047 | 34 381 | 3,9 | 822 138 | 786 483 | 35 655 | 4,3 |
| 5 | Xəzər | 650 930 | 573 949 | 76 981 | 11,8 | 652 234 | 584 980 | 67 254 | 10,3 | 638 182 | 579 523 | 58 659 | 9,2 |
| 6 | Qaradağ | 922 210 | 854 375 | 67 835 | 7,4 | 939 193 | 896 311 | 42 882 | 4,6 | 917 268 | 895 514 | 21 754 | 2,4 |
| 7 | Maştaga | 335 305 | 299 375 | 35 930 | 10,7 | 337 892 | 309 442 | 28 450 | 8,4 | 363 093 | 332 798 | 30 294 | 8,3 |
| 8 | Nərimanov | 1 052 785 | 1 001 936 | 50 849 | 4,8 | 1 012 148 | 993 564 | 18 584 | 1,8 | 885 704 | 864 044 | 21 660 | 2,4 |
| 9 | Nəsimi | 628 288 | 594 313 | 33 976 | 5,4 | 628 037 | 599 798 | 28 239 | 4,5 | 531 215 | 514 921 | 16 294 | 3,1 |
| 10 | Nizami | 870 858 | 846 619 | 24 238 | 2,8 | 914 476 | 889 706 | 24 770 | 2,7 | 882 900 | 860 268 | 22 631 | 2,6 |
| 11 | Sabunçu | 572 771 | 525 637 | 47 135 | 8,2 | 571 019 | 524 699 | 46 319 | 8,1 | 546 523 | 504 855 | 41 668 | 7,6 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 12 | Səbail | 585 352 | 554 078 | 31 275 | 5,3 | 588 123 | 565 918 | 22 206 | 3,8 | 493 570 | 478 810 | 14 761 | 3,0 |
| 13 | Suraxanı | 609 655 | 567 317 | 42 338 | 6,9 | 610 964 | 566 498 | 44 466 | 7,3 | 577 489 | 536 918 | 40 571 | 7,0 |
| 14 | Yasamal | 668 946 | 613 567 | 55 379 | 8,3 | 668 482 | 627 896 | 40 586 | 6,1 | 613 250 | 581 678 | 31 572 | 5,1 |
| 15 | Zirə | 192 576 | 181 403 | 11 173 | 5,8 | 193 236 | 184 014 | 9 222 | 4,8 | 217 389 | 205 904 | 11 485 | 5,3 |
| Cəmi Bakı | | 9 812 351 | 9 054 484 | 757 867 | 7,7 | 9 891 398 | 9 286 072 | 605 327 | 6,1 | 9 388 022 | 8 879 484 | 508 538 | 5,4 |
| "Azərişıq" ASC üzrə | | 18 785 610 | 16 317 726 | 2 467 883 | 13,1 | 19 035 385 | 16 838 361 | 2 197 024 | 11,5 | 18 535 040 | 16 452 399 | 2 082 641 | 11,2 |

## Cədvəlin ardı

| № | Paylayıcı Şəbəkələr | 2021 | | | | 2022 | | | | 2023 | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | | Paylanılan Elektrik Enerjisi | Satılan Elektrik Enerjisi | İtki (zərər) | |
| | | (mVts) | | | % | (mVts) | | | % | (mVts) | | | |
| 1 | Aran | 1 577 280 | 1 294 817 | 282 463 | 17,9 | 1 625 741 | 1 334 071 | 291 670 | 17,9 | 1 382 289 | 1 161 172 | 221 117 | 16,0 |
| 2 | Cənub | 770 762 | 601 487 | 169 275 | 22,0 | 756 901 | 593 272 | 163 629 | 21,6 | 760 802 | 609 967 | 150 835 | 19,8 |
| 3 | çmaz (Şimal) | 690 661 | 571 128 | 119 533 | 17,3 | 702 860 | 579 769 | 123 091 | 17,5 | 742 022 | 623 047 | 118 975 | 16,0 |
| 4 | Qarabağ | 27 834 | 20 811 | 7 023 | 25,2 | 85 794 | 78 230 | 7 564 | 8,8 | 138 155 | 127 223 | 10 932 | 7,9 |
| 5 | Qərb | 1 909 475 | 1 622 758 | 286 717 | 15,0 | 1 959 982 | 1 679 296 | 280 686 | 14,3 | 1 942 512 | 1 682 943 | 259 569 | 13,4 |
| 6 | Mərkəzi Aran | 943 780 | 821 460 | 122 320 | 13,0 | 954 749 | 836 504 | 118 245 | 12,4 | 1 390 831 | 1 192 912 | 197 919 | 14,2 |
| 7 | Sumqayıt (Şimal) | 1 461 942 | 1 316 130 | 145 812 | 10,0 | 1 519 751 | 1 373 101 | 146 650 | 9,6 | 1 701 227 | 1 578 425 | 122 802 | 7,2 |
| 8 | Şimal Qərb | 839 042 | 683 981 | 155 061 | 18,5 | 856 749 | 709 011 | 147 738 | 17,2 | 868 183 | 727 418 | 140 765 | 16,2 |
| 9 | Şirvan | 1 560 050 | 1 302 741 | 257 309 | 16,5 | 1 526 451 | 1 291 116 | 235 335 | 15,4 | 1 288 604 | 1 100 046 | 188 558 | 14,6 |
| | Cəmi Regionlar | 9 780 827 | 8 235 313 | 1 545 514 | 15,8 | 9 988 978 | 8 474 370 | 1 514 608 | 15,2 | 10 214 625 | 8 803 153 | 1 411 472 | 13,8 |
| 1 | Abşeron | 761 821 | 675 844 | 85 977 | 11,3 | 758 983 | 664 536 | 94 447 | 12,4 | 782 070 | 698 309 | 83 761 | 10,7 |
| 2 | Biləcəri | 588 499 | 535 938 | 52 561 | 8,9 | 578 675 | 528 976 | 49 699 | 8,6 | 584 013 | 539 498 | 44 515 | 7,6 |
| 3 | Binəqədi | 416 880 | 396 625 | 20 255 | 4,9 | 417 731 | 401 245 | 16 486 | 3,9 | 419 442 | 402 525 | 16 917 | 4,0 |
| 4 | Xətai | 895 844 | 849 084 | 46 760 | 5,2 | 921 654 | 881 635 | 40 019 | 4,3 | 953 372 | 913 488 | 39 884 | 4,2 |
| 5 | Xəzər | 689 711 | 625 061 | 64 650 | 9,4 | 687 944 | 626 471 | 61 473 | 8,9 | 725 973 | 659 534 | 66 439 | 9,2 |
| 6 | Qaradağ | 1 006 241 | 992 330 | 13 911 | 1,4 | 1 032 957 | 1 015 775 | 17 182 | 1,7 | 1 038 778 | 1 015 892 | 22 886 | 2,2 |
| 7 | Maştaga | 394 887 | 362 390 | 32 497 | 8,2 | 396 508 | 353 025 | 43 483 | 11,0 | 412 810 | 370 127 | 42 683 | 10,3 |
| 8 | Nərimanov | 999 044 | 977 861 | 21 183 | 2,1 | 1 091 104 | 1 076 831 | 14 273 | 1,3 | 1 099 592 | 1 077 189 | 22 403 | 2,0 |
| 9 | Nəsimi | 601 017 | 575 283 | 25 734 | 4,3 | 642 556 | 611 413 | 31 143 | 4,8 | 662 315 | 637 010 | 25 305 | 3,8 |
| 10 | Nizami | 984 019 | 959 637 | 24 382 | 2,5 | 961 104 | 936 618 | 24 486 | 2,5 | 1 103 900 | 1 088 377 | 15 523 | 1,4 |
| 11 | Sabunçu | 586 277 | 546 282 | 39 995 | 6,8 | 595 745 | 552 709 | 43 036 | 7,2 | 622 400 | 572 614 | 49 786 | 8,0 |
| 12 | Səbail | 560 006 | 535 131 | 24 875 | 4,4 | 606 062 | 579 755 | 26 307 | 4,3 | 621 512 | 598 062 | 23 450 | 3,8 |
| 13 | Suraxanı | 593 501 | 559 362 | 34 139 | 5,8 | 589 458 | 549 774 | 39 684 | 6,7 | 615 068 | 578 224 | 36 844 | 6,0 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 14 | Yasamal | 672 188 | 638 575 | 33 613 | 5,0 | 689 311 | 662 081 | 27 230 | 4,0 | 710 302 | 684 177 | 26 125 | 3,7 |
| 15 | Zirə | 232 169 | 218 078 | 14 091 | 6,1 | 225 702 | 206 356 | 19 346 | 8,6 | 238 078 | 220 797 | 17 281 | 7,3 |
| Cəmi Bakı | | 9 982 104 | 9 447 481 | 534 623 | 5,4 | 10 195 495 | 9 647 200 | 548 295 | 5,4 | 10 589 625 | 10 055 823 | 533 802 | 5,0 |
| Azərişıq" ASC üzrə | | 19 762 931 | 17 682 794 | 2 080 137 | 10,5 | 20 184 472 | 18 121 570 | 2 062 902 | 10,2 | 20 804 250 | 18 858 976 | 1 945 274 | 9,4 |

Cədvəllərin təhlili göstərir ki, alınan elektrik enerjisinin miqdarı Bakı şəhəri ilə Regionlar arasında təqribən bərabər bölünsə də, itkilərin (zərərlərin) miqdarı kəskin surətdə fərqlənir. Belə ki, son 6 ildə Regionlarda itkilər (zərər) Bakı şəhərinə nisbətən təqribən 3 dəfə çox olmuşdur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını əhatə edən Qarabağ RETSİ üzrə itkilərin miqdarı (7.9%) norma daxilində, yəni normativ texnoloji itkilər həddində (8,3%), qalan Regional enerji təchizat və satış idarələrində isə 2,5-3,0 dəfə normativ texniki sərfiyyatdan çox olmuşdur. Bakı şəhəri və Regionlar, onlara daxil olan rayonların illər üzrə itkilərin göstəricilərinin analizi, müəllif tərəfindən təklif edilmiş metodika əsasında elektrik enerjisinin balans hesabatlarının tətbiqinin zəruri olmasını bir daha sübut edir. Belə ki, Bakı şəhərində, yəni keçmiş "Bakıelektrikşəbəkə" ASC üzrə itkilərin balans hesabatının tətbiqinə 2004-cü ildən başlanıldığına görə burada itkilər minimuma endirilmiş, Regionlarda isə bu işlərə 2015-ci ildən, yəni "Azərişıq"ASC yarandıqdan sonra başlanılmışdır və hələ də yüksək səviyyədə qalmaqdadır.

Paylayıcı şəbəkənin hesabat dövründə iqtisadi cəhətdən səmərəli fəaliyyət göstərməsi üçün, onun tərkibinə daxil olan strukturların (yəni, Regional (rayon) idarələrin) itkilərinin balans hesabatı vasitəsi ilə hesablanmasını təmin etməklə əməliyyat xərclərini, səmərəlilik və keyfiyyət hədəflərinə cavab vermələri tələb olunur. Sadə dildə desək paylayıcı şirkət olan "Azərişıq"ASC-nin gəliri onun yerlərdəki strukturlarının əməliyyat səmərəliliyindən və xidmət keyfiyyətindən asılıdır.

Yerli şəbəkələr xidmət keyfiyyətinin, əməliyyat səmərələliyinin və sistemin etibarlılığının artırılması məqsədilə aşağıdakı tələbləri yerinə yetirməlidirlər:

- Şəbəkələr müvafiq gücə malik (qanunvericiliklə təsdiqlənmiş) generasiya qurğularından, əsasən külək və günəş enerjisi əsaslı istehsal qurğularından məlumatları əldə etmək, onları SCADA sisteminə uyğun olaraq idarəedilməsinə nail olmaq və şəbəkəyə qoşulmasına cavabdeh olmalıdırlar. Bundan əlavə yerli idarələrdə şəbəkəyə qoşulmuş bütün abonentlərin, qoşulma nöqtələri haqda məlumatlar, ümumi enerji istehlakı və digər tələb olunan məlumatlar SCADA sistemləri arasında qurulan rabitə əlaqələri vasitəsilə əldə edilə və ya lazımi strukturlara ötürülə bilinməlidir;
- Yerli qurumlar elektrik enerjisinin alış (giriş) nöqtələrindən paylayıcı şəbəkənin sonuna (abonentə) qədər bütün mərhələlərdə real vaxt rejimində elektrik enerjisi axınına nəzarət etmək, sayğaclar əsasında bütün məlumatları toplamaq və yekunlaşdırmaq üçün lazımi kommunikasiya infrastrukturu yaratmağa borcludurlar. Yüksək gərginlikli yarımstansiyalar, həmçinin çıxış xətləri – TM (KTM)-lərə qədər, sonra isə 0.4 kV-luq şəbəkələrdə istehlakçılara qədər enerji balansına riayət edərək, tənzimləyici tərəfindən təsdiqlənmiş texniki itki normativinə əməl etməklə paylama sistemi qurmalıdırlar;
- Tənzimləyici (Enerji Məsələlərini Tənzimləmə Agentliyi) tərəfindən paylama operatoruna, paylayıcı isə tabeliyində olan hər bir yerli şəbəkəyə iqtisadi səmərəlilik parametrləri müəyyən edilməli və təsdiqlənməlidir. Bu qərara uyğun olaraq şəbəkələr hər bir hesabat dövrünün səmərəlilik parametrlərini dəqiq bilməli, təhlil etməli və onun icrası üçün həm öz kollektivləri, həm də rəhbərlik qarşısında cavabdeh olmalıdırlar;

Mənbə: Azərişıq SC-in 2018-2023-cü illərin hesabatı əsasında müəllif tərtibatı

- Regional (rayon) idarələrin hər bir hesabat dövrü üçün ümumi (texniki itki və oğurluq) itkinin hədəfləri müəyyən edilir və idarənin hesabat dövründəki gəliri faktiki və təsdiq edilmiş ümumi itki arasındakı fərqə əsaslanaraq təyin edilməlidir.

Tənzimləyici paylama xidmətinin keyfiyyətinə aşağıdakı 3 amil vasitəsilə nəzarət edə bilər:

1. Təchizatın davamlılığı;
2. Kommersiya fəaliyyəti;
3. Texniki keyfiyyət.

Bu 3 amil tənzimləyici tərəfdən hazırlanacaq və müvafiq dövlət strukturları təsdiq edəcəyi "Xidmət keyfiyyəti haqqında əsasnamə"də öz əksini tapmalı və bunun monitorinqi üçün kifayət qədər müxtəlif alətlər təqdim edilməlidir. Tənzimləyici tərəfindən elektrik enerjisinin paylamasının dayanıqlılığını uzaqdan monitorinq sistemi, təchizatın davamlılığının qeyd sistemi (SAİDİ və SAİFİ) ətraflı şəkildə müəyyən edilməli və keyfiyyət amilinin operatorun struktur bölmələrin gəlirlərində əks edilməsi üçün mexanizmlər işlənib hazırlanmalı və proqramlaşdırılmalıdır.

Yeni qanunvericiliklə (Maddə №9) istifadəçilərə elektrik enerjisinin satış tariflərinin strukturu da ciddi dəyişikliyə məruz qalacaqdır. Belə ki, istehsalat tarifi sərbəst buraxılacaq, yəni tələb-təklif əsasında bir sonrakı gün üçün bazar operatoru tərəfindən formalaşacaqdır. Elektrik enerjisi qeyri-sərbəst istehlakçıları tərfindən ödənilən tariflər (satış tarifi) tənzimləyici tərəfindən müəyyən ediləcəkdir. Bu tarifə ötürücü, paylayıcı və təchizatçı şirkətlər tərəfindən təqdim edilmiş hesabatlara əsaslanan elektrik enerjisi ötürmə, paylama və təchizat xidmətlərinin xərcləri, texniki itki normativi və şirkətlərin gəlir hədəfi (səmərəlilik hədəfi) daxil olacaqdır. Bundan başqa qanunda ayrıca ötürmə və paylama xidmətlərin tarifinin də tənzimləyici tərəfindən təsdiqi nəzərdə tutulmuşdur. Paylama tarifinə paylama xərcləri, texniki itki normativi və gəlir (səmərəlilik) hədəfi daxil olacaqdır. Bu komponentlərin yerli regional (rayon) idarələrində müxtəlif olacağı və bütövlükdə paylama operatoru tərəfindən ümumiləşdiriləcəyi şübhəsizdir. Lakin, regional (rayon) şəbəkələrinin rəhbərlərinin və mütəxəssislərinin maaş və mükafatlandırılması ümumiləşdirilmiş göstəricilər əsasında təyin olunarsa reformalar gözlənilən nəticəni verməyəcəyi də şübhəsizdir. Hər bir struktur bölmə (şəbəkə) elektrik enerjisinin paylama xərclərinin və texniki itki-oğurluq göstəricilərinin aşağı salınmasından asılı olaraq səmərəlilik hədəfini təyin etməli, ona nail olmağa çalışmalı və son nəticədən asılı olaraq mükafatlandırılmalıdırlar. Yenidənqurma işləri aparılmamış, paylama şəbəkəsi acınacaqlı vəziyyət olan bəzi yerli qurumlara müəyyən dövr üçün əlbətdə ki, müvəqqəti olaraq bəzi imtiyazlar tanımaq mümkündür. Əks halda paylayıcı şəbəkənin maliyyə vəziyyəti olduqca pisləşəcək, müflisləşəcək, reformalar isə nəticə verməyəcək. Məsələ ondadır ki, paylayıcı şirkət hər bir regonal (rayon) idarəsinin normativdən çox itirdiyi elektrik enerjisini həmin hesabat ayında bazar operatorundan tələb-təklif əsasında bazar qiymətinə satın almağa borcludur. Bu qiymət elekrik enerjisi üçün paylama tarifindən qat-qat (3-4 dəfə) çox ola bilər (olacaqdır)!

Məhz ona görə də paylama şirkətinin yerli regional (rayon) şəbəkələri 5 illik dövrü əhatə edən baş planların hazırlanmasına və hər il onun yenilənmiş versiyasının təqdim edilməsinə cavabdeh olmalıdırlar. Bu baş planlarda yenidənqurma və investisiya prioritet olmaqla aşağıdakılar nəzərə alınmalıdır:

- Təhlükəsizlik;
- Şəbəkəyə yeni qoşulma ehtiyaclarının qarşılanması;
- Istehlakçıların tələb proqnozuna uyğun olaraq tələbatın odənilməsi;
- Minimum xərclə, yüksək xidmət keyfiyyətlərinin təmin edilməsi;
- Mümkün qədər tənzimləyicinin təsdiq etdiyi normativdən aşağı itki dərəcələri;
- Investisiya planları və koordinasiya;
- Iqtisadi səmərəlilik hədəfi.

Paylama operatorunun və onun yerli qurumlarının səmərəlilik hədəfləri təyin olunarkən, onların əməliyyat xərcləri, tarif və qeyri-tarif gəlirləri şirkətin maliyyə idarəsi tərəfindən hesablanaraq, proqramlaşdırılması və nəticədən asılı olaraq mükafatların verilməsi təmin olunmalıdır.

"Azərişıq" ASC-nin yerli qurumları, təəssüf ki, bu işlərə hazır deyillər, onlar lazımi məlumatları toplamaq və onu qənaətbəxş şəkildə tərtib edərək, hesabatlar hazırlamaq üçün mexanizmlər yaratmalıdırlar. Cəmiyyətin struktur bölmələrində çalışan mütəxəssislər məlumatları dəqiq və vaxtında toplamaq, birləşdirmək və təhlil etmək üçün texniki və insan resurslarını inkişaf etdirməlidirlər. Hal-hazırda əlbətdə ki, yerli qurumlar mütəmadi olaraq, mövcud məlumatları cəmiyyətin departamentlərinə və idarələrinə təqdim edirlər. Lakin, bu məlumatların tamlığı, həssaslığı, dəqiqliyi, aktuallığı, ardıcıllığı və onların nə dərəcədə şəffaf ötürülməsi ilə bağlı məsələlərdə narahatçılıq var.

**Nəticə / Conclusion**

1. “Azərişıq”ASC-nin təşkilatı strukturuna, əsasən yerli şəbəkələrin-regionlar, Bakı və Abşeronun elektrik şəbəkələrinin strukturuna yenidən baxılmalıdır. Yeni strukturda baş idarələrdə minimum say tərtibi olmaqla, əsas ağırlıq region və rayon şəbəkələrinə verilməlidir. Struktur “yuxarılara” rahat idarəolunan olmaqla yanaşı, əsasən istehlakçılara əlçatan və xidmət keyfiyyətinin yüksəldilməsinə təminat verməlidir. Bu strukturlarda hesabat dövründə paylanan enerjinin (qəbul edilən və satılan) miqdarı, əməliyyat xərcləri, tarif və qeyri-tarif gəlirləri dəqiq və şəffaf ölçülə bilməli, səmərəlilik əmsalı hesablanmalı, xüsusi IT proqramı vasitəsilə dövriyyəsi aparılmalı və cəmiyyətin maliyyə idarəsi tərəfindən nəzarətə götürülməli, əsas və köməkçi personalın diferensiallaşmış mükafatlandırılması sistemi yaradılmalıdır.

2.“Azərişıq”ASC-nin yerli qurumlarının abonentlərə göstərdikləri xidmətlərin keyfiyyətinin sistematik olaraq, tənzimləyici orqan və cəmiyyətin müvafiq idarəsi tərəfindən monitorinq edilməsi ən vacib vəzifədir. Məhz, bu monotorinqin nəticələri nəzərə alınmaqla mütəmadi olaraq tənzimləyici orqan tərəfindən tarif dəyişiklikləri həyata keçirilməlidir. Bu vəzifənin yerinə yetirilməməsi paylama sektorunun düzgün işləməsi üçün çox riskli vəziyyət yarada bilər. Məlumdur ki, regional idarələr faktiki xərclərini azaltmaqla, yüksək səmərəlilik əmsalı əldə edilməsinə, hər hesabat ayı, mükafat məbləğinin artırılmasına çalışacaqlar. Bu xərclərin azaldılmasına nail olmağın aşkar yollarından biri investisiyaların və əməliyyat xərclərinin (şəbəkələrin istismarı və saxlanması, kommersiya idarəetməsi) minimuma endirilməsidir. Bu isə abonentlərin (istifadəçilərin) aldığı xidmətin pisləşməsinə bilavasitə səbəb olacaqdır. Odur ki, xidmət keyfiyyəti ilə bağlı bir rejim müəyyən edilməsi, effektiv şəkildə həyata keçirilməsi və bu rejim çərçivəsində yerli qurumların (regionların) praktikada bu cür davranışlara yolvermə ehtimalını aradan qaldıracaq çox ciddi çəkindirici tədbirlərin, məsələn mükafatlandırma sisteminə tətbiq ediləcək cərimələrin müəyyən edilməsi vacibdir.

3.Yerli paylayıcı şəbəkələr öz fəaliyyətlərini müasir tələblərə uyğun və səmərəli həyata keçirmələrini dəstəkləmək məqsədilə onlar operator tərəfindən IT infrastrukturu və idarəetmə informasiya sistemləri ilə təchiz edilməlidirlər. Xüsusilə tarif və qeyri-tarif gəlirlərinin hesablanması (kommersiya idarəetmə sistemi), elektrik təchizatında fasilələr və digər insidentlərlə bağlı abonentlərin şikayətlərinin effektiv idarə edilməsi və həlli (SAİDİ, SAİFİ və başqa hadisələrin qeydiyyatı sistemi) üzrə xüsusi proqram sistemləri satın alınmalı və tətbiq edilməlidir. Bu onlara paylama xidmətinin səmərəli şəkildə idarəetməyə imkan verəcək, eyni zamanda tənzimləyici orqanın və operatorun müvafiq strukturlarının məlumat sistemlərinə real vaxt rejimində çıxışı olacaq, həmçinin abonent tərəfindən alınan xidmətlərin keyfiyyətini ölçməyə və izləməyə imkan verəcəkdir.

4. SCADA sisteminin yerli şəbəkələrdə tətbiqi nəzarət və digər məlumatların online şəkildə toplanması, emalı və idarəedilməsi çox güclü alət olmaqla yanaşı, həmçinin xidmət keyfiyyətinin yaxşılaşmasına böyük töhvə verəcəkdir. Bu məqsədlə bütün regionlarda paylayıcı operator tərəfindən SCADA sistemləri quraşdırılmalı və ümumi idarəetmə informasiya sisteminə qoşulmalıdır.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivləri üzrə “Strateji Yol Xəritəsi”.
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası (22 iyul 2022).
3. "Azərişıq" ASC, Satış, nəzarət və balans idarələrinin illik hesabatları, Bakı – 2020.
4. “Elektroenergetika haqqında” Azərbaycan Respublikasının Qanunu, 19 may 2023-cü il.
5. Кушербаев, Ж. Е. *Инновационное развитие* электроэнергетического рынка Республики Казахстан Москва- 2018.
6. Рамазанов К.Н., Баламетов А.В., К вопросу повышения эффективности работы Азербайджанской энергосистемы. Проблемы энергетики, 2000, №1.
7. *Стивен Стофт*. Экономика энергосистем. Введение в проектирование рынков электроэнергии, 2006.
8. Ibadov C. S., Energy efficiency is the main factor of effective management of energy systems, “Electroenergetics, electrotechnics, electromechanics+control”, Baku – 2022, volume 12, No.1.

9. Ibadov C. S., Balance of electrical energy in electrical networks and commercial loss analysis, “Deutsche internationale Zeitschrift für zeitgenössische Wissenschaft”, Germany – 2023, No.64.

# Некоторые факторы повышения экономической эффективности и качества обслуживания в распределительных электросетях ОАО «Азеришик»

**Чингиз Ибадов**
Кандидат экономических наук
Открытое Акционерное Общество "Азеришыг"
Заместитель директора Центра образования и инноваций
Email: chingiz.ibadov@mail.ru

**Резюме:** В соответствии с комплексными структурными реформами, начатыми в Азербайджане после глубоких экономических кризисов 1990-х годов, с 2000 года было принято несколько программ и законов для создания и реструктуризации относительно конкурентного и свободного рынка электроэнергии. Целью этих программ было обеспечение потребителей доступной, высококачественной, устойчивой, недорогой, экологически чистой и эффективной электроэнергией. Значительная часть положений принятых программ уже успешно реализована. Однако после 33 лет независимости и рыночной экономики не удалось создать финансово сильный, стабильный и прозрачный рынок электроэнергии, способный функционировать в полностью конкурентной среде. Первый шаг к этому уже сделан. Новый Закон «Об электроэнергетике» вступил в силу 01.01.2024. В настоящее время в нашей республике в сфере электроэнергетики прорабатываются вопросы: создания правовой базы и институциональных структур в соответствии с законами рыночной экономики, определения обязанностей и ответственности участников рынка, обеспечения самостоятельного регулирования и контроля на рынке, разграничения монопольных структур, лицензирования, определения тарифов на регулируемые виды деятельности, формирования оператора рынка и организации торговли электроэнергией свободных потребителей, балансирующего механизма и т.д. Определение и утверждение принципов — важные вопросы, которые нам предстоит решить. Полное решение этих вопросов в ближайшие 5-6 лет окажет положительное влияние на развитие всей экономики страны, поможет Азербайджанской Республике достичь уровня развитых стран мира, создаст условия для увеличения потребления топлива в 2-3 раза.

**Ключевые слова:** рынок электроэнергии, свободные потребители, конкурентная среда, либерализация, качество услуг, регулирование и т. д.

DOI: https://doi.org/10.36719/2707-9317/05/98-105

# Opportunities for utilizing international experience in the improvement of municipal finance

**Adalat Azizov**
Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Economics, leading researcher, Ph.D
E-mail: edaletezizov1122@gmail.com
**Sabina Hamidova**
Master’s Student,
Baku Business University
E-mail: sabinahamidova21@gmail.com

**Abstract:** Increasing the financial resources of municipalities, ensuring transparency, and establishing effective financial management are among the key requirements of the modern era. In international practice, various successful models exist for improving municipal finance in different countries. This article explores the possible directions for utilizing global experience in the enhancement of municipal finance. Additionally, it emphasizes the necessity of benefiting from international experience in improving municipal financial management.

**Key words:** Municipality, municipal finance, municipal system, international experience, local self-governance, public administration, management models.

# Bələdiyyə maliyyəsinin təkmilləşdirilməsində beynəlxalq təcrübədən istifadə imkanları

**Ədalət Əzizov**
AR ETN İqtisadiyyat İnstitutu, aparıcı elmi işçi, i.f.d.
e-mail: edaletezizov1122@gmail.com
**Səbinə Həmidova**
Bakı Biznes Universiteti
Magistrant
e-mail:sabinahamidova21@gmail.com

**Xülasə:** Bələdiyyələrin maliyyə resurslarının artırılması, şəffaflıq və effektiv maliyyə idarəetməsinin təmin edilməsi müasir dövrün vacib tələblərindəndir. Beynəlxalq təcrübədə müxtəlif ölkələrdə bələdiyyə maliyyəsinin təkmilləşdirilməsi üçün bir sıra uğurlu modellər mövcuddur.Bu məqalə bələdiyyə maliyyəsinin təkmilləşdirilməsində dünya təcrübəsindən istifadənin mümkün istiqamətlərini araşdırır.Həmçinin bu məqalədə bələdiyyə maliyyəsinin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübədən faydalanmanın zəruriliyi vurğulanmışdır.

**Açar sözlər.** Bələdiyyə, bələdiyyə maliyyəsi, bələdiyyə sistemi, beynəlxalq təcrübə, yerli özünüidarəetmə, dövlət idarəçiliyi, idarəetmə modelləri

## Giriş/ İntroduction

Yerli özünüidarəetmə orqanları cəmiyyətin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayır. Yerli idarəetmə sisteminin səmərəli fəaliyyət göstərməsi üçün maliyyə dayanıqlığı və resursların effektiv idarə edilməsi zəruridir. Bələdiyyə maliyyəsi, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əsasını təşkil edir və onların səmərəli işləməsi üçün vacibdir. Azərbaycanda bələdiyyə maliyyəsinin təkmilləşdirilməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Bələdiyyə maliyyəsinin gücləndirilməsi yalnız daxili resurslardan deyil, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqindən asılıdır. Dünyanın bir çox inkişaf etmiş ölkələrində yerli idarəetmə sistemləri özünəməxsus maliyyə modelləri əsasında fəaliyyət göstərir. Bu modellərdə maliyyə mənbələrinin müxtəlifləşdirilməsi, şəffaflıq və ictimai-özəl tərəfdaşlıqların təşviqi əsas prinsiplərdən biri kimi qəbul edilir.

## Əsas hissə/Main part

Müasir dövrdə yerli özünüidarəetmə sistemi dövlət idarəçiliyinin vacib tərkib hissələrindən birinə çevrilmişdir. Hər bir ölkədə yerli idarəetmə modeli həmin dövlətin iqtisadi və idarəetmə prinsiplərinə uyğun olaraq inkişaf edir. Beləliklə, bələdiyyələrin strukturu, vəzifələri və funksiyaları müxtəlif ölkələrdə fərqli xüsusiyyətlər kəsb edir. Azərbaycanda isə bu sistemin inkişafı üçün beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi xüsusi əhəmiyyətə malikdir.

Bələdiyyə maliyyəsinin inkişaf etməsi, yerli özünüidarəetmə orqanlarının daha səmərəli fəaliyyət göstərməsi üçün çox vacibdir. Demək olar ki, bu sahədə beynəlxalq təcrübədən istifadə imkanları aşağıdakı əsas istiqamətləri özündə birləşdirir.

**1.Beynəlxalq təcrübənin geniş miqyasda araşdırılması.**

Qeyd edə bilərik ki, bələdiyyə maliyyəsinin inkişafında beynəlxalq təcrübə,həmçinin vergi sistemlərinin inkişaf etdirilməsinin düzgün şəkildə təşkil olunması mühüm rol oynayır.Nümünə olaraq ABŞ və İsveçrədə yerli özünü idarəetmə orqanlarına vergi qoyma səlahiyyətləri verilir ki,bu da onların maliyyə resursları yaratmalarına imkan yaradır.

**2.Beynəlxalq təcrübədə şəffaflıq.**

Qeyd edə bilərik ki, yerli büdcələrin tərtibi və icrasında şəffaflığın təmin olunması beynəlxalq təcrübədə önəmli amildir.Bu şəffaflıqın təmin olunması üçün bələdiyyələr maliyyə hesabatlarını ictimaiyyətə açıq şəkildə təqdim etməlidir.Həmçinin yerli əhalinin büdcə proseslərinə cəlb olunması

artırılmalıdır.Bununla da yerli özünü idarəetmə orqanları maliyyə resurslarının səmərəli istifadəsini təmin etmiş olur.

**3.Maliyyə resurslarının idarə olunması.**

Bələdiyyələrin maliyyə resurslarının səmərəli istifadə olunması üçün beynəlxalq təcrübədə müxtəlif üsullardan istifadə olunur.Məsələn,bələdiyyələrin birləşdirilməsi modeli,burda kiçik bələdiyyələr birləşərək öz maliyyə imkanlarını artırıb daha geniş xidmət sahələri təqdim edir.Bu yanaşma ilə həm yerli xidmətlərin keyfiyyəti artır,həm də büdcənin səmərəli istifadəsi təmin olunur.

**4.Təlim və inkişaf proqramları.**

Bələdiyyələrin peşəkarlığ səviyyəsini artırmaq üçün müxtəlif beynəlxalq təşkilatlar tərəfindən təlim proqramları keçirilir.Bu proqramlar,bələdiyyədə çalışan işçilərin bilik və bacarıqlarının artırılmağına yönəlib.Bu təlim və inkişaf prioqramları bələdiyyələrin səmərəliliyini yüksəldir.

**5.İctimai iştirakın Artırılması.**

Beynəlxalq praktikada ictimai iştirakın olması yerli özünü idarəetmə orqanlarının fəaliyyətinin daha da səmərəli həyata keçirilməsinə şərait yaradır.Yerli əhali ilə,mütəmadi olaraq görüşlər keçirtmək,həmçinin onların fikirlərini dinləmək yerli özünü idarəetmə orqanlarının fəaliyyətini daha şəffaf və effektiv edir.

Tarixi təcrübə göstərir ki, inkişaf etmiş ölkələrdə vətəndaşlara xidmət edən cəmiyyətin formalaşması, demokratik dəyərlərin təmin olunması və hüquqi normativlərin tənzimlənməsi yalnız yerli özünüidarəetmə sisteminin inkişafı ilə mümkün olur.Yerli özünüidarəetmə sisteminin qurulması, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi və demokratiyanın inkişafı üçün mühüm bir vasitədir. Müasir demokratiyanın əsası bu sistemlərin formalaşması ilə yaranır və bu da demokratiyanın təşkili baxımından cəmiyyət üçün əhəmiyyət kəsb edir.Ölkəmizdə olduğu kimi, beynəlxalq miqyasda da yerli idarəetmə qurumlarının fəaliyyəti önəm daşıyır. Onların inkişaf tarixi və tendensiyalarını araşdırmaq Avropa inteqrasiyası prosesləri baxımından aktualdır.

**Bələdiyyə Maliyyəsinin Əsas Problemləri aşağıdakılardır:**

1. Maliyyə Resurslarının Məhdud olması: Bu zaman bələdiyyələr büdcə gəlirlərinin yetərsizliyi ilə üzləşirlər.
2. Vergi Yığımında Səmərəsizlik: Yerli vergilərin yığılmasında problemlər üzə çıxır.
3. Dövlət Dəstəyinin Yetərsiz olması: Bəzi hallarda bələdiyyələr mərkəzi hökumətdən lazımi maliyyə dəstəyini ala bilmirlər.
4. Maliyyə Menecmentində Bacarıq Çatışmazlığı: Peşəkar kadrların çatışmazlığı maliyyə idarəçiliyinə mənfi təsir göstərir.

Hər bir dövlətin özünəməxsus idarəetmə prinsipləri olduğu üçün beynəlxalq modellər birbaşa tətbiq edilə bilməz. Lakin bu modellərin ölkəmizin xüsusiyyətlərinə uyğunlaşdırılması faydalı nəticələr verə bilər. Məsələn, milli dəyərlərə yaxınlığı ilə seçilən Türkiyə modeli və postsovet ölkələrinin, xüsusən Gürcüstan və Rusiyanın təcrübələri nəzərdən keçirilə bilər. Bundan əlavə, Qərbi Avropa və ABŞ-ın müasir bələdiyyə idarəetmə modelləri də Azərbaycanda bələdiyyə maliyyəsinin təkmilləşdirilməsinə yardım edə bilər.

Azərbaycanda yerli idarəetmə sistemi hələ də inkişaf mərhələsindədir. Beynəlxalq təcrübədən faydalanmaqla ölkəmizdə bələdiyyələrin maliyyələşmə bazası genişləndirilə və idarəetmə mexanizmləri təkmilləşdirilə bilər. Bunun üçün:

Qərb ölkələrinin müasir idarəetmə texnologiyalarının tətbiqi, bələdiyyələrin maliyyə müstəqilliyinin artırılması, milli xüsusiyyətlərə uyğun təcrübələrin seçilməsi əsas götürülməlidir.

İnkişaf etmiş ölkələrin maliyyə sistemində bələdiyyələrin maliyyəsi xüsusi yer tutur. Məsələn bu ölkələrdən ABŞ, Fransa, Böyük Britaniya, Yaponiya göstərmək olar. Bu ölkələrdə bələdiyyələrin daha da inkişaf etməsi üçün onların daha güclü maliyyə bazasına sahib olması istiqamətində bir çox mühüm işlər görülmüşdür.

Demək olar ki,büdcələrin gəlirləri ikinci dərəcəli vergilər və ayrı-ayrı aksiz və yığımlar hesabına formalaşır. Həmçinin bələdiyyə mülkiyyətinin müxtəlif gəlirləri (kommunal xidmətlər, inzibati yığımlar, icarə haqları və s.) də büdcə gəlirlərini formalaşdırır.

Dövlətlərin fərqli idarəetmə xüsusiyyətlərini nəzərə alaraq demək olar ki, əksər ölkələr yerli özünüidarəni əsasən ingilis-sakson və fransız modelləri üzərində inkişaf etdirirlər. Yerli özünüidarə

qurumlarının təşkili və fəaliyyəti ilə bağlı bu modellər arasında bəzi əsas fərqlər mövcuddur. Fransız tipində yerli idarəetmə modeli olan ölkələrdə yerli idarəetmə qurumlarının fəaliyyətinə nəzarəti mərkəzi hökumətin nümayəndələri həyata keçirir. Bu nümayəndələrin inzibati nəzarət funksiyaları ilə bağlı hüquqları mövcuddur. Yerli özünüidarə qurumlarının qərarlarının təsdiqi, eləcə də bəzi hallarda onların ləğvi həmin nümayəndələrin səlahiyyətlərinə daxil ola bilər.İngilis-sakson modelində isə inzibati nəzarət qurumlarına ehtiyac yoxdur. Burada yerli idarəetmə orqanları və dövlət idarəetmə qurumları arasında əlaqələndirmə konkret problem və ya müvafiq mərkəzi icra qurumunun fəaliyyətinə bağlı olaraq müxtəlif formalarda həyata keçirilir. İngilis-sakson modelində inzibati nəzarət qurumlarının olmaması yerli özünüidarəetmə qurumlarının iqtisadi resurslardan daha müstəqil şəkildə istifadə etmələrinə şərait yaradır.Başqa mühüm fərqlərdən biri isə yerli idarəetmə qurumlarının səlahiyyətlərinin hüquqi əsaslarla müəyyən edilməsidir. İngilis-sakson modelində yerli idarəetmə orqanlarının səlahiyyətləri yalnız qanunla təsbit olunur və onların fəaliyyət sahəsi məhkəmə qərarları ilə məhdudlaşdırılır. Fransız modelində isə daha geniş səlahiyyətlər mövcuddur və yerli idarəetmə qurumlarının fəaliyyəti mərkəzi hökumətin ümumi siyasəti ilə daha sıx əlaqəlidir.

Dünyada geniş yayılmış fransız bələdiyyəçilik modelinin təcrübəsi müasir dövrdə daha da əhəmiyyət qazanır. Bələdiyyələrin mövcud olduğu illər ərzində bu proses müxtəlif və qarışıq modellər əsasında formalaşıb. Azərbaycanda isə hər bir modelin inkişaf mərhələsinə uyğun xüsusiyyətlərindən istifadə etmək vacibdir. Fransız modelində inzibati nəzarət mexanizmi dövlət maraqlarına uyğun olaraq yerli problemlərin həllinə yönəldildiyi üçün müasir dövrdə mühüm rol oynaya bilər.

Maliyyə sahəsində mərkəzi hakimiyyətin yerli bələdiyyələrə nəzarəti auditorlar vasitəsilə həyata keçirilir. Auditorlar yerli orqanların təqdimatı və ətraf mühit nazirinin təsdiqi ilə təyin olunurlar. Onlar fəaliyyət göstərdikləri dairədə sosial ehtiyaclar üçün ayrılmış vəsaitlərin qanunauyğun şəkildə xərclənməsinə nəzarət etməlidirlər.

Almaniyada hakimiyyətin bölgüsü və bələdiyyə idarəetmə sistemi mürəkkəb quruluşa malikdir. Bu sistemdə ABŞ, Fransa və Böyük Britaniya təcrübələrinin bəzi xüsusiyyətlərinə rast gəlmək mümkündür. Müasir bələdiyyə və idarəetmə modeli II Dünya müharibəsindən sonra formalaşıb. Həmin dövrdə Almaniyanın ayrı-ayrı əyalətlərə parçalanması hər bir əyalətə müstəqil və sərfəli bələdiyyə idarəetmə sistemi tətbiq etməyə imkan yaradıb. Ərazi prinsipinə əsasən yerli hakimiyyətin üç səviyyəsi müəyyən edilir: dairələr, müstəqil şəhərlər və bələdiyyələr.

Almaniyada maliyyə qanunvericiliyi yerli büdcələrə ciddi nəzarət edir və cari fəaliyyət zamanı büdcə kəsirinin kreditlə ödənilməsinə icazə vermir. Yerli icmalar yalnız müəyyən olunmuş həddə qədər borc götürə bilərlər ki, bu da büdcə gəlirləri hesabına nəzərdə tutulan müddət ərzində qaytarılmalıdır. Əgər icmanın borcu müəyyən edilmiş limiti keçərsə, əlavə borc almağa icazə verilmir.

Yaponiyanın yerli özünüidarəetmə modeli iki əsas səviyyədən ibarətdir: prefekturalar və bələdiyyələr. Maliyyə sistemi isə üç səviyyəyə bölünür: dövlət, prefekturalar və bələdiyyələr. Yerli büdcələrin təxminən 50%-i yerli özünüidarəetmə orqanlarının topladığı vəsaitlər hesabına formalaşır. Bu vəsaitlərə prefekturaların yığdığı korporativ gəlir vergisi, bələdiyyələrin topladığı əmlak vergiləri və yerli özünüidarəetmə qurumlarının tətbiq etdiyi müxtəlif rüsumlar daxildir. Həmçinin, bələdiyyə mülkiyyətindən və ictimai obyektlərdən əldə olunan gəlirlər də bu mənbələrə aid edilir. Yığılan vəsaitlər yerli idarəetmə orqanlarının dövlət qarşısında maliyyə öhdəliklərinin icrası üçün istifadə olunur və yerli icmalara təqdim edilir.

Yaponiyada yerli idarəetmə qurumlarının büdcələrini formalaşdıran digər mühüm mənbə dövlət tərəfindən ayrılan transfertlərdir. Bu transfertlər beş əsas kateqoriyaya bölünür: subsidiya, öhdəliklərin icrası üçün ayrılan vəsaitlər, büdcə kəsirinin bağlanması məqsədilə verilən əlavə dotasiyalar, icra üçün həvalə olunmuş maliyyə yardımları və digər maliyyə köçürmələri.

Bələdiyyələr dairələrlə yanaşı, yerli özünüidarəetməni həyata keçirir. Müxtəlif maliyyə imkanlarına malik olduqları üçün dairələr maliyyə siyasətində əhəmiyyətli rol oynayır. Onların maliyyə dəstəyi bələdiyyələrə problemlərin həllində, o cümlədən aztəminatlı ailələrin dəstəklənməsi, məktəblər və uşaq bağçalarının fəaliyyəti üçün maliyyə yardımı göstərməkdə vacibdir.

Fransada bələdiyyələrin əsas maliyyə mənbəyi mərkəzi hakimiyyət tərəfindən ayrılan birləşdirilmiş qrantlardır. Bu qrantlar birdəfəlik və bərabərləşdirici olmaqla iki hissəyə bölünür. Birdəfəlik qrant əvvəlki il üzrə əməkhaqqı gəlirlərindən toplanan dövlət vergilərinə əsaslanır. Bərabərləşdirici qrant isə bələdiyyələrin vergi potensialını nəzərə alır. Bundan əlavə, birbaşa yerli vergilər də mövcuddur ki, bunlara torpaq vergisi, tikinti, yaşayış yeri və məşğulluq növünə görə tətbiq edilən vergilər daxildir.

İnkişaf etmiş ölkələrdə bələdiyyələrin dövlət tərəfindən təmin edilən maliyyə dəstəyi əhəmiyyətli dərəcədə böyükdür. Beynəlxalq təcrübədə büdcələrarası transfertlərin formalaşması və gəlirlərin bölüşdürülməsi müxtəlif yanaşmalarla həyata keçirilir və əsasən ümumi məqsədli qrantlar və xüsusi qrantlar kimi növlərə ayrılır. Transfertlər sisteminin effektiv qurulması və idarə edilməsi üçün iki əsas struktur amilə diqqət yetirilməlidir:

a) Yerli özünüidarəetmə orqanlarına ayrılacaq transfertlərin həcminin («bölüşdürüləcək fond») müəyyən edilməsi;

b) Ayrılmış transfertlərin müxtəlif yerli özünüidarəetmə qurumları arasında paylanma mexanizmlərinin tətbiqi.

Beynəlxalq təcrübədə sabitlik və şəffaflığın təmin olunması məqsədilə dövlət gəlirlərinin konkret bir faizinin transfertlər üçün ayrılması geniş tətbiq edilir. Bununla yanaşı, bəzi ölkələrdə transfert fondlarının həcmi büdcə xərclərinin müəyyən bir faizi ilə məhdudlaşdırılır. Ölkələr arasında əsas fərqlər isə yerli bələdiyyələrin idarəetməsində olan vergi mənbələrindən asılı olaraq dəyişir. Vergi gəlirləri yerli büdcələr üçün əsas maliyyə mənbələrindən biri olsa da, tək mənbə funksiyasını daşımır.Digər önəmli mənbə də dövlət dotasiyaları və subvensiyalardır.

Dövlət dotasiyaları və subvensiyalar, əsasən, vəsaitlərin yenidən bölüşdürülməsi və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsi məqsədini daşıyır. Ümumiyyətlə, dotasiyaların həcmi fiskal potensiala, əhalinin sayına və ölkə üzrə orta göstəricilərə əsaslanaraq müəyyən edilir. Yerli büdcələrə dövlət subsidiyaları, onların ümumi gəlirlərinin 10%-50%-i (bəzi hallarda isə 80%-i) qədər ola bilər.

Təcrübə göstərir ki, bələdiyyələr dotasiya şəklində aldıqları vəsaitləri xərcləyərkən, öz gəlirlərinə nisbətən bəzən israfçılığa yol verirlər. Həmçinin, dotasiyaların idarələr arasında ədalətli bölüşdürülməsi hələ də müsbət nəticələr verməyib.

Yerli özünüidarəetmə orqanlarının öz vergi gəlirləri və digər maliyyə mənbələrindən əldə etdikləri vəsaitlər, ümumiyyətlə, tələb olunan xərcləri qarşılamaq üçün kifayət etmir. Buna görə də mərkəzi hökumət bu orqanlara subvensiya ayırmağa məcbur olur. Bu subvensiyalar, bir tərəfdən, yerli özünüidarəetmələrin gündəlik xərclərinin qarşılanmasına xidmət edir, digər tərəfdən isə bələdiyyə mülkiyyətini artıran və ya təchizatını təmin edən subvensiyalar da mövcuddur. Hər ölkə vergi üsullarını öz qanunlarına və iqtisadi şəraitinə uyğun şəkildə müəyyən edir. Unitar dövlətlərdə isə bu sahədə əsas çətinlik, bir çox dolayı və birbaşa vergilərin mərkəzi idarələrdə qalması ilə bağlıdır.

İnkişaf etmiş ölkələrdə bələdiyyə bankları geniş fəaliyyət göstərir. Bələdiyyələrin təşkil etdiyi uduşlu oyunlar və qiymətli kağızların emissiyası əsas maliyyə gəlirləri arasında yer alır. Bəzi ölkələrdə isə şəhərdaxili nəqliyyat, yanğından mühafizə xidmətləri, ictimai iaşə və xidmət müəssisələri bələdiyyələrin nəzarətindədir. Bu fəaliyyətlərdən əldə edilən gəlirlər yerli büdcəyə daxil olur.

Bələdiyyələr üçün gəlir əldə etmək məqsədilə bir çox fərqli mənbə mövcuddur. Bu mənbələrdən səmərəli istifadə edən bələdiyyələr əhəmiyyətli və faydalı işlər görə bilirlər.

Yerli büdcələr öz xərc hissələrini əsas məqsədlərinə uyğun olaraq üç əsas kateqoriyaya ayırır: kapital qoyuluşları, cari xərclər və borc öhdəliklərinin ödənilməsi. Xərclər, ümumiyyətlə, mədəniyyət, təhsil, sosial təminat, səhiyyə, kommunal xidmətlər, yolların tikintisi və saxlanması, ekoloji və inzibati fəaliyyətlər kimi sahələrə bölünür. Yerli büdcələrin xərcləri ölkənin iqtisadi və sosial həyatında yerli özünüidarəetmə orqanlarının fəaliyyətini və inkişafını əks etdirir.

Bələdiyyələrin yerli əhalidən toplayacağı vergi və ödənişlərin növləri və yuxarı hədləri qanunla tənzimlənir, lakin onların toplanması və istifadəsi bələdiyyələrin ixtiyarına buraxılır. Beləliklə,

bələdiyyələr öz maliyyə imkanlarına uyğun olaraq vergilərin faizini müəyyən edir və maksimal həddi aşmamağı təmin edir.

Yerli özünüidarəetmə büdcələrinin gəlirlərinin təxminən 10%-50%-i (bəzi hallarda daha çox) vergilərdən gəlir.

ABŞ-da bələdiyyələr, əsasən, korporativ xüsusiyyətlərə malik olan bələdiyyə korporasiyaları tərəfindən idarə olunur. Bu bələdiyyələrə əmlak sahibi olmaq, əmlak almaq və satmaq, cavabdeh şəxsləri məhkəməyə vermək, məhkəməyə müraciət etmək, pul vəsaitləri saxlamaq, istiqrazlar buraxmaq və müqavilələr bağlamaq kimi hüquqlar verilir.

Bələdiyyə korporasiyası hüququnun verilməsi üçün şəhərin vətəndaşlarının müəyyən bir hissəsinin ştat hökumətindən bu hüququ əldə etməsi tələb olunur.

Həm qəsəbələr, həm də iri şəhərlər qanunvericilik və icra işlərini həyata keçirən idarəetmə orqanlarına malikdir. Bütün bələdiyyələr yanğın və polis xidməti, kanalizasiya sisteminin işləməsi, zibil yığımı, səhiyyə tədbirləri və digər ictimai xidmətləri təmin edir.

ABŞ-da yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əsas xüsusiyyətlərindən biri, onların mürəkkəb və effektiv idarəetmə sistemidir. Bu sistem, yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin qanunvericiliklə dəqiq müəyyənləşdirilməsini, yerli idarəetmə orqanlarının öz müstəqilliyi daxilində fəaliyyət göstərməsini və inzibati-təsərrüfat müstəqilliyinin təmin edilməsi üçün möhkəm maliyyə bazasının yaradılmasını əhatə edir.

Azərbaycan Respublikasının yerli bələdiyyə özünüidarəetmə sisteminin qurulmasında, ABŞ-ın təcrübəsindən istifadə böyük əhəmiyyət kəsb edir. Bu təcrübə, yerli idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi üçün mühüm istiqamətləri müəyyənləşdirir. Əldə edilən əsas nəticə, yerli bələdiyyələrin müstəqilliyinin təmin olunmasında onların maliyyə bazalarının gücləndirilməsinin vacibliyidir.

Əslində, qanunvericilik bələdiyyələrin gəlir mənbələrinin genişliyini nəzərdə tutsada, praktikada bu mənbələrdən effektiv şəkildə istifadə etmək imkanları məhdud qalır. Bu məsələ, bələdiyyələrin maliyyə müstəqilliyinin təmin edilməsi üçün əlavə tədbirlər görülməsini zəruri edir.

**Beynəlxalq Təcrübədə İstifadə Olunan Uğurlu Model və Təcrübələr:**

1. Skandinaviya Ölkələri Modeli: İsveç və Norveç kimi ölkələrdə bələdiyyələr geniş maliyyə müstəqilliyinə malikdir. Vergilərin böyük hissəsi yerli səviyyədə toplanır və səmərəli xərcləmə strategiyaları tətbiq edilir.
2. ABŞ Təcrübəsi: ABŞ-da bələdiyyələr müxtəlif gəlir mənbələrindən, o cümlədən əmlak vergisi və xidmət haqlarından faydalanır. Həmçinin ictimai-özəl tərəfdaşlıqlar geniş tətbiq olunur.
3. Almaniya Modeli: Almaniyada federal hökumət ilə yerli idarəetmələr arasında maliyyə balansı təmin edilir. "Maliyyə bərabərliyi" prinsipi ilə zəif maliyyə imkanına malik bölgələr dəstəklənir.
4. Cənubi Koreya Təcrübəsi: İT texnologiyalarından istifadə edilərək bələdiyyə xidmətlərinin rəqəmsallaşdırılması və vergi sisteminin optimallaşdırılması həyata keçirilmişdir.
5. Yaponiya Modeli: Yaponiya, yerli idarəetmə və bələdiyyələrin maliyyə idarəçiliyində yüksək səviyyədə şeffaflıq və hesabdarlıq tətbiq edir. Bu ölkədə bələdiyyələr, müstəqil maliyyə sistemləri ilə yanaşı, həm də hökumət tərəfindən verilən maliyyə yardımlarından faydalanır. Xüsusilə yerli inkişaf layihələrinin həyata keçirilməsində, hökumət ilə sıx əməkdaşlıq mühüm yer tutur. Yaponiyada bələdiyyələr arasındakı əməkdaşlıq və bilik mübadiləsi də, hər hansı bir uğurlu layihənin həyata keçirilməsində əsas rol oynayır.
6. Avstraliya Təcrübəsi: Avstraliyada yerli bələdiyyələr üçün maliyyə qaynaqları, əsasən əmlak vergisi və dövlət təyinatlı fondlardan ibarətdir. Burada, bələdiyyələr öz xidmətləri üçün müstəqil qərarlar qəbul etsələr də, bələdiyyə rəhbərləri arasında mütəmadi müzakirələr və ortaq fəaliyyətlər nəticəsində daha səmərəli xidmətlərin təmin olunması hədəflənir. Avstraliya həm də yerli təhsil və səhiyyə xidmətlərinə olan xərcləri optimallaşdırmaq üçün təcrübələrini inkişaf etdirib.
7. Yeni Zelandiya Təcrübəsi: Yeni Zelandiyada yerli idarəetmə sistemləri yüksək dərəcədə şəffafdır və bələdiyyələr yerli əhaliyə göstərilən xidmətləri müəyyən etmək və prioritetləşdirməkdə geniş müstəqilliklə fəaliyyət göstərirlər. Bu ölkədə bələdiyyə büdcələrinin şəffaflığı və ictimaiyyətin bilgiləndirilməsi mühüm bir prinsip olaraq qəbul edilir. Bununla yanaşı, Yeni Zelandiya

bələdiyyələrinə aid vergilərdən əldə olunan gəlirlərin doğru şəkildə bölüşdürülməsi, yerli müstəqillik və əhali məmnuniyyətinin təmin edilməsinə kömək edir.

8. Fransa Modeli: Fransada yerli idarəetmənin mərkəzləşdirilməsi və dövlət tərəfindən verilən maliyyə yardımlarının əhəmiyyətli rolu mövcuddur. Yerli bələdiyyələr, böyük şəhərlərin idarə olunmasında daha müstəqil olsa da, əhali sıxlığı az olan bölgələrdə dövlət tərəfindən maliyyə dəstəyi daha geniş şəkildə tətbiq edilir. Fransa, bələdiyyələrin xidmətlərində müştərək təşəbbüslərə və regional əməkdaşlığa yönələn strategiyalar üzərində çalışır.

## Nəticə /Conclusion

Bələdiyyə maliyyəsinin təkmilləşdirilməsi, yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi üçün çox mühüm bir amildir. Beynəlxalq təcrübə göstərir ki, yerli idarəetmə sistemlərinin maliyyə resurslarının artırılması, şəffaflıq və effektiv idarəetmə mexanizmlərinin tətbiqi, bələdiyyələrin daha geniş və məqsədyönlü fəaliyyətlər göstərmələrinə şərait yaradır. Əsasən inkişaf etmiş ölkələrdə, yerli idarəetmə orqanları öz maliyyə resurslarını artırmaq üçün vergi yığımında şəffaflıq və idarəetmə sistemlərinin təkmilləşdirilməsi kimi əsas prinsipləri tətbiq edirlər.

Azərbaycanın mövcud yerli idarəetmə sistemi hələ inkişaf mərhələsində olduğundan, beynəlxalq təcrübə əsasında atılacaq addımlar, bələdiyyə maliyyəsinin gücləndirilməsində böyük əhəmiyyət kəsb edir. Beləliklə, Azərbaycanda yerli bələdiyyələrin daha da inkişaf etməsi üçün beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq olunması, yerli idarəetmə orqanlarının maliyyə müstəqilliyinin artırılması və vergi sistemlərinin təkmilləşdirilməsi vacibdir.

Yerli özünüidarəetmə orqanlarının səmərəli fəaliyyət göstərməsi üçün verilən dövlət dəstəyinin artırılması, bələdiyyələrin daha geniş iqtisadi imkanlara sahib olmalarına və yerli xidmətlərin keyfiyyətinin yaxşılaşmasına gətirib çıxarır. Beynəlxalq təcrübədən əldə edilən məlumatlar və modellər, Azərbaycanın yerli idarəetmə sisteminin təkmilləşdirilməsi və bələdiyyə maliyyəsinin inkişafı üçün faydalı olacaqdır. Bu yanaşmalar yerli əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və sosial xidmətlərin daha effektiv təmin olunmasına imkan yaradacaq.

Beləliklə, bələdiyyə maliyyəsinin təkmilləşdirilməsi, yalnız ölkə daxili ehtiyacların qarşılanması ilə kifayətlənməməli, beynəlxalq təcrübələrdən faydalanmaqla həm də daha geniş və qlobal perspektivdən yanaşılmalıdır. Bu, yerli özünüidarəetmə orqanlarının daha müstəqil, şəffaf və effektli fəaliyyət göstərməsini təmin edəcək.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Abdullayev E, Həsənova S. (2002). Bələdiyyə hüququ, Bakı “ Təhsil”
2. Babayeva, A.R. (2020). Yerli özünüidarəetmənin hüquqi və maliyyə əsasları. Bakı: UNEC.
3. Əzimzadə A.C., Qəribli E.A. (2018). "Azərbaycanda yerli özünüidarəetmə orqanlarının maliyyə mənbələrinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları" Bakı, "UNEC"
4. Hacıyev Ş.H., (2011). "Dövlət və bələdiyyə idarəçiliyi" Bakı, "İqtisad Universiteti"
5. İbrahimov İ. (2014), Bələdiyyə idarəçiliyin beynəlxalq təcrübəsi, Bakı. “Ziya”
6. İsmayılov V., Yusifov S., Hüseyn A. (2016). "Yerli özünüidarəetmənin hüquqi və maliyyə əsasları" Bakı, "Ləman nəşriyyat poliqrafiya" MMC
7. Kərimova, G.K. (2020). Müasir idarəetmə sistemində bələdiyyə və yerli özünüidarəetmə orqanlarının rolu. Bakı: UNEC.
8. Toğrul Ə.İ. (2002). "Bələdiyyələrdə ictimaiyyətlə əlaqələrin beynəlxalq təcrübəsi" Bakı, "Qanun"
9. Yusifov, S.A., İsmayılov, V.M., Hüseyn, A. (2016). Yerli özünüidarəetmənin hüquqi və maliyyə əsasları.
10. "Yerli özünüidarəetmə"nin anlayışı, prinsipləri, onların formaları və hüquqi əsasları. (2015).

# Возможности использования международного опыта в совершенствовании муниципальных финансов

**Адалат Азизов**
МОН АР Институт Экономики
ведущий научный сотрудник, доктор философии
E-mail: edaletezizov1122@gmail.com
**Сабина Гамидова**
Магистрант,
Бакинский Университет Бизнеса
E-mail: sabinahamidova21@gmail.com

**Резюме:** Увеличение финансовых ресурсов муниципалитетов, обеспечение прозрачности и эффективного управления финансами являются важными требованиями современной эпохи. В международной практике существует ряд успешных моделей совершенствования муниципальных финансов в разных странах. В статье рассматриваются возможные направления использования мирового опыта совершенствования муниципальных финансов. Также в статье подчеркивается необходимость использования международного опыта совершенствования муниципальных финансов.

**Ключевые слова:** Муниципалитет, муниципальные финансы, муниципальная система, международный опыт, местное самоуправление, государственное управление, модели управления.

DOI: https://doi.org/10.36719/2707-9317/05/106-113

# Assessment of the level of employment of higher education graduates

**Intizar Gurbanova**
PhD in economics, leading researcher,
Institute of Economics of the Ministry of Science and Education,
"Demography and employment problems" department, Azerbaijan
E-mail: q.intizar@mail.ru
https: // orcid.org/0000-0002-4761-8452

**Abstract:** The article examines the employment level of graduates of higher education. For this, the rating indicators prepared by the Employment Agency for the years 2018-2021 were used. For the purpose of comparison, the results of the selective statistical survey conducted on the employment of vocational and secondary specialized education graduates were analyzed. As a result, it was determined that the employment problems of higher education graduates are more acute than those of vocational and secondary specialized qualification graduates. Thus, while the employment level of higher education graduates from the analyzed number was 56.9 percent, the same indicator was 67.5 percent for vocational and secondary specialized education graduates.

Among the 340 specialties in the employability rating of specialties, the highest indicator belongs to the specialties oriented to economics and management, followed by the teaching profession. Looking at the number of graduates by employers in the top 10, it can be seen that most of the enterprises employing higher education graduates belong to the banking sector and supermarket chains.

**Key words:** employment, higher education, graduates, employers, inquiries, employment issues, jobs.

**UOT: 331.5 JEL: E24, İ25, J21, J24**

# Ali təhsil məzunlarının işədüzəlmə vəziyyətinin qiymətləndirilməsi

**İntizar Qurbanova**
i.f.d., aparıcı elmi işçi
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu,
"Demoqrafiya və məşğulluq problemləri" şöbəsi
Azərbaycan Universiteti, müəllim
E-mail: q.intizar@mail.ru
https: // orcid.org/0000-0002-4761-8452

**Xülasə:** Məqalədə ali təhsil məzunlarının işədüzəlmə və məşğulluq vəziyyəti araşdırılmışdır. Bunun üçün Məşğulluq Agentliyinin 2018-2021 illər üçün hazırladığı reytinq göstəricilərindən istifadə olunmuşdur. Müqayisə məqsədilə peşə və orta ixtisas təhsili məzunlarının məşğulluğu ilə bağlı keçirilmiş seçmə statistik müayinənin nəticələri təhlil edilmişdir. Nəticədə, ali təhsil məzunlarının işədüzəlmə problemlərinin peşə və orta ixtisas məzunlarına nisbətən daha kəskin olduğu müəyyənləşdirilmişdir. Belə ki, təhlil olunmuş saydan ali təhsil məzunlarının məşğulluq səviyyəsi 56,9 faiz olduğu halda, peşə və orta ixtisas təhsili məzunları üçün həmin göstərici 67,5 faiz təşkil etmişdir.

İxtisaslar üzrə işədüzəlmə reytinqində 340 ixtisas arasında ən yüksək göstərici iqtisadiyyat və idarəetmə yönümlü və daha sonra isə müəllim peşəsi üzrə olan ixtisaslara aiddir. Top 10-luqdakı işəgötürənlər üzrə məzun sayına baxdıqda görünür ki, ali təhsilliləri işəgötürən müəssisələrin ən çoxu bank sektoruna və mağazalar şəbəkəsinə aiddir.

**Açar sözlər:** məşğulluq, ali təhsil, məzunlar, işəgötürənlər, sorğular, işədüzəlmə problemləri, iş yerləri.

**UOT: 331.5 JEL: E24, İ25, J21, J24**

**Giriş.** Möhtərəm Prezidentimiz İ.Əliyev cənabları hələ 20 il öncə buyurmuşdu: "Biz qara qızılı insan kapitalına çevirməliyik". Bu da baş verdi, yəni, etiraf etməliyik ki, həmin istiqamətdə çox işlər görülüb. İstər dövlət hesabına, istər özəl təhsil alma imkanları daha da genişlənməkdə davam edir. Artıq yetişdirilmiş və yetişdirilməkdə olan insan kapitalının səmərəli istifadəsi, yəni, gənclərin iş təminatının yaxşılaşdırılması məsələsi daha önə çıxır. Çünki, təhsil almış insan öz yaradıcı potensialını işdə reallaşdırmalıdır, bunun üçün ona münbit şərait yaradılmalıdır. Əks halda ona sərmayə qoyulmağa dəyməzdi. Baxamayaraq ki, ali təhsil alanların sayı ilbəil artır, məşğul əhalinin təhsil səviyyələrini təhlil etdikdə görürük ki, onların tərkibində ali təhsillilərin xüsusi çəkisi heç də artmayıb [2].

Onu da nəzərə alsaq ki, həmin sayın müəyyən hissəsi ümumiyyətlə ali təhsilə ehtiyac olmayan işlərdə çalışanlardır, deməli vəziyyət daha ciddidir. Bu o deməkdir ki, insan kapitalından səmərəli istifadə edə bilməmişik.

**Ali təhsil məzunlarının işədüzəlmə göstəriciləri.** Məşğulluq Agentliyinin rəsmi internet saytında 2018-2021-ci illərdə 340 ixtisas üzrə ali təhsil məzunlarının işədüzəlmə reytinqi göstəriciləri verilmişdir. Burada reytinqi hesablanmış məzunların ümumi sayı 77947 nəfərdir, onların da cəmi 44349 nəfəri, başqa sözlə 56,9 faizi işlə təmin edilmişdir [4]. Məlumat üçün qeyd edək ki, həmin illərdə ali təhsilin təkcə bakalavr səviyyəsini bitirənlərin ümumi sayı 158911 nəfər olmuşdur, burada təhlil olunanlar isə yalnız 30 universitetin göstəricilərini əks etdirir (ümumi məzunların təqribən 50 %-ini).

*Universitetlər üzrə reytinq* göstəricilərinə görə təhlildə iştirak edən ali məktəblər arasında ilk beşlikdə Bakı Musiqi Akademiyası, Bakı Ali Neft Məktəbi, ADA Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti yerləşir.

*İxtisaslar üzrə reytinqə baxsaq*: İnstrumental ifaçılıq (fortepiano, orqan), solo oxuma, drijorluq, bəstəkarlıq, musiqişünaslıq, musiqi müəllimliyi, daha sonra isə biznesin təşkili və idarə edilməsi

(tədris ingilis dilində), elektroenergetika mühəndisliyi, biznesin idarə edilməsi (mühasibat uçotu, maliyyə), müalicə işi, neft-qaz mühəndisliyi (tədris ingilis dilində), proseslərin avtomatlaşdırılması mühəndisliyi (tədris ingilis dilində), əyani təhsil üzrə reytinqi irəlidə olan ixtisaslardır. Son beşlikdə isə jurnalistika (tədris ingilis dilində), neft-qaz yataqlarının işlənməsi və istismarı, dil və ədəbiyyat müəllimliyi (ingilis dili üzrə), regionşünaslıq (Polşa üzrə), xarici dil və ədəbiyyat (ingilis dili və ədəbiyyatı üzrə) ixtisasları göstərilmişdir.

*İxtisaslar üzrə cəmi məzun sayı.* Top 10-luqda yer alan ixtisaslar üzrə hesabladıqda burada məzun sayı ümumilikdə 20553 nəfərdir. Qrafik 1-dən gördüyümüz kimi, Top 10-luqda birinci yerdə 3515 nəfər məzunla (cəmi məzun sayının 17,1 faizi) iqtisadiyyat ixtisası yerləşir. Top 10-luğun sonunda isə 1324 nəfər məzunla (cəmi məzun sayının 6,4 faizi) tarix müəllimliyi ixtisası yerləşir. Ümumiyyətlə götürdükdə isə reytinq cədvəlinə başçılıq edən bu 10 ixtisas demək olar ki, ilk növbədə iqtisadiyyat və idarəetmə yönümlü və daha sonra isə müəllim peşəsi üzrə olan ixtisaslardır. Son illərin tələbə qəbulu üzrə məlumatlarını araşdırdıqda da görürük ki, müəllim peşəsinin nüfuzu son illərdə xeyli yüksəlmişdir, abituriyentlər arasında müəllimliyə tələbatın artması isə keçid ballarının da hər öncəki ilə nisbətən artmasına səbəb olmuşdur.




**Qrafik 1. İxtisaslar üzrə reytinq**

*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [4].

*İxtisaslar üzrə işə qəbul olunmuş məzun sayına* baxdıqda Top 10-luqda yer alan ixtisaslar üzrə cəmi 11499 nəfər muzdlu işlə təmin olunmuş məzunlardır. Burada da siyahıya 2045 nəfər məzunla iqtisadiyyat ixtisası başçılıq edir, xüsusi çəkisi isə Top 10-luğun 17,8 faizinə bərabərdir. Muzdlu işlə təmin olunmuş məzunların böyük hissəsi iqtisadiyyat, maliyyə, mühasibat uçotu və audit, menecment ixtisasını bitirənlərdir. İxtisaslar üzrə reytinqdə 10-cu yerdə tarix müəllimliyi yer almışdı, işədüzəlmə reytinqində isə həmin sırada hüquqşünaslıq ixtisası yerləşir.




**Qrafik 2. İxtisaslar üzrə işə qəbul olunmuş məzun sayı reytinqi**
*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [4].

İşəgötürənlərin 87,2 faizi qeyri-dövlət bölməsinə, yalnız 12,8 faizi dövlət sektoruna aiddir. Muzdla işləyənlərin isə böyük hissəsi – 74,3 faizi qeyri-dövlət bölməsində çalışır.

*İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayına* diqqət yetirək. Aşağıdakı qrafikdə (qr. 3) 13660 nəfər məzunu işlə təmin etmiş və bununla da top 10-luğa düşən iqtisadi fəaliyyət sahələri göstərilmişdir. İşə qəbul olunmuş məzunların ən çox hissəsi Top 10-luqda xüsusi çəkisi 18,7 faizə bərabər olan Mərkəzi Bankın fəaliyyəti üzrə sahələrdə çalışır.




**Qrafik 3. İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayı**
*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [4].

İndi isə Top 10-luqdakı *işəgötürənlər üzrə məzun sayına* baxsaq (qr. 4) görərik ki, işəgötürən müəssisələrin daha çoxu bank sektoruna və mağazalar şəbəkəsinə aiddir. Burada siyahıya 711 nəfər məzunu işlə təmin etmiş Kapital Bank başçılıq edir, 2-ci yerdə isə 700 nəfər məzunu işə götürmüş Araz supermarketlər şəbəkəsi yerləşir.




**Qrafik 4. İşəgötürənlər üzrə məzun sayı reytinqi**

*Mənbə: Dövlət Məşğulluq Agentliyinin məlumatları əsasında hazırlanmışdır* [4].

Yuxarıdakı qrafiklərdən görünür ki, baxılan dövrdə təhlili aparılmış ali təhsilli məzunların böyük hissəsi ticarət-satış sahəsində çalışırlar. İşəgötürənin iqtisadi fəaliyyət növü üzrə işə qəbul olmuş məzun sayına görə top 10-luğa düşmüş sahələrin 13660 yerdən 4160-ı ticarət-satış bölməsinin payına düşür, yəni bu, yuxarıdakı cədvəl göstəricilərinə görə işlə təmin olunmuş ali təhsilli məzunların 30,4 faizi deməkdir, başqa sözlə, onların əksər hissəsi heç də öz ixtisası və təhsil səviyyəsi üzrə işləmir.

Bu onu göstərir ki, bir çox hallarda gənclərin müəyyən bir hissəsi öz sevdikləri ixtisasa yönəlirlər, obyektiv, bəzən də subyektiv səbəblərə görə ixtisasa uyğun iş tapmayıb digər işlərdə məcburiyyətdən çalışmalı olurlar. Lakin hələ də müəyyən bir qisim gənclər də var ki, peşə seçiminə kifayət qədər ciddi yanaşmırlar, diplom xatirinə və yaxud digər fərqli səbəblərlə ali məktəbə qəbul olunurlar. Qeyd edək ki, ali təhsil alan gənclərlə keçirilmiş məşğulluq sorğusunda tələbələr özləri həmin səbəbləri sadalamışdılar və iştirak edənlərin yalnız 53,6 faizi öz sevdiyi ixtisası seçdiyini bildirmişdilər [3, s. 62].

Müqayisə üçün növbəti bölmədə orta ixtisas və peşə təhsilini bitirənlərin məşğulluq göstəricilərinə nəzərsalmaq məqsədəuyğun olar.

**Peşə və orta ixtisas təhsili məzunlarının məşğulluq vəziyyətinin qiymətləndirilməsi (sorğu nəticələri üzrə).** Orta ixtisas və peşə təhsili müəssisələrini bitirənlərin məşğulluğunu qiymətləndirmək üçün 2021-ci ildə seçmə statistik müayinə aparılaraq 2016-2020-ci illərdə bu müəssisələrdən məzun olmuş gənclər arasında iqtisadi fəal əhalinin və işçi qüvvəsinə aid olmayan potensial işçi qüvvəsinin sayı müəyyənləşdirilmişdir. Həmin məzunların 109,5 min nəfəri iqtisadi fəaldır, o cümlədən onların da 92,0 min nəfəri (84 %-i) məşğul, 17,5 min nəfəri (16 %-i) isə işsizdir. İqtisadi fəal əhaliyə aid edilməyən məzunların sayı 26,7 min nəfərdir, hansıların ki, 15,5 min nəfəri potensial işçi qüvvəsi hesab olunur.

Beləliklə də, 2016-2020-ci illərdə peşə və orta ixtisas təhsili müəssisələrini bitirənlərin iqtisadi fəallıq səviyyəsi 80,4 faiz, məşğulluq səviyyəsi 67,5 faiz olduğu hesablanmışdır. Məşğul olanların (92001 nəfərin) 47,7 faizi, yəni, 43884 nəfəri orta ixtisas, 52,3 faizi (48117 nəfəri) isə peşə təhsilini bitirmişlər. Peşə təhsilini bitirmiş və məşğul sayılan məzunların 88,5 faizini, başqa sözlə, 42584 nəfərini ilk peşə təhsili olanlar, 11,5 faizini, yəni, 5533 nəfərini isə texniki peşə təhsili olanlar təşkil etmişdir.

Orta ixtisas və peşə məzunlarının məşğulluq səviyyəsi




**Qrafik 5. Peşə və ixtisas təhsili məzunlarının məşğulluğu**

*Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri əsasında hazırlanmışdır [5].*

Peşə və orta ixtisas təhsili müəssisələrindən 2016-2020-ci illərdə məzun olmuş məşğul əhalinin 19,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; 16,3 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri; 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi; 8,6 faizi təhsil; 7,6 faizi tikinti sahələrində çalışırlar.Kənd təsərrüfatında çalışanların 57,4 faizi peşə təhsili məzunlarıdır. Ümumiyyətlə, həm peşə təhsili alanların, həm də orta ixtisas təhsili məzunlarının xüsusi çəkisi bu sahə üzrə daha yüksəkdir, müvafiq olaraq 21 faiz və 22,4 faiz.

Cədvəl 1.-in göstəricilərinə görə sözü gedən məzunların əksəriyyəti, belə ki, kollec bitirənlərin 55,4 faizi, peşə təhsillilərin isə 54,3 faizi muzdlu işləyənlərdir. Bu məzunların az bir qismi, müvafiq olaraq 3,5 və 5,3 faizi isə sahibkarlıq fəaliyyəti ilə məşğuldurlar. Göründüyü kimi peşə təhsilli məşğul məzunların tərkibində sahaibkarların xüsusi çəkisi 5,3 % olmaqla daha yüksək, yəni, orta ixtisas təhsillilərdən 1,8 faiz çoxdur.

**Cədvəl 1.**

**Orta ixtisas və peşə təhsili məzunlarının məşğulluq statusu üzrə strukturu** *(%-lə)*

| | **Orta ixtisas məzunları** | **Peşə təhsili məzunları** |
|---|---|---|
| Muzdlu işləyənlər | 55,4 | 54,3 |
| Sahibkarlar (işəgötürənlər) | 3,5 | 5,3 |
| Fərdi əmək fəaliyyəti ilə məşğul olanlar | 21,6 | 26,3 |
| Ailə kəndli təsərrüfatlarında və ya ailə biznesində haqqı ödənilmədən çalışanlar | 19,5 | 14,1 |

*Mənbə: Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair statistik müayinənin nəticələri əsasında hazırlanmışdır* [5, s. 10].

Yuxarıda qeyd etdiyimiz kimi, məzunlar arasında işsizlik səviyyəsi 16,0 faiz olmuşdur, o cümlədən orta ixtisas məzunları arasında 17,2 faiz, peşə təhsili məzunları üçün isə 14,8 faiz təşkil etmişdir. Ümuilikdə işsiz məzunların 57,5 faizi şəhər yerlərində, 42,5 faizi kənd yerlərində yaşayanlardır. İşsizlik səviyyəsi şəhər yerlərində 16,9 faiz, kənd yerlərində isə 14,9 faiz olmuşdur. İşsizlərin ümumi sayında orta ixtisas məzunlarının xüsusi çəkisi 52,2 faiz (9,1 min nəfər), peşə təhsili olanlarınkı isə 47,8 faiz (8,4 min nəfər) təşkil edir. Peşə təhsili olan işsizlər arasında ilk peşə təhsilli işsizlərin sayı 7,7 min nəfər (91,7 %) olduğu halda texniki peşə təhsili almış işsizlərin sayı cəmi 0,7 min nəfər təşkil edir. Bu isə o deməkdir ki, texniki peşələrə yiyələnmiş məzunların məşğul olma imkanları ilk peşə təhsillilərə nisbətən daha yüksəkdir.

Bu təhlillər, yəni, məşğulluq və işsizlik səviyyəsi üzrə məzunların bölgüsü göstəriciləri belə

deməyə əsas verir ki, peşə təhsili ilə iş tapmaq orta ixtisas təhsili ilə iş tapmağa nisbətən daha asandır. Eləcə də peşə təhsilinə malik olan şəxslər arasında sahibkarlıq fəaliyyəti ilə məşğul olma imkanları digərlərindən daha çoxdur. Onların özünüməşğulluq proqramından faydalanması da realdır. Heç də təsadüfi deyil ki, bir çox tədqiqatçılar məhz peşə təhsilini təhsildən əmək bazarına ən yaxşı keçid vasitəsi hesab edirlər [6; 7; 8; 10]. Bu o demək deyil ki, ali təhsili az önəmli hesab edirik, əsla belə düşünmürük, sadəcə olaraq əmək bazarının tələblərinə uyğun sayda və keyfiyyətdə kadr hazırlığı həyata keçirilməlidir. Bu uyğunluğun təmin oluna bilməməsi yuxarıdakı problemlərin yaranmasına gətirib çıxarır.

**Nəticə.** Ali təhsil məzunlarının reytinq göstəricilərindən məlum oldu ki, təhlil olunmuş məzun sayından yalnız 56,9 faizi işə düzələ bilmişdir. Baxmayaraq ki, həmin gənclər müxtəlif ixtisasları bitirmişlər, onların 30,4 faizi ticarət-satış sahələrində çalışırlar. Peşə-ixtisasına və təhsil səviyyəsinə uyğun olmayan və maddi ehtiyaclarını ödəməyən işdə çalışmağı biz səmərəli məşğulluğa aid edə bilmərik. Statistik göstəricilər, sorğular və müşahidələrimiz deməyə əsas verir ki, məşğul gənclərin əksəriyyəti təxminən həmin vəziyyətdədir. Ali təhsil alan tələbələrlə keçirilmiş sorğudan da məlum oldu ki, onlardan işləyənlərin böyük hissəsi satıcı kimi fəaliyyət göstərirlər. Bir məsələ də var ki, həm Azərbaycanda, həm də dünyada gənclərin arasında qeyri-formal məşğulluqda olanların sayı daha çoxdur [9].

Gənclərin məşğulluğunun yaxşılaşdırılması yönündə davam etdirilməsi vacib olan əsas tədbirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-gənclər arasında sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, özünüməşğulluq proqramı çərçivəsində görülən işlərin genişləndirilməsi;

- peşə-ixtisas təhsilinin əmək bazarının tələbləri ilə optimal şəkildə uzlaşdırılması;

-məşğulluq orqanları tərəfindən görülən aktiv məşğulluq tədbirlərinin regionlarda təşkili (əmək yarmarkalarının təşkili və s.), həmçinin yeni iş yerlərinin açılması məqsədilə investisiyaların böyük hissəsinin regionlara yönəldilməsi;

- işəgötürənlərin müxtəlif güzəşt və stimullaşdırıcı tədbirlərlə gənclərin məşğulluq imkanlarının artırılmasına dəstək verməyə təşviq edilməsi;

-Məşğulluq agentliyinin Gənclər Fondu ilə birgə təşkil etdiyi layihələrin genişləndirilməsi ("Biznesini Yarat Marafonu", "İşəgötürənlər üçün Əməkhaqqı Subsidiyası" və "Peşəkar Gənclik" layihələri və s.).

Nəzərə alsaq ki, peşə və orta ixtisas məzunlarının məşğulluq səviyyəsi 67, 5 faiz olmaqla ali təhsillilərə nisbətən daha yüksəkdir, peşə təhsilinin imkanlarından faydalanmaq da nəzərdən qaçırılmamalıdır. Əmək bazarındakı hazırki şərait onu göstərir ki, hətta ali təhsillə yanaşı müəyyən bir peşəyə, sənətə sahib olmaq da zəruridir. Qeyd edək ki, ali təhsil tələbələri ilə aparılmış sorğu [1] zamanı respondentlərin 34,7 faizi "*ali təhsillə yanaşı tələbələrə hər hansı peşə (sənət) öyrənmək imkanı yaradılması*" barədə fikrimizi dəstəkləmişdi. Peşə təhsili və özünüməşğulluq proqramı vasitəsilə daha çox gəncin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi mümkündür.

### İstifadə olunmuş ədəbiyyat / References


1. Ali təhsil alan gənclər arasında keçirilmiş məşğulluq sorğusu. May-iyun ayları 2024-cü il. https://forms.gle/E85vv3k3dnZMm3Nt9
2. Qurbanova, İ.M. Azərbaycan Respublikasında məşğul əhalinin peşə-ixtisas təhsil quruluşunun tədqiqi // – Bakı: İqtisadi artım və İctimai Rifah jurnalının Xüsusi buraxılışı. – 2024, – s. 94-114
3. Qurbanova İ.M. Ali təhsil alan gənclərin məşğulluğu ilə bağlı əsas məsələlər: problemlər və həlli yolları. İqtisadi artım və İctimai Rifah. – 2024, №3, – s. 58-68
4. Məzunların məşğulluq reytinqi. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin saytı https://dma.gov.az/layiheler/mezunlarin-mesgulluq-reytinqi
5. Peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğuna dair seçmə statistik müayinənin nəticələri haqqında. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı 2021.

6. Dustman, C. and Schonberg U. What makes firm-based vocational training schemes succesful? The role of commitment. // American Economic journal: Applied Economics –4:2(2012): –pp. 36-61.
7. Eichhorst, W., Kalleberg A., Portela de Souza A., Visser J. IZA DP No. 12482: Designing Good Labour Market Institutions: How to Reconcile Flexibility, Productivity and Security? [Electronic resource] / – July 2019. –26 p. URL: https://docs.iza.org/dp12482.pdf
8. Eichhorst, W. Does vocational training help young people finde a (good) job? [Electronic resource] / IZA Wold of labour. –January 2015. –10 p. URL: https://wol.iza.org/uploads/articles/112/pdfs/does-vocational-training-help-young-people-find-good-job.pdf?v=1
9. Global Employment Trends for Youth 2024 https://www.ilo.org/sites/default/files/2024-09/GET_2024_EN%20web.pdf
10. Ryan, P. The school-to-work transition. A cross-national perspective // Journal of Economic Literature, – 2001. 39:1, – p. 34-92.


# Оценка уровня трудоустройства выпускников высшего образования


**Интизар Гурбанова**
Доктор философии по экономике, ведущий научный сотрудник
Институт экономики Министерства науки и образования,
Отдел "Демография и проблемы занятости"
E-mail: q.intizar@mail.ru



**Резюме:** В статье рассматривается трудоустройство и статус трудоустройства выпускников высших учебных заведений. Для этого были использованы рейтинговые показатели, подготовленные Агентством занятости для выпускников 2018-2021 годов. С целью сравнения были проанализированы результаты выборочного статистического обследования, проведенного по вопросам трудоустройства выпускников профессионально-технических и средних профессиональных учебных заведений. В результате установлено, что проблемы трудоустройства выпускников высших учебных заведений стоят более остро, чем проблемы трудоустройства выпускников НПО и СПО. Так, если уровень трудоустройства выпускников высших учебных заведений из анализируемого числа составил 56,9 процента, то для выпускников НПО и СПО этот же показатель составил 67,5 процента.

Среди 340 специальностей в рейтинге трудоустройства специальностей самый высокий показатель принадлежит специальностям, ориентированным на экономику и управление, на втором месте следует профессия преподавателя. Если посмотреть на количество выпускников в Топ-10 работодателей, то можно увидеть, что большинство предприятий, нанимающих выпускников вузов, относятся к банковскому сектору и сетевым магазинам.



**Ключевые слова:** трудоустройство, высшее образование, выпускники, работодатели, запросы, проблемы с трудоустройством, рабочие места.

DOI: https://doi.org/10.36719/2707-9317/05/114-121

# Methodology for studying the functioning of the national economy of a country in the “circle of poverty”

**Mazaddin Ayyubov**
Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,
Email: mazaddin.eyyubov@gmail.com
https://orcid.org/0000-0002-2255-1706

**Abstract:** Since the basis of the state structure of the country is the national economy of the country, then economic threats to the state structure are formed then, when the national economy of a country begins to function in a “circle of poverty.”

To identify economic threats, which may arise to the state structure and developing preventative measures, first of all, it is necessary to determine the emergence of a “circle of poverty” in the activities of the country’s national economy.

The article presents the methodology of the study of the emergence of the "circle of poverty" in the activity of the national economy of the country at the stage of declining development rates and stagnation. The methodology (algorithm) of assessing the criteria for the functioning of the national economy of the country in the "circle of poverty" is proposed.

**Methodology:** A research methodology and evaluation methods were developed using a systematic approach, comparative analysis and methods of economic and mathematical analysis.

**Key words:** national economy system of the country, cyclical activity, state structure, economic threats, calculation methods.

**JEL E61, E66, O11; UDC 330.3; 330.4**
**UOT: 338.1; JEL: E49, E66; O11.**

# Ölkənin milli təsərrüfat sisteminin “kasıbçılıq çevrəsi”ndə fəaliyyətinin tədqiqatı metodologiyası

**Məzəddin Əyyubov**
aparıcı elmi işçi,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu,
E-mail: mazaddin.eyyubov@gmail.com
https://orcid.org/0000-0002-2255-1706

**Xülasə:** Ölkənin dövlət quruluşunun bazisini milli təsərrüfatı sistemi təşkil etdiyindən, milli təsərrüfatın “kasıbçılıq çevrəsi”ndə fəaliyyətində dövlət quruluşuna qarşı iqtisadi təhdidlər formalaşır. Dövlət quruluşuna qarşı yarana bilən iqtisadi təhdidlərin aşkarlanması, qabaqlayıcı tədbirlərin tərtib edilməsi, ilk növbədə milli təsərrüfatın fəaliyyətində “kasıbçılıq çevrəsi”nin yaranmasının müəyyın edilməsini tələb edir.

Məqalədə milli təsərrüfat sisteminin inkişaf templərinin azalması və böhran mərhələsində fəaliyyətində “kasıbçılıq çevrəsi”nin yaranmasının tədqiqatlarının metodologiyası açıqlanır, hesablama metodikası (alqoritmi) təklif edilir.

**Metodologiya**: məqalənin işlənməsində sistemli yanaşma, müqayissəsli təhlil, iqtisadi-riyazi təhlil üsullarından istifadə etməklə tədqiqatların metodologiyası və qiymətləndirmə metodilaları tərtib edilmişdir.

**Açar sözlər**: milli təsərrüfat sistemi, dövrü fəaliyyət, dövlət quruluşu, iqtisadi təhdidlər, hesablama metodikası.

**JEL E61, E66, O11; UDC 330.3; 330.4**
**UOT: 338.1; JEL: E49, E66; O11.**

**Giriş.** Ölkələrin milli təsərrüfatı sistemi ikişaf, inkişaf templərinin azalması və durğunluq, tənəzzül və stabilləşmə mərhələrində dövrü fəaliyyət göstərir. Apardığımız tədqiqatlar əsasında belə nəticəyə gəlmişik ki, milli təsərrüfat sisteminin inkişaf mərhələsində fəaliyyətində dövlət quruluşuna qarşı sistemdaxili iqtisadi təhdidlər yaranmır, dövlət quruluşunun iqtisadi təhdidlərdən təhlükəsizliyi milli təsərrüfat sisteminin özünü tənzimləmə xüsusiyyətinə malik olması xüsusiyyəti vasitəsi ilə təmin olunur [1; 2].

Qərbi Avropa və ABŞ-da ötən XX-ci əsrdə ölkə iqtisadiyyatlarının inkişaf nəzəriyyələri ilə yanaşı, ölkə iqtisadiyyatlarının inkişaf edə bilməmələri ilə də bağlı elmi nəzəri və metodoloji konsepsiyalar irəli sürülmüşdür. Ölkə iqtisadiyyatlarının inkişaf edə bilməmələri ilə bağlı aparılan elmi tədqiqatlar, ötən əsrdə sosializm və kapitalizm düşərgələrinə daxil olmayan “üçüncü ölkələr”in iqtisadi cəhətdən inkişaf edə bilməmələrinin səbəblərinin araşdırılması ilə bağlı olmuşdur. Bu iqtisadi tədqiatların nəzəri və metodoloji nəticələri, biri birini tamamlayan üç nəzəryyə: ölkə iqtisadiyyatının “kasıbşılıq çevrəsi”ndə fəaliyyəti nəzəriyyəsi, ölkə iqtisadiyyatının “özü inkişaf edə bilən” konsepsiyası, “ölkə iqtisadiyyaına təsirli təkan” inkişaf nəzəriyyəsi istiqamətlərində formalaşmışdır [3; 4].

Elmi tədqiqatlarda ölkə iqtisadiyyatının inkişaf edə bilməməsinin səbəblərini, ölkə iqtisadiyyatının “kasıbçılıq çevrəsi”ində fəaliyyəti ilə əlaqələndirilən nəzəriyyələr sırasına amerikalı iqtisadçı alim H. Leybeystanın ölkə iqtisadiyyatının kvazistabil tarazlığı konsepsiyası [3], ölkə iqtisadiyyatında kapitalın çatışmamazlığı ilə bağlı amerikalı iqtisadçı alim R.Nurkse konsepsiyası [5], ölkədə institusional gerilik səbəbləri: təhsil sisteminin geriliyi və ümumi savadsızlıq, işçi qüvvəsinin peşəkarlıq səviyyəsinin aşağı olması ilə yanaşı, savadlı mütəxəssislərin çatışmaması problemləri ilə bağlı olan B.Kialla konsepsiyası aid olunurlar [3].

**Müzakirə.** Milli təsərrüfat sisteminin inkişaf templərinin azalması və durğunluq mərhələsində fəaliyyəti, “kasıbçılıq çevrəsi”nə keçərək fəaliyyət göstərməsi səbəbindən, dövlət quruluşuna qarşı sistemdaxili iqtisadi təhdidlərin yaranması prosesi başlayır.

Biz, Azərbaycanın Dövlət quruluşuna qarşı milli təsərrüfat sisteminin fəaliyyətində yaranan iqtisadi təhdidlər sırasına: 1) dövlətin iqtisadi müstəqilliyini itirməsi; 2) milli təsərrüfat sisteminin müstəqil inkişaf edə bilməsi qabilliyətinin olmaması; 3) ölkədə ixrac-idxal saldosunun azalması; 4) xarici ölkələrə verilmiş və xarici ölkələrdən alınmış gəlirlərin saldosunun azalması; 5) xarici ticarət əlaqələrində makroiqtisadi zərərin yaranması; 6) işçi qüvvəsinin əməyinin stimullaşdırılmasında əmək haqqları ilə yaranmış mənfəətin qeyri-mütənasib nisbətinin yaranması;7) məhsulların qiymətlərinin süni (spekulyativ) artması; 8) milli təsərrüfatın məhsul istehsalı sahələrində yaranan ölkədaxili investisiya potensialının azalması; 9) milli təsərrüfatın məhsul istehsalı sahələrində yaranan investisiya potensialından qeyri-səmərəli istifadəsi hallarını aid edirik.

Amerikalı iqtisadçı alim R.Nurkse konsepsiyasına görə [5], yoxsul ölkələrin iqtisadiyyatında istehsalatın genişləndirlməsinə olan stimullar aşağı səvyyədə olur. Stimulun aşağı səviyyədə olması səbəbi ölkədə G gəlirlərin aşağı səviyyədə olması ilə nəticələnir. Ölkədə G gəlirlərin aşağı olması səbəbi isə iki istiqamətdə iqtisadi problemlər yaradır.

Birinci problem ölkə iqtisadiyyatında məhsul və xidmətlər bazarının məhdudiyyəti ilə bağlıdır.

Konsepsiyada bu birinci problem ölkədə istehlak məhsulları bazarının məhdudluğu ilə əlaqələndirilir. Belə ki, ölkə iqtisadiyyatında G gəlirlərin aşağı olması səbəbi → ölkədə əhalinin istehlak məhsullarına olan $İ_M$ tələbatı səviyyəsinin aşağı olması ilə nəticələlənir. Ölkədə istehlak məhsullarına olan $İ_M$ tələbatın aşağı səviyyədə olması nəticəsi → öz növbəsində səbəb olaraq ölkə daxili istehlak məhsulları bazarını məhdudlaşdırır. Ölkədaxili bazarın məhdud olması səbəbi isə → nəticə olaraq ölkə iqtisadiyyatına İ investisiya qoyuluşlarını stimullaşdırmır. Ölkə iqtisadiyyatına yönəldilən aşağı səviyyəli İ investisiyalar → ölkə iqtisadiyyatının fəaliyyətini az səmərəli, aşağı rentabelli səviyyədə saxlayır. Bu səbəb isə öz növbəsində → ölkədə məhsullar istehsalatın genişləndirilməsinə stimul yaratmır. Çevrə qapanır (Sxem № I).

**Sxem № I. Ölkə iqtisadiyyatının "kasıbçılıq çevrəsi"ndə fəaliyyətinin sxematik təsviri**




Sxem № I məqalənin müəllifi tərəfindən tərtib edilmişdir

İkinci problem, ölkə iqtisadiyyatında yaranan G gəlirlərin aşağı olması səbəbindən ölkə iqtisadiyyastına ölkədaxili mənbələrdən investisiya qoyuluşlarının aşağı səviyyədə olması ilə bağlıdır.

Belə ki, ölkədə gəlirlərin aşağı olması səbəbi → ölkə əhalisinin aldıqları G gəlirlərdən az səviyyədə Q qənaət olunması ilə nəticələnir. Ölkə iqtisadiyatına yönəldilən İ investisiyaların mənbəsini ölkə əhalisinin Q qənaəti təşkil etdiyindən, aşağı səviyyəli Q qənaət mənbəsi → aşağı səviyyədə İ investisiya imkanı yaradır. Öz növbəsində ölkə iqtisadiyyatına yönəldilən aşağı səviyyəli İ investisiyalar → ölkə iqtisadiyyatının fəaliyyətini az səmərəli, aşağı rentabelli səviyyədə saxlayır. Məhsulların istehsalının az rentabelli olması səbəbi isə → öz növbəsində ölkədə məhsullar istehsalatın genişlndirilməsinə stimul yaratmır. Çevrə qapanır (Sxem № I).

**I. Milli təsərrüfat sisteminin "kasıbçılıq çevrəsi"ində fəaliyyətinin tədqiqatı metodologoyası**

Hesab edirik ki, ölkənin milli təsərrüfat sisteminin müəyyən T dövründə "kasıbçılıq çevrəsi"ndə fəaliyyət göstərib-göstərməməsinin müəyyən edilməsi ilə bağlı tədqiqatlar aşağıdakı ardıcıllıqla yerinə

yetirilməlidir.

**1. İstehsalatın miqyasının genişlənməsinə stimulun səviyyəsinin qiymətləndirilməsi.** Milli təsərrüfata investisiya qoyuluşları, ilk növbədə əsas kapitala (əsas fondlara) yönəldilən $İ_K$ investisiyalardan gələcəkdə əldə oluna bilən $P_K$ mənfəətin $\dot{\varphi}$ sərfəliliyi səviyyəsi ilə ölçülür. Investisiyaların alınan mənfəətə görə sərfəliliyi

$\dot{\varphi} = P_K / İ_K$, (1)

asılılığı ilə qiymətləndirilir. Asılılıq, milli təsərrüfatın məhsul istehsalı sahələrinə yönəldilən hər bir manat $İ_K$ investisiya qoyuluşlarından alına bilinən mənfəətin manatla ifadəsini göstərir.

**2. Aşağı səviyyəli gəlirlərin yaranması.** Milli təsərrüfatın "kasıbçılıq çevrəsi"ndə fəaliyyətində yaranan $G_M$ ümumi milli gəlirin səviyyəsini, ölkədə bir ay ərzində hər bir nəfərə düşən $G_N$ gəlirlərin, hər nəfərin minimum yaşayış $İ_X$ xərclərini təmin edə bilməsi kriteriyası ilə qiymətləndirmək olar. Bu məqsədlə milli təsərrüfatın "kasıbçılıq çevrəsi"ndə fəaliyyətində:

1) birinci addımda faktiki qiymətlərdə ölkədə bir ayda hər nəfərə düşən gəlirlərin səviyyəsi

$G_N = G_M / N$, (2)

asılılığı ilə qiymətləndirilir. Asılılıqda: N – ölkə əhalisinin sayını göstərir;

2) ikinci addımda faktiki qiymətlərdə ölkədə bir ayda hər nəfərə düşən $V_N$ vergi ödənişlərinin səviyyəsi

$V_N = V / N$, (3)

asılılığı ilə qiymətləndirilir.

3) üçüncü addımda faktiki qiymətlərdə ölkədə bir ayda hər nəfərə düşən $İ_{XFN}$ istehlak xərcləri

$İ_{XFN} = İ_{XF} / N$, (4)

asılılığı ilə qiymətləndirilir.

4) dördüncü addımda faktiki qiymətlərdə ölkədə yaranan $G_M$ ümumi milli gəlirin səviyyəsinin qiymətləndirilməsi, ölkədə faktiki qiymətlərdə hər bir nəfərə düşən $G_N$ ümumi milli gəlirin $V_N$ vergi ödənişləri, faktiki $İ_{XFN}$ istehlak xərcləri və ümumi milli gəlirdən qənaət olunaraq yığılmış $Q_N$ vəsaitlərin səviyyələrini ifadə edən struktur eyniliyi vasitəsi ilə qiymətləndirilir, yəni

$G_N = a_1 \cdot V_N + a_2 \cdot İ_{XFN} + a_3 \cdot Q_N$ , (5).

Göstərilmiş (5) struktur eyniliyidə: $a_1$ əmaslı faktiki qiymətlərdə hər bir nəfərə düşən $G_N$ ümumi milli gəlirin hansı hissəsinin hər bir nəfərə düşən $V_N$ vergi ödənişlərini; $a_2$ əmaslı hər bir nəfərə düşən $G_N$ ümumi milli gəlirin hansı hissəsinin hər bir nəfərə düşən $İ_{XFN}$ istehlak xərclərini; $a_3$ əmaslı hər bir nəfərə düşən $G_N$ ümumi milli gəlirin hansı hissəsinin hər bir nəfər tərəfindən qənaət olunaraq yığılmış $Q_N$ vəsaitləri ifadə edirlər.

**3. Aşağı səviyyəli $İ_M$ istehlak xərcləri.** Hesab edirik ki, milli təsərrüfatın "kasıbçılıq çevrəsi"ndə fəaliyyətində əhalinin faktiki qiymətlərdə $İ_M$ istehlak xərclərinin səviyyəsinin qiymətləndirilməsi, ölkədə hər nəfərə düşən faktiki $İ_{XN}$ istehlak xərcləri ilə əhalinin yaşayışının minimum ehtiyaclarının ödənilməsinə tələb olunan $İ_{X\ MİN}$ istehlak xərclərini müqayisə etməklə qiymətləndirmək olar, yəni

$\chi = İ_{XN} / İ_{X\ MİN}$ , (6).

Göstərilmiş (6) asılılığı ölkədə hər nəfərə düşən faktiki $İ_{XN}$ istehlak xərclərinin əhalinin yaşayışının minimum ehtiyaclarının ödənilməsinə tələb olunan $İ_{X\ MİN}$ istehlak xərclərinin ödənilməsi səviyyəsini ifadə edir.

**4. Qiymətlərin spekulyativ (süni) artımlarının qiymətləndirilməsi metodikası.** Milli iqtisadiyyatın bütün pul-əmtəə kanallarında bazara təklif olunan məhsulların ümumi buraxılışı həcminin azalması, pul kütləsinin artması səbəbi ilə yanaşı, qiymətlərin spekulyativ süni artımı səbəbi ölkə iqtisadiyyatı sistemində inflyasiya halını yaradır. Hesab edirik ki, ölkə iqtisadiyyatında yaranmış inflyasiyanın $İ_F$ göstəricisi, mürəkkəb funksiya olaraq məhsulların ümumi buraxılışının Y həcmindən, ölkə iqtisadiyyatında bütün pul-əmtəə kanallarında mövcud pul kütləsinin $M_3$ miqdarından asılı olmaqla yanaşı, qiymətlərin spekulyativ süni $S_A$ artımlarını ını nəzərə alınmaqla qiymətləndirilməlidir, yəni:

$İ_F = f\ (Y, M_3, S_A)$, (7)

Həmçinin, ölkə iqtisadiyyatında yaranmış inflyasiya göstəricisinin $\Delta İ_F$ dəyişməsinin məhsul və xidmətlərin ümumi buraxılışı göstəricisinin $\Delta Y$ dəyişməsindən, ölkə iqtisadiyyatında bütün pul-

əmtəə kanallarında pul kütləsinin miqdarı göstəricisinin $\Delta M_3$ dəyişmələrindən və qiymətlərin spekulyativ süni $S_A$ artımından asılılığı

$\Delta İ_F = S_A + a_1 \cdot \Delta Y + a_2 \cdot \Delta M_3 + \varepsilon$, (8)

struktur eyniliyi formasında tədqiq olunmmalıdır.

Struktur eyniliyində: $a_1$ – məhsul və xidmət miqdarının bir vahid $\Delta Y$ dəyişməsinin inflyasiya indeksinin neçə vahid $\Delta İ_F$ dəyişməsini; $a_2$ – bütün pul-əmtəə kanallarında pul kütləsinin bir vahid $\Delta M_3$ dəyişməsinin inflyasiya indeksinin neçə vahid $\Delta İ_F$ dəyişməsini ifadə edir. Asılılıqdakı $S_A$ həddi isə ölkə iqtisadiyyatında yaranmış inflyasiya göstəricisinin $\Delta İ_F$ dəyişməsinin məhsulların ümumi buraxılışının $\Delta Y$ və bütün pul-əmtəə kanallarında pul kütləsinin $\Delta M_3$ dəyişmələri ilə əlaqəsi olmayan spekulyativ süni $S_A$ artımı ifadə edən hədd hesab olunur. Eynilikdəki ε həddi hesablamaların xətasını ifadə edir.

**5. Gəlirlərin qənaəti funksiyası.**Yuxarıda göstərildiyi kimi, ölkədə yaranan ümumi milli $G_M$ gəlirlərdən hökumət tərəfindən təyin edilmiş V vergilər ödənildikdən sonra qalan $G_M^Q$ ümumi milli gəlirin bir qismi əhali tərəfindən $İ_M$ istehıak xərclərinin ödənilməsinə, qalan qismi isə gələcək dövrdə istifadə olunması məqsədilə qənaət olunaraq yığılır.

Neoklassik iqtisad nəzəriyyəsinin əsas müddəalarından biri ondan ibarətdir ki, gələcək dövrdə istifadə olunması məqsədilə, dövlət büdcəsinə V vergi və rüsumlar, həmçinin $İ_M$ istehlak xərcləri ödənildikdən sonra qənaət olunaraq yığılmış $Q_M$ vəsaitlər ölkədaxili investisiyalar potensialını təşkil edirlər [6;7]. Nəzəriyyədə gəlirələrin qənaəti funksiyası, istehlak

$İ_M = İ_0 + c \cdot G_M^Q$ , (9)

funksiyasına uyğun olaraq

$Q_M = Q_0 + s \cdot G_M^Q$, (10)

funksiyası ilə qiymətləndirilir.

(9) və (10) funksiyalarında: c – əhalinin istehlaka meyilliyi həddini; s – əhalinin qənaətə meyilliyi həddini ifadə edirlər, (c + s) = 1 [7].

**6. İstehlak $İ_M$ funksiyası ilə qənaətin $Q_M$ funksiyasının qarşılılıqlı əlaqəsi.** $İ_M$ milli istehlak və $Q_M$ milli qənaət funksiyaları biri biri ilə qarşılıqlı tərs əlaqəli funksiyalar hesab olunurlar. Milli istehlak və milli qənaət funksiyalarında istehlak xərclərinin milli gəlirin qalan $G_M^Q$ hissəsində c xüsusi çəkisi göstəricisi ilə qənaətin milli gəlirin qalan hissəsində s xüsusi çəkisi göstəricisinin cəbri cəmi daim vahidə bərabərdir, yəni:

$(c + s) = 1$, (11).

Göstərilənlə yanaşı, $İ_M$ istehlak və $Q_M$ milli qənaət funksiyaları arasındakı əlaqə aşağıdakı kimi müəyyən edilmişdir [8].

(10) asılılığında $Q_0$ həddi, cari gəlirlər $İ_M$ istehlak xərclərini ödəmədikdə, qənaət olunmuş gəlirlərin bir qisminin, cari dövrdə istehlaka yönəldilən hissəsini ifadə edir [8]. Belə ki, istehlak və qənaət funksiyalarının qiymətləndirilməsinin tədqiqatları göstərir ki, $Q_M$ milli qənaət:

$$Q_M = (G_M - V - İ_M) = (G_M^Q - İ_M) = G_M^Q - (İ_0 + c \cdot G_M^Q) =$$
$$= - İ_0 + G_M^Q - c \cdot G_M^Q = - İ_0 + (1 - c) \cdot G_M^Q = - İ_0 + s \cdot G_M^Q .$$

$Q_M = - İ_0 + s \cdot G_M^Q$, (12)

funksional asılılıqla ifadə olunur [9].

Alınmış (10) və (12) funksiyalarından göründüyü kimi, milli qənaətinin $Q_M$ funksiyasının $Q_0$ göstəricisi, $İ_M$ milli istehlak funksiyasının (-İ0) göstəricisi ilə əvəz olunur. Alınmış $Q_0$ = (-$\tilde{I}_0$) göstəricilərinin bərabərliyi şərtindən, analoji olaraq Ĩ0 = (- Q0) göstəricilərinin bərabərliyi halı yaranır. Bərabərlikdəki (-) işarəsi iqtisad balansı mahiyyətini daşıyır.

Belə olan halda milli istehlakın $İ_M$ funksiyası və milli qənaətin $Q_M$ funksiyası

$Q_M = - İ_0 + s \cdot G_M^Q$, (12)

$İ_M = Q_0 + c \cdot G_M^Q$, (13).

asılılıqları ilə ifadə olunurlar. Alınmış (13) asılılığı onu ifadə edir ki, tədqiqat dövründə qalan milli $G_M^Q$ gəlirlərin hər bir vahid artımı, $İ_M$ istehlak xərclərini c qədər artırır. Həmçinin, cari gəlirlər istehlak xərclərini ödəmədikdə, gəlirlərin keçmiş dövrdə qənaətlərinin $Q_0$ = $İ_0$ qismini istehlak xərclərinin ödənilməsinə yönəldilir.

Göstərilənlərlə yanaşı, alınmış (12) asılılığı onu ifadə edir ki, tədqiqat dövründə qalan milli $G_M^Q$

gəlirlərin hər bir vahid artımı qənaət olunan vəsaitləri s qədər artırır. Həmçinin, cari gəlirlər istehlak xərclərini ödəmədikdə, gəlirlərin keçmiş dövrdə qənaətlərinin $Q_0 = - İ_0$ qismini istehlak xərclərinin ödənilməsinə yönəldilir.

**7. Milli təsərrüfatin fəaliyyətində yaranan investisiya potensialı.** Milli təsərrüfat sisteminin fəaliyyətində ölkədə ümumi milli gəlirlərdən qənaət olunmuş vəsaitlər, ölkə iqtisadiyyatının inkişafını təmin edə bilən $İ^P$ investisiya potensialını əsasını təşkil edir.

Göstərilənlə yanaşı, hesab edirik ki, milli təsərrüfat sisteminin fəaliyyətində ölkənin iqtisadi inkişafını təmin edə bilə $İ^P$ investisiya potensialını, ümumi milli $G_M$ gəlirlərin qənaət olunan $Q_M$ hissəsi ilə yanaşı, milli təsərrüfatda məhsulların istehsalı prosesində istifadə olunan (istehlak olunan) əsas fondların, hökumət tərəfindən təyin edilmiş amortizasiya normaları ilə hesablanmış və yaranmış ilkin makroiqtisadi G gəlirlərdən çıxılaraq mülkiyyətçilərə qaytarılan $A_F$ vəsaitlər də daxil edilməlidirlər, yəni:

$İ^P = Q_M + A_F$, (14).

Beləliklə, hesab edirik ki, bizim tərəfimizdən tərtib edilmiş metodologiya əsasında ölkənin milli təsərrüfatı sisteminin fəaliyyətinin tədqiqatlarını aparmaqla ölkənin milli təsərrüfatının "kasıbçılıq çevrəsi"ndə təaliyyət göstərib göstərməməsini müəyyən etmək olar.

**II. Azəbaycanın milli təsərrüfatının 2015-2021-ci illərdə "kasıbçılıq çevrəsi"ində fəaliyyətinin tədqiqatlarının nəticələri**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları əsasında [8; 9; 10] 2015-2021-ci illərdə milli təsərrüfatın "kasıbçılıq çevrəsi"ndə fəaliyyəti ilə bağlı aparılmış tədqiqatlarla aşağıdakı nəticələr alınmışdır.

**1.** İstehsalatın miqyasının genişlənməsinə stimulun səviyyəsinin qiymətləndirilməsi ilə bağlı aparılmış tədqiqatlar göstərmişdir ki, hər bir manat əsas fondlara düşən mənfəət orta hesabla 0,23 manat olmaqla aşağı səviyyəli olmuş, hər il

$\xi = -0{,}043 \cdot t + 1{,}069$, (15)

xətti tənliyinə uyğun olaraq, hər il orta hesabla (-4,3)% azalmışdır. Bu səbəbdən investorlar yeni istehsal sahələrinin yaranmasında, istehsalatın miqyasının genişlənməsində əsas fondlara investisiya qoyuluşlarına maraqları olmamışdır.

**2.** Yaranmş gəlirlərin səviyyələrinin qiymətləndirilməsi ilə bağlı aparılmış tədqiqatlar göstərmişdir ki, hər nəfərə düşən nominal və real gəlirlər aşağı səviyyədə olmuş, əhalinin minimum yaşayış səviyyəsini təmin etməmişdir.

Hesablamalar göstərmişdir ki, 2015-2021-ci illərdə ölkədə hər nəfərə düşən orta aylıq real gəlirlərin bir ayda yaşayış üçün tələb olunan mimimum məbləğin təminatı

$\theta = -0{,}016 \cdot t + 0{,}743$, (16)

xətti tənliyinə uyğun olaraq, hır il orta hesabla (-1,6)% azalmışdır.

**3**. Qiymətlərin spekulyativ (süni) artımlarının qiymətləndirilməsinin tədqiqatları göstərmişdir ki, 2015-2021-ci illərdə inflyasiya indeksinin $\Delta İ_F$ dəyişməsinin məhsul və xidmətlərin ümumi buraxılışının $\Delta Y$, bütün pul-əmtəə kanallarında pul kütləsinin $\Delta M_3$ dəyişmələrindən asılılığı ilə yanaşı, məhsul və xidmətlərin qiymətlərinin spekulyativ suni $\Delta S_A$ artımlarından dəyişməsi

$1{,}000 \cdot \Delta İ_F = 0{,}949 \cdot \Delta S_A + 0{,}385 \cdot \Delta Y + (-0{,}334) \cdot \Delta M_3$ , (17)

xətti struktur eyniliyi ilə ifadə olunur. Eynilik onu ifadə edir ki, bütün pul-əmtəə kanallarında pul kütləsinin bir vahid $\Delta M_3$ dəyişməsi infilyasiyanın $\Delta İ_F$ indkesini (-0,334) vahid dəyişmiş, məhsulların ümumi buraxılışının bir vahid $\Delta Y$ dəyişməsi infilyasiyanın $\Delta İ_F$ indkesini 0,385 vahid dəyişmişdir. Göstərilənlərlə yanaşı, ümumi məhsul buraxılışı və bütün pul əmtəə kanallarında mövcud olan pul kütləsi ilə əlaqəsi olmayan spekulyativ süni artımı ifadə edən $\Delta S_A$ həddinin bir vahid dəyişməsi inflyasiyanın $\Delta İ_F$ indkesini 0,949 vahid dəyişmişdir.

Beləliklə, (17) xətti struktur eynilindən göründüyü kimi, 2015-2021-ci illərdə istehlak bazarında məhsul və xidmətlərin qiymətlərinin 94,9% artımı, qiymətlərin spekulyativ süni artımları hesabına baş vermişdir.

**4.** Hər nəfərə düşən orta aylıq real gəlirləri aşağı səviyyədə olmuş, bir ayda yaşayış üçün tələb olunan mimimum istehlak xərclərini təmin etməmişdir.

Azərbaycanın DSK-nin məlumatları əsasında aparılmış hesablamalar göstərmişdir ki, 2021-ci ildə

faktiki qiymətlərdə $İ_M$ istehlak xərcləri 2015-ci ilə nisbətən 2,2 dəfə artmışdır. Müəyyən edilmişdir ki, 2015-2021-ci illərdə $İ_M$ istehlak xərcləri

$$\tilde{ı} = 0{,}134 \cdot t + 1{,}011, \quad (18)$$

xətti tənliyinə uyğun olaraq hər il orta hesabla 13,4% artmışdır.

Göstərilənlə yanaşı, hesablamalar göstərmişdir ki, tədqiq olunan 2015-2021-ci illərdə $İ_M$ istehlak xərcləri

$$İ_M = -\,0{,}992 + 0{,}797 \cdot G_M^Q, \quad (19)$$

funksional asılılıqla ifadə olunur. Asılılıqda: c = 0,797 həddi tədqiq olunan dövrdə istehlak xərclərinin gəlirlərin qalan hissəsində xüsusi çəkisini ifadə edir. Asılılıq onu ifadə edir ki, ümumi gəlirlərin qalan $G_M^Q$ qismi 1,0% dəyişdikdə, istehlak xərclərinin qalan gəlirlərdə xüsusi şəkisi 0,8% dəyişir.

Müəyyən edilmişdir ki, 2015-2021-ci illərdə ölkədə əhalinin istehlak funksiyasının dəyişməsi

$$\Delta İ_M = [0{,}231(Q_0) + (1{,}000 \cdot \Delta G_M^{Q}{}_1) \cdot t - 0{,}263(Q_{(t-1)})], \quad (20)$$

asılılığı iləifadə olunur. Asılılıq onu ifadə edir ki, tədqiqat dövründə əhali orta hesabla gəlirlərin hər bir mlyard manat $\Delta G_M^{Q}{}_1$ artımlarının hamısını istehlak xərclərinin artımına yönəltməklə yanaşı, keçmiş dövr qənaətlərdən istehlak krediti olaraq 0,231($Q_0$) mlrd.manat istehlak xərclərinin ödənilməsinə cəlb etmişdir. Göstərilənlərlə yanaşı, cari $G_M^Q$ gəlirlərindən orta hesabla 0,263($Q_{(t-0)}$) mlrd.manat keçmiş dövrdə istifadə olunmuş istehlak kreditlərini %-lərlə qaytarmışdır.

**5.** 2015-2021-ci illərdə ölkədə yaranmış ümumi milli $G_M$ gəlirlərin qənaət olunan hissəsi, əsas etibarı ilə əhali tərəfindən istehlak xərclərinin ödənilməsinə yönəldildiyindən, ümumi gəlirlərin qənaət olunan hissəsinin səviyyəsi yüksək olmamaışdır.

Tədqiqatlarla müəyyən edilmişdir ki, tədqiqat dövründə milli təsərrüfatın fəaliyyətində yaranmış qənaət dəyişməsi funksiyası

$$\Delta Q_M = [-0{,}231(İ_0) + (0) \cdot \Delta G_M^{Q}{}_1) + 0{,}263(İ_{(t-1)})], \quad (21)$$

xətti asılılıqla ifadə olunur. Funksional asılılıq onu ifadə edir ki, tədqiqat dövründə istehlaka meyillikik $s$ = 1,0 olduğundan, qənaətə meyillik həddi

$$s = (1 - c) = 0$$

ilə ifadə olunur. Bu hal onuifadə edir ki, tədqiqat dövründə ümumi gəlirlərin qalan qisminin $\Delta G_M^Q$ artımları tamailə istehlak xərclərinin ödənilməsinə yönəldiyindən, gəlirlərin $\Delta G_M^Q$ artımları qənaət olunmamışdır.

**6.** Müəyyən edilmişdir ki, milli təsərrüfatda yaranmış $İ^P$ investisiya potensialı aşağə səviyyədə olmuş, tədqiqat dövründə bütün maliyyə mənbələrindən milli iqtisadiyyta yönəldilmiş İ investisiya qoyuluşlarında $İ^P$ investisiya potensialının xüsusi çəki indeksi orta hesabla 0,529 və ya 52,9%-ini təşkil etmişdir.

**7.** İnvestisiya qoyuluşlarınından alınan mənfəət normasının səviyyəsi yüksək olmamışdır. Hesablamalr göstərmişdir ki, təsərrüfat sahələrinə yönəldilmiş investisiyaların $\Delta İ^T$ dəyişmələrinin təsərrüfat sahələrində yaranan mənfəətin $\Delta P^T$ dəyişmələrinə təsiri

$$\Delta P^T = 0{,}287 \cdot \Delta İ^T + 3{,}784, \quad (22)$$

xətti struktur eyniliyi ilə ifadə olunur. Eynilik onu ifadə edir ki, 2015-2021-ci illərdə milli təsərrüfat sahələrinə yönəldilmiş investisiyaların hər 1,000 mlrd.manat artımı, milli təsərrüfatın fəaliyyətində mənfəətin 0,287 mlrd.manat və ya %-lə ifadədə, investisiyaların hər 100,0% artımı, mənfəəti cəmi 28,7% artırmışdır.

Beləliklə, yuxarıda göstərilmiş əsaslarda hesab edirik ki, Azərbaycanın milli təsərrüfatı sistemi 2015-2021-ci illər dövründə "kasıbçılıq çevrəsi"ndə fəaliyyət göstərmişdir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Əyyubov M.R. Azərdaycanın iqtisadiyyatı sisteminin silsiləli fəaliyyəti və gələcək dövrün proqnozlaşdırılması / Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya. İqtisadi və beynəlxalq münasibətlər. II beynəlxalq konfrans. Qafqaz universiteti. Bakı may 2007 il. II kitab. səh.693-701.
2. Əyyubov M.R. Azərbaycan iqtisadiyyatının silsiləli fəaliyyətinin xüsusiyyətləri / Azərbaycan Milli Elimlər Akademiyasının Xəbərləri. İqtisadiyyat seriyası, № 3, 2013-ci il. İSBN-0321-1630, səh.11-22.

3. Нуреев Р. Теория развития: Кейнсианские модели становления рыночной экономики./Научно-практический рецензируемый журнал «Вопросы экономики»,, №4, 2000. səh.137-157.
4. Эйюбов М.Р. ТНК и Социально-экономическое значение их присутствия в Азербайджане /Труды международной научно-практической конференции "Глобализация экономики, региональная интеграция, влияния этих процессов на трудящихся государств-участников СНГ". Москва, 7-8 Февраля 2002 г. Профиздат, Москва – 2002. стр. 64-72. İSBN 5-255-04111-7.
5. Nurkse R. Problems of Capital Formation in Underdeveloped Countries. Pp. vii, 163. New York: Oxford University Press, 1953.pp. səh.137-157. URL: https://journals.sagepub.com.
6. Менкью Н.Г. Макроэкономика. Пер. с англ.- М.: Изл-во МГУ, 1994. – 736 с. İSBN 5-211-03213-6.
7. 7, Вечганов Г.С.,Вечганова Г.Р./ Экономические циклы. Макроэкономика.– СПб.: Питер, 2002. – 432 с.: ил. – (Серия «Учевники для вузов»). səh.237-248. İSBN 5-94723-209-X.
8. Экономическая теория. Учебник. Изд. испр. и доп. / Под общ.ред. акад. В.И.Видяпина, Ф.И.Добрынина, Г.П.Журавлевой, Л.С.Тарасевича. М.: ИНФРА-М, 2007. 672 с. səh. 417-422.
9. Экономическая теория. Учебник. Изд. испр. и доп. / Под общ.ред. акад. В.И.Видяпина, Ф.И.Добрынина, Г.П.Журавлевой, Л.С.Тарасевича. – М.: ИНФРА-М, 2007. 672 с. səh. 419.
10. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri: 2017; 2019; 2023 / Statistik toplu, rəsmi nəşr, cəd. 14.5; 15.4; 15.7. https://www.stat.gov.az/ menu/6/ statistical_ year books/pdf
11. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın milli hesabları: 2018; 2020; 2023 / Statistik toplu, rəsmi nəşr, cəd.12;13; 8;9. https://www. stat.gov.az/menu/6/statistical_ yearbooks /source/system_nat_accounts_2024.pdf
12. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın kənd təsərrüfatı 2024, / Statistik toplu, rəsmi nəşr, cəd.1.1. https://www.stat.gov.az /menu/6/statistical_yearbooks/ source/agriculture_ 2024.pdf


# Методология исследования функционирования национального хозяйства страны в «круге бедности»


**Мазаддин Эйюбов**
Институт экономики Министерства науки и образования Азербайджанской Республики,
Электронная почта: mazaddin.eyyubov@gmail.com
https://orcid.org/0000-0002-2255-1706



**Резюме:** Поскольку основу государственного устройства страны составляет национальная хозяйство страны, то экономические угрозы государственному устройству формируются тогда, когда национальная хозяйства страны начинает функционировать в «круге бедности».

Для выявления экономических угроз, которые могут возникнуть государственному устройству страны и разработки превентивных мер, в первую очередь необходимо определить возникновение «круга бедности» в деятельности национального хозяйства страны.

В статье изложена методология исследования возникновения «круга бедности» в деятельности нацоинального хозяйство страны на этвпе снижения темпов развития и застоя.

Предложена методика (алгоритм) оценки критериев функционирования национального хозяйства страны в «круге бедности».

**Методология:** была разработана методология исследования и методы оценки с использованием системного подхода, сравнительного анализа и методов экономико-математического анализа.



**Ключевые слова**: систеьа национального хозяйство страны, циклическая деятельность, государственное устройство, экономические угрозы, методика расчета.

DOI: https://doi.org/10.36719/2707-9317/05/122-127

# Improvement of the financial mechanism of social protection of the population

**Gunel Hasanova**
Teacher, Azerbaijan University of Architecture and Construction
ORCİD 0000-0002-86200-163

**Abstract**: Social protection systems encompass the financial and social support mechanisms implemented by the state to ensure the economic and social welfare of society. This system provides solid social security in situations such as unemployment, illness, reaching pension age, social assistance, and other needs, ensuring social equality. Moreover, the effectiveness of the financial mechanism of social protection is of great importance for the welfare and economic stability of society. This article discusses the main issues related to improving the financial mechanism of social security for the population, and also provides recommendations for the development of these mechanisms.

**Key words:** social protection systems,social benefits,tax reforms,social insurance,social assistance,pension system ,digital platforms.

# Əhalinin sosial müdafiəsinin maliyyə mexanizminin təkmilləşdirilməsi

**Günel Həsənova**
Müəllim, Azərbaycan Memarlıq və İnşaat Universiteti
gunel_ns@mail.ru
ORCİD 0000-0002-86200-163

**Xülasə:** Sosial müdafiə sistemləri, cəmiyyətin iqtisadi və sosial rifahını təmin etmək məqsədilə dövlət tərəfindən tətbiq olunan maliyyə və sosial dəstək mexanizmlərini əhatə edir. Bu sistem, əhalinin işsizlik, xəstəlik, pensiya yaşına çatma, sosial yardımlar və digər ehtiyaclar kimi vəziyyətlərdə möhkəm bir sosial təminat təklif etməklə, sosial bərabərliyi təmin edir. Bununla yanaşı, sosial müdafiənin maliyyə mexanizminin effektivliyi cəmiyyətin rifahı və iqtisadi sabitliyi üçün böyük əhəmiyyət kəsb edir. Bu məqalədə əhalinin sosial təminatının maliyyə mexanizmini yaxşılaşdırmaqla bağlı əsas problemlər müzakirə olunmuş və bu mexanizmlərin inkişafı üçün tövsiyələr irəli sürülmüşdür.

**Açar sözlər:** sosial müdafiə sistemləri, sosial təminatlar, vergi islahatları, sosial sığorta, sosial yardımlar, pensiya sistemi, rəqəmsal platformalar.

**Giriş.** Sosial müdafiə – layiqli həyat səviyyəsinin təmin olunmasına və sosial risklərin minimallaşdırılmasına yönəlmiş tədbirlər kompleksidir. Azərbaycanda bu sistem aztəminatlı ailələr, pensiyaçılar, əlillər və digər həssas qrupların dəstəklənməsinə yönəlmiş müxtəlif mexanizmləri əhatə edir. Son illərdə dövlətin sosial siyasətə diqqəti əhəmiyyətli dərəcədə artmış və bu da sosial müdafiə sisteminin modernləşdirilməsinə gətirib çıxarmışdır. Sosial müdafiənin inkişafında ən vacib məqamlardan biri sosial cəhətdən həssas qrupların həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmiş kompleks proqramların yaradılmasıdır. Şəffaflığı artırmaq və vətəndaşların sosial xidmətlərə çıxışını asanlaşdırmaq üçün yeni texnologiyalar tətbiq edilir. Bundan əlavə, hökumət sosial siyasət sahəsində qabaqcıl təcrübələri tətbiq etmək üçün digər ölkələrin təcrübəsini fəal şəkildə öyrənir. Digər əsas istiqamət isə sosial proqramların həyata keçirilməsinə cavabdeh olan dövlət qurumları arasında koordinasiyanın təkmilləşdirilməsidir. Bu, funksiyaların təkrarlanmasını minimuma endirməyə, büdcə vəsaitlərinin səmərəli istifadəsini artırmağa və əhalinin daha hədəfli dəstək almasını təmin etməyə imkan yaradır. Sosial müdafiə mexanizmi, dövlətin cəmiyyətə təqdim etdiyi sosial xidmətlərin və yardımların maliyyə əsaslarını təşkil edir. Bu mexanizm, işsizlikdən sığorta, təqaüd təminatı, sosial yardımlar, sağlamlıq xidmətləri və digər sosial təminatlar kimi sahələri əhatə edir. Sosial müdafiə sistemi, əhalinin həyat səviyyəsini yaxşılaşdırmağa, sosial ədaləti qorumağa və iqtisadi çətinliklərdən müdafiə etməyə yönəlib. Onun effektivliyi, yalnız sosial problemləri həll etməklə kifayətlənməyib, həm də iqtisadi sabitliyin və cəmiyyətin inkişafının təməlini qoyur.

Lakin sosial müdafiə mexanizminin fəaliyyətini davamlı və səmərəli şəkildə təmin etmək üçün möhkəm bir maliyyə əsasının olması vacibdir. Bu səbəbdən, sosial müdafiə xidmətləri üçün maliyyə mənbələrinin düzgün idarə olunması və uyğun maliyyə strategiyalarının hazırlanması tələb olunur.

Sosial müdafiə sistemlərinin maliyyə mexanizmi bir sıra ciddi problemlərlə üzləşə bilər. Keçid dövrü ölkələrində bu çətinliklər daha da dərinləşə bilər. Əsas problemlər bunlardır:

1. **Vergi Sistemi və Balanssız Maliyyə Mənbələri.**

Sosial müdafiənin maliyyələşdirilməsi üçün ən mühüm mənbə vergi gəlirləridir. Lakin, vergi yükünün balanssız olması, qeyri-rəsmi sektorun yüksək olması və vergi ödəyicilərinin sayının məhdud olması, sosial müdafiə proqramlarının maliyyələşdirilməsində ciddi çətinliklər yaradır. Belə hallarda dövlət, sosial yardımların həyata keçirilməsi üçün yetərli vəsait əldə edə bilməz və bu da proqramların keyfiyyətini azaldır.

2.**Sosial Sığorta Fondu və Şəffaflıq Problemləri.**

Sosial sığorta fondlarının idarə edilməsi və bu fondların vəsaitlərinin düzgün istifadə olunması vacibdir. Lakin, bəzi ölkələrdə bu fondların idarə edilməsi qeyri-şəffaf olur, bu da onların

effektivliyinə mənfi təsir göstərir. Şəffaflığın olmaması, fondların zəif idarə edilməsi və yüksək bürokratik maneələr, sosial sığorta sisteminin səmərəliliyini azaldır.

3. **Yaşlanma və Əhali Strukturu**

Əhalinin yaşlanması, sosial müdafiə sistemlərinin maliyyələşdirilməsi məsələsini çətinləşdirir. Yaşlı əhalinin sayının artması, pensiya sistemlərini daha çox yükləyir və bu da sosial müdafiə proqramlarının maliyyələşdirilməsini çətinləşdirir. Pensiya təminatlarının düzgün şəkildə həyata keçirilməsi üçün əlavə resurslar tələb olunur.

4. **İqtisadi Böhran və Stabilizasiya Çətinlikləri**

İqtisadi böhranlar dövründə dövlətin sosial müdafiə proqramlarını maliyyələşdirmək üçün kifayət qədər vəsait əldə etməsi çətinləşir. İqtisadi böhranlar nəticəsində gəlir vergilərinin azalması və işsizlik səviyyəsinin artması, sosial müdafiə xidmətlərinin məhdudlaşdırılmasına səbəb ola bilər. Bu isə sosial narazılıqlara və əhalinin həyat səviyyəsinin pisləşməsinə gətirib çıxara bilər.

Sosial müdafiə mexanizminin təkmilləşdirilməsi üçün bir neçə mühüm sahədə islahatlar həyata keçirilməlidir:

1. **Vergi Sistemi və Yeni Mənbələrin Axtarışı**

Vergi sistemi hər bir ölkənin iqtisadiyyatının əsas dayaqlarından biridir və dövlətin sosial, iqtisadi və infrastruktur layihələrini maliyyələşdirmək üçün vacib bir alətdir. Müasir dövrdə vergi sisteminin səmərəliliyi dövlət büdcəsinin gəlirlərinin artırılmasında, biznes mühitinin inkişafında və vətəndaşların rifahının yüksəldilməsində mühüm rol oynayır. Bu baxımdan, vergi sisteminin təkmilləşdirilməsi və yeni vergi mənbələrinin axtarışı iqtisadi dayanıqlılığı təmin etmək üçün strateji vəzifə kimi çıxış edir.

Sosial müdafiə sisteminin dayanıqlı maliyyələşdirilməsi üçün vergi siyasətində islahatlar aparılmalıdır. Vergi sistemi daha şəffaf və ədalətli olmalı, vergi ödəyicilərinin sayı artırılmalıdır. Qeyri-rəsmi sektordan gələn gəlirlərin formal sektora daxil edilməsi üçün müxtəlif təşviq mexanizmləri tətbiq edilməlidir. Həmçinin, yüksək gəlirli şəxslərdən və şirkətlərdən əlavə vergi ödənişləri alınması sosial müdafiə proqramlarına daha çox vəsait cəlb edilməsi üçün mühüm bir addım ola bilər.

2. **Sosial Sığorta Sisteminin Modernləşdirilməsi**

Sosial sığorta sistemi vətəndaşların iqtisadi və sosial rifahını qorumaq üçün vacib bir mexanizmdir. Bu sistem insanların qocalıq, xəstəlik, əmək qabiliyyətinin itirilməsi və işsizlik kimi risklərə qarşı müdafiəsini təmin edir. Müasir dövrdə sosial sığorta sisteminin modernləşdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Yeni texnologiyaların tətbiqi, rəqəmsallaşma, maliyyə dayanıqlığının gücləndirilməsi və şəffaflığın artırılması sosial sığorta sisteminin səmərəliliyini artırmaq məqsədi daşıyır.

Sosial sığorta sisteminin idarə olunmasında şəffaflığın artırılması və səmərəliliyinin yaxşılaşdırılması məqsədilə yeni texnoloji alətlərdən istifadə edilməlidir. Elektron sistemlər vasitəsilə sığorta fondlarının gəlirləri və xərcləri barədə məlumatlar açıq şəkildə əhaliyə təqdim olunmalıdır. Bu yanaşma yalnız idarəetmə sahəsində şəffaflıq yaratmaqla qalmır, həm də vəsaitlərin düzgün istifadəsini təmin edir.

3. **Yaşlı Əhalinin Təminatı və Pensiya Sistemi**

Yaşlı əhalinin sosial təminatı hər bir ölkənin sosial siyasətinin əsas istiqamətlərindən biridir. Pensiya sistemi isə bu təminatın əsas mexanizmlərindən biridir və yaşlı vətəndaşların layiqli həyat səviyyəsini qorumaq üçün vacib rol oynayır. Müasir dövrdə demoqrafik dəyişikliklər, iqtisadi çağırışlar və sosial rifahın artırılması ehtiyacı pensiya sisteminin davamlı şəkildə inkişaf etdirilməsini tələb edir.

Yaşlanma problemini həll etmək üçün pensiya sistemlərinin yenidən qurulması vacibdir. Pensiya təminatlarının gücləndirilməsi, yaşlı əhalinin sosial müdafiəsinin artırılması üçün xüsusi sosial proqramların hazırlanması önəmlidir. Bu sistemin daha da təkmilləşdirilməsi, pensiya sığortasının gəlir təminatının artırılması və gənc əhalinin bu sistemə daxil olmasının təşviq edilməsi vacibdir.

4.**Texnoloji İnnovasiyalar və Rəqəmsal Platformalar**

Müasir dövrdə texnoloji innovasiyalar və rəqəmsal platformalar cəmiyyətin bütün sahələrinə təsir edərək iqtisadi inkişafı sürətləndirir, biznes mühitini dəyişdirir və insanların gündəlik həyatını asanlaşdırır. Rəqəmsal transformasiya yeni imkanlar yaradır və həm dövlət, həm də özəl sektor üçün effektivliyi artırır.

Sosial müdafiə xidmətlərinin daha sürətli və effektiv təmin edilməsi üçün informasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə edilməlidir. Sosial yardımların, pensiyaların və digər sosial təminatların rəqəmsal platformalar vasitəsilə verilməsi, həmçinin müraciətlərin onlayn şəkildə qəbul edilməsi, prosesi sürətləndirər və resurslardan daha səmərəli istifadə etməyə imkan verər.

**5.Əhali ilə Maarifləndirmə və İştirakın Artırılması**

Əhali ilə maarifləndirmə və iştirakın artırılması, cəmiyyətin inkişafında və sosial sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu proses, xüsusilə cəmiyyətin müxtəlif təbəqələrinə məlumat vermək, onların şüurunu artırmaq və daha fəal iştirak etmələrini təşviq etmək məqsədini güdür.

Sosial müdafiə sistemində əhalinin daha aktiv iştirakını təmin etmək və sistemin faydaları barədə məlumatlandırma işlərini gücləndirmək vacibdir. Sosial sığorta haqqı ödəyicilərinin sayı artarsa, maliyyə resursları daha çox olar. Həmçinin, əhalinin sosial müdafiə mexanizminin mahiyyəti və əhəmiyyəti barədə maarifləndirilməsi daha yaxşı nəticələrə yol aça bilər.

Azərbaycan Respublikasında sosial müdafiə sahəsindəki qanunvericilik, əhalinin sosial təminatını təmin edən əsas hüquqi çərçivəni təşkil edir. Bu qanunvericilik, həmçinin sosial sığorta, pensiya təminatı, işsizlik və digər sosial müavinətlərin verilməsinitənzimləyir.

Azərbaycanın sosial müdafiə sistemində əhəmiyyətli hüquqi sənədlərdir və sosial müdafiə siyasətinin təməlini təşkil edir.

**“Sosial Sığorta haqqında” qanun (2001ci il):** Bu qanun, sosial sığorta sisteminin əsaslarını müəyyən edir və bu sahədəki hüquqi münasibətləri tənzimləyir. Sosial sığorta vasitəsilə işçilər və onların ailələri müxtəlif sosial risklərdən qorunurlar. **“Pensiya təminatı haqqında” qanun (2006 ci il):** Bu qanun, yaşlı və əlil vətəndaşlar üçün pensiya təminatını təmin edir. Pensiya yaşı, pensiya məbləği və pensiya təminatının şərtləri bu qanunla müəyyən edilir.

**“Əmək haqqı və işsizlik müavinətləri haqqında” qanun (2014 ci il):** Bu qanun, işsizlik müavinətləri və sosial yardımların verilməsi ilə bağlı müddəaları ehtiva edir.

**Cədvəl 1.**

**2019-2024-cü illər ərzində həyata keçirilən əsas islahatlar və bu islahatların təsirləri**

| **İl** | **Sosial Müdafiə Mexanizminin Təkmilləşdirilməsi üzrə Əsas Addımlar** | **Təsirlər** |
|---|---|---|
| **2019** | Vergi sisteminin şəffaflığının artırılması və qeyri-rəsmi sektordan gəlir axınının artırılması ilə bağlı tədbirlər. | Vergi gəlirlərinin artırılması və sosial müdafiə proqramlarının maliyyələşdirilməsinin möhkəmləndirilməsi. |
| **2020** | Sosial sığorta sisteminin rəqəmsallaşdırılması və elektron sistemlər vasitəsilə fondların izlənməsi. | Sığorta sisteminin şəffaflığının və səmərəliliyinin artırılması, vəsaitlərin düzgün istifadə edilməsi. |
| **2021** | Yaşlı əhalinin pensiya təminatlarının gücləndirilməsi üçün xüsusi sosial proqramların hazırlanması və həyata keçirilməsi. | Yaşlı əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya sisteminin dayanıqlılığının təmin edilməsi. |
| **2022** | Sosial müdafiə xidmətlərinin rəqəmsal platformalar vasitəsilə təkmilləşdirilməsi və müraciətlərin onlayn şəkildə qəbul edilməsi. | Əhali üçün daha sürətli və rahat sosial müdafiə xidmətlərinin göstərilməsi, resurslardan daha səmərəli istifadə. |
| **2023** | Vergi siyasətində islahatların davam etdirilməsi və yüksək gəlirli şəxslərdən əlavə vergi ödənişlərinin alınması ilə sosial müdafiə fondlarının artırılması. | Sosial müdafiə proqramlarının maliyyələşdirilməsi və daha geniş əhalinin bu xidmətlərdən faydalanması. |
| **2024** | Sosial müdafiə sistemində əhali ilə maarifləndirmə və iştirakın artırılması, ictimai şüurun gücləndirilməsi. | Sosial müdafiə haqqı ödəyicilərinin sayının artması və maliyyə resurslarının daha effektiv istifadəsi. |

İstinad: Cədvəl müəllifə məxsus

Cədvəlin məqsədi sosial müdafiə mexanizminin təkmilləşdirilməsi ilə bağlı konkret addımların zamanla necə inkişaf etdiyini göstərməkdir.

2019-2024-cü illər ərzində Azərbaycanda sosial müavinətlərin məbləği və əhatə dairəsi əhəmiyyətli dərəcədə artırılmışdır. Bu dövr ərzində minimum aylıq əmək haqqı və minimum pensiya məbləğləri dəfələrlə yüksəldilmişdir.

Sosial müavinətlərin artırılması:

-2019-cu il: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 fevral 2019-cu il tarixli Sərəncamına əsasən, 14 kateqoriya üzrə sosial müavinətlərin və 7 kateqoriya üzrə Prezident təqaüdlərinin orta hesabla 100% artırılması həyata keçirilmişdir. (istinad sosial.qov.az)

-2023-cü il: Sosial müavinətlər üzrə 24% artımla 999 milyon manat, Prezident təqaüdləri üzrə isə 20% artımla 647 milyon manat ödənilmişdir. (istinad sosial.qov.az)

-2024-cü il: Sosial müavinətlər üzrə 915 milyon manat ödənilmişdir. (istinad Fed.az)

**Nəticə:** Əhalinin sosial müdafiəsinin maliyyə mexanizminin təkmilləşdirilməsi çox vacib bir məsələdir, çünki bu mexanizm cəmiyyətin müxtəlif təbəqələrinə, xüsusilə də az təminatlı, yaşlı və əlil insanlara dəstək vermək məqsədi daşıyır. Bu sahənin təkmilləşdirilməsi həm iqtisadi inkişafı, həm də sosial ədaləti təmin etmək baxımından əhəmiyyətlidir. Əhalinin sosial müdafiəsinin maliyyə mexanizminin təkmilləşdirilməsi, yalnız sosial təminatların keyfiyyətini artırmaqla yanaşı, həm də iqtisadi sabitliyi və cəmiyyətin rifahını təmin etmək üçün əhəmiyyətlidir. Vergi islahatları və sosial sığorta sistemlərinin modernləşdirilməsi hər iki sahə, ölkənin iqtisadi inkişafı və sosial ədalətin təmin edilməsi baxımından çox mühüm addımlardır. Bu islahatlar, həm vergi yükünün ədalətli şəkildə paylanması, həm də sosial müdafiə mexanizmlərinin effektiv və əhatəli olması üçün vacibdir. Bu sahələrin modernləşdirilməsi cəmiyyətin geniş təbəqələrinə fayda verəcək və dövlətin iqtisadi gücünü artıracaqdır. Vergi islahatları, sosial sığorta sistemlərinin modernləşdirilməsi, texnoloji yeniliklər və şəffaflığın artırılması bu sahədəki inkişafı sürətləndirəcək və daha dayanıqlı sosial müdafiə mexanizmlərinin qurulmasına kömək edəcəkdir.

Azərbaycanda sosial müdafiə sisteminin inkişafı vətəndaşların daha səmərəli dəstəklənməsi mexanizminin yaradılmasına, yoxsulluğun azaldılmasına və həyat keyfiyyətinin yüksəldilməsinə yönəlib. Gələcəkdə sosial inteqrasiya tədbirlərinin gücləndirilməsi və dəstək proqramlarının əhatə dairəsinin genişləndirilməsi planlaşdırılır. Beynəlxalq tərəfdaşlıqlar, innovativ texnologiyalar və sosial müdafiə sahəsində qlobal təcrübənin milli şərtlərə uyğunlaşdırılması mühüm rol oynayacaq. Dövlət sosial institutların inkişafına, kadrların ixtisas səviyyəsinin artırılmasına və qanunvericilik bazasının təkmilləşdirilməsinə investisiya qoymağa davam edəcək. Əsas istiqamətlərdən biri sosial proqramların monitorinq və qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi olacaq ki, bu da sosial müdafiə strategiyasının vaxtında düzəldilməsinə imkan yaradacaq. Nəticə etibarilə, sosial sistemin modernləşdirilməsi əhalinin rifah səviyyəsinin yüksəlməsini təmin edəcək və ölkədə sosial ədalət səviyyəsini artıracaq.

### İstifadə olunmuş ədəbiyyat / References


1. Əhmədov, F. Sosial müdafiə sisteminin maliyyələşdirilməsi və inkişafı. Bakı: Elm və Təhsil nəşriyyatı. (2016).
2. Mammadov, V.Sosial sığorta sistemlərinin optimallaşdırılması: Keçid dövrü. (2020). təcrübəsi. Bakı: İqtisadiyyat və Sosial İnkişaf Mərkəzi.
3. Piriyeva, S. Keçid dövrü ölkələrində sosial müdafiə və maliyyə mexanizmləri. Bakı: Qlobal Təhlükəsizlik və İnkişaf Nəşriyyatları. (2019).
4. Stiglitz, J. E. Globalization and its discontents. New York: W.W. Norton & Company. (2002).
5. Tuncer, M.. Vergi siyasəti və sosial müdafiə: Strateji yanaşmalar. İstanbul: Sosial Elmlər Nəşriyyatı. (2017)
6. Sosial.qov.az
7. United Nations Social protection systems and policies: A guide for developing countries. New York: United Nations Publications. (2018).

8. World Bank Social protection and poverty reduction: Strengthening social safety nets. Washington D.C.: World Bank. (2021).
9. Zeynalov, E. Sosial siyasətin maliyyə mexanizmləri və iqtisadi inkişaf. Bakı: Elmi İnkişaf Nəşriyyatı. (2015).

## Совершенствование финансового механизма социального обеспечения населения

**Гюнель Гасанова**
Педагог, Азербайджанский Архитектурно-строительный Университет
ORCİD 0000-0002-86200-163

**Резюме:** Системы социального обеспечения охватывают финансовые и социальные механизмы поддержки, которые государство внедряет для обеспечения экономического и социального благосостояния общества. Эта система предоставляет надежное социальное обеспечение в таких ситуациях, как безработица, болезнь, достижение пенсионного возраста, социальная помощь и другие потребности, обеспечивая социальное равенство. Более того, эффективность финансового механизма социального обеспечения имеет большое значение для благосостояния и экономической стабильности общества. В этой статье обсуждены основные проблемы, связанные с улучшением финансового механизма социального обеспечения населения, а также предложены рекомендации по развитию этих механизмов.

**Ключевые слова:** социальные системы защиты, социальные пособия, налоговые реформы, социальное страхование, социальная помощь, пенсионная система, цифровые платформы.

DOI: https://doi.org/10.36719/2707-9317/05/128-135

# Importance of green finance in Azerbaijan's environmental and economic goals

**Kanish Qarayev**
Azerbaijan State University of Economics is a teacher of the Department of Economics and Management
Azerbaijan State University of Economics is a teacher of the International Doctorate and Master's Center, Lecturer
e-mail: kenishgarayev@gmail.com
0000-0003-3069-3912

**Abstract:** This article examines the development and importance of green finance mechanisms in Azerbaijan. Green finance is used in the country as an important tool for environmental protection, promotion of sustainable economy and efficient use of natural resources. Green financial instruments, including green bonds, green loans and renewable energy projects, are important steps to increase Azerbaijan's economic and environmental sustainability.

The article highlights Azerbaijan's participation in the field of green finance at the international level and its initiatives in this direction. At the same time, the difficulties encountered in this field and the importance of relevant reforms, financial instruments and international cooperation to overcome these difficulties are emphasized. Azerbaijan's strategic goals in the field of green finance will help the country's future development and increase its international reputation. In general, green finance is noted as the main factor that will accelerate the transition of the economy to a more sustainable and ecologically clean form in Azerbaijan.

**Key words:** green finance, green bonds, economy, ecology, alternative energy

**JEL: S01 UOT: 330.3**

# Azərbaycanın ekoloji və iqtisadi hədəflərində yaşıl maliyyənin əhəmiyyəti

**Kəniş Qarayev**
Azərbaycan Dövlət İqdisad Universiteti İqtisadiyyat və İşlətmə kafedrasının müəllimi
Azərbaycan Dövlət İqdisad Universiteti Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin müəllimi, Baş müəllim
e-mail: kenishgarayev@gmail.com
0000-0003-3069-3912

**Xülasə:** Bu məqalə Azərbaycanda yaşıl maliyyə mexanizmlərinin inkişafını və əhəmiyyətini araşdırır. Yaşıl maliyyə, ətraf mühitin qorunması, davamlı iqtisadiyyatın təşviqi və təbii ehtiyatların səmərəli istifadəsi üçün vacib bir vasitə olaraq ölkədə tətbiq edilir. Yaşıl maliyyə alətləri, o cümlədən yaşıl istiqrazlar, yaşıl kreditlər və bərpa olunan enerji layihələri, Azərbaycanın iqtisadi və ekoloji dayanıqlılığını artırmağa yönəlmiş mühüm addımlardır.

Məqalə, Azərbaycanın beynəlxalq səviyyədə yaşıl maliyyə sahəsindəki iştirakını və bu istiqamətdəki təşəbbüslərini də ön plana çıxarır. Eyni zamanda, bu sahədə qarşılaşılan çətinliklər və bu çətinliklərin aşılması üçün müvafiq islahatların, maliyyə alətlərinin və beynəlxalq əməkdaşlığın vacibliyi vurğulanır. Azərbaycanın yaşıl maliyyə sahəsindəki strateji hədəfləri, ölkənin gələcək inkişafına və beynəlxalq nüfuzunun artırılmasına kömək edəcəkdir. Ümumilikdə, yaşıl maliyyə Azərbaycanda iqtisadiyyatın daha dayanıqlı və ekoloji cəhətdən təmiz bir formaya keçidini sürətləndirəcək əsas amil kimi qeyd olunur.

**Açar sözlər:** yaşıl maliyyə, yaşıl istiqrazlar, iqtisadiyyat, ekalogiya, alternativ enerji

**JEL: S01 UOT: 330.3**

**Giriş**

Son onilliklərdə dünyada iqlim dəyişikliyi, ətraf mühitin çirklənməsi və təbii ehtiyatların tükənməsi bəşəriyyətin üzləşdiyi ən mühüm qlobal problemlərdən biri kimi gündəmə gəlib. Bu problemlər təkcə ətraf mühitlə məhdudlaşmayaraq, iqtisadiyyat, sosial rifah və cəmiyyətlərin gələcək inkişaf perspektivlərinə də təsir edir. Bu çətinliklər qarşısında iqtisadiyyatın davamlı inkişaf modelinə keçid zərurəti yaranıb. Belə ki, ənənəvi iqtisadi modellərin ətraf mühit üzərində yaratdığı təzyiqi azaltmaq üçün yeni və davamlı yanaşmalar tələb olunur. Bu çərçivədə yaşıl maliyyə anlayışı mühüm yer tutur. Yaşıl maliyyə, iqtisadi fəaliyyətlərin ekoloji davamlılığını təmin etmək məqsədilə maliyyə vəsaitlərinin yönləndirilməsi deməkdir. İqlim dəyişikliklərinə uyğunlaşma, karbon emissiyalarının azaldılması, bərpa olunan enerji layihələrinin dəstəklənməsi və ekoloji zərərsiz texnologiyaların tətbiqi yaşıl maliyyənin əsas məqsədləri arasında yer alır. İnkişaf etməkdə olan ölkələrdə, o cümlədən Azərbaycanda, bu yanaşma həm iqtisadiyyatın modernləşdirilməsi, həm də qlobal ekoloji hədəflərə uyğunlaşma baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan təbii ehtiyatlarla zəngin bir ölkə olmaqla yanaşı, iqlim dəyişikliyinin təsirlərinə həssas bir regionda yerləşir. Ölkənin enerji sektorunda bərpa olunan enerji mənbələrinə keçidə olan marağı, davamlı şəhərsalma təşəbbüsləri və ekoloji cəhətdən təmiz texnologiyalara yatırımlar yaşıl maliyyənin inkişafı üçün yeni imkanlar açır. Bununla yanaşı, Azərbaycanın beynəlxalq yaşıl maliyyə bazarlarına inteqrasiya potensialı da diqqət mərkəzindədir. Bu məqalə Azərbaycanda yaşıl maliyyənin əhəmiyyətini geniş təhlil etməyi, mövcud imkanları və problemləri araşdırmağı, eyni zamanda perspektivləri işıqlandırmağı hədəfləyir. Məqsəd, ölkənin davamlı inkişaf strategiyasını dəstəkləmək və yaşıl maliyyə vasitəsilə həm milli, həm də qlobal səviyyədə ətraf mühitin qorunmasına töhfə verməkdir.

**Ədəbiyyat İcmalı**

Yaşıl maiyyələşdirmə termini, təbiətə dost, ətraf mühitə faydalı və ya daha az zərərli məhsulların istifadəsini və layihələrin həyata keçirilməsini təmin etmək məqsədilə maliyyə qurumları tərəfindən uyğun imkanlar təqdim edilməsini ifadə edir. Bu yanaşma vasitəsilə həm

ekoloji problemlərin həlli istiqamətində addımlar atılır, həm də iqtisadi inkişaf davamlılıq prinsiplərinə uyğun şəkildə irəliləyir. Bu mexanizmin əsas mahiyyəti ondan ibarətdir ki, maliyyə təşkilatları aşağı faiz dərəcələri, minimal bank xərcləri, ekoloji təşkilatlara ianələr və digər təşviqedici vasitələrlə müştəriləri "yaşıl" maliyyə məhsullarından istifadə etməyə təşviq edirlər. Məsələn, bərpa olunan enerji mənbələri üçün kreditlər, ətraf mühitə minimal təsir göstərən texnologiyaların dəstəklənməsi və yaşıl infrastruktura yatırımlar bu tip təşəbbüslər arasında yer alır. Yaşıl maliyyələşdirmə yalnız maliyyə sektorunun inkişafına deyil, həm də cəmiyyətin ümumi rifahına xidmət edən çoxşaxəli bir yanaşmadır. Davamlı şəhərsalma, təmiz enerji istehsalı, karbon emissiyalarının azaldılması və ekoloji tarazlığın qorunması bu mexanizmin əsas məqsədləri arasındadır (Kuloğlu & Öncel, 2015).

İqlim dəyişikliyinin yaratdığı məcburiyyətlər və bu məsələlərə təcili müdaxilə zərurəti, həmçinin maliyyə bazarlarının gücü və investorların ekosistemin qorunması istiqamətində öhdəlikləri, inkişaf maliyyələşdirməsinin uğurlu olmasını təmin edən əsas amillərdən biridir. Davamlı inkişaf məqsədlərinə nail olmaq üçün bu istiqamətdə fəaliyyət göstərən milli və beynəlxalq təşkilatlar mühüm rol oynayır. Bu çərçivədə, yaşıl maliyyələşdirmə proqramlarının öncüsü olan qurumların tarixi inkişafını araşdırmaq, onların tətbiq etdiyi standartlar, hesabat mexanizmləri və ilklər vasitəsilə yaşıl maliyyələşdirmənin iqtisadi strukturlar üzərindəki təsirlərini qiymətləndirmək vacibdir (Şimşek & Tunalı, 2022).

Təbii ehtiyatların həddindən artıq və yanlış istifadəsi qlobal səviyyədə ciddi ekoloji pozuntulara səbəb olmuşdur. Xüsusilə son on ildə daha tez-tez baş verən meşə yanğınları, qasırğalar və daşqınlar kimi təbii fəlakətlər bu problemin nə qədər ciddi olduğunu göstərir. Bu cür fəlakətlərin azaldılması və uzunmüddətli davamlı iqtisadi inkişafın təmin edilməsi üçün ətraf mühitə dost investisiyalara ehtiyac vardır. Ətraf mühiti qorumaq, insanların rifahını və gələcəyini qorumaq deməkdir. Buna görə də davamlı inkişafın tətbiqi, ekoloji tarazlığın qorunması, enerji qənaəti, təmiz enerji mənbələri və yaşıl binalar kimi ətraf mühitə uyğun investisiyaların dəstəklənməsi vacibdir. Bu məqsədləri reallaşdırmaq üçün yaşıl maliyyə anlayışı ortaya çıxmışdır. Yaşıl maliyyə, həm daha ekoloji bir inkişafı, həm də davamlı iqtisadi inkişaf hədəflərini dəstəkləyən bir vasitədir (Çanakçıoğlu, 2023).

Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olmaq üçün yaşıl maliyyənin rolunu araşdırmağa yönəlmiş tədqiqat. Xüsusilə, ekoloji davamlılıq və iqtisadi dayanıqlılıq baxımından DİM-lərin reallaşdırılması ölkələr üçün ciddi problemlər yaradır. Sürətli sənayeləşmə və artan çirklənmə səviyyələri ekosistemlərin balansını pozaraq bu hədəflərə çatmağı çətinləşdirir. Bu çərçivədə, İndoneziyada kənd icmalarına yönəldilmiş Kənd Fondları vasitəsilə yaşıl maliyyələşmənin ekoloji və iqtisadi təsirlərini qiymətləndirmək əsas məqsəddir. Tədqiqat çərçivəsində sorğu anketi hazırlanmış və kənd fondlarının ekoloji davamlılıq və iqtisadi dayanıqlılığa töhfəsini ölçmək üçün empirik məlumatlar toplanmışdır. Beləliklə, bu araşdırma yaşıl maliyyənin DİM-lərə inteqrasiyasını və onun effektivliyini qiymətləndirmək baxımından əhəmiyyətlidir (Wang, , Zhao, Jiang & Li, 2022).

Bu araşdırma, Çində yaşıl maliyyənin inkişafı və onun qarşısında duran problemləri analiz edərək, siyasət tövsiyələri təqdim etməyi hədəfləyir. Tədqiqat çərçivəsində yaşıl maliyyə bazarının inkişaf dinamikası, dayanıqlı istiqrazların rolu, yaşıl maliyyənin diversifikasiyası və korporativ biznes modellərinin ekoloji dayanıqlılığa keçidi kimi aspektlər ətraflı şəkildə təhlil edilir. Bundan əlavə, yaşıl maliyyənin effektivliyini artırmaq üçün şəffaflıq və hesabatlılıq mexanizmlərinin gücləndirilməsi, taksonomiya standartlarının müəyyən edilməsi və uyğunlaşdırılması məsələləri də araşdırılır. Araşdırmanın nəticələri göstərir ki, Çində yaşıl maliyyənin inkişafı üçün tənzimləyici çərçivənin təkmilləşdirilməsi, bank sisteminin və istiqraz bazarının yaşıllaşdırılması, institusional investorların bu sahəyə cəlb edilməsi vacibdir. Sənəd, eyni zamanda, dövlət və özəl sektorun əməkdaşlığını gücləndirərək yaşıl maliyyə mexanizmlərinin daha effektiv icrası üçün konkret siyasət tədbirləri təklif edir. (Lee, 2020).

Fatih Demir Kurtca və Mehmet Uğurlu öz araştırmasında dövri iqtisadiyyat, məhdud təbii resursların səmərəli istifadəsini təşviq edərək tullantıları minimuma endirməyi və ekoloji dayanıqlılığı gücləndirməyi hədəfləyir. Bu model, məhsul və xidmətlərin istehsalında su və enerjiyə

qənaət etməklə yanaşı, təkrar emal olunmuş materiallardan istifadənin artırılmasını və atıq miqdarının azaldılmasını nəzərdə tutur. Finansal dayanıqlılıq isə uzunmüddətli iqtisadi sabitliyi qorumaq üçün maliyyə qərarlarında ekoloji və sosial məsuliyyətin nəzərə alınmasını təşviq edir. ESG kriteriyaları, yaşıl istiqrazlar və dayanıqlı investisiya fondları vasitəsilə ekoloji və sosial faydalı layihələrin maliyyələşdirilməsinə dəstək verir (Demir & Uğurlu).

Dilek Çil tərəfindən aparılan bu tədqiqat Türkiyədə maliyyə inkişafı ilə nəqliyyat sektorunun ətraf mühitə təsiri, xüsusilə də CO2 emissiyaları arasındakı uzunmüddətli əlaqəni müəyyən etməyə yönəlmişdir. Tədqiqat çərçivəsində 1985-2014-cü illəri əhatə edən məlumatlar Fourier ADL yanaşması ilə təhlil edilmiş və bu yanaşma vasitəsilə maliyyə inkişafı ilə nəqliyyat sektorundan qaynaqlanan CO2 emissiyaları arasında uzunmüddətli əlaqənin mövcudluğu proqnozlaşdırılmışdır. Bundan əlavə, FMOLS metodu tətbiq olunaraq maliyyə inkişafının nəqliyyat sektorundakı CO2 emissiyalarına təsirini müəyyən edən uzunmüddətli əmsallar təxmin edilmişdir. Fourier ADL kointeqrasiya testlərinin nəticələri göstərmişdir ki, dəyişənlər arasında uzunmüddətli əlaqə mövcuddur və bu əlaqə statistik cəhətdən əhəmiyyətlidir. Uzunmüddətli əmsalların qiymətləndirilməsi nəticəsində məlum olmuşdur ki, maliyyə inkişafı nəqliyyat sektorunda fəaliyyətlərin artmasına səbəb olmaqla atmosferə atılan CO2 miqdarını da artırır. Bununla yanaşı, əldə edilən nəticələr göstərir ki, maliyyə inkişafı bir tərəfdən iqtisadiyyatda canlanma yaratsa da, digər tərəfdən daşınma sektorunun ekoloji təsirlərini gücləndirərək ətraf mühitə mənfi təsir göstərir. Bu isə ekoloji siyasətlərin formalaşdırılmasında və maliyyə sektorunun davamlı inkişaf strategiyalarında ətraf mühit faktorlarının nəzərə alınmasının vacibliyini vurğulayır (Çil, 2023).

**Yaşıl Maliyyənin Mahiyyəti Və Əhəmiyyəti**

Sənaye inqilabından bəri maliyyə sektoru iqtisadi inkişafın əsas mənbəyi olmuşdur. İnsanlar uzun müddət ətraf mühit problemlərini görməzdən gəlsə də, son illərdə maliyyə sektoru yaşıl investisiyalara yönəlmiş və davamlı iqtisadi inkişafı dəstəkləməyə başlamışdır. Bu dövrdə yaşıl istiqrazlar, yaşıl ipotekalar, kommersiya binaları üçün yaşıl kreditlər və iqlim kredit kartları kimi maliyyə alətləri yaradılmışdır. Avstraliya bu sahədə ilk ekoloji əmanət təşəbbüsünü həyata keçirərək həm ətraf mühitə dost layihələri, həm də davamlı inkişafı dəstəkləmişdir. Yaşıl maliyyələşdirmə ətraf mühiti qorumaqla yanaşı, iqtisadiyyatın davamlılığına da töhfə verir və enerji səmərəliliyi, təmiz texnologiyalar kimi sahələrdə mühüm rol oynayır (HORASAN, 2022).

Yaşıl maliyyə, ətraf mühitin qorunması və dayanıqlı inkişafı dəstəkləyən maliyyə alətlərinin istifadəsini ifadə edir. Bu, təbii resursların qorunması, iqlim dəyişikliyi ilə mübarizə və təmiz enerji mənbələrinə keçid üçün vacib bir vasitədir. Yaşıl maliyyə, həm ətraf mühitin, həm də iqtisadiyyatın dayanıqlı inkişafını təmin etmək məqsədini güdür. Yaşıl maliyyənin əsas alətləri arasında yaşıl istiqrazlar, yaşıl kreditlər və bərpa olunan enerji layihələrinə investisiyalar yer alır. Bu alətlər, təmiz enerji və enerji səmərəliliyini artıran layihələrə maliyyə dəstəyi təmin edir.

Yaşıl maliyyənin əhəmiyyəti qlobal iqlim dəyişikliyi ilə mübarizədə, iqtisadiyyatın davamlı inkişafında və sosial rifahın artırılmasında böyük rol oynayır. Bu mexanizmlər, həm də yeni iş yerlərinin yaradılmasına və ekoloji təmiz texnologiyaların inkişafına səbəb olur. Azərbaycanda da yaşıl maliyyə sahəsi inkişaf etməkdədir və ölkə beynəlxalq səviyyədə yaşıl enerji və ekoloji layihələrə yatırım etməyə davam edir. Yaşıl maliyyə, iqtisadiyyatın dayanıqlı və ekoloji təmiz bir şəkildə inkişaf etməsinə şərait yaradır.

**Azərbaycanda Yaşıl Maliyyə Mexanizmləri**

Azərbaycanda davamlı inkişafın təmin edilməsi və ətraf mühit problemlərinin həlli istiqamətində yaşıl maliyyə mexanizmlərinin tətbiqi getdikcə daha çox əhəmiyyət kəsb edir. Ölkənin təbii ehtiyatlarla zəngin olması və iqtisadiyyatının əsasən neft və qaz sektoru üzərində qurulması ekoloji dayanıqlılığın qorunması üçün yaşıl maliyyə mexanizmlərinin aktuallığını artırır. Bu mexanizmlər qlobal iqlim dəyişikliyi ilə mübarizə, təbii ehtiyatlardan səmərəli istifadə, alternativ enerji mənbələrinə keçid və ekoloji infrastrukturun inkişaf etdirilməsi kimi bir sıra hədəfləri əhatə edir.

Yaşıl maliyyələşdirmə ekoloji cəhətdən davamlı layihələrin maliyyələşdirilməsi üçün yaradılmış bir vasitədir. Azərbaycanda bu yanaşma karbon emissiyalarının azaldılması, enerji səmərəliliyinin artırılması və təmiz enerji istehsalının dəstəklənməsi sahələrində tətbiq olunur. Yaşıl

maliyyə mexanizmləri həm dövlət, həm də özəl sektor tərəfindən istifadə edilir. Bu mexanizmlər vasitəsilə ölkə iqtisadiyyatının daha dayanıqlı və innovativ modelə keçidi hədəflənir (bfb.az, 2024).

Azərbaycanda yaşıl maliyyə mexanizmləri əsasən aşağıdakı alətləri əhatə edir (Canikli, 2022):

1. Yaşıl İstiqrazlar
2. Bank Kreditləri
3. Alternativ Enerji Layihələrinin Dəstəklənməsi
4. Ekoloji İnvestisiya Fondu

Yaşıl İstiqrazlar: İnfrastruktur layihələri, enerji səmərəliliyi, bərpa olunan enerji və ekoloji infrastruktur üçün maliyyə təmin edən istiqrazlardır. Bu istiqrazlar həm yerli, həm də beynəlxalq bazarlardan investisiya cəlb etmək üçün istifadə olunur (bfb.az, 2024).

Bank Kreditləri: Yerli banklar tərəfindən enerji qənaəti və ətraf mühitə uyğun texnologiyalar üçün verilən xüsusi şərtli kreditlərdir. Bu kreditlər vasitəsilə kiçik və orta sahibkarlıq subyektləri yaşıl texnologiyalara keçid edir.

Alternativ Enerji Layihələrinin Dəstəklənməsi: Günəş, külək və su enerjisi layihələrinin maliyyələşdirilməsi yaşıl maliyyələşdirmənin əsas istiqamətlərindən biridir. Ölkədə alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsi məqsədilə həm yerli, həm də beynəlxalq təşkilatlar tərəfindən bir sıra layihələr həyata keçirilir (Energetika Nazirliyi, 2024).

Ekoloji İnvestisiya Fondu: Dövlət və özəl tərəfdaşlıq çərçivəsində yaradılmış bu fondlar ətraf mühitin qorunması və ekoloji layihələrin maliyyələşdirilməsi üçün nəzərdə tutulub (eco.gov.az, 2024).

Azərbaycan hökuməti davamlı inkişafın təmin edilməsi üçün bir sıra mühüm addımlar atmışdır. Ölkənin 2030-cu il üçün müəyyən etdiyi davamlı inkişaf məqsədləri çərçivəsində yaşıl maliyyələşdirmənin genişləndirilməsi prioritet istiqamətlərdən biridir. Milli səviyyədə qəbul edilmiş qanunvericilik və strategiyalar yaşıl iqtisadiyyatın inkişafına töhfə verir (elibrary.az, 2024).

Azərbaycanın COP29-a ev sahibliyi ölkənin qlobal iqlim siyasətində mövqeyini gücləndirərək, dayanıqlı inkişaf və bərpa olunan enerji sahəsindəki təşəbbüslərini ön plana çıxarmışdır. Şuşada və Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə görüşlərində iqlim dəyişikliyi və yaşıl enerji sahəsində əməkdaşlıq müzakirə olunmuş, COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerji üzrə strateji saziş imzalanmışdır. (İbrahimova, 2024).

**Azərbaycanın ekologiyası və iqtisadi hədəflərinə yaşıl maliyyənin təsiri: mexanizmlər və perspektivlər**

Yaşıl maliyyə, ekoloji davamlılığı təmin etmək üçün maliyyə resurslarının yönəldilməsini ifadə edir. Bu yanaşma, karbon emissiyalarını azaltmaq, bərpa olunan enerji mənbələrinə sərmayə qoymaq və təbii resurslardan səmərəli istifadəni dəstəkləyir. Azərbaycan kimi iqtisadiyyatı enerji sektoru üzərində qurulmuş ölkələr üçün yaşıl maliyyə böyük əhəmiyyət daşıyır. Çünki ölkənin uzunmüddətli inkişaf strategiyası çərçivəsində iqtisadi diversifikasiya və ətraf mühitin qorunması əsas prioritetlərdən biridir. Bu mexanizm, həm qlobal iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verir, həm də yeni iqtisadi sahələrin inkişafını stimullaşdırır.

Azərbaycanda yaşıl maliyyənin tətbiqi əsasən bərpa olunan enerji mənbələrinə sərmayələr və ekoloji layihələrin maliyyələşdirilməsi vasitəsilə həyata keçirilir. Ölkədə "Yaşıl İqtisadiyyat" strategiyası çərçivəsində külək və günəş enerjisi layihələri genişlənməkdədir. Bununla yanaşı, dövlətin dəstəyi ilə beynəlxalq maliyyə institutlarının yaşıl fondlarından istifadə artır. Məsələn, Dünya Bankı və Asiya İnkişaf Bankı kimi qurumların təqdim etdiyi kreditlər vasitəsilə ölkədə davamlı enerji və su resurslarının idarəedilməsi ilə bağlı layihələr həyata keçirilir. Buna baxmayaraq, yaşıl maliyyənin inkişafında yerli bank sektorunun və özəl sərmayədarların daha aktiv iştirakı vacibdir.

Yaşıl maliyyə, Azərbaycanın milli inkişaf planlarında mühüm yer tutur, çünki bu mexanizm həm ekoloji tarazlığın qorunmasına, həm də iqtisadi artımın davamlı olmasına xidmət edir. Qarabağın bərpası və "yaşıl zona" kimi layihələr ekoloji hədəflərə çatmaq üçün mühüm nümunədir. Eyni zamanda, yaşıl maliyyə vasitəsilə həyata keçirilən layihələr ölkəyə xarici sərmayə cəlb edərək iqtisadiyyatın diversifikasiyasına töhfə verir. Lakin bu sahədə normativ çərçivələrin təkmilləşdirilməsi və ictimaiyyətin maarifləndirilməsi böyük əhəmiyyət kəsb edir. Azərbaycan, öz

unikal geosiyasi mövqeyindən istifadə edərək, həm regional, həm də beynəlxalq səviyyədə yaşıl maliyyə sahəsində liderlik edə bilər (area.gov.az, 2024).

**1. Diagram**




Mənbə DSK hesabatları əsasında müəllif tərtibatı

2012-2016-cı illərdə bərpa olunan enerji təchizatında davamlı bir artım müşahidə olunmuş, bu dövrdə yeni günəş, külək və hidroenerji layihələrinin icrası, dövlət və xarici investisiyaların artması mühüm rol oynamışdır. Lakin 2016-dan sonra müəyyən dalğalanmalar meydana gəlmiş, bu da enerji istehsalında texniki və iqlim amillərinin təsiri ilə bağlı ola bilər. 2019-2021-ci illərdə isə kəskin azalma baş vermişdir ki, bu da əsasən COVID-19 pandemiyasının yaratdığı iqtisadi çətinliklər, layihələrin gecikməsi və investisiya axınının azalması ilə əlaqələndirilə bilər. Eyni zamanda, hidroenerji sektorunda su ehtiyatlarının azalması və köhnəlmiş infrastruktur da bu azalmaya təsir edən faktorlardan olmuşdur. Bununla belə, 2021-ci ildən sonra bərpa olunan enerji istehsalında yenidən artım müşahidə olunur. Bu artım Azərbaycanın 2030-cu il üçün müəyyən etdiyi yaşıl enerji strategiyası, Xəzər dənizində külək enerjisi potensialının inkişafı, beynəlxalq tərəfdaşlıqların genişlənməsi və alternativ enerji mənbələrinə qoyulan yeni investisiyalarla bağlıdır. Gələcək illərdə bu tendensiyanın davam etməsi gözlənilir, çünki ölkə enerji sektorunda bərpa olunan mənbələrin payını artırmağa və ekoloji dayanıqlılıq prinsiplərini gücləndirməyə sadiqdir.

**Nəticə**

Azərbaycanda yaşıl maliyyə, iqtisadi və ekoloji dayanıqlılığın təmin olunmasında strateji rol oynayır. Ölkə, qlobal iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq öhdəliklərini yerinə yetirməklə yanaşı, iqtisadiyyatını yaşıl və dayanıqlı modellərə uyğunlaşdırmağa çalışır. Yaşıl istiqrazlar, ekoloji kreditlər və bərpa olunan enerji layihələrinin maliyyələşdirilməsi bu prosesin əsas hərəkətverici qüvvəsidir. Bu maliyyə alətləri vasitəsilə Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi, enerji sektorunda dayanıqlı keçidin təmin edilməsi və təbii ehtiyatlardan daha səmərəli istifadə edilməsi hədəflənir.

Bununla belə, yaşıl maliyyənin geniş tətbiqi üçün ölkədə hələ də bəzi struktur və institusional maneələr mövcuddur. Bu problemlərin aradan qaldırılması üçün hüquqi-normativ bazanın təkmilləşdirilməsi, yeni maliyyə mexanizmlərinin formalaşdırılması və beynəlxalq tərəfdaşlıqların gücləndirilməsi zəruridir. COP29 kimi mühüm tədbirlərə ev sahibliyi etməsi, Azərbaycanın qlobal yaşıl iqtisadiyyata inteqrasiyasını sürətləndirmək və ölkənin ekoloji siyasətini beynəlxalq səviyyədə daha güclü nümayiş etdirmək üçün bir fürsətdir.

Nəticə etibarilə, yaşıl maliyyənin genişlənməsi Azərbaycanı regionda ekoloji və iqtisadi dayanıqlılıq baxımından lider ölkələrdən birinə çevirə bilər. Bu sahədə strateji yanaşmaların və innovativ maliyyə mexanizmlərinin tətbiqi, ölkənin uzunmüddətli iqtisadi sabitliyini və ekoloji

təhlükəsizliyini təmin etməklə yanaşı, onu qlobal yaşıl iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevirəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. *AR Mərkəzi bankı*. (2025, 2 18). From https://uploads.cbar.az/assets/87feed5adc31d07fb40d99df9.pdf
2. *AR Statistika Komitəsi*. (2025, 2 18). From https://www.stat.gov.az/source/system_nat_accounts/
3. *area.gov.az*. (2024). From https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil
4. *bfb.az*. (2024). From https://www.bfb.az/yasil-istiqrazlar
5. *bfb.az*. (2024). From https://www.bfb.az/xeber/baki-fond-birjasi-yasil-maliyye-adli-konfransda-istirak-edib
6. Canikli, S. (2022). Sürdürülebilir finans mekanizmaları, araçları ve sürdürülebilir kalkınma ilişkisi. Akdeniz İİBF Dergisi, 22(1), 26-39.
7. Çanakçıoğlu, M. ( 2023). Sürdürülebilir Ekonomik Kalkınma Çerçevesinde Yeşil Büyüme ve Yeşil Finans. Sosyal, Beşeri ve İdari Bilimler Dergisi, 6(4), 537-554.
8. Çil, D. (2023). Ekonomi ve Çevre Etkileşimi: Türkiye'de Finansal Gelişim ve Ulaşım Kaynaklı CO2 İlişkisi Üzerine Fourier ADL Analizi. Sosyal Mucit Academic Review, 4(4), 456-476.
9. Demir & Uğurlu. (n.d.). Sürdürülebilir Finans ve Döngüsel Ekonomi. Güncel Finansal Gelişmeler ve Uygulamalar.
10. *eco.gov.az*. (2024). From https://eco.gov.az/az/ekoloji-siyaset/azerbaycan-respublikasinin-ekoloji-siyaseti
11. *elibrary.az*. (2024). From https://www.elibrary.az/docs/qazet/qzt2024_815.pdf
12. *Energetika Nazirliyi*. (2024). From https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
13. HORASAN, M. (2022). YEŞİL FİNANSI ANLAMAK. İktisadi ve İdari Bilimlerde Güncel Araştırmalar.
14. İbrahimova, P. (2024). COP29 və Türk Dünyası: Regional Birlik və Əməkdaşlıq Prosesinin Mediada Əksi. Akademik Tarih ve Düşünce Dergisi, 11(1), 35-46.
15. Kuloğlu . E & Öncel. M (2015). YEŞİL FİNANS UYGULAMASI VE TÜRKİYE’DE UYGULANABİLİRLİĞİ. Gazi Üniversitesi Sosyal Bilimler Dergisi, 2(2), 2-19.
16. Lee, J. W. (2020). Green finance and sustainable development goals: The case of China. Lee, Jung Wan (2020). Green Finance and Sustainable Development Goals: The Case of China. Journal of Asian Finance Economics and Business, 7(7), 577-586.
17. Şimşek .O & Tunalı. H ( 2022). Yeşil finansman uygulamalarının sürdürülebilir kalkınma üzerindeki rolü: Türkiye Projeksiyonu. Ekonomi ve Finansal Araştırmalar Dergisi, 4(1), 16-45.
18. Wang. K , Zhao. Y, Jiang. C & Li. Z( 2022). Does green finance inspire sustainable development? Evidence from a global perspective. Economic Analysis and Policy, 75, 412-426.

# Важность зеленого финансирования для достижения экологических и экономических целей азербайджана

**Каниш Гараев**
Азербайджанский государственный экономический университет преподаватель кафедры экономики и бизнеса
Преподаватель Международного центра магистратуры и докторантуры Азербайджанского государственного экономического университета
Уцитель
электронная почта: kenishgaraev@gmail.com
0000-0003-3069-3912

**Резюме:** В данной статье рассматривается развитие и значение механизмов зеленого финансирования в Азербайджане. Зеленое финансирование используется в стране как важный инструмент для защиты окружающей среды, продвижения устойчивой экономики и эффективного использования природных ресурсов. Зеленые финансовые инструменты, включая зеленые облигации, зеленые кредиты и проекты возобновляемых источников энергии, являются важными шагами по повышению экономической и экологической устойчивости Азербайджана.

В статье освещается участие Азербайджана в сфере зеленых финансов на международном уровне и его инициативы в этом направлении. В то же время подчеркиваются трудности, возникающие в этой сфере, и важность соответствующих реформ, финансовых инструментов и международного сотрудничества для преодоления этих трудностей. Стратегические цели Азербайджана в области зеленых финансов помогут будущему развитию страны и повысят ее международную репутацию. В целом зеленые финансы отмечаются как главный фактор, который ускорит переход экономики в более устойчивую и экологически чистую форму в Азербайджане.

**Ключевые слова:** зеленые финансы, зеленые облигации, экономика, экология, альтернативная энергетика

**JEL: S01 UOT: 330.3**

DOI: https://doi.org/10.36719/2707-9317/05/136-142

# The role of the social sphere in the balanced socio-economic development of the regions of Azerbaijan

**Svetlana Najafli**
Khalid a senior researcher at the Economics Institute of the Ministry
of Science and Education of the Republic of Azerbaijan
E-mail: necefli.lana@mail.ru

**Abstract:** In the article, the main goal of the research is the role of the social sphere in the balanced socio-economic development of the regions of Azerbaijan, the improvement of the social well-being and living standards of the population, the impact on individual areas of the country's economy, the opening of new jobs, and the achievement of higher achievements in the directions of social and economic development. The implementation of measures aimed at the high level of development of the effective placement of labor resources in the regions, the development of the mechanism of the state employment policy, and the determination of the main directions of continuous improvement of development in social, economic and all infrastructure areas were considered.

**Key words:** social sphere, socio-economic, economic development, balanced, infrastructure, employment, region, social welfare, standard of living.

# Azərbaycan regionlarının tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın rolu

**Svetlana Nəcəfli**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun
"Regional inkişaf və təbi sərvətlərdən istifadə problemləri" şöbəsi
Böyük elmi işçi
necefli.lana@mail.ru

**Xülasə:** Məqalədə, əsas məqsəd Azərbaycan regionlarında tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın rolu, əhalinin sosial rifahı və həyat səviyyəsinin yüksəldilməsinə, ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə təsirinə, yeni iş yerlərinin açılması, sosial iqtisadi inkişaf istiqamətlərinin daha yüksək naliyyətlər əldə etməsidir. Regionlarda əmək ehtiyatlarının səmərəli yerləşməsinin yüksək səviyyədə inkişaf etdirilməsi istiqamətinə yönəlmiş tədbirlərin həyata keçirilməsi dövlət məşğulluq siyasətinin mexanizminin işlənib hazırlanması, sosial iqtisadi və bütün infrastruktur sahələrdə inkişafın daim təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə baxılmışdır.

**Açar sözlər:** sosial sfera, sosial-iqtisadi, iqtisadi inkişaf, tarazlı, infrastruktur, region, məşğulluq, sosial rifahı, həyat səviyyəsi.

**JEL: O18**
**UOT: 332.33**

## Giriş / Introduction

Prezidentimizin müdrik sərkərdəliyi, tapşırığı, dövlət proqramlarının məqsəd vəzifələri əsasında deyə bilərik ki, nəticədə ölkəmizdə perspektiv iqtisadi inkişaf və eyni zamanda tikinti-quraşdırma, abadlaşdırılma işləri, əhalinin yüksək səviyyədə sosial rifahının yaxşılaşdırılmasına regionların tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın rolu böyükdür. Həm ölkəmizin bütün iqtisadi rayonlarında həm də inzibati ərazilərdə tarazlı sosial-iqtisadi inkişaf istiqamətində yüksək səviyyədə irəliləyişlər var və olmaqda davam edir. Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi investisiyaların qoyuluşu baxımından böyük perspektivdən xəbər verir. Bildiyimiz kimi Azərbaycanda qeyri-neft ixracında qızılın mühüm yeri var. Dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olmasına görə deyə bilərik ki, işğaldan azad olunmuş topaqlarımızda qızıl yataqlarının istismarı qarşıdakı illərdə ölkə iqtisadiyyatına böyük uğur verəcəkdir.

## Əsas hissə/Main part

### *Ədəbiyyatların təhlili*

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları ( 2019-2023, 2019-2030-cu illər) əsasında olan məlumatlar,. Nuriyev qeyd edir ki, (2021) Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri həlli yollarını tapır və yüksək nailiyyətlər əldə etməkdədir. Bayramovun fikrincə (2021) "Həssas əhali qruplarının mənafelərinə cavab verən sistemin qurulması prioritet vəzifədir" Hacıyev qeyd edir ki, (2024) "Səhiyyə xidmətlərinin elektronlaşması problemləri "Azərbaycanda elektron səhiyyə sahəsi son illərdə əhəmiyyətli irəliləyişlər əldə etsə də, burada bir sıra mühüm problemlər hələ də qalmaqdadır. İlk növbədə, bu sahədə infrastruktur çatışmazlığı diqqət çəkir. Nəcəfli hesab edir ki, (2024) Azərbaycan regionlarında tarazlı iqtisadi inkişafın təmin olunmasında sosial sferanın mövcud vəziyyəti" sosial iqtisadi inkişaf istiqamətlərinin daha yüksək nailiyyətlər əldə etməsi deməkdir. Ümumiyyətlə, Dövlət Poqramlarının uğurla həyata kecirilməsi əhalinin yüksək səviyyədə sosial rifahının və məşğulluğun inkişafına layiqli əməyin təmin olunmasına imkan verəcəkdir.

### *Metodologiya*

Tədqiqatın yerinə yetirilməsi prosesində müqayisə, analitik ümumiləşdirmə, sistemli təhlil,

riyazi-statistik təhlil və s. metodlardan istifadə edilmişdir. Tədqiqatın informasiya bazasını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabatları, bülletenləri; İqtisadi İnkişaf, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliklərinin məlumatları və s. təşkil edir.

***Nəticələr və müzakirələr***

Ölkə Prezidentinin təşəbbüsü ilə verilən qərarlar, məqsəd və vəzifələr çox böyük təqdirə layiqdir. Belə ki, əhalinin rifahının yaxşılaşması, yoxsulluğun aradan qaldırılması üçün əlverişli işlər aparılır, həm sosial – iqtisadi, həm də bütün sahələr üzrə inkişaf və irəliləyişlər davam etməkdədir. Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır. Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalmalıdır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Sosial inkişaf – sosial qayğının artırılmasını, bu sahədə göstərilən xidmətlərin davamlı olaraq keyfiyyətinin yüksəldilməsini ön plana çəkir. Ölkəmizdə sosial siyasət davamlı olaraq genişlənməkdə, bu sahədə silsilə tədbirlər həyata keçirilməkdədir [5]. Azərbaycan Konstitusiyasında dövlətin - xalqın və hər bir vətəndaşların rifahının yüksəldilməsinə, onların sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin qayğısına qalmağı bir vəzifə olaraq müəyyən etmişdir [6]. Ölkəmizdə qəbul edilən “Azərbaycan 2030”: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ində sosial inkişafın müasir standartlara uyğunlaşdırılması da bir məqsəd olaraq seçilmişdir [7]. Bu baxımdan da, əhaliyə sosial xidmətlərin göstərilmə mexanizmlərinin və tənzimlənmə sisteminin səmərəliliyinin artırılması xüsusi zərurətdən çıxış edir.

Beləliklə, bu sürətlə bütün sahələrdə aparılan sosial-iqtisadi inkişaf həm iqtisadi rayonlarda həm də inzibati ərazilərdə yeni iş yerlərinin açılması, bu ərazilərdə yaşayan əhalinin işçi qüvvəsinin işlə təmin edilməsi, əhalinin həyat rifahının yüksək səviyyədə olmasından xəbər verir.

**Cədvəl 1.**

**Azərbaycan Respublikası İqtisadi rayonlar üzrə hüquqi şəxslərdə və digər tədbirlər üzrə Yeni açılmış iş yerlərinin sayı (2024-cü ilin 9 ayı)**

| İqtisadi rayonlar | Yeni iş yerləri. sayı cəmi | Yeni yaradılmış müəs. və təşki- da | Mövcud müəs. və təşki-da | Fəaliyyəti bərpa edilmiş müəssisə və təşk-da | Digər tədbirlər üzrə | Yeni yaradılmış fərdi sahibkarlıq subyekt.sayı |
|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 69587 | 8248 | 60645 | 211 | 483 | 67587 |
| Bakı | 53882 | 2512 | 51303 | 64 | - | 14478 |
| Naxçıvan MR | 1621 | 1123 | 498 | - | - | 5124 |
| Abşeron-Xızı | 2959 | 1062 | 1889 | 8 | - | 3488 |
| Dağlıq Şirvan | 185 | 68 | 112 | 5 | - | 1871 |
| Gəncə-Daşkəsən | 1726 | 624 | 1090 | 12 | - | 3675 |
| Qarabağ | 1171 | 522 | 649 | - | - | 4409 |
| Qazax-Tovuz | 924 | 192 | 672 | 60 | - | 5266 |
| Quba-Xaçmaz | 1883 | 687 | 1196 | - | - | 3495 |
| Lənkəran-Astara | 1122 | 499 | 443 | - | 480 | 6404 |
| Mərkəzi Aran | 605 | 148 | 457 | - | - | 5146 |
| Mil-Muğan | 341 | 110 | 210 | 21 | - | 4350 |
| Şəki-Zaqata | 853 | 255 | 597 | 1 | - | 5032 |
| Şərqi Zəngəzur | 666 | 298 | 368 | - | - | 1096 |
| Şirvan-Salyan | 1349 | 148 | 1161 | 40 | - | 3755 |

Mənbə: Azərbaycan Respublikası DSK. *Azərbaycan Regionları.yeni iş yerləri.* Bakı-2024, səh.37-220. əsasında müəllif tərtibatı

2024-cü il ərzində ölkədə yeni açılmış iş yerlərinin 11,9% yeni yaradılmış müəssisə və təşkilatlarda, 87,1% mövcud müəssisə və təşkilatlarda, 0,3% fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,7% isə digər tədbirlər üzrə yaradılmışdır. Yeni açılmış iş yerlərinin 77,4% Bakı şəhərinin, 2,3% Naxçıvan Muxtar Respublikasının, 20,3% digər regionların, o cümlədən 4,3%

Abşeron-Xızı, 2,7% Quba-Xaçmaz, 2,5 faizi Gəncə-Daşkəsən, 2,0% Lənkəran-Astara, 1,9% Şirvan-Salyan, 1,7% Qarabağ, 1,3% Qazax-Tovuz, 1,2% Şəki-Zaqatala, 1,0% Şərqi Zəngəzur, 0,9% Mərkəzi Aran, 0,5% Mil-Muğan, 0,3% isə Dağlıq Şirvan iqtisadi rayonlarının payına düşmüşdür.

Nəticədə statistik məlumatlara əsaslanaraq deyə bilərik ki, əvvəlki illərdə ölkə üzrə 2021-ci il yeni iş yerlərinin sayı 68991, 2022-ci il yeni iş yerlərinin sayı 71280, 2023-cü ildə yeni iş yerlərinin sayı 82318, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 69587 olmuşdur. İqtisadi rayonlarda isə 2021-ci il Bakıda yeni iş yerlərinin sayı 89404 (1,4%), 2022-ci ildə 53170 (1,6%) azalmışdır, 2023-cü il yeni iş yerlərinin sayı 65563 (3,1%) artmışdır, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 53882 (1,8%) azalmışdır; 2021-ci il Naxçıvanda yeni iş yerlərinin sayı 955 (1,0%), 2022-ci ildə 427 (2,2%) azalmışdır, 2023-cü ildə 1094 (1,3) artmışdır, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1621 (1,6%) artmışdır; 2021-ci il yeni iş yerlərinin sayı Abşeron –Xızı iqtisadi rayonda 3139 (0,9%) olub, 2022-ci ildə 2388 (1,0%) azalıb, 2023-cü ildə isə 2914 (3,4) artıb, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 2959 (3,5) artıb; 2021-ci il il yeni iş yerlərinin sayı Dağlıq-Şirvanda 541 (3,0%) olub, 2022-ci ildə 547 (4,4%) artıb, 2023-cü ildə isə 427 (3,4%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 185 (2,8%) azalıb; 2021-ci il Gəncə-Daşkəsən iq/r da yeni iş yerlərinin sayı 1318 (2,4%) olub, 2022-ci ildə 1177 (2,2%) azalıb, 2023-cü il isə 1568 (2,6%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1726 (2,8) artmışdır, 2021-ci il Qarabağ iq/r da yeni iş yerlərinin sayı 536 (2,6%) olub, 2022-ci ildə 905 (3,6) artıb, 2023-cü il isə 984 (3,8%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1171 (4,5%) artıb, ; 2021-ci il Qazax-Tovuz iq/r da yeni iş yerlərinin sayı 3377 (3,8%) olub, 2022-ci ildə 892 (3,3%) azalıb, 2023-cü ildə isə 1282 (2,8%) artmışdır, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 924 azalıb; 2021-ci il Quba-Xaçmaz iq/r da yeni iş yerlərinin sayı 1775 (3,4%) olub, 2022-ci ildə 1877 (1,1 %) artıb, 2023-cü ild isə 2005 (2,4%) artıb, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1883 azalıb; 2021- ci il Lənkəran-Astara iq/r da yeni iş yerlərinin sayı 878 (15,0%) olub, 2022-ci ildə 947 (5,4%), 2023-cü il isə 1180 (6,0%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1422 (6,2%) artıb; 2021-ci il Mərkəzi Aran iq/r da yeni iş yerlərinin sayı 883 (2,8%) olub, 2022-ci ildə 862 (2,2%) azalıb, 2023-cü ildə isə 1084 (3,1%) artıb, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 605 (4,2%) azalmışdır; 2021-ci ildə Mil-Muğan iq/r da yeni iş yerlərinin sayı 801 (3,6%) olub, 2022- ildə 668 (2,5%) azalıb, 2023-cü ildə isə 604 (1,5%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 341 (3,1%) azalmışdır; 2021-ci il Şəki-Zaqatala iq/r da yeni iş yerlərinin sayı 1989 (3,8%), 2022-ci ildə 1816 (1,4%) azalıb, 2023-ci ildə isə 1467 (1,7%), 2024-cü ildə isə yeni iş yerlərinin sayı 853 (3,1) azalmışdır; 2021-ci il Şərqi Zəngəzur iq/r da yeni iş yerlərinin sayı 230 (2,0) olub, 2022-ci ildə 223 (1,1%) azalıb, 2023-cü il isə 751 (3,1) artmışdır, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 666 (1,1) ; 2021-ci il Şirvan-Salyan iq/r da yeni iş yerlərinin sayı 1553 (2,3%) olub, 2022-cil ildə 1435 (1,6%) azalmışdır, 2023-cü ildə isə 1395 (2,0%) azalıb, 2024-cü ildə isə yeni iş yerlərinin sayı 1349 (1,6) azalma olmuşdur. Beləliklə deyə bilərik ki, 2021-ci ildən 2024-cü illər arasında müqayisədə yeni iş yerlərinin sayı azalsa da, açılan iş yerlərində əhali işlə təmin olunmuşdur. Regionlarda yeni iş yerlərinin açılması, əhalinin iş yerləri ilə təmin olunması, əhalinin sosial rifahının yüksək səviyyədə olması deməkdir.

Azərbaycanda elektron səhiyyə sahəsi son illərdə əhəmiyyətli irəliləyişlər əldə etsə də, burada bir sıra mühüm problemlər hələ də qalmaqdadır. İlk növbədə, bu sahədə infrastruktur çatışmazlığı diqqət çəkir. Elektron səhiyyə xidmətlərinin səmərəli şəkildə fəaliyyət göstərməsi üçün müasir texnoloji infrastrukturların qurulması və regional inkişafın sürətləndirilməsi zəruridir[5]. Elektron sahə xidmətlərində olan infrastruktur çatışmazlığı problemlərini həm iqtisadi rayonlarda, həm də inzibati rayonlarda həlli yollarıni tapıb, aradan qaldırılmaqdadır.

Əhalinin sağlamlığının qayğısına qalmaq üçün dövlət tibb mərkəzlərində xərclər tibbi icbari sığorta ilə qarşılanır. Ölkə əhalisinin sağlamlığının qayğısına qalmaq səhiyyənin Dövlət Proqramları əsasında qarşısına qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsində də böyük irəliləyişlər var. Belə ki, səhiyyə sahəsinə aid olan istər yeni modul tipli xəstəxanaların tikilməsi istərsə də köhnə xəstəxanaların təmiri yenilənməsi xəstəxanaların müasir aparatlarla təmin edilməsi xəstələrə yüksək səviyyədə xidməti və əhalinin sağlamlığının qayğısına qalmaq deməkdir.

**Cədvəl 2.**

**2024-cü ilin 9 ayı ölkənin iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə səhiyyənin əsas göstəriciləri**

| İqtisadi rayonlar | Həkim sayı. Nəfər | Əhali. Hər min nəfərə düşən həkim sayı | Orta tibb işçi.sayı. nəfər | Əhali. Hər min nəfərə düşən orta tibb işçi-n sayı. | Xəstə xana sayı | Xəstə xana çarpa. Sayı. | Əhali. Hər 10 min nəfərə düşən x/x çarp./s | Əhali.ambu polik. yardım göstər. müalicə müəs.sayı | Ambul. Polikli müəssi. gücü | Əhali. Hər10 min nəfərə düşən ambu.polik mmüəs. sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan Respublikası | 33645 | 33,0 | 55591 | 54,6 | 338 | 38172 | 37,5 | 1665 | 107549 | 105,6 |
| Bakı | 22746 | 97,0 | 24539 | 104,6 | 155 | 19570 | 83,5 | 316 | 38143 | 162,7 |
| Naxçıvan MR | 672 | 14,3 | 2280 | 48,7 | 28 | 1690 | 36,1 | 113 | 8402 | 179,3 |
| Abşeron-Xızı | 1908 | 21,8 | 3169 | 36,2 | 26 | 2005 | 22,9 | 62 | 4152 | 47,4 |
| Dağlıq Şirvan | 333 | 10,4 | 940 | 29,3 | 4 | 696 | 21,7 | 63 | 2434 | 46,0 |
| Gəncə-Daşkəsən | 1422 | 23,8 | 3426 | 57,3 | 19 | 2792 | 46,7 | 84 | 7045 | 117,8 |
| Qarabağ | 740 | 10,3 | 2653 | 35,8 | 14 | 1889 | 25,5 | 167 | 7350 | 99,2 |
| Qazax-Tovuz | 951 | 14,0 | 3046 | 44,9 | 9 | 959 | 14,1 | 144 | 5378 | 79,3 |
| Quba-Xaçmaz | 714 | 13,0 | 1982 | 36,2 | 11 | 1066 | 19,5 | 100 | 5655 | 103,4 |
| Lənkəran-Astara | 870 | 9,3 | 2787 | 29,7 | 13 | 1357 | 14,5 | 175 | 6566 | 70,0 |
| Mərkəzi Aran | 1041 | 14,4 | 3020 | 41,9 | 12 | 1365 | 18,9 | 91 | 5566 | 77,2 |
| Mil-Muğan | 416 | 7,9 | 1475 | 28,1 | 6 | 726 | 13,8 | 97 | 3248 | 62,0 |
| Şəki-Zaqatala | 996 | 15,9 | 3524 | 56,2 | 9 | 1381 | 22,0 | 93 | 6130 | 97,8 |
| Şərqi Zəngəzur | 157 | 5,2 | 543 | 17,9 | 24 | 1460 | 48,3 | 81 | 1941 | 64,2 |
| Şirvan-Salyan | 679 | 13,7 | 2207 | 44,6 | 8 | 1216 | 24,6 | 79 | 5539 | 112,0 |

Mənbə AR DSK. Azərbaycan Regionları. Azərbaycanda səhiyyə, sosial müdafiə və mənzil şəraiti. Bakı-2023. əsasında müəllif tərtibatı

Statistik məlumatlara əsaslanaraq deyə bilərik ki, əvvəlki illərə nisbətən 2024-cü ilin 9 ayında, cədvəl 2-də olduğu kimi, respublika üzrə həkimlərin sayı 33645 nəfər, iqtisadi rayonlarda: Bakıda həkimlərin sayı 22746 nəfər 67,6%, Naxçıvanda həkimlərin sayı nəfər 672 2,0%, Abşeron-Xızı həkimlərin sayı 1908 nəfər 5,6%, Dağlıq-Şirvan həkimlərin sayı 333 nəfər 1,0%, Gəncə-Daşkəsən həkimlərin sayı 1422 nəfər 4,2%, Qarabağda həkimlərin sayı 740 nəfər 2,8%, Qazax-Tovuz həkimlərin sayı 951 2, Quba-Xaçmaz həkimlərin sayı 714 nəfər 2,1%, Lənkəran-Astara həkimlərin sayı 870 nəfər 2,5%, Mərkəzi-Aran həkimlərin sayı 1041 nəfər 3,0%, Mil-Muğan həkimlərin sayı 416 nəfər 1,2%, Şəki-Zaqatala həkimlərin sayı 996 nəfər 2,9%, Şərqi-Zəngəzur həkimlərin sayı 157 nəfər 0,4%, Şirvan-Salyan həkimlərin sayı 2,0%-i təşkil edir. Regionların tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın rolu əhaliyə böyük xidmətlər göstərilir və davam etməkdədir.

**Cədvəl 3.**

***Azərbaycan iqtisadi rayonlarının əsas sosial-iqtisadi göstəriciləri (*2023-ci il*)***

| İqtisadi rayonlar | Əhalinin sayı min nəfər. | Təsərrüfat subyektlərinin sayı | | Iqtisadiyyat da muzdla işləyən-in orta illik sayı,min/n | Əsas sahələr üzrə[2)] ümumi məhsul buraxı-şı. mln/man. | Sənaye məhsulu** həcmi, min man. | Cəmi kənd təsərrüfatı məhsulu, min. man |
|---|---|---|---|---|---|---|---|
| | | hüquqi | fiziki | | | | |
| Azərbaycan üzrə, cəmi | 10180,8 | 182837 | 122859 | 1738,7 | 14601638,6[1)] | 86383438,6 | 109842331,7 |
| Bakı şəhəri | 2344,9 | 116702 | 336950 | 899,9 | 10503183,6 | 75384524,9 | 142237,0 |
| Naxçıvan MR | 468,6 | 2092 | 35963 | 110,3 | 3258326,2 | 1048584,9 | 589347,7 |
| Abşeron-Xızı | 876,5 | 11983 | 66647 | 100,5 | 7208923,5 | 4762166,3 | 343161,1 |
| Dağlıq Şirvan | 320,4 | 2506 | 36761 | 28,2 | 1100825,7 | 91215,1 | 455680,1 |
| Gəncə-Daşkəsən | 807,2 | 5344 | 76709 | 80,3 | 2540346,8 | 9333246,1 | 375952,9 |
| Qarabağ | 741, 3 | 4851 | 78042 | 65,7 | 3593926,7 | 193829,0 | 1113120,3 |
| Qazax-Tovuz | 677, 8 | 4041 | 91532 | 60,1 | 2822638,6 | 484442,9 | 1426819,6 |
| Quba-Xaçmaz | 547, 1 | 4847 | 76702 | 55,5 | 2455206,1 | 346209,5 | 1119675,2 |
| Lənkəran-Astara | 937,7 | 7658 | 123376 | 67,9 | 245654,0 | 360977,4 | 999720,1 |
| Mərkəzi Aran | 720,6 | 5447 | 84302 | 75,6 | 2746713,1 | 631380,9 | 1095942,9 |
| Mil-Muğan | 524, 2 | 5747 | 62473 | 44,2 | 2272498,2 | 709314,8 | 800498,4 |
| Şəki-Zaqatala | 626,6 | 5719 | 81308 | 73,5 | 2024624,3 | 455004,1 | 800498,4 |
| Şərqi Zəngəzur | 302,5 | 1051 | 4438 | 21,6 | 2297703,3 | 7134,8 | 121208,4 |
| Şirvan-Salyan | 494,8 | 4849 | 67656 | 55,4 | 2592237,6 | 975408,8 | 722201,7 |

Mənbə. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycan Regionları. 2023 (*səh.40,* 63). müəllif tərtibatı

Cədvəl 3-də göründüyü kimi, 2023-cü ildə Azərbaycanda mövcud olan təsərrüfat subyektlərinin sayı (182837 nəfər), hüquqi şəxslərin 55,6%-i, fiziki şəxslərin 44,4,0%-i təşkil edir. Ölkə iqtisadiyyatında muzdla işləyənlərin (1738,7 min nəfər) 58,5%-i, Bakı şəhərində fəaliyyət göstərmişdir. Statistik məlumatlara əsaslanaraq deyə bilərik ki, 2020-ci ildə Azərbaycanda mövcud olan təsərrüfat subyektlərinin (86010 sayda) 51,0%-i (45942 sayda), fiziki şəxslərin 36,0%-i (454997 nəfər), ölkə iqtisadiyyatında muzdla işləyənlərin 43,0%-i (685,0 min nəfər) Bakı şəhərində fəaliyyət göstərmişdir. 2021-ci ildə Azərbaycanda mövcud olan təsərrüfat subyektlərinin (86010 sayda) 51,0%-i (45942 sayda), fiziki şəxslərin 36,0%-i (454997 nəfər), ölkə iqtisadiyyatında muzdla işləyənlərin 43,0%-i (685,0 min nəfər) Bakı şəhərində fəaliyyət göstərmişdir. 2022-ci ildə Azərbaycanda mövcud olan təsərrüfat subyektlərinin (86010 sayda) 51,0%-i (45942 sayda), fiziki şəxslərin 36,0%-i (454997 nəfər), ölkə iqtisadiyyatında muzdla işləyənlərin 43,0%-i (685,0 min nəfər) Bakı şəhərində fəaliyyət göstərmişdir. Göründüyü kimi, həm ölkə iqtisadiyyatının inkişafında, həm də ölkəmizdə mövcud olan əmək potensialından istifadə sahəsində rayonların rolu o qədər də yüksək deyil. Bunun əsas səbəblərindən biri də rayonlarda olan istehsal və əmək potensialından səmərəli istifadə olunmamasıdır.

Ölkənin qarşısında duran məsələlərdən biridə nəqliyyat sisteminin səmərəli inkişafının təşkil edilməsi, yeni müasir yolların və yol qurğularının, körpülərin, yeraltı və yerüstü keçid və dayanacaqların tikilməsi. Ictimai nəqliyyatın fəaliyyətini tənzimləyən normativ hüquqi bazarın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin işlənib hazırlanmasıdır. Sosial məsələlərin həllində nəqliyyatın rolu əvəzsizdir. Kənd və şəhər əhalisinin mədəni-məişət şəraiti, işə getmək və qayıtmaq imkanı, asudə vaxtın səmərəli istifadəsi nəqliyyatın işinin keyfiyyətindən bilavasitə asılıdır. Nəqliyyat dəmiryolu, avtomobil, hava, su və boru kəməri kimi növləri özündə birləşdirir . Bildiyimiz kimi istər dəmir yolu xətləri, istərsə də avtomobil yolları həm təmir edilir, həm də yeni xətlər və yollar çəkilməkdə davam edir.Bütövlükdə bunlar respublikanın vahid nəqliyyat sistemini təşkil edir və eyni vaxtda onlardan hər biri müəyyən vəzifəni yerinə yetirir. Onlar hamısı birlikdə yüklərin və insanların daşınması funksiyasını icra edərək, sıx əlaqədə fəaliyyət göstərirlər. Regionlararası iqtisadi əlaqələrin səmərəli qurulması, hər bir ərazi daxilində istehsalın elə məqsədəuyğun inkişafını nəzərdə tutur ki, bu şəraitdə hasil edilən məhsulun istehlak rayonlarına daşınması üçün ən az maddi əmək və maliyyə vəsaiti sərf edilsin. Buna görə də regionlararası iqtisadi əlaqələrin yaxşılaşdırılması vəziyyətləri yerli ehtiyat mənbələrindən daha səmərəli istifadə edilməsini tələb edir.

Ümumiyyətlə, regionların bir-biri ilə davamlı qarşılıqlı əlaqəsi sosial-iqtisadi inkişafa müsbət təsir edir. Belə ki, regionların özünə məxsus xüsusiyyətini nəzərə alsaq görürük ki, bir regionda olan məhsuldar digər regionlarda yoxdur. Bunun üçün regionlararası və regiondaxili əlaqələr genişləndirilməlidir. Respublikada həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə olunmuş makroiqtisadi sabitləşmə və iqtisadiyyatın dinamik inkişafı ölkə vətəndaşının yaşayış səviyyəsinin nəzərə çarpacaq dərəcədə yüksəlişini təmin etmişdir. Eyni zamanda əhalinin həyat səviyyəsinin yüksəlişinə doğru istiqamətlənmiş sosial siyasət qeyri istehsal sahələrin inkişafını təmin etməklə yanaşı, iqtisadi inkişafa təkan vermişdir. Son dövrdə əhaliyə göstərilən kommunal xidmətlərin yaxşılaşdırılması istiqamətində xeyli işlər görülmüşdür.

Dövlət Proqramı çərçivəsində sosial təminat sahəsində əlillərin və şəhid ailələrin mənzil şəraitinin yaxşılaşdırılması və əlillər üçün bərpa mərkəzlərinin yaradılması ilə bağlı zəruri tədbirlər həyata keçirilmişdir. Bu müddət ərzində regionlarda əlillər və şəhid ailələri üçün yaşayış binası, əlillər üçün bərpa mərkəzi inşa edilmişdir.

Tədqiqatın mövzusu ilə bağlı mövcud nəzəri-metodoloji, praktiki fikir və mülahizələr, təcrübələr hərtərəfli, geniş araşdırılaraq əldə edilmişdir. Nəticədə əhalinin sosial rifahı və həyat səviyyəsinin yüksəldilməsi, regionların tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın regional baxımdan tarazlığının təmin edilməsində yüksək səviyyədə inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsi məqalədə öz əksini tapmışdır. Regionların tarazlı sosial-iqtisadi inkişafında sosial sferanın böyük rolu olduğu göstərilmişdir.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. Azərbaycan Respublika Prezidenti İlham Əliyev (2021). Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, Yeni Zaman qəzeti 2021.
2. Azərbaycan Respublikası Bakı şəhərlərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı (2014-2018), (2019-2030) Bakı: 2019.
3. Azərbaycan Respublikası DSK. Azərbaycan Regionları. Yeni iş yerləri. Bakı-2024,s.32-36.
4. Bayramov V. "Həssas əhali qruplarının mənafelərinə cavab verən sistemin qurulması prioritet vəzifədir" Bakı- Xalq qəzeti 2021.
5. Nəriman Hacıyev."Səhiyyə xidmətlərinin elektronlaşması problemləri" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat Institutu "İqtisadi artım və ictimai rifah" jurnalı, № 4, 2024, səh.108.
6. Azərbaycan Respublikasının Konstitusiyası. https://justice.gov.az/documents/AZ/Konstitusiya.pdf.
7. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı: - 2021. http://eqanun.az/framework/46813.
8. Nuriyev Ə.X. "Ölkənin regional strukturunun formalaşması və təkmilləşməsi problemləri" Bakı: Savad, 2021, səh. 41.
9. Nəcəfli S.X**:** "Azərbaycan regionlarında tarazlı iqtisadi inkişafın təmin olunmasında sosial sferanın mövcud vəziyyəti" AMEA İqtisadiyyat Institutu "İqtisadi artım və ictimai rifah" №4, 2022, səh.67-73.
10. Наджафли С.Х**:** Обеспечение баланса регионов Азербайджана предложения и рекомендации по развитию социальной сферы L Международная научно-практическая конференция «Вопросы управления и экономики: современное состояние актуальных проблем» Россия: Москва, 2024, Ст.48-55, №2 (71).М.,Изд.«Интернаука»09-16.02.2024.


# Роль социальной сферы в сбалансированном социально-экономическом развитии регионов Азербайджана


**Светлана Наджафли**
старший научный сотрудник Института Экономики
Министерства науки и образования Азербайджанской Республики
E-mail: necefli.lana@mail.ru



**Резюме:** В статье, основной целью исследования является роль социальной сферы в сбалансированном социально-экономическом развитии регионов Азербайджана, повышении социального благополучия и уровня жизни населения, влияние на отдельные сферы. экономики страны, открытие новых рабочих мест, достижение более высоких достижений на направлениях социально-экономического развития. Реализация мер, направленных на высокий уровень развития эффективного размещения трудовых ресурсов в регионах, развитие механизма государственной политики занятости, определение основных направлений постоянного совершенствования развития в социальной, экономической и были учтены все области инфраструктуры.



**Ключевые слова:** социальная сфера, социально-экономическое, экономическое развитие, сбалансированность, инфраструктура, занятость, регион, социальное обеспечение, уровень жизни.

DOI: https://doi.org/10.36719/2707-9317/05/143-150

# Analysis of the main problems created by digital transformation in the labor market

**Nusret Ibrahimov**
Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan
AZ 1143, Baku city, H. Javid avenue, 115
Researcher
ibrahimov.nusret9623@mail.ru

**Abstract:** While digital transformation has provided new opportunities for the labor market, it has also given rise to significant challenges. This article analyzes the main challenges arising from technological change, including the skills gap, job displacement due to automation, threats to businesses, cyber threats, and increasing social inequality. The main objective of the article is to examine the listed problems and propose the most effective methods to overcome them.

**Key words:** Digital transformation, labor market, skills gap, automation, platform economy, cybersecurity.

**Jel: E24; F66; J01; J64 UOT: 331.5**

# Rəqəmsal transformasiyanın əmək bazarında yaratdığı əsas problemlərin təhlili

**Nüsrət İbrahimov**
AR ETN İqtisadiyyat İnstitutunun doktorantı
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu
AZ 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115
Elmi işçi
ibrahimov.nusret9623@mail.ru,
https://orcid.org/0000-0003-0956-4681

**Xülasə:** Rəqəmsallaşma İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) sürətli inkişafı və geniş yayılması ilə xarakterizə olunan qlobal bir tendensiyadır. Bu proses, cəmiyyətin bütün sahələrinə, o cümlədən əmək bazarına dərin təsirləri ilə seçilir. Rəqəmsallaşma iqtisadiyyatın səmərəliliyini artırmaq, yeni iş yerləri yaratmaq və istehlakçılara daha geniş imkanlar təqdim etmək potensialına malik olsa da, onun əmək bazarında törətdiyi mənfi təsirləri də mövcuddur. Bu məqalədə rəqəmsallaşmanın əmək bazarına mənfi təsirlərini mövcud tendensiyalar əsasında təhlil etməyə və bu problemlərin aradan qaldırılması üçün şəxsi tövsiyələri formalaşdırmağa çalışacağıq.

**Açar sözlər:** Rəqəmsal transformasiya, əmək bazarı, bacarıq boşluğu, avtomatlaşdırma, platforma iqtisadiyyatı, kibertəhlükəsizlik.

**Jel: E24; F66; J01; J64 UOT: 331.5**

## Giriş

Mexanikləşdirmə, elektrikləşdirmə və kompüterləşdirmə kimi əvvəlki sənaye inqilablarının nailiyyətlərindən fərqli olaraq Dördüncü Sənaye İnqilabı bir-biri ilə qarşılıqlı əlaqəyə malik sistemlər, cihazlar və məlumatlara əsaslanan qərarların qəbulu səviyyəsinə keçid edən dəyişiklikləri təmsil edir. Bu inqilab demək olar ki, iqtisadiyyatın bütün sahələrinə təsir etmiş, əmək bazarında dərin dəyişikliklər yaratmışdır. Yeni texnologiyalar iqtisadi artım və ictimai tərəqqi üçün misli olmayan imkanlar təklif etməklə yanaşı, fəal həllər tələb edən əhəmiyyətli problemləri formalaşdırmışdır. Müasir dövrdə rəqəmsallaşma nəqliyyat, ticarət, maliyyə, habelə inzibati və ofis işləri üzrə fəaliyyət göstərən işçilər üçün yeni narahatlıqlar doğurur.

Texnologiyanın əmək bazarına təsirinin mənfi nəticələrə səbəb olacağı ilə bağlı bir çox yanaşmalar mövcuddur. Məsələn, nobel mükafatı laureatı Robert Solou texnologiyanın məhsuldarlığa təsiri haqqında bildirmişdir ki *"Texnologiya sürətlə inkişaf etsə də, məhsuldarlığın təkmilləşdirilməsi hər yerdə bərabər paylanmayıb"* (Robert Solow, 1999). Erik Brincolfson isə iddia edir ki, *"Biz texnologiyanın təkcə tapşırıqları deyil, həm də qərarların qəbulunu da avtomatlaşdırdığı bir dövrdəyik"*. Təbii ki, yeni nəsil texnologiyaların məşğulluq fəaliyyətinə təsiri böyükdür. Belə ki, bu texnoloji amillər bizim ənənəvi iş bacarığımıza meydan oxuyur, insan əməyindən istifadəni azaldır və iqtisadiyyatı böyük bir təhlükə ilə üzləşdirir.

## Əsas mətn

Rəqəmsallaşmanın əmək bazarına təsirindən yaranan problemləri təsvir etmək üçün bir sıra statistik göstəricilərə ehtiyac duyulur. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) görə, üzv ölkələrdə iş yerlərinin 32%-i avtomatlaşdırmadan təsirlənmiş, 14%-ində isə bu təsir özünü yüksək şəkildə büruzə vermişdir (OECD, 2023). "McKinsey" qlobal konsaltinq şirkəti hesab edir ki, 2017-ci ildən 2030-cu ilədək olan müddətdə dünya miqyasında 800 milyona qədər insan məhz, rəqəmsal texnologiyanın təsiri nəticəsində iş yerini tərk edə bilər (McKinsey, 2024).

Bu verilənlər rəqəmsallaşmanın qısa müddət ərzində əmək bazarında böyük dəyişiklik yarada biləcəyinin isbatıdır. Araşdırmalar onu deməyə əsas verir ki, rəqəmsallaşmanın əmək bazarında yaratdığı çağırışlar işin dinamikasını yenidən formalaşdıraraq işçilərə böyük təsir göstərir. Apardığımız təhlillər əsasında rəqəmsallaşmanın təsiri nəticəsində əmək bazarında yaranan əsas

problemləri cədvəl 1-də təsvir etməyə çalışmışıq. Bu problemlərlə tanış olaq:

**Cədvəl 1**

**Dördüncü Sənaye İnqilabı dövründə əmək bazarında yaranan əsas problemlər**

| Problemin kateqoriyası | Problemin spesifikliyi | Problemin təsviri | Problemin təsirləri | Problemin həlli yolları |
|---|---|---|---|---|
| **Bacarıq boşluğu** | Tələb olunan və mövcud bacarıqlar arasında uyğunsuzluq | Texnoloji nailiyyətlər yeni bacarıqlara tələbi artırır. Halbuki mövcud işçi qüvvəsi bunlardan məhrum ola bilər. | İşsizlik, cari vəzifələrin təmin edilməsində çətinliklərin mövcudluğu, bir çox işçilərin aşağı əmək haqqına keçid etməsi. | Bilik və bacarıqların artırılması |
| **Avtomatlaşdırma** | İş itkilərinin baş verməsi | Təkrarlanan tapşırıqların avtomatlaşdırılması müəyyən sektorlarda işçilərin yerdəyişməsinə səbəb olur. | İşsizliyin artması | Xüsusi texnoloji bacarıqların mənimsənilməsi |
| **İşin təbiətinin dəyişdirilməsi** | Platforma iqtisadiyyatı və uzaqdan iş imkanlarının yaradılması | Rəqəmsal platformalar üzrə qanunvericiliyin zəifliyi və ya heç olmaması. | İş-həyat balansının dəyişkən olması, işçilərin sığorta problemləri, uzaqdan əməkdaşların idarə etməkdə çətinlik, iş etibarsızlığı. | Qanunvericilik normalarının qəbul edilməsi |
| **Kibertəhlükələr** | Bu sahə üzrə mütəxəssislərin çatışmazlığı | Məlumatlara və rəqəmsal cihazlara artan inam kibertəhlükəsizlik mütəxəssislərinə yüksək tələbat yaradır ki, bu da qarşılanmır. | Kiberhücumlara qarşı həssaslığın artması, məxfi məlumatların oğurlanması, biznes üçün maliyyə itkiləri | Kibertəhlükəsizlik üzrə mütəxəssislərin yetişdirilməsi |
| **Biznes sferası üçün təhlükələr** | Biznesin yenidən qurulması | Şirkətlər öz strukturlarını və proseslərini rəqəmsal texnologiyalardan istifadə etmək üçün uyğunlaşdırmalıdırlar ki, bu da iş yerlərinin itirilməsinə səbəb ola bilər. | İşçilərin narahatlığı, dəyişikliyi idarə etməkdə çətinlik, effektiv liderliyə ehtiyac | Rəqəmsal texnologiyalara uyğunlaşmaq |
| **Sosial bərabərsizlik** | Bacarıqlı və ixtisassız işçilər arasında fərqin artması | Rəqəmsal transformasiya mövcud bərabərsizlikləri daha da artırır | Sosial gərginliyin artması | Rəqəmsal maarifləndirmə |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən tərtib edilmişdir*

Müasir əmək bazarında rəqəmsallaşmanın iqtisadiyyata, fərdlərə və sahibkarlıq subyektlərinə dərin təsirləri nəticəsində yaranan başlıca problemlərdən biri bacarıq boşluğunun olmasıdır. Belə ki, bu, işəgötürənlərin tələb etdiyi, ehtiyac duyduğu bacarıqlarla işçilərdə mövcud olan bacarıqlar arasında yaranan uyğunsuzluqdan qaynaqlanır. Bu boşluq ona görə yaranır ki, texnoloji tərəqqi yeni bacarıqlara tələbi daim dəyişdirir. Bacarıq boşluğu, əsasən, üç istiqamətdə özünü büruzə verir. Birincisi, işəgötürənlər məlumat təhlili, süni intellekt kimi sahələrdə lazım olan təcrübə və biliklərə malik işçiləri tapmaqda çətinlik çəkirlər. İkincisi, qeyd olunan bacarıqlardan əlavə, əmək bazarında ünsiyyət yaratma, komanda işi, analitik düşüncə tələb edən ikinci dərəcəli bacarıqların da çatışmazlığı müşahidə olunur. Üçüncüsü isə texnoloji irəliləyişlərlə bağlı olaraq mövcud olan bacarıqların "köhnəlməsi"-dir. Onu da qeyd etmək lazımdır ki, bacarıqlar fərdlər arasında qeyri-bərabər paylanmışdır. Məsələn, "X nəsli" kimi tanınan yaşlı işçilərin orta yaşlı və gənc işçilərlə müqayisədə İKT bacarıqları xeyli dərəcədə zəifdir.

Bacarıq boşluğu nəticəsində işə qəbul prosesində çətinliklər müşahidə olunur və rəqabətqabiliyyətlilik azalır. Bu isə iqtisadi durğunluğa səbəb olur. 2022-ci ildə Avropada işçilərin təxminən 40%-i əsas rəqəmsal bacarıqlardan məhrum idi. Bunun nəticəsində onların rəqəmsal iqtisadiyyatda rolu müəyyən qədər məhdudlaşmışdır.

Müasir dövrdə avtomatlaşdırma səbəbindən bir çox fəaliyyət sahələrində səmərəliliyin və məhsuldarlığın artımı müşahidə olunsa da, onun əmək bazarında yaratdığı problemləri də işıqlandırmaq zəruridir. Bu problemlərə iş yerinin dəyişdirilməsini və ya işsizliyin artmasını nümunə göstərmək olar. Aparılan təhlillər onu göstərir ki, yeni sənaye inqilabı dövründə böyük şirkətlərin əksəriyyəti işçidən daha dəqiq və sürətli işləyən texnologiyaya üstünlük verir. Hətta ABŞ-da 2019-cu ildə məhz avtomatlaşdırma səbəbindən 1,5 milyondan artıq işçilərin iş yerini itirdiyi müşahidə olunmuşdur (World Economic Forum, 2020). Statista internet platformasına əsasən, 2024-cü ildə 18 milyarddan artıq cihaz internetə qoşulmuşdur. 2025-ci ilin sonunadək bu indikatorun 75 milyarda çatacağı təxmin edilir. Bu, texnologiyanın təsiri ilə iqtisadiyyatda yaranan böyük bir "partlayışın" nümunəsidir. Texnologiyanın iqtisadiyyata belə sürətli inteqrasiyası aşağı ixtisasa malik şəxslərin ya daha aşağı vəzifələrə təhkim olunmasına, ya da işsiz qalmasına gətirib çıxardır.

Yeni sənaye inqilabı dövründə istehsal və xidmət sahələrində informasiya texnologiyaları və proqramlaşdırma fəaliyyəti üzrə işə götürənlərin tələbi yüksəlməyə doğru gedir. Belə ki, 2019-cu illə müqayisədə 2020-ci ildə bu sahə üzrə iş yerlərinin həcmi 15%-dən çox artmışdır (International Labour Organization, 2020). Yaxın gələcəkdə də bu tendensiyanın böyük fərq yaradacağı təxmin edilir.

Platforma iqtisadiyyatı zamanla ənənəvi iş yerlərini əvəz edən yeni iş modeli olaraq tanınır. Bu, işaxtaranlar üçün sərbəst və çevik iş təklif etməklə yanaşı, yüksək həssaslıqla yanaşılmasını tələb edən bir sıra problemlər də yaratmışdır. Belə platformanın iştirakçıları əmək bazarında işçi qüvvəsi kimi deyil, müstəqil fəaliyyət göstərən və müəyyən tapşırığı yerinə yetirən şəxslər kimi tanınır. Bu isə onların ənənəvi müavinətlərinin və minimum əməkhaqqı zəmanətinin olmamasına səbəb olur. Çevik olduğuna baxmayaraq, bu sahə üzrə həm də yüksək iş təhlükələri müşahidə edilir. Bildirmək lazımdır ki, 2022-ci ildə ABŞ-da platforma iqtisadiyyatında məşğul olan şəxslərin sayı 59 milyon nəfərə çatmışdır. Bu isə, kütləvi sayda işçinin sosial müdafiə və pensiya planlamasından məhrum edirdi. Buna görə də bu sahənin yeni inkişafına baxmayaraq işçilərin mənafeyini qoruyan hüquqi bazaların formalaşdırılmasına ehtiyac vardır.

Platforma iqtisadiyyatının iştirakçıları ilbəil artmaqdadır. Hətta Covid-19 pandemiyası dövründə biz bu sahənin aktuallığını daha çox gördük. Post-pandemiya dövründə isə bu sahə öz aktuallığını qorumaqda davam edir. Platforma işi Azərbaycan Respublikasının da daxil olduğu bir sıra inkişaf etməkdə olan ölkələr üçün də xarakterikdir. Lakin bu sahənin iştirakçıları barədə məlumat əldə etmək olduqca çətindir. Bildirmək lazımdır ki, ölkəmizdə sərbəst iş platforması üzrə çatdırılma (kuryer), taksi, mənzil icarəsi, tərcümə, dizayn və digər sahələrinin inkişafını görmək mümkündür.

G. Fətəliyeva qeyd etmişdir ki, *"Əhalinin onlayn şəkildə xidmətlərdən istifadə səviyyəsinin artırılmasının şərtlərindən biri də təhlükəsiz və etibarlı internetin təmin edilməsidir"* (Azərbaycanda rəqəmsal transformasiya -2023). 2013-cü ildə ABŞ-da internet şəbəkəsi vasitəsilə məxfi məlumatların oğurlanması dünyada kibertəhlükəsizlik tədbirlərinin zəifliyindən xəbər verir. Təbii ki, rəqəmsallaşmanın əhatə dairəsi genişləndikcə məxfi məlumatlar daha çox risk altına düşür. Bu prosesə süni intellekt əsaslı dezinformasiyalı video və ya audioların yaradılmasını, fərdləri manipulyasiyaya cəlb edən təqlid metodlarının artmasını misal çəkə bilərik. Digər tərəfdən isə kompüter qurğularına və ya proqramlarına hücumların təşkili bu siyahıya aid edilir. Bütün sadalanan mənfi halların qarşısının alınması üçün kibertəhlükəsizlik peşəkarlarının sayının artırılması və kiberhücumlara davamlı tədbirlərin yaradılmasına ehtiyac vardır.

**Xülasə:** Bu məqalə sahibkarlıq anlayışının tarixi inkişafını, nəzəri əsaslarını və müasir yanaşmalarını araşdıraraq onun iqtisadi və sosial kontekstdə əhəmiyyətini qiymətləndirir. Sahibkarlıq iqtisadiyyatın əsas elementlərindən biri kimi risk götürmə, bazar qeyri-müəyyənliyinə uyğunlaşma və innovasiya tətbiq etmə bacarığı ilə səciyyələnir. XVIII əsrdən etibarən klassik iqtisadçılar sahibkarlığın iqtisadi sistemdəki rolunu araşdırmış, risk və qeyri-müəyyənlik faktorlarını vurğulamışdır. Şumpeter, Nayt və Kirzner kimi iqtisadçılar sahibkarlığı iqtisadi inkişafın aparıcı qüvvəsi kimi dəyərləndirmiş və onun innovasiya ilə əlaqəsini ön plana çəkmişlər.

Müasir yanaşmalar sahibkarlığı daha geniş kontekstdə izah edərək onun sosial, texnoloji və institusional amillərlə əlaqəsini vurğulayır. Xüsusilə Silikon Vadisi, Çin və İsrail kimi innovasiya mərkəzlərində sahibkarlığın inkişafı göstərir ki, uğurlu sahibkarlıq modeli yalnız fərdi təşəbbüslərlə deyil, həm də institusional dəstək, risk kapitalı bazarları və bilik əsaslı iqtisadiyyatın qurulması ilə sıx bağlıdır. Çinin dövlət siyasətləri, Silikon Vadisinin açıq innovasiya mühiti və İsrailin texnoloji startap ekosistemi müasir sahibkarlıq modellərinin müxtəlifliyini nümayiş etdirir.

Məqalədə həmçinin qeyd edilir ki, sahibkarlıq yalnız iqtisadi artımı təşviq etmir, həm də yeni iş yerlərinin yaradılması, sosial problemlərin həlli və rəqəmsal texnologiyaların inkişafında mühüm rol oynayır. Rəqəmsal sahibkarlıq və innovasiya əsaslı biznes modelləri qlobal iqtisadi trendləri dəyişdirərək sahibkarlığın təkamülünü sürətləndirməkdədir.

Beləliklə, sahibkarlıq yalnız biznes fəaliyyəti kimi deyil, həm də iqtisadi və sosial dəyərlərin yaradılmasına xidmət edən dinamik və çoxşaxəli bir proses kimi qiymətləndirilməlidir. Onun uğurlu inkişafı üçün hökumətlərin, akademik institutların və biznes ekosistemlərinin qarşılıqlı fəaliyyəti, eləcə də innovasiya və texnologiyaların təşviqi vacibdir.

**Açar sözlər:** Sahibkarlıq, iqtisadi inkişaf, bilik əsaslı iqtisadiyyat, innovasiya, risk, Silikon Vadisi

## Giriş

Sahibkarlıq konsepsiyası iqtisadiyyatın fundamental mövzularından biri olmaqla yanaşı, həm də cəmiyyətin iqtisadi və sosial inkişafında mühüm rol oynayan bir fenomendir. Sahibkarlıq anlayışı müxtəlif elmi yanaşmalarda fərqli formada izah edilmiş, onun mahiyyəti, məqsədləri və funksiyaları zamanla müxtəlif nəzəriyyələr çərçivəsində yenidən nəzərdən keçirilmişdir. XVIII əsrdən başlayaraq klassik iqtisadiyyat məktəbləri, xüsusən də fransız və britaniya məktəbləri, sahibkarlığın risklə əlaqəsini, bazar qeyri-müəyyənliyinə uyğunlaşma qabiliyyətini və dəyər yaratma funksiyasını vurğulamışdır.

Sonrakı dövrlərdə J. Şumpeter, F. Nayt, İ. Kirzner kimi iqtisadçılar sahibkarlığı yalnız iqtisadi fəaliyyət olaraq deyil, həm də innovasiyalar vasitəsilə iqtisadi inkişafı təşviq edən bir proses kimi qiymətləndirmişlər. Müasir dövrdə isə sahibkarlıq çoxşaxəli fenomen kimi iqtisadiyyat, sosiologiya, psixologiya və antropologiya kimi sahələrdə tədqiq edilir. Sahibkarlıq haqqında müxtəlif elmi yanaşmaların genişliyi, onun insan xarakteri ilə əlaqəsi, risk götürmək və innovasiya tətbiq etmək qabiliyyəti ilə birbaşa bağlılığını təsdiq edir.

Bu məqalə sahibkarlıq fenomeninin tarixi inkişafını, nəzəri əsaslarını və müasir yanaşmalarını əhatə etməklə, bu konsepsiyanın iqtisadi və sosial kontekstdə əhəmiyyətini araşdırmaq məqsədi daşıyır. Eyni zamanda, sahibkarlığın çoxölçülü təbiəti və müxtəlif elmi sahələrdəki interpretasiyası üzərində dayanılacaq, onun iqtisadiyyatın inkişafına və yerli səviyyədə sosial problemlərin həllinə töhfəsi qiymətləndiriləcəkdir.

**Sahibkarlıq**

Elmi ədəbiyyatda sahibkarlıq konsepsiyasının inkişafı klassiklərə və neo-klassiklərə nəzəri baxışlar kontekstində təhlil edilir. Sahibkarlıq fəaliyyəti, insan cəmiyyətinin ilkin mərhələlərindən etibarən mövcud olsa da (Hébert, Link, 1988: 7-13), bu anlayış yalnız XVIII əsrdə elmi diskursa daxil olmuş və uzun müddət bəzi iqtisadi nəzəriyyələr tərəfindən yetərincə diqqətə alınmamışdır.

Fransız məktəbi (18-ci əsr) Kantillon, Turgot, Say və Baudeau kimi görkəmli nəzəriyyəçilər tərəfindən təmsil olunur və onlar sahibkarın iqtisadi subyekt kimi riskli mühitdə fəaliyyət göstərdiyini iddia edirdilər (Landstrim və Lohrke, 2010). Onların fikrincə iqtisadi sistemdəki risklərə qeyri-müəyyənlik amili daxildir, o zaman sahibkarlıq biznesinin ardıcıl inkişafı uzunmüddətli perspektivdə tam proqnozlaşdırıla bilməz. Richard Kantillon sahibkarlığı şəxslərin fərdi məsuliyyət və risk daşıdığı və bazarın tələb etdiyi məhsul və ya xidməti təmin edən bir proses kimi görürdü. Növbəti əsrdə Jean-Baptiste Say bu fikrə əlavə olaraq qeyd etmişdir ki, sahibkarlıq dəyər yaradır və resursları daha az səmərəli sahələrdən daha səmərəli sahələrə keçirir. (Atalli, Yemini 2017: 141-142) Zaman keçdikcə bu yanaşma davamlı olaraq təbliğ edilmişdir. Bazar konyukturasında qeyri-müəyyənlik şəraitində sahibkarlıq biznesinin uğuru (mənfəətliliyi) strateji qərarların qəbulu zamanı risklərin idarə edilməsindən asılıdır. Nəzəri paradiqmada Kantillon kimi Turqot da qeyd edir ki, kommersiya fəaliyyətinin inkişafında kapitalistlə sahibkar arasında funksional fərqlər mövcuddur (Robert A. Nisbet 1980, s. 185). Görkəmli İqtisadçı Say, Kantillon kimi, sahibkarın dinamik bazar mühitində kommersiya fəaliyyətini inkişaf etdirməklə gələcəkdə şəxsi qərarlarının biznesə necə təsir edəcəyini proqnozlaşdıra biləcəyini iddia edirdi (Shionoya, Nishizawa, 2009, s. 193). O qeyd edirdi ki, risklərə dözümlülük səviyyəsi sahibkarın şəxsi xüsusiyyətlərindən asılıdır və bu xüsusiyyətlər mövcud bazar vəziyyətini düzgün, istehlakçı tələbatındakı dəyişiklikləri müəyyən etməyə və rasional qiymətləndirməyə kömək edir .

Britaniya Məktəbini (18-ci əsrin ikinci yarısı) təmsil edən Smit sahibkarı nəinki risk götürən, həm də vaxtını və sərmayəsini məqsədinə yönəldən "macəra axtaran" və ya "biznes dizayner" kimi müəyyən edirdi (Casson, 2003, s. 262). Onun fikrincə sahibkar gözlənilən faydaları əldə etmək (mövcud kapital dəyərini və mənfəəti artırmaq) üçün şəxsi resurslarını riskli fəaliyyətlərə yatırır. Bu məktəbin digər nümayəndəsi olan Mill, sahibkarlıq terminini perspektivləri görmək qabiliyyəti ilə əlaqələndirirdi.

XX əsrdə sənaye iqtisadiyyatının biliyin yaradılması və istifadəsinə əsaslanan - biliyə əsaslanan iqtisadiyyata çevrilməsi sahibkarlıq fenomeninin təkamülünü aşkar etmək üçün sahibkarlıq anlayışı və konsepsiyasının dəyişilməsinə səbəb olmuşdur.

Josef Schumpeter "sahibkar kimdir?" və "sahibkarlıq nədir suallarını?" "The Theory of Economic Development" (1911, trans. 1934) və başqa əsərlərində tədqiq etmişdir. Schumpeter, sahibkarların iqtisadiyyatı bir məhsul və ya prosesdən digərinə apardığını irəli sürürdü. Schumpeterin fikrincə, sahibkar ideyanı götürüb onu iqtisadi biliyə çevirən fərddir. Məsələn, müasir avtomobil istehsal etmək üçün lazım olan parçalar onların kütləvi istehsalından əvvəl məlum idi: vaqonlar əsas formanı təmin edirdi, dişli döndərən mühərriklər artıq qatarları idarə edirdi və Henri Ford konveyer qurmazdan əvvəl daxili yanma mühərrikləri patentləşdirilmişdi. Almaniyada Benz və Daimler, sonra Amerikada Ford kimi sahibkarlar əsas texniki bilikləri iqtisadi cəhətdən sərfəli məhsullara çevirənə qədər avtomobillərin özləri ortaya çıxmadı. Texniki bilik ilkin şərt ola bilər, lakin transformativ sahibkarlıq innovasiyaları Smitin əmək bölgüsünün tərəfdaşıdır. Şumpeter bazarı genişləndirən sahibkarlıq innovasiyalarını vurğuladı, Smit isə məhsuldarlığı daha da artıran əmək bölgüsü ilə bu yeni bazarların təkmilləşdirilməsinə diqqət yetirdi.

1970-ci illərdə bir proses kimi sahibkarlıq üzrə tədqiqatlar intensivləşmişdir (Hisrich, 1986, 1989; McMullan, Long, 1987; Peters, 198; O'Gorman, Cunningham, 1997; Kirby, 2003; Timmons, Ponnelli, He30202; ; Watson, 2007) - Sahibkarlıq, Hisrixin (1986) fikrincə, imkanların müəyyən edilməsi, əlavə dəyər və nəticələrin yaradılması üçün prosesi kimi görünməyə başlamışdır. Drucker davamlı dəyişiklik üçün imkanlar axtarmaq, onlara cavab vermək və fürsətlərdən istifadə etmək prosesi kimi sahibkarlığı informasiya texnologiyalarına uyğunlaşma ehtiyacı ilə əlaqələndirir (Drucker, 1985).

Elmi ədəbiyyatda sahibkar anlayışı innovasiya, sosial və iqtisadi dəyişikliklərlə

əlaqələndirilərək daha geniş çərçivədə təqdim olunur. Sahibkarlar ideyaları tedbiq oluna bilecek real biznes modellerinə çevirən şəxslər olaraq qəbul edilir. Təbii ki, tədqiqatçılar sahibkara müxtəlif təriflər vermişdir. Məsələn Dhaliwal (2016), Riswanto (2016) və Khana (2018) qeyd edirlər ki, sahibkarlar ilk növbədə yeni iş yerlərinin yaradılması və milli rəqabət qabiliyyətinin artırılması yolu ilə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Albats və digərlərinin (2018) sahibkarları akademik bilikləri bazarın tələbləri ilə uzlaşdıraraq yeni məhsul və xidmətlərin yaradılmasına şərait yaradan insan kapitalı kimi qiymətləndirir. Bu fikrə münasibətdə bildirir ki, Khan (2018) və Riswanto (2016), sahibkarlar qlobal bazardakı dəyişikliklərə və texnoloji tendensiyalara çevik şəkildə uyğunlaşaraq, dinamik və davamlı iqtisadi sistemlərin formalaşmasına mühüm töhfə verir.

Elmi ədəbiyyatda sahibkarın bir neçə əsas funksiyası müəyyən edilmişdir.

**1. İnnovasiya və Dəyər Yaratmaq**

Sahibkarın əsas funksiyalarından biri yeni məhsullar, xidmətlər, ideyalar və ya proseslər vasitəsilə cəmiyyət üçün yeni bir dəyər yaratmaqdır. Sahibkar yalnız texnoloji yeniliklərlə məşğul olmur; o, eyni zamanda təşkilati idarəetmə və kommersiya sahəsində də dəyişikliklər yaradır. Sahibkarın təqdim etdiyi yeniliklər iqtisadiyyatda struktur dəyişikliklərinə səbəb olur. Məsələn, yeni texnologiyalar sayəsində sənaye sahələri dəyişir, məhsuldarlıq artır və ümumi iqtisadi rifah yüksəlir. Bu dəyər isə həm bazar üçün rəqabət mühiti yaradır, həm də istehlakçılara daha keyfiyyətli xidmət və məhsullar təqdim edir.

**2. Risk Etmək və qeyri-müəyyənlikdə qərar vermək**

Sahibkarlıq fəaliyyəti daim risk və qeyri-müəyyənliklərlə müşahidə olunur. Ənənəvi şirkətlər sabit bazarlarda fəaliyyət göstərirlərsə, sahibkarlar yeni və naməlum sahələrə daxil olurlar. Məsələn, bir sahibkar yeni bir məhsul təqdim etdikdə onun uğurlu olub-olmayacağı öncədən bilinmir. İqtisadçı Fridrix Nayt (Knight, 1921) təhlilləri əsasında bildirir ki, sahibkarlar qeyri-müəyyən şəraitdə qərar vermək və risk etmək bacarığı ilə seçilirlər və onlar öz pulunu, vaxtını və enerjisini ortaya qoyaraq uğursuzluq ehtimalını da nəzərə alır. Bu, sahibkarın cəsarətini və qeyri-müəyyənliyə dözümlü olmasını göstərir.

**3. Resursların Toplanması və İdarə Edilməsi**

Sahibkarın başqa bir vacib rolu ideyanın həyata keçirilməsi üçün lazım olan resursları toplamaq və idarə etməkdir. Bu resurslara maliyyə vəsaiti, insan kapitalı və texnologiya daxildir. Sahibkar bu resursları ya öz şəxsi imkanları ilə, ya da sərmayədarlar və tərəfdaşlar vasitəsilə təmin edir (Berger & Udell, 1998).

**4. Fürsətləri Görmək və Qiymətləndirmək**

Öz təcrübəsinə və müşahidə qabiliyyətinə əsaslanaraq sahibkarlar bazarda mövcud olan fürsətləri daha çevik qiymətləndirir və bunu dərhal biznes ideyaya çevirir.

**Sahibkarları sosial ictimai rifahin yüksəldilməsinə dəstək**

Sahibkarların cəmiyyətə təsiri yalnız iqtisadi deyil, eyni zamanda sosial səviyyədə də özünü göstərir. Xüsusilə sosial sahibkarlıq nümunəsində bu, daha aydın görünür. Belə ki, sosial sahibkarlar yalnız mənfəət əldə etməyi deyil, eyni zamanda cəmiyyətə fayda verməyi qarşıya məqsəd qoyurlar (Bornstein & Davis, 2010). Təhsil, səhiyyə və ətraf mühit sahəsində sahibkarlıq təşəbbüsləri həm sosial problemləri həll edir, həm də yeni iş yerləri yaradır.

**Sahibkarlığa müasir yanaşma**

Baudonun fikrincə, sahibkar innovasiyaları biznes prosesinə inteqrasiya etməklə istehsal xərclərini azaltmaq potensialına malikdir (Gallaher, Link, Petrusa, 2007, s. 85 - 86). İnnovasiya sahibkarlıq biznesinin məhsuldarlıq potensialını artırmaq və müvafiq olaraq kommersiya fəaliyyətini artırmaq üçün yeni alətlərin və yolların kəşfini təşviq edir. Martall isə qeyd edirdi ki, kommersiya fəaliyyəti ilə məşğul olan insanların heç də hamısına sahibkar kimi baxmaq olmaz (Amatori, Colli, 2013, s. 23). Sahibkar risklə əlaqəli amillərə rəhbərlik etmək və onları qabaqcadan görmək üçün innovativ fəaliyyətlərlə məşğul olur (Bolton, 2004; Busenitz, Lau, 1997).

Peter Drucker-in fikrincə, sahibkarlıq insanın doğuşdan malik olduğu xüsusi qabiliyyət və ya yalnız risk götürmə bacarığı ilə əlaqəli deyil. O, sahibkarlığı planlı və məqsədyönlü şəkildə həyata keçirilən bir proses kimi qiymətləndirir. Drucker sahibkarlığı belə izah edir: "bu, dəyişiklikləri

vaxtında görmək, onlardan düzgün istifadə etmək və bu yolla innovasiya vasitəsilə yeni dəyər yaratmaq prosesidir" (Drucker, 1985).

Onun yanaşmasına əsasən, sahibkarlıq imkanları təsadüfi şəkildə deyil, əksinə müşahidə oluna bilən dəyişikliklər nəticəsində meydana çıxır. Məsələn, sənaye sahəsində baş verən dəyişikliklər, əhalinin davranış və ehtiyaclarındakı meyllər, eləcə də texnoloji inkişaflar yeni sahibkarlıq imkanlarının mənbəyi kimi çıxış edir. Drucker həmçinin sahibkarlığın yalnız kiçik və orta müəssisələrə aid olmadığını qeyd edir. Onun fikrincə, sahibkarlıq yanaşması bütün təşkilatlarda – istər iri korporasiyalarda, istərsə də dövlət qurumlarında – tətbiq oluna bilər. Ən önəmlisi isə odur ki, o, sahibkarlığı öyrədilə bilən və idarə oluna bilən bir fəaliyyət sahəsi kimi təqdim edir.

Avstriya məktəbinin nümayəndələri Menger, Mizes, Wieser, Hayek, Kirzner. Mengerin fikrincə, bazar dinamikdir, ona görə də sahibkarın əsas məqsədi mövcud bazar vəziyyətindən xəbərdar olmaqdır (Casson, 2003). Bazar vəziyyəti və onun meylləri haqqında bilik ona görə vacibdir ki, o, iqtisadi mühiti obyektiv qiymətləndirməyə və sahibkarlığın hansı sahələrdə və sektorlarda uğurla yaradıla və ya inkişaf etdirilə biləcəyi biznes imkanlarını müəyyən etməyə kömək edir. Bilik şirkətin fəaliyyətini müəyyən edən qərarlar qəbul etməyə kömək edir, buna görə də bazar təhlili istehlakçıların ehtiyaclarını nəzərə alaraq müxtəlif strateji variantların nəzərdən keçirilməsini təşviq edir. Mizesin nöqteyi-nəzərindən sahibkar kommersiya məqsədi mənfəət olan "spekulyant"dır (Schoorl, 2012). Bununla belə, biznesin gəlirli olması üçün potensial müştərilər arasında tələbat olan innovativ ideyaların və məhsulların hazırlanması vacibdir. Wieser-ə görə, kommersiya fəaliyyəti ilə fəal məşğul olmaqla, sahibkar iqtisadiyyatda yeni biznes imkanlarının kəşfini təşviq edən dəyişikliklərə başlayır (Viner və Essays, 2014). Bu arada Hayek, Menger kimi, sahibkarlıq üçün biliyin əhəmiyyətini vurğulayır, bunun olmaması biznesin inkişafına mənfi təsir göstərə bilər (Landstrim və Lohrke, 2010).

Miçiqan məktəbinin nümayəndəsi Nayt bildirir ki, sahibkarlıqla məşğul olan şəxs bazarın qeyri-müəyyənliyi (dinamikası) şəraitinə uyğunlaşa bilir, şirkətin fəaliyyətinə tam məsuliyyətlə yanaşır, innovativ ideyalar yaradır (Amatori və Colli, 2013). Demək olar ki, sahibkarlıq fəaliyyəti risklə sıx bağlıdır və onun gəlirliliyi sahibkarın riski idarə etmək bacarığından və biliyindən asılıdır. Klassik və neoklassik iqtisad məktəblərinin nümayəndələri sahibkarın bazardakı rolunu fərqli şərh edirdilər, buna görə də sahibkarlıq biznesi anlayışı da müvafiq olaraq dəyişdi. Sahibkarlığın təhlili sahəsində ən mühüm müəlliflərdən biri 2017-ci ilin birinci yarısında sahibkarlığın tərifinə yeni bir ölçü kimi innovasiya ehtiyacını əlavə edən Cozef Şumpeterdir.

***Bir tərəfdə sahibkarlığın təşəbbüs olduğunu, digər tərəfdən isə onun yenilikçi düşünməyə, hərəkətə keçməyə və risk almağa imkan verən fitri və qazanılmış insan xüsusiyyəti olduğunu iddia edirlər.*** L. Juozaitienė (2003)-ə görə, sahibkarlıq sahibkarlığın mövcudluğunu şərtləndirən mürəkkəb xüsusiyyətdir və aktivlik, təşəbbüskarlıq, bilik və maraq, qənaətcillik, risk etmək imkanı, güclü daxili motivasiya, yeniliklərə meylli şəxslərə xas olan qabiliyyət və keyfiyyətlərin təzahürüdür. İstənilən halda əsas diqqət insanın biznesi təşkil etmək, yenilikləri həyata keçirmək, qazanc əldə etmək üçün öz aktivlərini riskə atmaq bacarığıdır.

Müasir dövrdə sahibkarlığın inkişafında qlobal innovasiya mərkəzləri mühüm rol oynayır. Xüsusilə Çin və Silikon Vadisi sahibkarlıq ekosisteminin formalaşması və sürətli inkişafı üçün fərqli yanaşmalar təklif edir. Çin hökumətinin sənaye siyasəti çərçivəsində texnologiya startaplarına verdiyi dəstək, dövlət-özəl sektor tərəfdaşlığı və geniş maliyyə imkanları sahibkarlığın inkişafına əhəmiyyətli təsir göstərmişdir (Huang, 2017, s. 85-86). Eyni zamanda, Çinin "Made in China 2025" və "Belt and Road Initiative" strategiyaları innovativ sahibkarlığı gücləndirən əsas iqtisadi proqramlar arasında yer alır (Liu et al., 2020, s. 142).

Silikon Vadisi isə sahibkarlıq fəaliyyətinin yüksək risk və innovasiya əsaslı modelini təmsil edir. Bu ekosistem universitetlər (Stanford və Berkeley), risk kapitalı bazarları və açıq innovasiya mühiti ilə fərqlənir. Saxon (2021, s. 205) qeyd edir ki, Silikon Vadisinin uğuru ilk növbədə yüksək texnoloji biliklərin kommersiyalaşdırılması və sürətli miqyaslanma imkanları ilə bağlıdır. Xüsusilə Apple, Google və Tesla kimi şirkətlərin bazara innovativ yanaşma ilə daxil olması, bu regionu qlobal sahibkarlıq mərkəzinə çevirmişdir (Gompers & Lerner, 2019, s. 115).

Bundan əlavə, İsrailin "Startup Nation" modeli də sahibkarlıq tədqiqatlarında mühüm

nümunələrdən biri kimi qəbul olunur. Güclü hərbi texnologiyalar, dövlət dəstəyi və sürətli kommersiyalaşdırma strategiyaları bu ölkənin innovasiya əsaslı sahibkarlıq mühitinin formalaşmasına töhfə vermişdir (Senor & Singer, 2009, s. 78).

Bu nümunələr göstərir ki, sahibkarlığın inkişafı təkcə fərdi təşəbbüslərdən deyil, həm də hökumət dəstəyi, güclü ekosistemlər və qlobal bazarlara çıxış imkanlarından asılıdır. Müasir sahibkarlıq modellərinin öyrənilməsi və tətbiqi ölkələrin iqtisadi dayanıqlılığını artırmaqla yanaşı, innovasiyaların iqtisadi inkişafa təsirini də gücləndirir.

## Nəticə

Sahibkarlıq müasir iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən biri olmaqla yanaşı, həm də sosial və texnoloji inkişafın təməl elementlərindən biridir. Tarixi inkişaf prosesi göstərir ki, sahibkarlıq anlayışı zamanla təkcə risk götürmə və bazar qeyri-müəyyənliyinə uyğunlaşma kimi qəbul edilməklə kifayətlənməyib, həm də innovasiya, rəqəmsallaşma və bilik əsaslı iqtisadiyyat kontekstində yenidən şərh olunmuşdur. Klassik və neoklassik iqtisadi nəzəriyyələrdə sahibkar əsasən bazar iştirakçısı kimi dəyərləndirilsə də, müasir dövrdə bu anlayışın hüdudları genişlənərək sahibkarlıq fəaliyyətinin sosial, texnoloji və qlobal aspektlərini də əhatə edir.

Məqalədə göstərildiyi kimi, sahibkarlığın inkişafı yalnız fərdi təşəbbüslərdən deyil, həm də institusional dəstək, güclü ekosistemlər və rəqəmsal texnologiyaların tətbiqi ilə bağlıdır. Silikon Vadisi və İsrailin "Startup Nation" modeli kimi innovasiya mərkəzləri sahibkarlıq ekosisteminin inkişafında universitetlər, risk kapitalı və açıq innovasiyaların mühüm rol oynadığını göstərir. Eyni zamanda, Çinin sahibkarlıq inkişafına yönəlmiş dövlət siyasətləri və iqtisadi islahatları göstərir ki, güclü hökumət strategiyaları və infrastruktur dəstəyi sahibkarlıq mühitinin formalaşmasında həlledici rol oynayır.

Bütün bu yanaşmalar göstərir ki, sahibkarlığın effektiv inkişafı üçün çoxölçülü strategiyalar tələb olunur. Dövlətlər və iqtisadi subyektlər sahibkarlıq fəaliyyətini dəstəkləmək üçün tənzimləyici çərçivələri təkmilləşdirməli, startap ekosistemlərini inkişaf etdirməli və bilik əsaslı iqtisadiyyatın qurulmasına yönəlmiş təşəbbüslər irəli sürməlidirlər. Sahibkarlığın sosial aspektlərinə də diqqət yetirilməli, innovativ yanaşmalar vasitəsilə qlobal və regional problemlərin həllinə töhfə vermək məqsədilə inklüziv və davamlı biznes modelləri təşviq edilməlidir.

Beləliklə, sahibkarlıq təkcə iqtisadi proses kimi deyil, həm də bilik, yaradıcılıq və risk götürmə mədəniyyətinin sintezi kimi qiymətləndirilməlidir. Qlobal miqyasda sahibkarlığın inkişaf trendləri və innovasiya əsaslı yanaşmalar göstərir ki, gələcək iqtisadi modellərdə sahibkarlıq əsas həlledici amillərdən biri olmağa davam edəcəkdir. Bu səbəbdən, sahibkarlığın strateji inkişafı və davamlı iqtisadi artıma təsiri haqqında aparılan tədqiqatların genişləndirilməsi və praktik yanaşmaların tətbiqi vacib məsələ olaraq qalmaqdadır.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Albats, E., Fiegenbaum, I., & Güttel, W. H. (2018). University–industry collaboration: The role of academic entrepreneurs and boundary spanning. Journal of Technology Transfer, 43(3), 589–610.
2. Amatori, F., & Colli, A. (2013). Business history: Complexities and comparisons. London: Routledge.
3. Attali, J., & Yemini, M. (2017). *Entrepreneurship and economic development*. London: Springer.
4. Bolton, B. (2004). Entrepreneurship and small business. London: Thomson Learning.
5. Busenitz, L. W., & Lau, C. M. (1997). A cross-cultural cognitive model of new venture creation. Entrepreneurship Theory and Practice, 20(4), 25–39.
6. Casson, M. (2003). *The entrepreneur: An economic theory* (2nd ed.). Cheltenham, UK: Edward Elgar Publishing.
7. Dhaliwal, S. (2016). Entrepreneurship and innovation: Global insights from 21st century leaders. International Journal of Entrepreneurial Behavior & Research, 22(2), 1–14.
8. Drucker, P. F. (1985). *Innovation and entrepreneurship: Practice and principles*. New York: Harper & Row.

9. Drucker, P. F. (2004). Managing in the next society. Oxford: Butterworth-Heinemann.
10. Gallaher, M. P., Link, A. N., & Petrusa, J. E. (2007). Innovation in small businesses: Drivers of change and value. Washington, DC: U.S. Small Business Administration.
11. Gompers, P., & Lerner, J. (2019). The venture capital cycle (2nd ed.). MIT Press.
12. Hébert, R. F., & Link, A. N. (1988). *The entrepreneur: Mainstream views and radical critiques*. New York: Praeger.
13. Hisrich, R. D. (1986). *Entrepreneurship: Starting, developing, and managing a new enterprise*. New York: McGraw-Hill.
14. Huang, Y. (2017). Capitalism with Chinese characteristics: Entrepreneurship and the state. Cambridge University Press.
15. Juozaitienė, L. (2003). Entrepreneurship and economic development. Vilnius: Technika.
16. Khan, M. (2018). Entrepreneurship and economic development: A global perspective. Journal of Economics and Sustainable Development, 9(4), 45–52.
17. Kraśnicka, T. (2002a). Przedsiębiorczość w teorii i praktyce. Katowice: Wydawnictwo Uniwersytetu Ekonomicznego.
18. Kraśnicka, T. (2002b). Zarządzanie przedsiębiorczością. Katowice: Wydawnictwo Uniwersytetu Ekonomicznego.
19. Landström, H., & Lohrke, F. (2010). *Historical foundations of entrepreneurial research*. Cheltenham, UK: Edward Elgar Publishing.
20. Liu, X., Zhang, S., & Wang, H. (2020). China’s innovation economy: Lessons for global entrepreneurs. Palgrave Macmillan.
21. Mises, L. (2012). Human action: A treatise on economics. Auburn, AL: Ludwig von Mises Institute.
22. Nisbet, R. A. (1980). *The history of the idea of progress*. London: Transaction Publishers.
23. Riswanto, A. (2016). The role of entrepreneurship in economic development. International Journal of Scientific and Research Publications, 6(3), 124–129.Adamczyk, J. (1995). Przedsiębiorczość: Teoria i praktyka. Kraków: Wydawnictwo Uniwersytetu Ekonomicznego.
24. Saxon, D. (2021). The Silicon Valley edge: A habitat for innovation and entrepreneurship. Stanford University Press.
25. Sawicka, J. (2000). Przedsiębiorczość i innowacyjność. Warszawa: Wydawnictwo Naukowe PWN.
26. Schumpeter, J. A. (1934). *The theory of economic development: An inquiry into profits, capital, credit, interest, and the business cycle* (R. Opie, Trans.). Cambridge, MA: Harvard University Press. (Original work published 1911)
27. Senor, D., & Singer, S. (2009). Start-up nation: The story of Israel’s economic miracle. Hachette Book Group.
28. Shionoya, Y., & Nishizawa, T. (2009). Marshall and Schumpeter on evolution: Economic sociology of capitalist development. Cheltenham, UK: Edward Elgar Publishing.
29. Targalski, J. (2003). Zarządzanie małymi przedsiębiorstwami. Kraków: Wydawnictwo Uniwersytetu Ekonomicznego.
30. Viner, J., & Essays, A. (2014). Studies in the theory of international trade. New York: Harper & Brothers.
31. Wilkin, C. (1997). Entrepreneurship and innovation. London: Palgrave Macmillan.

# Предпринимательство: историческое развитие и современные подходы

**Гюльшан Байрамова**
Проректор по международным связям
Бакинский университет бизнеса
Электронная почта: gulshenor@gmail.com

**Резюме:** В этой статье исследуется историческое развитие, теоретические основы и современные подходы к концепции предпринимательства, оценивается его значение в экономическом и социальном контексте. Предпринимательство характеризуется как один из фундаментальных элементов экономики, включающий принятие риска, адаптацию к рыночной неопределенности и способность внедрять инновации. С XVIII века классические экономисты анализировали роль предпринимательства в экономических системах, подчеркивая факторы риска и неопределенности. Такие экономисты, как Шумпетер, Найт и Кирцнер, рассматривали предпринимательство как движущую силу экономического развития и подчеркивали его тесную связь с инновациями. Современные подходы интерпретируют предпринимательство в более широком контексте, подчеркивая его связи с социальными, технологическими и институциональными факторами. Развитие предпринимательства в таких инновационных центрах, как Кремниевая долина, Китай и Израиль, демонстрирует, что успешная предпринимательская модель основана не только на индивидуальных инициативах, но и тесно связана с институциональной поддержкой, рынками венчурного капитала и созданием экономики, основанной на знаниях. Государственная политика Китая, открытая инновационная среда Кремниевой долины и технологическая стартап-экосистема Израиля иллюстрируют разнообразие современных моделей предпринимательства.

В статье также подчеркивается, что предпринимательство не только стимулирует экономический рост, но и играет решающую роль в создании рабочих мест, решении социальных проблем и продвижении цифровых технологий. Цифровое предпринимательство и инновационные бизнес-модели трансформируют мировые экономические тенденции, ускоряя эволюцию предпринимательства.

Таким образом, предпринимательство следует воспринимать не просто как бизнес-деятельность, а как динамичный и многомерный процесс, который способствует созданию экономической и социальной ценности. Для его успешного развития необходимо сотрудничество между правительствами, академическими институтами и бизнес-экосистемами, а также продвижение инноваций и технологий.

**Ключевые слова:** предпринимательство, экономическое развитие, экономика, основанная на знаниях, инновации, риск, Кремниевая долина.

DOI: https://doi.org/10.36719/2707-9317/05/168-174

# Digital trust in Azerbaijan's emerging e-commerce market building digital trust in Azerbaijan's e-commerce ecosystem: challenges and solutions

**Fehruz Jabrayilov**
PhD.C
Ministry of Science and Education, Economics Institute,
Baku, Azerbaijan.
fehruzjabrayilov@gmail.com
ORCID No - 0009-0009-1959-5765

**Abstract:** Azerbaijani e-commerce is growing rapidly, however digital trust remains a significant challenge to its full potential. Barriers such as payment security concerns, weak regulatory frameworks, and inadequate data protection tools undermine consumer confidence. This paper explores these issues, emphasizing the significant role of digital trust in shaping online consumer behavior. Drawing on international and local practices, it highlights solutions like implementing blockchain for secure transactions, improving privacy regulations, and fostering transparent review systems. Enhancing digital trust will not only strengthen consumer confidence but also drive sustainable growth in Azerbaijan's e-commerce sector.

**Key words**: Azerbaijan, E-commerce, Digital trust, Consumer confidence, Payment security, Data protection, Blockchain technology, Privacy regulations, Sustainable growth.

# Azərbaycanın inkişafda olan elektron ticarət bazarında rəqəmsal inam Azərbaycanın elektron ticarət ekosistemində rəqəmsal inamın qurulması: çağırışlar və həllər

**Fehruz Cəbrayılov**
doktorant
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu, Bakı
fehruzjabrayilov@gmail.com,
ORCID No - 0009-0009-1959-5765

**Xülasə:** Azərbaycanda e-ticarət sürətlə inkişaf etsə də, rəqəmsal etibar bu sahənin tam potensialına çatmasına mane olan əsas problemlərdən biridir. Ödənişlərin təhlükəsizliyi ilə bağlı narahatlıqlar, zəif tənzimləyici çərçivələr və məlumatların qorunmasındakı çatışmazlıqlar istehlakçı inamını azaldır. Bu məqalə rəqəmsal etibarın onlayn istehlakçı davranışındakı mühüm rolunu vurğulayaraq, mövcud problemləri araşdırır. Beynəlxalq və yerli təcrübələr əsasında blokçeyn texnologiyasının tətbiqi, məxfilik qanunlarının təkmilləşdirilməsi və şəffaf rəy sistemlərinin təşviqi kimi həll yolları təklif olunur. Rəqəmsal etibarın gücləndirilməsi həm istehlakçı inamını artıracaq, həm də Azərbaycanda e-ticarət sektorunun davamlı inkişafına təkan verəcəkdir.

**Açar sözlər:** Azərbaycan, Elektron ticarət, Rəqəmsal inam, İstehlakçı inamı, Ödəniş təhlükəsizliyi, Məlumatların qorunması, Blokçeyn texnologiyası, Məxfilik qaydaları, Davamlı inkişaf.

## Giriş

Son illərdə Azərbaycanda e-ticarət sektoru sürətlə inkişaf edərək, rəqəmsal iqtisadiyyatın genişlənməsində mühüm rol oynamağa başlamışdır. Dünyada rəqəmsal texnologiyaların iqtisadiyyata inteqrasiyasının artması ilə yerli bazarda da onlayn ticarətə olan maraq əhəmiyyətli dərəcədə yüksəlmişdir. Lakin bu inkişafın yanında, xüsusilə istehlakçı davranışına mənfi təsir göstərə biləcək bir sıra problemlər ortaya çıxır. Bu problemlərin mərkəzində rəqəmsal inamın yetərincə formalaşmaması dayanır.

İstehlakçılar onlayn ticarət zamanı potensial risklərə qarşı daha həssas davranır, bu isə onların alış-veriş qərarlarını ləngidə və ya tamamilə qarşısını ala bilər. Bu məqalə rəqəmsal inamın təkcə texnoloji yeniliklər baxımından deyil, həm də sosial və iqtisadi inkişafın bir vasitəsi kimi əhəmiyyətini araşdırır. Beynəlxalq təcrübələrdən və yerli bazarın xüsusiyyətlərindən bəhrələnərək, e-ticarətdə rəqəmsal etibarı möhkəmləndirmək üçün həll yolları və strateji prioritetlər təklif olunacaq. Məqalə həmçinin rəqəmsal etibarın istehlakçı davranışlarına təsirini və bu təsirin sektorun ümumi inkişafına olan əhəmiyyətini dərin şəkildə təhlil edir.

## Azərbaycanda E-Ticarət: Çətinliklər və Fürsətlər

Azərbaycan e-ticarət sektoru hələ də ilkin inkişaf mərhələsindədir və bu sahədə potensial artım üçün geniş imkanlar mövcuddur. Mövcud statistika göstərir ki, ölkədə internet istifadəçilərinin sayı əhəmiyyətli dərəcədə artmışdır, lakin onlayn ticarətə olan etibar hələ də tam şəkildə formalaşmamışdır. Azərbaycan e-ticarət sektoru ilə bağlı mövcud statistika sahənin inkişaf potensialını daha dəqiq təsvir edir. Dövlət Statistika Komitəsinin (DSK) məlumatlarına əsasən, ölkədə internet istifadəçilərinin sayı hər il artaraq 2025-ci ilə qədər əhalinin təxminən 85%-ni əhatə edəcəyi proqnozlaşdırılır (DSK, 2024). Beynəlxalq Telekommunikasiya İttifaqının(ITU) araşdırmalarına görə, ölkədə internet istifadəçilərinin təxminən 30%-i onlayn alış-veriş edir ki, bu da e-ticarət bazarının genişlənməsi üçün böyük potensial yaradır (ITU, 2024). E-ticarət dövriyyəsi 2023-cü ildə 400 milyon AZN-ə yaxın olmuş və hər il 20%-dən çox artım tempi müşahidə edilmişdir (Statista, 2023). Azərbaycan Mərkəzi Bankının məlumatlarına görə, elektron ödənişlərin ümumi ticarət əməliyyatlarındakı payı 2023-cü ildə 25%-ə çatmışdır (CBA, 2024). Bundan əlavə, mobil tətbiqlər vasitəsilə həyata keçirilən e-ticarət əməliyyatlarının 2024-cü ildə ümumi dövriyyənin 40%-

ni təşkil edəcəyi gözlənilir (DataReportal, 2024). Bu məlumatlar göstərir ki, Azərbaycanda e-ticarət sahəsində geniş imkanlar mövcud olsa da, istehlakçı etimadını artırmaq üçün ödəniş təhlükəsizliyi, məlumatların qorunması və şəffaflıq məsələlərinə diqqət yetirilməlidir. Beləliklə, e-ticarət sektorunun potensialını tam reallaşdırmaq üçün rəqəmsal etimadın artırılması əsas hədəf olmalıdır.

**Cədvəl 1.**

**Ticarət dövriyyəsi və investisiyalar**

| Göstərici | Dəyər |
|---|---|
| 2024-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət dövriyyəsi artımı | 3.8% artım |
| 2024-cü ilin yanvar-noyabr aylarında əsas kapitala yönəldilən investisiyalar | 15,910.3 milyon manat |

*Mənbə: DSK "Ticarət" hesabatı əsasında müəllif tərtibatı*

Bu, bir tərəfdən rəqəmsal iqtisadiyyatın yerli bazarda inkişafı üçün müsbət bir baza yaratsa da, digər tərəfdən istehlakçıların təhlükəsizlik və etibarlılıq məsələlərinə dair narahatlıqlarının aradan qaldırılması üçün ciddi addımların atılmasının zəruri olduğunu göstərir. Bu çatışmazlıq, e-ticarət sektorunun potensialının tam reallaşdırılmasına əngəl yaradan əsas faktorlardan biridir. Bu, bir sıra əsas faktorlardan irəli gəlir:

### 2.1. Təhlükəsizlik problemləri

Onlayn ödənişlərin həyata keçirilməsi zamanı məlumatların sızması riski, istehlakçılarda ciddi inamsızlıq yarada bilər. Bu, xüsusilə şəxsi və maliyyə məlumatlarının qorunması məsələlərində narahatlıqların artmasına səbəb olur. İnternet üzərindən ticarət edən istehlakçılar, məlumatlarının təhlükəsizliyinə tam etibar etmədikdə, ödəniş prosesindən qaçır və ya alış-veriş etməyi təxirə salır. Beynəlxalq təcrübələr göstərir ki, ödəniş təhlükəsizliyi təmin edən və müasir şifrələmə texnologiyalarını tətbiq edən platformalar istehlakçılar arasında etibarı artırır. Məsələn, Statista (2023) mənbəyinə əsasən, ödəniş təhlükəsizliyi təmin edilmiş platformalarda istehlakçıların alış-veriş etmək əmsalı əhəmiyyətli dərəcədə yüksəlir. Bu səbəbdən, ödənişlərin təhlükəsizliyini təmin etmək, rəqəmsal etibarın qurulmasında mühüm rol oynayır və yerli e-ticarət platformalarının bu sahədə inkişaf etməsi zəruridir.

### 2.2. Qanunvericilik bazasının çatışmazlıqları

Rəqəmsal ticarəti tənzimləyən spesifik qanunların olmaması, e-ticarət sektorunda ciddi çətinliklərə səbəb olur. Qanunvericilik bazasında mövcud olan boşluqlar, xüsusilə məlumat məxfiliyi, istehlakçı müdafiəsi və ödənişlərin təhlükəsizliyi ilə bağlı problemləri dərinləşdirir. Məsələn, Avropa Birliyinin (AB) ümumi məlumatların qorunması barədə qaydalar (GDPR) rəqəmsal ticarətin tənzimlənməsində effektiv şəkildə tətbiq olunur və istehlakçıların şəxsi məlumatlarının qorunmasını təmin edir. Lakin Azərbaycanda, yerli qanunvericilik, əsasən "Elektron Ticarət Haqqında Qanun" ilə tənzimlənir. Bu qanun təməl hüquqi baza yaratmaqla yanaşı, məlumatların məxfiliyi və istehlakçıların hüquqlarının qorunması baxımından hələ də çatışmazlıqlara malikdir. Belə boşluqlar istehlakçıların e-ticarət platformalarına olan etibarını zədələyir və bazarda qeyri-şəffaf fəaliyyətin artmasına səbəb ola bilər. Qanunvericilik bazasında təkmilləşdirmələr edilməli və beynəlxalq təcrübələrdən faydalanılaraq, rəqəmsal ticarətə dair daha mükəmməl və geniş tənzimləmələr hazırlanmalıdır.

### 2.3. Məlumatın qorunması

İstehlakçı məlumatlarının təhlükəsizliyi məsələsi, rəqəmsal ticarət sahəsində ən mühüm məsələlərdən biridir. Onlayn alış-veriş zamanı istifadəçilərin şəxsi və maliyyə məlumatlarının qorunması təmin olunmadığı halda, bu, istehlakçıların etibarını ciddi şəkildə sarsıdır. Qeyri-şəffaf və zəif qorunmuş məlumat mühafizə mexanizmləri istehlakçılarda narahatlıq yaradır və onların onlayn alış-verişə olan marağını azaldır. Məlumat məxfiliyi və qorunması ilə bağlı beynəlxalq standartlar

mövcud olsa da, yerli platformalarda bu standartların tam şəkildə tətbiq olunmaması böyük bir problem yaradır. Misal üçün, məxfilik siyasətlərinin beynəlxalq tələblərə cavab verməməsi, istehlakçılara verilən zəmanətlərin etibarsız olduğunu düşündürə bilər. Bu səbəbdən, Azərbaycanda məlumat qorunması sahəsində beynəlxalq təcrübələrə uyğun, güclü və şəffaf mexanizmlər tətbiq edilməlidir. Yalnız bu halda, istehlakçılar öz məlumatlarını etibarlı şəkildə paylaşmaqda daha inamlı olacaqlar və rəqəmsal etibar artırılacaqdır.

## 3. Rəqəmsal İnamın İstehlakçı Davranışına Təsiri

İnam, istehlakçıların onlayn alış-verişdə əsas qərar verici faktorlardan biridir və rəqəmsal mühitdə bu etibarın mövcudluğu, xüsusən yeni və inkişaf etməkdə olan bazarlarda çox önəmlidir. İstehlakçılar, onlayn alış-veriş zamanı sərfəli qiymət və rahatlıq kimi üstünlükləri əldə etmək istəsələr də, məhsulun keyfiyyəti və ya çatdırılma vaxtı ilə bağlı şübhələr onların alış-veriş qərarlarını təsir edir. Bu narahatlıqlar, xüsusilə etibarın hələ tam formalaşmadığı bazarlarda daha da güclənir. Rəqəmsal mühitdə etibarın olmaması, istehlakçıları yalnız qiymət və rahatlıqla deyil, həm də risklərlə qarşılaşma qorxusu ilə üzləşdirir, bu da onların alış-veriş etməməsi və ya alış-verişi təxirə salmalarına səbəb ola bilər.

Beynəlxalq təcrübələr göstərir ki, etibarın artırılması üçün bir çox platforma müxtəlif mexanizmlərdən istifadə edir. Məsələn, Amazon kimi nəhəng e-ticarət platformalarında məhsul rəyləri və istifadəçi təcrübələri istehlakçıların məhsullar haqqında daha ətraflı məlumat əldə etmələrini və bu məhsulların etibarlılığına dair qərar vermələrini təmin edir. Məhsul rəyləri, istehlakçılara yalnız qiymət və məhsul təsvirinə deyil, həm də digər istifadəçilərin təcrübələrinə əsaslanaraq daha məlumatlı və etibarlı qərarlar qəbul etməyə kömək edir. Bu sistem, məhsulun keyfiyyətinə və çatdırılma xidmətlərinə dair aydın məlumatlar təqdim etməklə, istehlakçıların narahatlıqlarını azaldır və onların etibarını artırır.

Yerli təcrübələrdə də oxşar yanaşmalar tətbiq edilməkdədir. Məsələn, Azərbaycanda fəaliyyət göstərən "Kontakt Home" kimi şirkətlər məhsul rəyləri və müştəri şərhləri sistemini inteqrasiya etməklə istehlakçıların etibarını gücləndirir. Şirkətlər, müştərilərə məhsul haqqında digər alıcıların təcrübələrini göstərməklə, onların qərar qəbul etmə prosesini daha şəffaf və etibarlı edir. Bu sistem, yalnız məhsulun keyfiyyətini yoxlamağa deyil, həm də satıcıların xidmət səviyyəsi barədə dəyərli məlumatlar təqdim edir. Beləliklə, müştərilər yalnız qiymət və məhsul xüsusiyyətlərini deyil, həm də digər alıcıların nəzərdən keçirdiyi məlumatları nəzərə alaraq alış-veriş edir və buna görə daha inamlı şəkildə qərar verirlər.

## 4. Həll Yolları və Təkliflər

Rəqəmsal etibarın qurulması və gücləndirilməsi üçün texnoloji, təşkilati və hökumət səviyyəsində bir sıra addımlar təklif oluna bilər. Bu addımlar, e-ticarət sektorunun etibarını artırmağa, istehlakçıların onlayn alış-verişdə daha inamlı olmasına və nəticədə bazarın davamlı inkişafına şərait yaradacaq.

### 4.1. Texnoloji Yeniliklər və İnteqrasiya

Texnoloji yeniliklər, e-ticarət sahəsində rəqəmsal etibarın qurulmasında mühüm rol oynayır. Aşağıdakı təkliflər bu istiqamətdə tətbiq oluna bilər:

4.1.1. Blokçeyn Texnologiyasının Tətbiqi: Blokçeyn, ödənişlərin şəffaf və təhlükəsiz şəkildə həyata keçirilməsini təmin edən bir texnologiyadır. Bu texnologiya, məlumatların dəyişdirilə və ya manipulyasiya oluna bilməməsi ilə istehlakçılara təmin edilən təhlükəsizliyi artırır. Xüsusilə, ödəniş sistemlərində blokçeyn tətbiqi, alıcı və satıcı arasındakı əlaqəni daha etibarlı edir və istehlakçıların məlumatlarının qorunmasını təmin edir. Beynəlxalq təcrübədə, məsələn, PayPal və digər rəqəmsal ödəniş sistemləri, blokçeyn texnologiyalarından istifadə edərək ödəniş təhlükəsizliyini artırır və istehlakçı etibarını gücləndirir.

4.1.2. Sertifikatlaşma və Təhlükəsizlik Standartları: E-ticarət platformalarının beynəlxalq təhlükəsizlik standartlarına uyğun sertifikatlaşdırılması vacibdir. PCI DSS (Payment Card Industry Data Security Standard) kimi beynəlxalq təhlükəsizlik sertifikatları, onlayn ödənişlərin

təhlükəsizliyini təmin edən mühüm göstəricidir. Bu sertifikatlar, müştərilərə ödənişlərində məlumatların qorunduğunu və şəffaf şəkildə işlədildiyini bildirir. E-ticarət platformalarının bu cür sertifikatları əldə etməsi, istehlakçıların platformalara olan etibarını artıracaq və bu sahənin beynəlxalq səviyyədə tanınmasına kömək edəcəkdir.

**4.2. İctimai Maarifləndirmə və Təhlükəsizlik Məlumatlarının Paylaşılması**

İctimai maarifləndirmə və təhlükəsizlik məlumatlarının geniş şəkildə paylaşılması, istehlakçıların onlayn alış-verişdə daha təhlükəsiz və məlumatlı qərarlar qəbul etmələrinə kömək edəcəkdir.

4.2.1. Rəqəmsal Təhlükəsizlik Maarifləndirmə Kampaniyaları: E-ticarət bazarında istehlakçıların təhlükəsizliyə olan inamını artırmaq üçün geniş ictimai maarifləndirmə kampaniyaları aparılmalıdır. Bu kampaniyalar, onlayn alış-verişin təhlükəsizliyini və məlumatların qorunmasının vacibliyini izah edərək, istehlakçılara müvafiq məlumatları təmin etməlidir. Xüsusilə, istifadəçilər üçün məxfilik siyasətləri, şifrələmə və məlumat qoruma praktikaları ilə bağlı təlimatlar təqdim edilməlidir. Bu kampaniyalar həm də istifadəçiləri təhlükəsiz onlayn alış-veriş etməyə yönəldəcək və onlarda daha böyük etibar yaradacaq.

4.2.2. İstifadəçi Şərhləri və Rəylər: İstehlakçı rəyləri və qiymətləndirmə sistemlərinin şəffaf şəkildə idarə edilməsi, alıcıların məhsullar və satıcılar haqqında məlumatlı qərarlar qəbul etməsinə kömək edir. Bu cür şərhlər və rəylər yalnız məhsulun keyfiyyətini göstərməklə qalmır, həm də platformaların etibarlılığını artırır. Rəylərin düzgün və şəffaf şəkildə idarə edilməsi, süni rəylərin qarşısını almaq və istifadəçiləri daha doğru seçimlər etməyə istiqamətləndirmək üçün mühüm addım olacaqdır. Eyni zamanda, məhsul və satıcı qiymətləndirməsi, obyektiv və standartlaşdırılmış qaydalara əsaslanmalıdır.

**4.3. Hökumət və Tənzimləyici Orqanların Rolu**

Rəqəmsal etibarın qurulması üçün hökumət və tənzimləyici orqanların dəstəyi vacibdir. Onların təklif etdiyi hüquqi və təşkilati tədbirlər, sektorda etibarın qurulmasına və inkişafına təkan verəcəkdir.

4.3.1. Müvafiq Qanunvericiliyin Təkmilləşdirilməsi: Yerli qanunvericilik, xüsusən məlumat məxfiliyi və istehlakçı hüquqlarına dair daha təkmil və geniş şəkildə tənzimlənməlidir. Azərbaycanda "Elektron Ticarət Haqqında Qanun" təməl hüquqi çərçivəni təmin etsə də, bu qanunun məlumatların qorunması və istehlakçıların təhlükəsizliyinə dair nəzərdə tutulan müddəaları daha da təkmilləşdirmək lazımdır. Beynəlxalq standartlar əsasında yeni qanunvericilik dəyişiklikləri ilə rəqəmsal etibar daha da gücləndirilə bilər.

4.3.2. İnfrastruktur və Hüquqi Dəstək: E-ticarət platformalarının fəaliyyətini dəstəkləmək üçün hüquqi və texnoloji infrastrukturların inkişaf etdirilməsi vacibdir. Hökumət, özəl sektorla birgə rəqəmsal infrastrukturun gücləndirilməsi, ödəniş sistemlərinin təhlükəsizliyinin təmin edilməsi və qanunların tətbiqində effektivliyin artırılması məqsədilə təşəbbüslər irəli sürməlidir. Bu, həmçinin e-ticarət şirkətlərinin və istehlakçıların daha yaxşı müdafiəsini təmin edəcəkdir.

**4.4. Sosial Etimadın Qurulması**

Rəqəmsal etibarın gücləndirilməsi üçün sosial etimadın qurulması əhəmiyyətlidir. Sosial etimad, müştərilərin onlayn alış-verişdə daha sərbəst və təhlükəsiz hiss etmələrinə səbəb olacaqdır.

4.4.1. Rəylərin İdarə Edilməsi: Platformalarda şəffaf rəy sistemləri istehlakçıları növbəti alış-verişlərə təşviq edir və istehlakçı etibarını artırır. E-ticarət platformaları, rəylərin doğru və obyektiv şəkildə təqdim olunmasına diqqət etməli, süni rəyləri və manipulyasiyaları qarşısını almalıdır. Bu, platformaların etibarlılığını və müştəri məmnuniyyətini yüksəldəcəkdir.

4.4.2. Məhsul və Satıcı Qiymətləndirilməsi: Məhsul və satıcı qiymətləndirmə mexanizmlərinin standartlaşdırılması, istehlakçıların məlumatlı seçim etmələrini təmin edəcəkdir. E-ticarət platformalarında məhsul və satıcıların qiymətləndirilməsi obyektiv və şəffaf olmalıdır. Bu, istehlakçılara daha doğru seçimlər etməyə imkan verəcək və platformaların etibarını artıracaqdır.

Bu təkliflər və həll yolları, Azərbaycanda rəqəmsal etibarın gücləndirilməsi və e-ticarət

sektorunun inkişafına təkan verəcəkdir. Texnoloji yeniliklər, hökumət təşəbbüsləri və sosial etimadın qurulması ilə e-ticarət platformalarında etibarın artırılması mümkün olacaqdır. Yalnız etibarlı və təhlükəsiz mühit yaradaraq, istehlakçıların rəqəmsal alış-verişə olan inamını artırmaq mümkündür. Bu da uzunmüddətli və dayanıqlı bazar inkişafına şərait yaradacaqdır.

**5. Nəticə**

Azərbaycanda rəqəmsal etibarın qurulması, e-ticarətin davamlı inkişafı və genişlənməsi üçün vacib amillərdən biridir. Yuxarıda qeyd olunan texnoloji və təşkilati təkliflərin tətbiqi, yalnız istehlakçıların etibarını artırmaqla kifayətlənməyəcək, həmçinin bazarı daha cəlbedici və rəqabətədavamlı edəcəkdir. Bu təkliflər, həm yerli, həm də beynəlxalq səviyyədə daha güclü rəqəmsal infrastruktur və etibarlı ticarət mühiti yaradır.

Xüsusilə, dövlət və özəl sektorun ortaq səyi, bu sahədə sürətli və dayanıqlı irəlilənişi təmin edəcəkdir. Hökumət, müvafiq qanunvericilik və tənzimləyici çərçivələr vasitəsilə hüquqi dəstək təmin etməli, özəl sektor isə texnoloji yenilikləri və müştəri məmnuniyyətinə yönəlmiş xidmətləri inkişaf etdirməlidir. Bu əməkdaşlıq, rəqəmsal etibarın artmasına və e-ticarət bazarının daha etibarlı və təhlükəsiz olmasına təkan verəcək, nəticədə istehlakçıların onlayn alış-verişə olan inamını gücləndirəcəkdir.

Son olaraq, Azərbaycan rəqəmsal etibarın qurulması sahəsindəki bu cəhdlər, ölkənin e-ticarət sektorunun inkişafında mühüm bir mərhələni təmsil edəcək və gələcəkdə daha geniş iqtisadi faydalar təmin edəcəkdir.

**İstifadə olunmuş ədəbiyyat / References**

1. Amazon Official Website. "Customer Review System Overview."
2. Azərbaycan Respublikasının "Elektron Ticarət Haqqında Qanunu." (2017).
3. E-commerce Europe. "E-commerce in Europe: Statistics & Trends" (2023).
4. European Commission. "Digital Single Market Strategy" (2023).
5. GDPR.EU. "General Data Protection Regulation Overview." (2023).
6. OECD (Organisation for Economic Co-operation and Development). "Digital Economy Outlook" (2023).
7. PayPal. "The Future of Digital Payments" (2023).
8. PwC (PricewaterhouseCoopers). "Global Consumer Insights Survey" (2023).
9. Statista. "E-commerce payment security concerns globally." (2023).
10. World Bank. "The Digital Economy in Developing Countries" (2022).
11. Dövlət Statistika Komitəsi. (2024). Azərbaycan üzrə rəqəmsal iqtisadiyyat göstəriciləri. Retrieved from https://stat.gov.az/
12. Beynəlxalq Telekommunikasiya İttifaqı (ITU). (2024). Global ICT Development Indicators. Retrieved from https://www.itu.int/
13. Statista. (2023). E-commerce Market Insights for Azerbaijan. Retrieved from https://www.statista.com/
14. Azərbaycan Mərkəzi Bankı (CBA). (2024). Elektron ödənişlər və ticarət əməliyyatları haqqında illik hesabat. Retrieved from https://cbar.az/
15. DataReportal. (2024). Digital 2024: Azerbaijan - Key Statistics and Insights. Retrieved from https://datareportal.com/

# Цифровое доверие на развивающемся рынке электронной коммерции Азербайджана формирование цифрового доверия в экосистеме электронной коммерции Азербайджана: проблемы и решения

**Фехруз Джабраилов**, PhD.C
Министерство науки и образования, Институт экономики
Баку, Азербайджан
fehruzjabrayilov@gmail.com,
ORCID: 0009-0009-1959-5765

**Резюме:** Азербайджанский рынок электронной коммерции быстро развивается, однако недостаток цифрового доверия остается значительным препятствием на пути к его полному раскрытию. Проблемы, такие как обеспокоенность по поводу безопасности платежей, слабая нормативно-правовая база и недостаточные механизмы защиты данных, подрывают доверие потребителей. В данной статье исследуются эти вопросы, подчеркивается ключевая роль цифрового доверия в формировании поведения потребителей в интернете. Основываясь на международной и локальной практике, статья предлагает решения, такие как внедрение блокчейн-технологий для обеспечения безопасных транзакций, совершенствование правил конфиденциальности и развитие прозрачных систем отзывов. Укрепление цифрового доверия не только повысит уверенность потребителей, но и станет двигателем устойчивого роста сектора электронной коммерции в Азербайджане.

**Ключевые слова:** Азербайджан, электронная коммерция, цифровое доверие, уверенность потребителей, безопасность платежей, защита данных, технологии блокчейна, правила конфиденциальности, устойчивый рост.

DOI: https://doi.org/10.36719/2707-9317/05/175-184

# The impact of public-private partnerships on the tourism sector: infrastructure, investments and sustainable development

**Aynur Nabizada**
Ministry of Science and Education of the Republic of Azerbaijan, Institute of Economics, junior researcher
E-mail: aynur.nabizada@mail.ru, contact number: 0559789250
https://orcid.org/0009-0004-4548-6507

**Abstract:** This article assesses the current state of public-private partnerships in the regulation of tourism services. The study covers the role of public-private partnerships in the tourism sector, their positive and negative impacts, as well as the challenges encountered in their implementation. Through examples from different countries, the importance of such joint activities in the development of tourism services is highlighted. The article discusses ways to develop such partnerships to create a more efficient and sustainable tourism environment.

Public-private partnerships (PPPs) play an important role in the development of infrastructure in the tourism sector, attracting investments and ensuring sustainable development. These partnerships, by combining the resources of the public and private sectors, allow for the construction and improvement of modern infrastructure in the tourism sector. At the same time, thanks to private sector investments, innovative projects in the tourism sector are implemented and economic growth is ensured. PPPs also contribute to environmental protection and socio-economic development of local communities by supporting sustainable tourism development. This model helps the tourism sector become stronger and more sustainable.

**Key words:** public-private partnership, tourism services, infrastructure, tourism environment, tourism development.

**JEL Z320, UOT 379.85**

# Dövlət-özəl tərəfdaşlıqların turizm sektoruna təsiri: infrastruktur, investisiyalar və davamlı inkişaf

**Aynur Nəbizadə**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, İqtisadiyyat İnstitutu,
kiçik elmi işçi
E-mail: aynur.nabizada@mail.ru,
https://orcid.org/0009-0004-4548-6507

**Xülasə:** Bu məqalə, turizm xidmətlərinin tənzimlənməsində dövlət-özəl əməkdaşlığın cari vəziyyətini dəyərləndirir. Araşdırma, dövlət-özəl tərəfdaşlığın turizm sahəsindəki rolunu, müsbət və mənfi təsirlərini, habelə tətbiq olunarkən qarşıya çıxan çətinlikləri əhatə edir. Fərqli ölkələrdən əldə edilən nümunələr vasitəsilə, sözügedən birgə fəaliyyətin turizm xidmətlərinin inkişafındakı əhəmiyyəti vurğulanır. Məqalə, daha səmərəli və davamlı bir turizm mühiti yaratmaq üçün həmin tərədaşlığın inkişaf yollarını müzakirə edir.

Dövlət-özəl tərəfdaşlıqlar turizm sektorunda infrastrukturun inkişafı, investisiyaların cəlbi və davamlı inkişafın təmin olunmasında mühüm rol oynayır. Bu tərəfdaşlıqlar, dövlət və özəl sektorun resurslarını birləşdirərək, turizm sahəsində müasir infrastrukturun qurulmasına və təkmilləşdirilməsinə imkan verir. Eyni zamanda, özəl sektorun investisiyaları sayəsində turizm sahəsində yenilikçi layihələr həyata keçirilir, iqtisadi artım təmin olunur. DÖT-lər həm də davamlı turizm inkişafını dəstəkləyərək, ətraf mühitin qorunmasına və yerli icmaların sosial-iqtisadi inkişafına töhfə verir. Bu model, turizm sektorunun daha güclü və dayanıqlı olmasına kömək edir.

**Açar sözlər:** dövlət-özəl tərəfdaşlığı, turizm xidmətləri, infrastruktur, turizm mühiti, turizmin inkişafı.

**JEL Z320, UOT 379.85**

## Giriş

Turizm, ölkə iqtisadiyyatına əhəmiyyətli dərəcədə töhfə verərək iş yerlərinin yaradılmasına və yerli müəssisələrin inkişafına dəstək olur. Həmçinin, xarici valyuta gəliri təmin edərək dövlət büdcəsinin artırılmasına kömək edir.

Azərbaycanda turizm sahəsində özəl və dövlət müəssisələri fəaliyyət göstərir. Dövlət müəssisələrinə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Turizm Bürosu və Dövlət Turizm Agentliyi aid edilir. Özəl müəssisələrə isə otel və mehmanxanalar, turizm şirkətləri, restoran və kafe şəbəkələri aid edilir.

Bildiyimiz kimi, Azərbaycan bərpa olunan enerji, xüsusilə günəş və külək enerjisi sahəsində əhəmiyyətli potensiala malikdir. Azərbaycan bərpa olunan enerji, xüsusilə günəş və külək enerjisi sahəsində əhəmiyyətli potensiala malikdir. Dövlət-özəl tərəfdaşlıq edilməsi ilə infrastrukturun inkişafı üçün özəl sektorun təcrübəsindən və kapitalından istifadə edərək bu sektorlara investisiyaları asanlaşdırmaq mümkündür.

Dövlət-özəl tərəfdaşlığı – dövlət xidmətlərinin göstərilməsinə, eləcə də həmin xidmətlərin göstərilməsi ilə bağlı infrastrukturun yaradılmasına və idarəedilməsinə dair bu Qanuna uyğun olaraq bağlanılan müqaviləyə əsaslanan dövlət tərəfdaşı ilə özəl tərəfdaşın birgə fəaliyyətdir [1]. Dövlət-özəl tərəfdaşlığı (DÖT), dövlət və özəl sektor arasında əməkdaşlıq modelidir ki, burada resurslar, bilik və risklər paylaşılır. Turizm sektorunda DÖT, infrastruktur layihələrinin həyata keçirilməsi və xidmətlərin keyfiyyətinin artırılması üçün effektiv bir yol təqdim edir, çünki bu model həm maliyyə, həm də innovativ imkanlar yaradır. Qlobal trendlər, turizm sektorunda texnologiyanın, ekoturizmin və dayanıqlı inkişafın artan əhəmiyyətini vurğulayır, çünki müasir turistlər daha fərdi və məsuliyyətli səyahət təcrübələri axtarırlar. Eyni zamanda, pandemiya sonrası bərpa dövrü, virtual turizm və sağlamlıq turizmi kimi yeni yanaşmaların ortaya çıxmasına səbəb oldu.

**Tədqiqat işinin aktuallığı**

Tədqiqat işimin aktuallığı turizm sektorunun iqtisadi inkişafdakı əhəmiyyəti ilə bağlıdır. Dövlət-özəl tərəfdaşlığın (DÖT) turizm xidmətlərinin tənzimlənməsindəki rolu, müasir iqtisadiyyatların diversifikasiyası baxımından önəmlidir. Pandemiya sonrası dövrdə turizm sahəsinin bərpası, yeni yanaşmaların tətbiqini zəruri edir. Eyni zamanda, ekoturizm və dayanıqlı inkişaf prinsiplərinin önə çıxması, DÖT-nin müasir tələblərə uyğun inkişafını tələb edir. Bu səbəbdən, dövlət-özəl əməkdaşlığının araşdırılması, sektorda səmərəli strategiyaların formalaşmasına kömək edə bilər.

**Tədqiqatın məqsədi**

Araşdırma, dövlət-özəl tərəfdaşlığın turizm sahəsindəki rolunu, müsbət və mənfi təsirlərini, habelə tətbiq olunarkən qarşıya çıxan çətinlikləri əhatə edir. Fərqli ölkələrdən əldə edilən nümunələr vasitəsilə, sözügedən birgə fəaliyyətin turizm xidmətlərinin inkişafındakı əhəmiyyəti vurğulanır. Məqalə, daha səmərəli və davamlı bir turizm mühiti yaratmaq üçün həmin tərəfdaşlığın inkişaf yollarını müzakirə edir.

**Tədqiqatın metodologiya və tədqiqat üsulları**

Məqalədə, dövlət-özəl tərəfdaşlığının turizm xidmətlərindəki rolunu araşdırmaq üçün analitik metodlardan istifadə edilir. Məlumatların toplanması üçün keyfiyyət və kəmiyyət tədqiqat metodları birləşdirilir. Müxtəlif ölkələrdən real nümunələr və statistik məlumatlar təhlil edilərək DÖT-nin müsbət və mənfi təsirləri qiymətləndirilir. O cümlədən, tədqiqatda ədəbiyyat icmalı metodologiyasından da istifadə edilmişdir. Mövcud ədəbiyyatın sistematik analizi, tədqiqatın konseptual çərçivəsini müəyyən etməyə və araşdırma mövzusu ilə bağlı nəzəri biliklərin artırılmasına yönəlmişdir.

**Əsas hissə**

Tarazlı inkişaf yanaşması həm Bakının potensialının reallaşdırılmasına, həm də regionlar üzrə turizm sektoruna investisiya qoyuluşuna (bununla da şəhər, sağlamlıq, qış və ekoloji turizm kimi sahələrdən başqa, dini, kruiz və çimərlik turizmi də daxil olmaqla müxtəlif turizm növlərinin inkişafına) səbəb olacaqdır. Bu investisiyalar 2020-ci ilədək bu Strateji Yol Xəritəsində müəyyən edilmiş prioritetlərin həyata keçirilməsini, o cümlədən təsirləri 2025-ci ilədək uzunmüddətli dövrü əhatə edəcək təşəbbüslərin icrasını da ehtiva edəcəkdir [15].

Daha çox birbaşa xarici investisiya cəlb etmək məqsədilə Azərbaycanda sadələşdirilmiş hüquqi və inzibati proseslər, həmçinin müvafiq tənzimləyici dəyişikliklər nəticəsində əlverişli mühit yaranacaqdır. Turizm assosiasiyaları ilə əməkdaşlıq çərçivəsində sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi prosesi nəzərdən keçiriləcək və gələcək perspektivdə görünə bilən bütün maneələrin aradan qaldırılmasına səy göstəriləcəkdir [15].

Turizm klasterinin dövlət-özəl tərəfdaşlığa kifayət qədər təsir edir. Son vaxtlar turizm sənayesində “klaster” termini getdikcə daha çox istifadə olunur. "cluster" sözü ingiliscə "cluster" sözündən tərcümədə klaster deməkdir. Klaster nəzəriyyəsinin banisi Harvard Məktəbinin professoru Maykl Porter hesab edir ki, klasterin uğurlu inkişafı üçün vacib amillərdən biri davamlı inkişaf strategiyasının olmasıdır. M.Porterin fikrincə, “klasterlər post-sənaye iqtisadiyyatının formalaşması şəraitində rəqabət üstünlüklərinin əldə edilməsinə yönəlmiş maraqlı tərəflərin səylərinin birləşdirilməsinin təşkilati formasıdır” [2].

Dövlət-özəl tərəfdaşlıqları təşviq etmək üçün bir sıra dövlət proqramlarını həyata keçirməyə təşəbbüs göstərilmişdir. Diqqətçəkən təşəbbüslərdən biri də dövlət və özəl müəssisələr arasında əməkdaşlıq yolu ilə turizm sferasını inkişaf etdirmək məqsədini daşıyan *“Azərbaycanda turizmin inkişafı üzrə Dövlət Proqramı”*dır (2010-2014) [3]. Bu proqramın qəbul edilməsində əsas diqqət infrastrukturun inkişafına, turist xidmətlərinin yaxşılaşdırılmasına və turizmlə bağlı layihələrə investisiyaların artırılmasına yönəlmişdir.

Bundan başqa, “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” işlənib hazırlanmışdır ki, bu strategiyanın fəaliyyət istiqamətlərindən biri məhz turizm sektorunun davamlı inkişafını təmin etmək üçün strateji, institutsional və maliyyələşmə mexanizmlərinin gücləndirilməsidir. Turizm sahəsi ilə bağlı olan hissədə dövrün sonuna turizm üzrə daxilolmaların 20% artması, eləcə də, turizmin qeyri-neft/qaz ÜDM-də xüsusi çəkisinin artması

məqsədi öz əksini tapmışdır [10]. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" əsas götürülməklə hazırlanmış *"Azərbaycan Respublikasının turizm strategiyası 2023-2026"* adlı sənəd Azərbaycanda turizmin inkişafı məqsədini daşıyır. Qeyd edək ki, bu sənəd Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun birgə səyi nəticəsində ərsəyə gəlmişdir [4].

*"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"*nda əsas prinsipləri:

1. Turizm əsaslı iqtisadi artım ilə keyfiyyətli xidmət və turizm resurslarından dayanıqlı istifadə edilməsi ehtiyaclarını uzlaşdırmaq məqsədilə keyfiyyət və kəmiyyət yanaşmalarının balanslaşdırılması;
2. Təbii və mədəni irsin mühafizəsi, eləcə də ətraf mühitin qorunmasını hədəf alan məsuliyyətli planlama və idarəetmə təcrübələrinin tətbiqi;
3. Dövlətin sosial-iqtisadi inkişafa dair milli strategiyası ilə uyğunluğun təmin edilməsi;
4. Kənd yerlərində dayanıqlı və inklüziv inkişafın təşviqi yolu ilə Bakı və bölgələr arasında inkişaf fərqlərinin azaldılması;
5. Dövlət-özəl tərəfdaşlığının təşviqi və Azərbaycanın regional səviyyədə rəqabətqabiliyyətliliyinin artırılması;
6. Yerli sakinlər tərəfindən istər yerli, istərsə də beynəlxalq ziyarətçilərə müxtəlif məxsusi turizm təcrübələrinin təqdim edilməsi məqsədilə mövcud yerli resurslardan istifadə edilməsinə diqqət ayrılması;
7. Qabaqcıl beynəlxalq təcrübənin əsas götürülməsi və beynəlxalq əməkdaşlıqdan maksimum fayda əldə edilməsi [4].

**Turizmdə investisiyalar və dövlət-özəl tərəfdaşlığı**

Bildiyimiz kimi, turizm sektoruna cəlb edilən sərmayə kifayət qədər deyildir. Lakin dövlət sərmayə sərfini balanslaşdırmaq üçün turizm sektorunu maliyyə mənbələri ilə təmin edir. Bu, dövlət siyasətinin əsas prioritetlərindən biri hesab edilir. İqtisadiyyat Nazirliyi ilə İnvestisiya Təşviqi Sənədi mexanizmi çərçivəsində aktiv əməkdaşlığın həyata keçirilməsində müsbət irəliləyişlər əldə olunmuşdur [5].

Xarici investisiyaların cəlb edilməsi ilə turizm sektorunda fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektləri əsas təkanverici qüvvə hesab edilir. İnkişaf prosesləri ekoloji dayanıqlılıq prinsiplərinə əsaslanaraq, Azərbaycanda kəndlərin və bütövlükdə, regionların inkişafının mühüm komponentinə çevrilməsinə xidmət edir. Azərbaycan hökuməti turizmə özəl investisiyaları təşviq etmək üçün vergi güzəştləri, qrantlar və sadələşdirilmiş lisenziyalaşdırma prosesləri kimi stimullar təklif edir [6].

**Qrafik 1. Turizm üçün xarakterik sahələr üzrə qoyulan investisiyaların həcmi**




Mənbə: AR DSK "Azərbaycanda turizm" rəsmi nəşr, statistik məcmuə, Bakı – 2024, səh 19. əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qrafikdən belə nəticə çıxarmaq olar ki, 2020-ci ildə pandemiyanın təsiri ilə investisiyalar kəskin azalmışdır, lakin 2021-ci ildə turizm sektorunun bərpa olunması ilə birlikdə investisiyalar artmışdır. 2022-ci ildə isə bu artım davam etməmiş və yenidən eniş qeydə alınmışdır. 2018-ci ildə investisiyaların həcmi 229,7 milyon manatdır. 2019-ci ildə bu rəqəm 133,7 milyon manata düşür, bu il üçün nisbətən azalmanın olduğu görünür. 2020-ci ildə pandemiya ili olduğu üçün investisiyalar ən aşağı səviyyəyə enərək 45,8 milyon manat olub. 2021-ci ildə isə kəskin artım müşahidə olunur və investisiyaların həcmi 242,4 milyon manata çatıb, bu dövr üçün ən yüksək rəqəmdir. 2023-cü ildə yenidən artım baş verir və investisiya həcmi 479 milyon manat (ilkin məlumatlara əsasən) olur.

**Cədvəl 1.**

**Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayı və turizm məqsədilə Azərbaycana gələn əcnəbi turistlərin turizm məqsədilə çəkdiyi xərclər (gecə və milyon manatla)**

| | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayı (gecə) | 2 240 873 | 416 729 | 414 404 | 1 394 115 | 1 863 980 |
| Turizm məqsədilə Azərbaycana gələn əcnəbi turistlərin turizm məqsədilə çəkdiyi xərclər (milyon manat) | 2971,4 | 414,7 | 493,6 | 1340,2 | 2439,2 |

Mənbə: AR DSK "Azərbycanda turizm" rəsmi nəşr, statistik məcmuə, Bakı – 2024, səh 30. əsasən müəllif tərəfindən tərtib edilmişdir.

Yuxarıda qeyd edilən cədvəldə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayı və turizm məqsədilə Azərbaycana gələn əcnəbi turistlərin turizm məqsədilə çəkdiyi xərclər qeyd olunmuşdur. Burada gecələmələrin sayı gecə ilə, çəkilən xərclər isə milyon manatla ifadə edilmişdir. Cədvələ əsasən ən çox gecələmə sayı 2019 və 2023-cü illərdə qeydə alınmışdır. Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkəmizdə turizm məqsədilə çəkilən xərclərin miqdarı da 2019 və 2023-cü illərdə digər illərə nisbətən daha çox olmuşdur. Hər iki göstərici üzrə ən aşağı rəqəmlər isə 2020 və 2021-ci illərdə qeydə alınmışdır. Bu göstəricilər pandemiya dövrü ilə əlaqədar olaraq qeyd olunan illərdə aşağı səviyyəyə düşmüşdür.

Dövlət-özəl tərəfdaşlığa təsir göstərən göstəricilər sırasından investisiya həcmi və əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayı arasında əlaqə olduğunu müəyyən etmək olar. Belə ki, korelyasiya qrafiki əsasında bu göstəricilər arasında necə bir əlaqə olduğunu görmək mümkündür.

**Qrafik 2. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayı ilə investisiya həcmi arasında asılılıq (2012-2023-cü illər)**




*Mənbə: AR DSK "Azərbaycanda turizm" rəsmi nəşr, statistik məcmuə, Bakı – 2024 əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Yuxarıda göstərilmiş qrafikdə korelyasiya əmsalının mənfi olduğunu müşahidə edə bilərik. Burada mənfi asılılıq o deməkdir ki, investisiya həcminin artması əcnəbi və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmələrin sayının artmasına təsiri yüksək deyildir. O cümlədən, bu korrelyasiya

qrafikindən belə nəticəyə gəlmək olar ki, investisiya həcmi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üzrə gecələmə sayı arasında əlaqə zəifdir.

Ümumiyyətlə, regional turizmin inkişaf etdirilməsi və sabit vergi xərclərinin azaldılması məqsədilə turizm subyektlərinə (mehmanxana, hotel və sanatoriyalar) vergi təşviqlərinin verilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə bəzi şəhər və rayonlarda mehmanxana, hotel və sanatoriya fəaliyyətində istifadə edilən daşınmaz əmlaka görə əmlak vergisinin 2024-ci il yanvarın 1-dən 3 il müddətinə 75 faiz azaldılması ilə bağlı Vergi Məcəlləsində dəyişiklik edilib. Dəyişikliyin əsas məqsədi regional turizmi dəstəkləmək və biznes üzərindəki sabit vergi xərclərini optimallaşdırmaqdır [7].

Tədqiqat işində Səyahət və Turizm İnkişaf İndeksi üzrə göstəricilər müqayisə edilmişdir. Belə ki, türk dövlətlərinin bu indeks üzrə dərəcəsi aşağıdakı qrafikdə öz əksini tapmışdır.

**Diaqram 1. Səyahət və Turizm İnkişaf İndeksi (Türk dövlətləri üzrə)**




*Mənbə: Səyahət və Turizm İnkişaf İndeksi, 2024 (s. 11) əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən göründüyü kimi, türk dövlətləri arasında ən yuxarı göstərici Türkiyədə, ən aşağı göstərici isə Qırğızıstanda qeydə alınmışdır. Azərbaycan isə indeksə görə türk dövlətləri arasında 4-cü yeri tutmuşdur. Ümumi dünya ölkələri üzrə olan siyahıya nəzər salsaq, indeks dərəcəsinə görə Türkiyə siyahıda 29-cu, Gürcüstan 45-ci, Qazaxıstan 52-ci, Azərbaycan 56-cı, Özbəkistan 78-ci, Qırğızıstan isə 102-ci yerdə olduğunu müşahidə etmiş olarıq. Türkmənistan isə bu siyahıda yer almamışdır.

Turizm xidmətləri insanların ən çox istifadə etdiyi xidmətlərdəndir. Bu xidmətlərindən istifadə etməklə insanlar öz fiziki qabiliyyətlərini bərpa edir, müxtəlif ölkələrin tarix və mədəniyyəti ilə tanış olmasına şərait yaradır. BMT-nin Ümumdünya Turizm Təşkilatı bu növ səyahətlərin 2030-cu ildə 1,8 milyarda çatacağını bildirmişdir [8].

**Tədbirlərin təşkilində dövlət-özəl tərəfdaşlığın əhəmiyyəti**

Azərbaycan müxtəlif mövzular üzrə, fərqli sahələr üzrə işgüzar tədbirlərə ev sahibliyi etmişdir. Dövlət və özəl qurumlar, eləcə də onların qarşılıqlı tərəfdaşlığı işgüzar tədbirlərin təşkil edilməsi və bununla əlaqədar layihələrin həyata keçirilməsi üçün bir platforma rolunu oynayır.

Ölkəmiz yüksək səviyyəli işgüzar tədbirlər keçirilməsi üçün tam təchiz olunmuş infrastrukturlu məkanlar və sənaye üzrə peşəkar təcrübəyə malikdir. Tədbir məkanları, yüksək xidmət göstərən hotellər və məkanlar, peşəkar konfrans təşkilatçıları, turizm şirkətləri, aviaşirkətlər və bir sıra tərəfdaş şirkətlər ilə sıx əməkdaşlıq münasibətləri yaradılır. Tərəfdaşlıq vasitəsilə bütün partnyorlar tədbirlərə və təlimlərə çıxış, o cümlədən kanallarımız vasitəsilə öz marketinq fəaliyyətlərini həyata keçirmək üçün tədqiqat, statistik məlumatlar və tanıtım alətlərindən istifadə etmək imkanı əldə edirlər. Tərəfdaşlıq Azərbaycanda qeydiyyatdan keçmiş şirkətlər üçün nəzərdə tutulub [11].

Festivallar, konfranslar, sərgilər kimi beynəlxalq tədbirlərin təşkilində dövlət-özəl tərəfdaşlığın rolu böyükdür. Dövlət resurslarını və özəl təcrübəni birləşdirməklə sözügedən tədbirlərin təşkil edilməsi Azərbaycanın turizm məkanı kimi tanınmasına öz təsirini göstərmiş olar. 11 noyabr 2023-cü il tarixdə Göyçay Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 15-ci “Nar Festivalı” [12], Cari ilin

sentyabrın 8-də Dövlət Turizm Agentliyi və Şamaxı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Şamaxı şəhərinin Meysəri kəndində keçirilən 2 günlük Üçüncü Üzüm və Şərab Festivalı [13]**, cari ilin may ayının 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı [14],** Beynəlxalq Turizm və Səyahətlər *Sərgisi* "*AITF*" və digər tədbirlər bura daxildir. Dövlət-özəl tərəfdaşlıq, turizm kontekstində mütəmadi olaraq turizm xidmətlərinin keyfiyyətini və səmərəliliyini artıran hədəfə çatmaq üçün hər iki sektorun güclü tərəflərindən istifadə etmək məqsədi daşıyır.

Dövlət-özəl tərəfdaşlıq üçün xarakterizə edilən göstəricilər siyahısında mehmanxana və mehmanxana tipli müəssisələrin sayı da yer almışdır. Belə ki, aşağıda göstərilən Qrafik mehmanxana və mehmanxana tipli müəssisələrin sayının müxtəlif illər üzrə statistikasını əks etdirir.

**Diaqram 2. Mehmanxana (otel) və mehmanxana tipli müəssisələrin sayı**




Mənbə: AR DSK "Azərbaycanda turizm" rəsmi nəşr, statistik məcmuə,
Bakı – 2024 əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu Qrafikdə 2018-2022-ci illər üzrə olan perioda aid mehmanxana və mehmanxana tipli müəssisələrin sayı göstərilmiş və bu saylar vahidlə ifadə olunmuşdur. Turizm üçün xarakterik sahələr üzrə investisiya həcmində olduğu kimi, burada da ən aşağı səviyyə 2020-ci ildə, ən yuxarı səviyyə isə 2021-ci ildə qeydə alınmışdır. 2020-ci il pandemiya dövrünə təsadüf etdiyi üçün ən aşağı səviyyə olan dövr hesab edilmişdir.

Digər qrafik isə müxtəlif ölkələr üzrə 2021 və 2022-ci illər üzrə mehmanxana və mehmanxana tipli müəssisələrin sayının Azərbaycanla müqayisəsini əks etdirmişdir.

**Diaqram 3. Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahidlə**




Mənbə: *Turizm Statistikası Verilənlər Bazası/Turizm sənayesi - 2022 əsasında müəllif tərəfindən tərtib edilmişdir. (https://www.unwto.org/tourism-statistics/key-tourism-statistics)*

Qrafikdən göründüyü kimi, 2021 və 2022-ci illər üzrə ən yüksək göstərici Türkiyədə qeydə alınmışdır. Bu illərdə ən aşağı göstərici isə Azərbaycanda qeydə alınmışdır.

Davamlı turizm, ictimai və özəl sektorların destinasiya şəkillərinin yaradılması və idarə edilməsində dürüstlük, məsuliyyət və etibarlılıq tələb edir. Eyni zamanda, bu şəkillərin yaratdığı motivasiya ilə yaranan tələbin, əslində təqdim edilə bilən bir məhsul və ya destinasiya ilə qarşılanacağına dair real bir gözlənti olmalıdır [16].

**Beynəlxalq təcrübədə dövlət-özəl tərəfdaşlığın mövcud vəziyyəti**

Məqalədə beynəlxalq təcrübənin öyrənilmə səviyyəsi də araşdırılmışdır. Müxtəlif ölkələrdə, məsələn, İspaniya və İtaliya kimi turizm sahəsindəki inkişaf etmiş ölkələrdə dövlət-özəl tərəfdaşlığının uğurlu tətbiqi nümunələri öyrənilib. Yeni Zelandiya və İsveçdə ekoturizm layihələrinin dövlət-özəl tərəfdaşlıq vasitəsilə necə idarə olunduğu öyrənilmişdir. Bu yanaşmalar, ekoloji davamlılığın artırılmasına kömək edir. ABŞ və Avstraliya, dövlət-özəl tərəfdaşlığı çərçivəsində maliyyə stimulları və investisiya modelləri ilə bağlı müsbət təcrübələr təqdim edir. Bu modellər, özəl sektorun turizm layihələrinə cəlb edilməsini artırır.

İspaniyada, DÖT çərçivəsində müxtəlif turizm infrastrukturu layihələri həyata keçirilmişdir. Məsələn, Barcelona şəhərindəki port infrastrukturunun modernləşdirilməsi üçün özəl sektor ilə əməkdaşlıq edilib. Bu, şəhərin turizm potensialını artırmış, xarici ziyarətçilərin sayını yüksəltmişdir. İtaliyada, tarixi yerlərin bərpası üçün DÖT tətbiq olunmuşdur. Bu kontekstdə, özəl şirkətlər tarixi binaların restorasyonu və mühafizəsi üçün dövlətlə əməkdaşlıq edir. Məsələn, Florensiyada məşhur "Uffizi" muzeyinin genişləndirilməsi layihəsində, özəl sektordan cəlb olunan maliyyə dəstəyi, turizm axınını artırmışdır.

Yeni Zelandiyada, ekoturizm layihələrinin inkişafı üçün dövlət-özəl tərəfdaşlıqları mövcuddur. Məsələn, özəl turizm operatorları ilə əməkdaşlıq yolu ilə, yerli ekosistemlərin qorunması və turizm imkanlarının artırılması məqsədilə layihələr həyata keçirilir. Bu yanaşma, həm iqtisadi, həm də ekoloji dayanıqlılığı artırır.

Avstraliya, turizm sahəsində DÖT vasitəsilə maliyyə stimul paketləri təqdim edir. Burada, infrastruktur inkişafına dair layihələrdə özəl investorlara vergi güzəştləri və digər stimullar verilir. Bu yanaşma, Avstraliyanın turizm sektorunun inkişafını sürətləndirmişdir [9].

## Nəticə

Dövlət-özəl tərəfdaşlıqlar turizm sektorunun inkişafında mühüm rol oynayır, çünki bu əməkdaşlıqlar həm infrastrukturun, həm də investisiyaların artırılmasına imkan verir. Dövlətin təmin etdiyi hüquqi və maliyyə dəstəyindən istifadə edən özəl sektor, turizm sahəsində daha böyük və müasir layihələr həyata keçirə bilər. Bu tərəfdaşlıqlar, həmçinin turizm təcrübəsinin keyfiyyətini artırmaq və destinasiya imicini gücləndirmək üçün vacibdir. İnfrastrukturun inkişafı, yoldaş xidmətlər, otel və turizm obyektlərinin tikintisi turizmin böyüməsini təmin edir. Eyni zamanda, dövlət-özəl tərəfdaşlıqları davamlı inkişaf prinsiplərinə uyğun layihələrin reallaşdırılmasına da şərait yaradır. Nəticədə, bu əməkdaşlıq modelinin düzgün idarə edilməsi, yerli iqtisadiyyatın inkişafı və ekoloji balansın qorunmasına töhfə verə bilər. Dövlət-özəl tərəfdaşlıqları, həmçinin turizm sektorunda məşğulluğun artırılması və yerli icmaların iqtisadi rifahının yaxşılaşdırılması baxımından da mühüm əhəmiyyət daşıyır. Bu əməkdaşlıqların effektivliyi, davamlı turizm inkişafını təmin edərək, resursların səmərəli istifadəsini və ekosistemlərin qorunmasını dəstəkləyir. Ümumilikdə, dövlət və özəl sektor arasında güclü əməkdaşlıq turizm sahəsinin dayanıqlı və uzunmüddətli inkişafını təmin edə bilər.

Dövlət-özəl tərəfdaşlıqlar, həmçinin turizmin inkişafı və infrastrukturun modernləşdirilməsi baxımından əhəmiyyətli bir rol oynayır. Bu yanaşma, resursların səmərəli istifadəsini təmin edir, innovasiyaların təşviqinə yardım edir və iqtisadiyyatın inkişafını dəstəkləyir. Turizm sektoruna yönəlmiş investisiyaların artırılması, yerli və xarici investorların cəlb olunmasına müsbət təsir göstərir. Eyni zamanda, beynəlxalq tədbirlərin təşkili və mədəni irsin qorunması ilə bağlı fəaliyyətlər, Azərbaycanın beynəlxalq arenada tanınmasına və yerli iqtisadiyyata müsbət təsir edir.

Nəticədə, dövlət-özəl tərəfdaşlıqların tətbiqi, turizmin dayanıqlı inkişafını təmin etmək, ekoloji davamlılığı qorumaq və mədəniyyətimizi gələcək nəsillərə ötürmək baxımından əvəzsiz bir vasitədir.

Bu yanaşma, Azərbaycanın turizm potensialını maksimum dərəcədə gerçəkləşdirmək üçün strateji bir önəm daşıyır.

**İstifadə olunmuş ədəbiyyat / References**


1. Dövlət-özəl tərəfdaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu / Bakı – 2022.
2. Национальная Академия Наук Азербайджана, Институт Экономики, Лейли Али кызы Аллахвердиева, Формирование конкурентоспособного, туризма в Азербайджане, Баку-2018.

"Azərbaycan Respublikasında 2010 — 2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

4. Azərbaycan Respublikasının Turizm Strategiyası 2023-2026.
5. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəsmi səhifəsi, https://economy.gov.az/az/page/itm
6. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, s. 4
7. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti,
8. https://www.taxes.gov.az/az/post/3002
9. AMEA İqtisadiyyat İnstitutu, İS (S) İ – 2015 İqtisadiyyatın liberallıq potensialı, Bakı 2017.
10. "Public-Private Partnerships: Reference Guide." World Bank, www.worldbank.org
11. Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası
12. Azərbaycan Turizm Bürosu/ Azərbaycan işgüzar tədbirləri haqqında https://www.tourismboard.az/az/page/70-mice-about
13. AR Göyçay Rayon İcra Hakimiyyətinin rəsmi səhifəsi, Xəbərlər bölməsi (13.11.2023).
14. http://goychay-ih.gov.az/az/news/goycayda-15-ci-nar-festivali-kecirildi.html
15. AR Dövlət Turizm Agentliyinin rəsmi səhifəsi, Xəbərlər bölməsi https://tourism.gov.az/news/shamaxida-uchuncu-uzum-ve-sherab-festivali-davam-edir
16. AR Prezidentinin rəsmi səhifəsi, Xəbərlər bölməsinin "Tədbirlər" hissəsi https://president.az/az/articles/view/65812
17. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi https://e-qanun.az/framework/57127
18. Public / private partnerships for sustainable tourism, delivering a sustainability strategy for tourism destinations, Terry De Lacy, Marion Battig, Stewart Moore, Steve Noakes JULY 2002, səh – 37.


# Влияние государственно-частного партнерства на туристический сектор: инфраструктура, инвестиции и устойчивое развитие


**Айнур Набизада**

Министерство Науки и Образования Азербайджанской Республики, Институт Экономики, младший научный сотрудник

Электронная почта: aynur.nabizada@mail.ru

https://orcid.org/0009-0004-4548-6507



**Резюме:** В данной статье дана оценка современному состоянию государственно-частного партнерства в регулировании туристических услуг. В исследовании рассматривается роль государственно-частного партнерства в сфере туризма, его положительное и отрицательное влияние, а также проблемы, возникающие при его реализации. На примере разных стран подчеркивается важность такой совместной деятельности в развитии туристических услуг. В статье рассматриваются пути развития такого партнерства для создания более эффективной и устойчивой туристической среды.


Государственно-частное партнерство (ГЧП) играет важную роль в развитии

инфраструктуры в сфере туризма, привлечении инвестиций и обеспечении устойчивого развития. Эти партнерства, объединяя ресурсы государственного и частного секторов, позволяют создавать и совершенствовать современную инфраструктуру в туристическом секторе. При этом благодаря инвестициям частного сектора реализуются инновационные проекты в сфере туризма и обеспечивается экономический рост. ГЧП также способствует защите окружающей среды и социально-экономическому развитию местных сообществ, поддерживая устойчивое развитие туризма. Эта модель помогает туристическому сектору стать сильнее и устойчивее.

**Ключевые слова:** государственно-частное партнерство, туристические услуги, инфраструктура, туристическая среда, развитие туризма.

**JEL Z320, UOT 379.85**

DOI: https://doi.org/10.36719/2707-9317/05/185-192

# Analysis and evaluation of the role of fiscal expenditures in stimulating aggregate demand in Azerbaijan

**Togrul Melikzade**
Doctoral Student at the Institute of Economics, ANAS
melikov_togrul@outlook.com

**Abstract: Purpose of the research** – The aim of the study is to analyze and evaluate the role of fiscal expenditures in stimulating aggregate demand in Azerbaijan.

**Research methodology** – The research uses methods such as comparative analysis, logical generalization, a systematic approach, and mathematical analysis.

**Practical significance of the research** – The in-depth analyses conducted in the study can be useful for improving economic and budget efficiency and regulating economic relations.

**Research results** – The role of fiscal expenditures in stimulating aggregate demand in the country has been analyzed, and taking into account current trends may be significant for stimulating the national economy.

**Originality and scientific innovation of the research** – Efficiency indicators in the budget, elasticity coefficient, the relationship between budget expenditures and aggregate demand, normality, and Jarque-Bera tests have been used to assess trends through a model.

**Key words:** budget expenditures, GDP, efficiency, elasticity coefficient, net export, aggregate demand, normality, Jarque-Bera tests, etc.

# Azərbaycanda məcmu tələbin stimullaşdırılmasında fiskal xərclərin rolunun təhlili və qiymətləndirilməsi

**Toğrul Məlikzadə**
AMEA-nın İqtisadiyyat İnstitutunun
Doktorantı
melikov_toğrul@outlook.com

**Xülasə: Tədqiqatın məqsədi** – Azərbaycanda məcmu tələbin stimullaşdırılmasında fiskal xərclərin rolunun təhlili və qiymətləndirilməsidir.

**Tədqiqatın metodologiyası -** tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, riyazi təhlil metodlarından istifadə edilib.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** –tədqiqatda araşdırılmış əsaslı təhlillər iqtisadi və büdcə səmərəliliyinin yüksəltmək iqtisadi münasibətlərin tənzimlənməsində faydalı ola bilər.

**Tədqiqatın nəticələri** – ölkədə məcmu tələbin stimullaşdırılmasında fiskal xərclərin rolu təhlil edilmiş və mövcud meyllərin nəzərə alınması milli iqtisadiyyatın stimullaşdırılması üçün əhəmiyyətli ola bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – büdcə üzrə səmərəlilik göstəriciləri, statiklik əmsalı, büdcə xərcləri ilə məcmu tələb arasında əlaqə, normallıq və Jarque-Bera testləri əsasında model üzrə tendensiya qiymətləndirilmişdir.

**Açar sözlər:** büdcə xərcləri, ÜDM, səmərəlilik, elastiklik əmsalı, xalis ixrac, məcmu tələb, normallıq və Jarque-Bera testləri və s.

## Giriş

Artıq birmənalı şəkildə hamı tərəfindən qəbul edilmişdir ki, fiskal xərclərin dəyişməsi ölkədə ev təsərrüfatlarının istehlak məsrəflərinə, müəssisələrin və ev təsərrüfatlarının investisiya xərclərinə, əmtəə və xidmətlərin dövlət tərəfindən satın alınmasına və xalis ixraca birbaşa təsir edir. Xatırlatmaq istərdik ki, sadalananlar məcmu tələbin komponentləridir və bu komponentlərin stimullaşdırılması ÜDM-in həcminin və artım tempinin artmasına xidmət edir. Bu baxımdan fiskal siyasət məcmu tələbə təsiri ilk növbədə ölkədə iqtisadi aktivlik səviyyəsinin yüksəlməsi ilə nəticələnir. Fiskal xərclərin məcmu tələbə necə təsirini təhlil edib qiymətləndirmək üçün ilk növbədə bu anlayışların mahiyyətinə və təsiretmə imkanlarına nəzər salaq.

## Məcmu tələb və fiskal xərclər mexanizminə nəzəri baxış

İlk öncə bildirək ki, iqtisadiyyatda məcmu tələb - verilmiş qiymətlərdə istehlakçıların, müəssisələrin və hökumətin almağa hazır olduqları milli istehsal mallarının real həcmini xarakterizə edir. Məcmu tələbin ən böyük komponenti ev təsərrüfatlarının istehlak xərcləridir. İstehlak xərcləri ərzaq məhsullarından tutmuş, xidmətlərə qədər çəkilən bütün xərcləri əhatə edir. Müşahidələr təsdiqləyir ki, istehlak xərclərinin artması təbii olaraq iqtisadi aktivliyin canlanmasında birbaşa iştirak edir. Məcmu tələbin ikinci ən böyük komponenti əmtəə və xidmətlərin dövlət alışıdır. Dövlətin əmtəə və xidmətlər alışının artması ölkədə iqtisadi aktivliyin dəstəklənməsi faktoru kimi çıxış edir ki, bu da iqtisadiyyat üçün müsbət stimul ola bilər. Müəssisələrin və ev təsərrüfatlarının investisiya xərclərinə evlərin, ofislərin, zavodların tikintisi, dəzgah və avadanlıqların alınmasıdır ki, bunlarda məcmu tələbin tərkibində əsas fondlar kimi xarakterizə olunur. İnvestisiya xərcləri iqtisadiyyatın istehsal imkanlarının genişlənməsinə səbəb olur. Xalis ixrac isə ixracla idxal arasında fərq kimi xarakterizə etmək olar ki, əgər ölkədə istehsal olunan məhsul və xidmətlərin həcmi ölkə üzrə istehlakın həcminə, İnvestisiya və dövlət xərclərindən artıq olduqda həmin artıq həcm qədər xalis ixrac ola bilir. Qeyd edilənlərin anlamını ümumi daxili məhsulun (ÜDM) xərclər üsulu əsasında riyazi hesablanması formulu vasitəsilə belə göstərmək olar.

$$Y = C + I + G + NX$$

$Y - ÜDM$, $C -$ istehlakı, $I -$ investisiyaları, $G -$ dövlət xərclərini, $NX -$ xalis ixracı,

$$\text{Əgər} \quad NX = Y - (C + I + G)$$

Ekspansionist iqtisadi siyasət göstərir ki, dövlət xərclərinin və dövriyyədə pul kütləsinin artması və buna müvafiq vergilərin aşağı düşməsi heç də həmişə məcmu tələbin stimullaşdırıcı amili kimi çıxış edə bilmir. Budada əsas həlledici amillərdən biri istehlakçı inam indeksinin yüksək olması çıxış edir[1.s.108].

Y.Həsənli göstərir ki, məcmu tələbin artımını iki amil ləngidə bilər. Birincisi, istehlakçıların psixologiyasıdır. Gəlirin artması heç də onun hamısını əmtəə alınmasına yönəltmir. Onun bir hissəsi yığıma gedir. Bu müəyyən mənada psixoloji qanundur. Gəlirin artması ilə tələbata meyl azalır, yığıma meyl isə artır. Ikinci maneə, kapital qoyuluşunun səmərəliliyinin aşağı düşməsidir[2.s.24].

Əslində uzun illər bazar münasibətlərinin əsasını klassik və neoklassik iqtisadi nəzəriyyələr təşkil etmişdir. XX əsrin əvvəllərində dünyada baş vermiş "Böyük iqtisadi depressiya" bu nəzəriyyələrin heç də ideal olmadığını sübuta yetirdi. Elə bu zaman C.M.Keyns nəzəriyyəsi xüsusi məşhurluq qazandı. Keyns fərz edirdi ki, milli gəlir istehsal, bölgü və xərclərlə müəyyən edilir. Gəlirin müəyyən edilməsi səmərəli tələb prinsipinə əsaslanır. Buna görə də C.M.Keyns alıcılıq qabiliyyətinin stimullaşdırılması istehsal və əmtəə təklifinin həcminin artmasına xidmət edəcəkdir. Ikincisi, iqtisadi artımın təmin olunmasında investisiya həlledici əhəmiyyətə malikdir. Üçüncüsü, iqtisadi inkişafda dövlətin iştirakı vacibdir.

Xatırlatmaq istərdik ki, məcmu tələbin stimullaşdırılması pul-kredit və büdcə aləti vasitəsilə reallaşdırıla bilər və C.M.Keyns büdcə alətinə üstünlük vermişdir.

Beynəlxalq təcrübədə büdcə xərclərinin səmərəliliyini qiymətləndirmək üçün büdcə xərcləri üzrə səmərəlilik indeksindən istifadə edilir. Bunun üçün büdcə xərcləri səmərəlilik meyarları əsasında aşağıdakı cədvəldə verilmişdir. Həmin cədvəldə dörd ölçüyə əsaslanan altı indikator vasitəsilə aşağıda göstərilən şəkildə təqdim etmək olar.

**Cədvəl 1.**

**Büdcə xərclərinin səmərəliliyinin göstəriciləri**

| Göstərici | Ölçü vahidi | Əmsalllar |
|---|---|---|
| 1. Büdcənin davamlılığının təmin edilməsi istiqaməti üzrə | | |
| 1.1.Qeyri-neft və qaz büdcəsinin balansı | ÜDM-də payı, faizlə | 40% |
| 1.2.Borclara xidmət üçün büdcə xərcləri | Büdcə xərclərində payı, faizlə | |
| 2. Makroiqtisadi dayanıqlığın təşviq edilməsi | | |
| 2.1.Əsaslı büdcə xərcləri | Son üç il üzrə dispersiya əmsalı | 30% |
| 3. Uzunmüddətli iqtisadi artımın təşviqi istiqaməti üzrə | | |
| 3.1.Səhiyyə xidmətlərinə ayrılan büdcə xərcləri | Büdcə xərclərində payı, faizlə | 15% |
| 3.2. Təhsilə ayrılan büdcə xərcləri | Büdcə xərclərində payı, faizlə | |
| 4. İnklüziv inkişafa dəstənməsi üzrə xərclər | | |
| 4.1. Büdcədən ayrılan digər sosial xərclər | Son üç il üzrə dispersiya əmsalı | 15% |

Mənbə: DSK hesabatları əsasında müəllif tərtibatı

Cədvəl 1. məlumatları göstərir ki, büdcə xərcləri hər il qəbul edilən xərclər üzrə qiymətləndirilir. Büdcə xərcləri qiymətləndirilərkən aşağıdakı meyarlar və əmsallar əsasında qiymətləndirmə səmərəliyin əldə edilməsində faydalı olacaqdır. Bu baxımdan büdcə xərclərinin səmərəliliyi indeksinin hesablanması illik əsasda olması məqsədəuyğundur.

Makroiqtisadi nöqteyi-nəzərən də fiskal xərclərin səmərəliliyinin qiymətləndirilməsi zəruri məsələlərdəndir və bu məsələnin makroiqtisadi əsasları vardır [4.s.12].

Büdcə xərclərinin elastiklik əmsalının hesablanması xərclərin səmərəliliyinin müəyyənləşdirilməsi baxımından faydalı olacaqdır. Bunun üçün də büdcə xərcləri ilə məcmu tələb arasında xətti əlaqənin qurulması zəruridir. Yəni elastiklik əmsalının nəzəri əsası xətti tənliklərə gedib çıxır. Daha dəqiq desək,

$$Y = a_0 + a_1 x$$

Burada, y- asılı dəyişən (təhlilimizdə məcmu tələb), x- isə sərbəst dəyişən (büdcə xərcləri), $a_0$ və $a_1$ isə funksiyanın parametrlərdir. Belə olan hal üzrə elastiklik əmsalı aşağıdakı düsturla hesablanacaqdır.

$$\overline{E}_{yx} = a_1 \frac{\overline{x}}{\overline{y}}$$

Bundan başqa, beynəlxalq təcrübədə fiskal xərclərin səmərəliliyini artırmaq üçün nəticə əsaslı və ya orta müddətli təyinatlı büdcə sisteminin qurulması xüsusi aktuallıq qazanmışdır. 1970-ci illərdən sonra xüsusilə də iqtisadi əməkdaşlıq və inkişaf təşkilatına (OECD) üzv olan ölkələr arasında geniş yeyılmış və bu sistem dövlətin büdcə xərclərində intizamın gücləndirilməsi, şəffaflığının artırılması üçün dövlət maliyyəsinin idarə edilməsi sistemi üzrə xüsusilə aktuallaşmışdır. Belə hal isə bir çox ölkədə ortamüddətli büdcə çərçivəsinin işlənib hazırlanmasını şərtləndirmişdir.

## Azərbaycanda məcmu tələbin stimullaşdırılmasında fiskal xərclərin rolunun qiymətləndirilməsi

Dövlət maliyyəsinin aparıcı həlqəsini dövlət büdcəsi təşkil edir. Dövlət büdcəsi dövlətin iqtisadi, siyasi və sosial vəzifələrini yerinə yetirmək üçün pul fondlarının məcmusudur. Qabaqcıl təcrübə göstərir ki, fiskal xərclər iqtisadi inkişafa stimullaşdırıcı təsir göstərir. Həmin təsiri müəyyənləşdirmək üçün ilk növbədə Azərbaycanda büdcə xərclərinin ÜDM-də və qeyri neft ÜDM-də xüsusi çəkisinə nəzər salaq.

**Şəkil 1**

**Büdcə xərclərinin ÜDM və qeyri-neft ÜDM-də payı faizlə,**




**Mənbə:** DSK-nin məlumatları əsasında müəllif tərtibatı

Şəkil-1-in məlumatları göstərir ki, 2011-2024-cü illərdə büdcə xərclərinin ÜDM-də payı ən yüksək 2020-ci ildə 36.4% olmuşdur ki, bu da həmin dövrdə ölkədə pandemiya səbəbindən istehsal imkanlarının məhdudluğu və əsasən strateji əhəmiyyətli daha dəqiq, neft-və neft məhsullarının ixracı ilə bağlı olduğu ilə izah edilə bilər.

Ümumiyyətlə, büdcə xərclərinin ÜDM xüsusi çəkisi 2011-2024-cü illərdə orta hesabla 30%, qeyri-neft ÜDM-də isə 55.1% olmuşdur.

Azərbaycanda büdcə xərclərinin məcmu tələbi necə təsir etdiyini araşdırmadan öncə məcmu tələbin parametrlərinin əvvəlki illə müqayisədə artım dinamikasını nəzərdən keçirək. Bunun üçün aşağıdakı şəkilə nəzər salaq.

**Şəkil 2**

**Məcmu tələbin paremetrləri üzrə dinamika əvvəlki illə müqayisədə faizlə)**




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Mal və xidmətlər üzrə xalis ixrac(%) | 18.0 | -10.0 | -14.9 | -21.9 | -83.9 | 3.3 | 180.5 | 180.9 | -23.9 | -105.6 | -2880. | 184.1 | -59.7 |
| Əsas fondların ümumi yığımı (%) | 36.2 | 17.0 | 22.1 | 7.9 | -6.5 | 0.0 | 10.7 | -1.1 | 4.4 | -4.9 | -8.1 | 6.4 | 33.1 |
| Dövlətin son istehlak xərcləri (%) | 16.3 | 5.0 | 4.9 | 7.1 | 6.9 | 12.9 | 0.3 | 3.8 | 13.6 | 17.9 | 15.2 | 13.8 | 7.4 |
| Ev təsərrüfatlarının istehlak xərcləri (%) | 15.6 | 11.8 | 11.8 | 9.8 | 13.9 | 15.3 | 13.6 | 7.0 | 8.1 | -2.5 | 9.7 | 20.2 | 14.1 |

**Mənbə:** DSK-nin məlumatları əsasında müəllif tərtibatı

Şəkil 2-dən görünür ki, ev təsərrüfatlarının istehlak xərclərində hər il əvvəlki, illə müqayisədə artım olsa da 2020-ci ildə -2.5% geriləmə olmuşdur. Əsas fondların yığımı da tam dinamik inkişafa malik olmamışdır. Bu fikirləri xalis ixraca da əlavə etmək olar. Lakin, dövlətin son istehlak xərcləri təhlil üçün götürülmüş 2011-2023-cü illərdə həmişə müsbət artım dinamikası olmuşdur.

Büdcə xərclərinin məcmu tələbə təsiri qiymətləndirilərkən ən mühüm göstəricilərdən biri də səmərəlilik göstəriciləri üzrə təhlilin aparılmasıdır. Bunun üçün cədvəl 1-də göstərilən meyarlar əsasında daha dəqiq desək, büdcənin davamlılığının təmin edilməsi, makroiqtisadi dayanıqlığın təşviqi, uzunmüddətli iqtisadi artımın təşviqi və inklüziv inkişafın dəstənməsi üzrə təhlillər aparılmışdır. Həmin təhlillərin nəticəsi isə aşağıdakı kimidir.

**Şəkil 3**

**Büdcə xərclərinin səmərəlilik göstəricilərinin qiymətləndirilməsi**




| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Büdcənin davamlılığının təmin edilməsi | 60 | 62 | 60 | 58 | 53 | 54 | 66 | 70 | 67 | 60 | 65 | 84 | 64 | 57 |
